AZƏRBAYCAN RESPUBLİKASI




# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİYYATI 90 İLDƏ

Ə 36

AZƏRBAYCAN RESPUBLİKASI

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİYYATI 90 İLDƏ

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na əsasən nəşr olunur.*

M.S.Ordub... 
Naxçıvan Muxtar ...
KİTABXANASI

Naxçıvan - 2015

**Nazim Əhmədov**

Elmi redaktor: **Ataşov Bəyalı Xanalı oğlu**
*Azərbaycan Kooperasiya Universitetinin elmi işlər üzrə prorektoru, iqtisad elmləri doktoru, professor*

Rəyçilər: **Həsənov Rasim Tələt oğlu**
*Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadi Araşdırmalar Elmi-Tadqiqat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor*

**Cümşüdov Sabir Qənbər oğlu**
*Azərbaycan Prezidenti yanında İdarəçilik Akademiyasının "Menecment" kafedrasının professoru, iqtisad elmləri doktoru*

*N.H.Əhmədov.* ***Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə.*** *Naxçıvan-2015, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 272 səh.*

4700000000
053-2015

© "Əcəmi" 2015.



*Naxçıvan daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə edir, sosial-iqtisadi müstəvidə yüksəliş tempini daha da sürətləndirmək məqsədilə öz gücünə, qüvvəsinə arxalanaraq mühüm və əhəmiyyətli addımlar atır.*

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri

# MÜƏLLİFDƏN

Müstəqil Azərbaycan Respublikası artıq 22 ildən çoxdur ki, dünya xalqları birliyində öz layiqli yerini tutur, inkişaf etmiş dövlətlər sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləyir. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində qısa bir müddətdə Azərbaycanın beynəlxalq imici yüksəlmiş, ölkəmiz dünya siyasi arenasının fəal subyektlərindən birinə çevrilmişdir.

Şərq və Qərb, Orta Asiya-Qafqaz və Avropanı birləşdirən neft, qaz, nəqliyyat-kommunikasiya sahələrində transmilli layihələri reallaşdıran Azərbaycan özünün geostrateji əhəmiyyəti, zəngin təbii sərvətləri, sivilizasiyalararası dialoqa misilsiz töhfəsi, iqtisadi inkişafı və tarazlaşdırılmış xarici siyasəti ilə bütün dünya dövlətlərinin diqqətini cəlb edir.

Bu gün ölkəmiz Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. O, nəinki Cənubi Qafqazın, eyni zamanda Avrasiya regionunun, bütün dünyanın qarşılıqlı-faydalı əməkdaşlığının inkişafına, regional və qlobal inteqrasiyanın sürətləndirilməsinə əvəzsiz töhfələr verir.

Ulu öndərimiz Heydər Əliyevin 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizin sürükləndiyi ədalətsiz müharibəyə, torpaqlarımızın işğalına, daxili çəkişmələrə və vəzifə davasına, dərin sosial-iqtisadi böhrana, hakimiyyət çevrilişlərinə son qoyuldu. 1995-ci ildən sonra makroiqtisadi sabitlik əldə edildi və inkişafa başlanıldı.

Ulu öndərimiz Heydər Əliyev dövlət müstəqilliyinin ilk illərində zülmətə bürünmüş Azərbaycanı qaranlıqdan xilas edib nurlu gələcəyə qovuşdurdu. Onun bəşəri ideyaları müstəqil dövlətimizin

gələcək inkişaf yollarına işıq saldı.

Qətiyyətlə deyə bilərik ki, bu gün ulu öndərimizin siyasi kursu onun layiqli davamçısı, cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqımızın böyük dəstəyi ilə ölkə prezidenti seçilən İlham Əliyev bu çətin və şərəfli vəzifəni çox uğurla yerinə yetirir. Elə buna görə də ölkəmiz nəinki regionda, habelə bütün dünyada mövqelərini daha da möhkəmləndirmişdir. Nəticədə Azərbaycan 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına dünyanın 155 ölkəsinin dəstəyi ilə qeyri-daimi üzvü seçilmiş və iki il ərzində bu şuraya rəhbərlik etmişdir. BMT Təhlükəsizlik Şurasına rəhbərliyi dövründə həyata keçirdiyi tədbirlər iki il ərzində beynəlxalq birlik tərəfindən Azərbaycana olan inamı daha da artırmışdır.

Bu gün Azərbaycan dövlətinin gücü, ölkəmizin siyasi, iqtisadi qüdrəti qarşıya çıxan hər bir problemi həll etməyə imkan verir. Bütün bunlar isə sözsüz ki, ulu öndərimiz Heydər Əliyevin yaratdığı möhkəm təmələ əsaslanır.

Prezident cənab İlham Əliyev demişdir: **"Azərbaycanda Heydər Əliyevin siyasəti yaşayır, möhkəmlənir, yeni formalarla zənginləşir... Azərbaycan rəhbərliyinin siyasəti, xalqın bizim siyasətimizi dəstəkləməsi təbii ki, mövqelərimizi daha da gücləndirir. Ölkədə həm siyasi, həm də iqtisadi sahələrdə islahatlar cəsarətlə aparılır".**

Ölkədə olduğu kimi, onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da aparılan islahatlar öz nəticəsini vermişdir. Muxtar respublikamız müstəqillik illərində əsrə bərabər inkişaf yolu keçmişdir. Bu inkişaf barədə 2014-cü il aprel ayının 8-də Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nitqində geniş şərh olunmuşdur. Bu çıxışdan qısa fraqmentlər:

- Naxçıvan sürətlə inkişaf edir.
- Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlən-

mişdir.

♦ Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapmışdır.

♦ Naxçıvanın ərzaq təhlükəsizliyi əsas ərzaq məhsulları ilə tam təmin edilmişdir.

♦ Naxçıvanda bütün sosial, iqtisadi, infrastruktur, hərbi məsələlər yüksək səviyyədə öz həllini tapmışdır.

♦ Burada işsizlik problemi demək olar ki, aradan qalxmışdır.

♦ Yoxsulluq səviyyəsi ən aşağı həddədir və s.

İlham Əliyev nitqinin sonunda demişdir: **"...hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır. Bundan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin ediləcəkdir".**

Bəli bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən Naxçıvanda görülən işlər və ölkə Prezidenti İlham Əliyevin ona verdiyi qiymət bizdə qürur hissi yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həyata keçirdiyi məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində son 20 ildə Naxçıvan Muxtar Respublikası əsrlərə bərabər yol keçmiş, böyük uğurlara imza atmış, tarixiliyi saxlanılmaqla müasirləşmiş və inkişaf etmişdir.

# GİRİŞ

Qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı – qədim türk-oğuz yurdu, əzəli və əbədi Azərbaycan torpağı, bəşər sivilizasiyasının beşiklərindən biri olub, tarixən Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzlərindən hesab olunmuşdur. Naxçıvan ərazisində aşkar edilən daş və metal dövrünün abidələri, Gəmiqayada sərt qayalıqlarda aşkar olunan çoxsaylı müxtəlif təsvirlər, öz sənətkarlığı ilə seçilən boyalı qablar mədəniyyəti, qədim şəhərsalma mədəniyyətinin izləri və digər nümunələr bu yurdun məhz bəşər mədəniyyətinin ilk beşiklərindən biri olduğunu sübut edir.

Şəhər mədəniyyətində 5000 ildən çox tarixə malik olan Naxçıvanın əlverişli geostrateji mövqeyi, mühüm karvan yollarının, o cümlədən "İpək Yolu"nun üzərində yerləşməsi, zəngin ticarət və sənətkarlıq mərkəzi olması, həmçinin ətraf bölgələrin malik olduqları məhsuldar torpaqlar hələ çox əvvəldən qonşu dövlətlərin diqqətini cəlb etmişdir.

Hazırki dövrdə isə Naxçıvan Muxtar Respublikası Azərbaycanın özünəməxsus yüksək inkişaf xüsusiyyətlərinə malik regionlarından biridir.

XX əsrin sonlarında Azərbaycan ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra Naxçıvan Muxtar Respublikasında nəzərəçarpacaq müvəffəqiyyətlər əldə edilmiş, iqtisadiyyat daim inkişaf edərək təkmilləşmişdir.

Hazırlanan "Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə" adlı monoqrafiya 4 bölmədə oxuculara təqdim olunur.

I bölmə "Naxçıvanın iqtisadi tarixindən səhifələr"ə həsr olunmuşdur. Bu bölmədə e.ə. VI-IV minilliklərdən başlayaraq bu ərazidə məskunlaşan əhali, onun məşğuliyyəti, əkinçilik və

maldarlığın inkişafı, sənətkarlığın meydana gəlməsi, ticarətin inkişafı və digər məsələlər haqqında oxuculara məlumat verilir. Bu bölmədə Naxçıvanın iqtisadi inkişafı muxtariyyətin əldə olunması dövrünə qədər gəlib çıxır.

II bölmə "Yüksək iqtisadi inkişafı təmin edən muxtar dövlət" adlanır. Bu bölmədə Naxçıvan Muxtar Respublikasının inzibati ərazi bölgüləri haqqında, yəni Naxçıvan iqtisadi zonasına daxil olan rayonlar haqqında, onların iqtisadi inkişafı haqqında məlumat verilir.

III bölmə Naxçıvan MSSR-nin iqtisadi inkişafı (1924-1990-cı ilə qədərki dövr) adlanır. Bu bölmə 3 fəsildən ibarətdir. I fəsildə 1924-1990-cı illərdə Naxçıvan MSSR-də sənayenin inkişafı, II fəsildə Naxçıvan MSSR-də kənd təsərrüfatı, su təsərrüfatı və meliorasiya sisteminin inkişafı (1924-1990) tədqiq edilir. III fəsil isə tamamilə 1990-cı ilə qədərki dövrdə Naxçıvan MSSR-də nəqliyyatın inkişafına həsr edilmişdir.

IV bölmə "Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı müstəqillik illərində" adlanır. Bu bölmədə tədqiq olunan yeddi paraqrafda demək olar ki, iqtisadiyyatın bütün sahələrinə toxunulur.

# I BÖLMƏ

## NAXÇIVANIN İQTİSADİ TARİXİNDƏN SƏHİFƏLƏR
### *(Naxçıvan MSSR-nin yaranmasına qədərki dövr)*

Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar tarixçi alimlərimizin fikirləri və əldə edilən maddi-mədəniyyət nümunələri Naxçıvan şəhər mədəniyyətinin 5000 ildən çox yaşı olduğunu deməyə əsas verir. Qeyd edək ki, Naxçıvan ərazisində bəzi maddi-mədəniyyət abidələrinin tapılmasını nəzərə almasaq qədim daş dövrü geniş şəkildə öyrənilməmişdir. Yalnız Naxçıvan ərazisində I Kültəpə və Ovçular təpəsi Neolit və Eneolit abidələri geniş tədqiqat obyektinə çevrilmişdir.

Aparılan araşdırmalar göstərir ki, e.ə. VI-IV minilliklərdə Naxçıvanda məskunlaşan qədim tayfaların məişətini, həyat tərzini, Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün zəngin materiallar əldə edilmişdir.

Naxçıvan ərazisinin yumşaq və mülayim iqlimi, bu ərazinin yabanı bitən yumşaq buğda, bərk buğda, çovdarla zəngin olması əkinçilik mədəniyyətinin erkən meydana gəlib inkişaf etməsi üçün şərait yaratmışdır [45, s.55].

Muxtar respublika ərazisində aparılan arxeoloji qazıntılar zamanı əkinçiliklə bağlı əmək alətlərinin, xüsusilə toxalar, dən daşları, sürtkəclər, həvənglər, dəstələr və digər alətlərin aşkar olunması əkinçilik məhsullarının yaşayış yerində emal olunduğunu sübut edir. Əkinçilik mədəniyyətinin yüksək inkişaf səviyyəsi, həmçinin buynuzdan hazırlanmış oraq çərçivəsi və çoxsaylı oraq dişləri ilə də sübut olunur. Oraq dişləri və bıçaqşəkilli alətlər həm yaşayış evlərindən, həm də qəbir abidələrindən aşkar olunmuşdur [4, s.39-51]. Çoxsaylı əmək alətləri və becərilən bitkilərin çeşidləri Naxçıvanda əkinçiliyin başlanğıc mərhələdə olmadığını təsdiq edir [4, s.236].

Aparılan qazıntılar zamanı Kültəpənin Eneolit təbəqəsindən həm yabanı, həm də mədəni taxıl dənlərinin tapılması Naxçıvanın Cənubi Qafqazda dənli bitkilərin becərildiyi ilk ocaqlardan biri

olduğunu göstərir.

Eneolit dövründə iqtisadiyyatın aparıcı sahələrindən biri də maldarlıq olmuşdur. Eneolit dövrünün əvvəllərinə aid sümük qalıqlarının təhlili iri buynuzlu maldarlığın təsərrüfatda əsas yer tutduğunu göstərir [4, s. 214].

Alimlərin apardıqları tədqiqatlardan məlum olur ki, bu dövrdə iqlimin mülayim və rütubətli olması iri buynuzlu maldarlıq üçün daha əlverişli şərait yaratmışdır [89, s. 173].

Ümumiyyətlə, Eneolit dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişaf etməsinə baxmayaraq, əkinçilik və maldarlıq təsərrüfatda aparıcı mövqe tutmuşdur.

Tarixin sonrakı inkişaf mərhələlərində də Naxçıvan yadellilərin işğalına məruz qalmış, iqtisadiyyatı tənəzzül dövrü keçirmişdir.

Bizim eranın VII əsrində Cənubi Qafqazın digər əraziləri kimi, Naxçıvan ərazisi də ərəb xilafətinin hücumuna məruz qalır. Ərəblərlə Bizanslılar arasında gedən müharibələr Naxçıvan iqtisadiyyatının inkişafına mənfi təsir göstərir. 654-cü ildə Naxçıvan ərəblər tərəfindən tutulur. Beləliklə, bütün Azərbaycan ərazisi ərəblərin hakimiyyəti altına keçir.

Azərbaycanın iri şəhərləri içərisində Naxçıvanın xüsusi coğrafi əhəmiyyəti var idi. Ona görə ki, bu dövrdə Naxçıvan ərazisi nəinki Azərbaycan, eyni zamanda Cənubi Qafqaz üçün tranzit əhəmiyyətə malik olmuş, Orta Asiya və İran tacirlərinin istifadə etdiyi əsas marşrutlar buradan keçmişdir [39, s. 86]. Bu yollardan biri Marağadan başlayaraq Mərəndə qədər davam edir, orada iki istiqamətə ayrılırdı ki, bu istiqamətlərdən biri də məhz Naxçıvan-Dəbil yolu idi [99, s. 117].

Tranzit ticarət yolları vasitəsilə Naxçıvan Cənubi Qafqazın, həmçinin Yaxın və Orta Şərqin bir sıra ölkələri, xüsusilə Gürcüstan, İran, Bizans, Orta Asiya ilə ticarət əlaqəsi saxlayırdı.

Araşdırmalardan məlum olur ki, Naxçıvan-Mərənd, Təbriz, Xoy, Marağa, Urmiya, Səlmas, Xarrakan, Dəbil və s. şəhərləri birləşdirən tranzit ticarət yolu üzərində yerləşmişdir.

Eyni zamanda Naxçıvan ərazisi Azərbaycanın ayrı-ayrı şəhərləri arasında iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynamışdır. Azərbaycanın cənub rayonları ilə şimali Azərbaycan şəhərlərini bir-birinə bağlayan Naxçıvan ərazisi bu dövrdə Ərdəbil-Bərdə, Ərdəbil-Dərbənd, Marağa-Dəbil yolunda aparılan ticarət əlaqələrində mühüm rol oynayırdı [100, s. 54].

Naxçıvan şəhəri Xilafətin digər ölkələrlə ticarətində fəal iştirak edirdi. Digər Azərbaycan şəhərləri kimi Naxçıvan şəhərinin bazarları da əsas ticarət mərkəzlərindən hesab edilməklə bütün Şərqin və Qərbin diqqətini cəlb edirdi. Ölkənin və dünyanın müxtəlif yerlərindən buraya gələn tacirlər gətirdikləri malı asanlıqla satır və özlərinə lazım olan yerli mallar alıb aparırdılar.

IX əsrdə Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələrinin genişlənməsi daxili çəkişmələrin qüvvələnməsinə səbəb olduğundan xilafət getdikcə zəiflədi. Uzun illər Xilafətin əsarətində qalan Azərbaycan ərazisi feodallıqlara parçalandı. Lakin bu dövrdə də sənətkarlıq və ticarət inkişaf etməkdə davam edirdi. Sənətkarlıq və ticarətin inkişafı ilə əlaqədar şəhərlər də inkişaf edirdi.

Mənbələrdə Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda çox sayda tacirlərin yaşadığı qeyd edilir. Şəhərlərin daxili və xarici ticarəti məhz bu tacirlərin əlində idi. Bu dövrdə Azərbaycan şəhərləri yalnız xarici ölkələrə daxildə istehsal olunan malları göndərməklə kifayətlənmirdilər. O zaman Azərbaycan şəhərləri Şərq və Qərb ölkələri, xəzərlər və slavyanlarla ticarət edir, qonşu və uzaq ölkələrdən Azərbaycana bir sıra mallar gətirilirdi [40, s. 32-40].

IX əsrin sonralarından başlayaraq beynəlxalq və daxili ticarətdə Naxçıvanın rolu daha da artmağa başlayır. Çünki, Abbasilərin hakimiyyətinin qüdrətli dövründə Qərb və Şərq ölkələri arasında karvan ticarəti Orta Asiya, Xorasan, Hamədan, Bağdad və oradan Aralıq dənizi sahili ölkələrinə getdiyi halda, xilafətin zəiflədiyi və yerli dövlətlərin yaranması ilə dünya karvan ticarəti şimala çəkilmişdi. Artıq Sacilərin hakimiyyəti dövründə Şərqdən

gələn karvan ticarət yolu Naxçıvan-Dəbil-Ani xətti ilə Kiçik Asiyada olan Trabzona gedirdi.

Ərəb tarixçisi Əl-İstəxri öz məlumatlarında Azərbaycandan keçən karvan ticarət yollarından bəhs edərək yenə də Naxçıvanın adını çəkir və şəhərlərarası əsas marşrutlardan biri kimi Urmu – Səlmas –Xoy – Naxçıvan – Dəbil xəttini göstərir [99, s. 194].

Ümumiyyətlə, Azərbaycan ərazisi kimi Naxçıvan ərazisi də ərəblərin hakimiyyəti illərində Böyük İpək Yolunda strateji tranzit keçid məntəqəsi olaraq fəaliyyət göstərmişdir. Yaxın Şərq ölkələri, Orta Asiya və Hindistana uzanan yolların mühüm hissəsi məhz Naxçıvan ərazisindən keçmişdir. Bu dövrdə Naxçıvandan ölkənin digər şəhərlərinə, eləcə də Yaxın Şərq ölkələrinə duz, mis, pambıq, taxıl, meyvə qurusu, balıq, həmçinin zərif parçalar, cürbəcür bəzəklər, incə naxışlı taxta və saxsı qablar aparılmışdır. Yaxın Şərq ölkələrindən isə Naxçıvana ipək parçalar, şirli saxsı qablar, metal əşyalar, silahlar, ədviyyat və s. gətirilmişdir [34, s. 130].

Ərəb xilafətinin hakimiyyəti dövründə inzibati-ərazi bölgü baxımından bəzi dəyişikliklər baş versə də Naxçıvan Azərbaycanın tərkib hissəsi olaraq qalmaqda davam etmişdir. İslam dininin yayılması, ticarət və mədəniyyətin inkişafı üçün əlverişli şəraitin meydana gəlməsi Naxçıvanın da inkişafına təsir göstərirdi.

Babəkin başçılığı ilə xürrəmilərin azadlıq müharibəsi IX əsrin birinci yarısında xilafət ordularının məğlub edilməsində mühüm rol oynamışdı. Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda feodal dövlətləri təşəkkül tapır və inkişaf edirdi.

Beləliklə, "Azərbaycan ərazisində müstəqil Şirvanşahlar (861-1538), Sacilər (879-941), Salarilər (941-983), Rəvvadilər (X əsrin 80-ci illəri – 1116), Şəddadilər (971-1075) dövlətləri meydana gəldi" [19].

Naxçıvan X – XIII əsrin əvvəllərində Azərbaycan feodal dövlətlərinin tərkibində olmuşdur. Naxçıvanın gözəl təbiəti, iqlim şəraiti, çayları və münbit torpaqları burada əhalinin hələ qədim zamanlardan kənd təsərrüfatı ilə məşğul olmasına imkan vermişdir.

Bir çox ərəb mənbələrinin məlumatları təsdiq edir ki, X – XIII əsrlərdə Azərbaycan Yaxın və Orta Şərqin, bütün islam dünyasının ən inkişaf etmiş ölkələrindən biri idi. Bu mənbələrdən birində göstərilir ki, "Burada hər şey o qədər boldur ki, öz gözləri ilə görməyənlər belə bolluğa inanmırlar".

Naxçıvanda əkinçilik əhalinin əsas məşğuliyyət sahəsi idi. Burada yaşayan əhali əkinçilik, maldarlıq, sənətkarlıq və ticarətlə məşğul olurdu. Naxçıvanda mövcud olan əlverişli təbii şərait bütün təsərrüfat sahələrinin inkişafına imkan verirdi. Qeyd olunan dövrdə Naxçıvanda bir çox bitkilər, o cümlədən arpa, buğda, çəltik, qovun, qarpız və pambıq becərilirdi.

X – XII əsrlərdə Naxçıvanda kənd təsərrüfatının mühüm sahələrindən birini meyvəçilik təşkil edirdi. Əsas meyvələrdən gilas, gilənar, heyva, qoz, tut, alma, armud, ərik, zoğal, üzüm və sair məhsullar yetişdirilirdi. O dövrdə Naxçıvanda elə meyvə sortları yetişdirilirdi ki, bu sortlara dünyanin heç bir yerində rast gəlmək mümkün deyildi. Xüsusilə Naxçıvanı üzümçülüyün məskəni kimi göstərən və orta əsr məxəzlərinə əsaslanan akademik İsmayıl Hacıyev "Naxçıvanda becərilən gözəl üzümə dünyanın heç bir yerində təsadüf etmək mümkün deyildir" və ya "Naxçıvan üzümündən yaxşısı və xeyirlisi yoxdur. Ordubad ərazisi bağçılığın, dənli bitkilərin və üzümçülüyün məskəni idi" kimi ifadələr işlədir.

Orta əsrlərdə Naxçıvanda bitkiçiliklə bərabər heyvandarlıq da inkişaf edirdi. Naxçıvan ərazisində bitkiçiliyin inkişafı və möhkəm yem bazasının olması heyvandarlığın inkişafına da şərait yaradırdı. Naxçıvan ərazilərinin bir hissəsinin dağlıq ərazi olması, geniş otlaq sahələrinə və yaylaqlara malik olması burada xırdabuynuzlu malqaranın (qoyun və keçi), at, dəvə və habelə arıçılığın inkişafına səbəb olurdu. Naxçıvan əhalisinin hələ qədim zamanlardan arıçılıqla məşğul olması və keyfiyyətli bal istehsalı onların ixracının artmasına gətirib çıxarırdı.

Yuxarıda qeyd edildiyi kimi orta əsrlərdə Azərbaycanda müstəqil dövlətlərin meydana gəlməsi şəhərlərin daha da böyüməsinə gətirib

çıxardı. Mənbələrdə göstərilir ki, "XII – XIII əsrin əvvəllərində Azərbaycanda 70-dək iri, orta və kiçik şəhərlər vardı" [3, s. 462]. Bu şəhərlər içərisində Naxçıvan şəhəri özünəməxsus yer tuturdu. Bu şəhər çox qədim tarixə malikdir. Aparılan araşdırmalar və tarixi mənbələr Naxçıvan şəhərinin təqribən yeddi min illik tarixə malik olduğunu deməyə əsas verir. Mən hesab edirəm ki, bu gün xarici ölkələrin, o cümlədən ABŞ, Almaniya, Fransa və digər ölkələrin arxeoloqlarının da qatıldığı və yerli arxeoloqlarla birgə aparılan tədqiqatlar gələcəkdə bu tarixin düzgün olduğunu sübuta yetirəcəkdir.

X–XII əsrlərdə Naxçıvan şəhəri daha da inkişaf etmiş, Azərbaycan Atabəyləri dövlətinin paytaxtı və mərkəzi şəhəri olmuşdur. Həmin dövrdə Naxçıvan şəhərində təxminən 150-200 minə yaxın əhali yaşamışdır.

X–XII əsrlərdə Naxçıvan ərazisində beş şəhər mövcud idi. Bunlar Naxçıvan, Ordubad, Azad, Culfa və Əncan şəhərləri olmuşdur.

Naxçıvan ərazisində şəhərlərin yaranması və inkişaf etməsi sənətkarlığın məhz şəhərlərdə toplanmasına şərait yaratmışdır.

Həmin dövrdə Naxçıvanda gözəl sənətkarlar, o cümlədən toxucular, boyaqçılar, dəmirçilər, duluzçular, başmaqçılar, zərgərlər, xalçaçılar, həkkaklar və başqa sənətkarlar meydana gəlirdi. Sənətkarlığın inkişafı Naxçıvanda bir çox sənətkarlıq məhsullarının istehsalına və onların artmasına gətirib çıxarırdı. Belə məhsullara – zərif örtüklər, keçə, çuxa, hamam fitəsi, xətan parçası, xalça və s. malları aid etmək olar.

Ümumiyyətlə, Naxçıvanda toxuculuq, dulusçuluq məhsulları, ağacdan düzəldilən mallar üstünlük təşkil edirdi.

İstehsalın artması daxili bazarın genişlənməsi ilə bərabər xarici ölkələrlə iqtisadi əlaqələrin də genişlənməsinə və ixrac potensialının artmasına gətirib çıxarırdı.

Naxçıvan şəhərinin xarici iqtisadi əlaqələrinin genişlənməsini tranzit ticarət yolları üzərində yerləşməsi ilə izah edilir. Bir çox ərəb müəllifləri öz əsərlərində Naxçıvandan keçən tranzit ticarət

yollarının marşrutlarını aşağıdakı kimi verirlər:

1.Mərənd – Nəşəva – Dəbil;

2.Xoy - Nəşəva – Dəbil;

3.Dəbil – Nəşəva – Xoy – Salmas;

4. Mərənd – Sariyə - Nəşəva – Dəbil və s.

Məhz Naxçıvanın bu və digər şəhərləri birləşdirən tranzit ticarət yolu üzərində yerləşməsi onun ticarət əlaqələrinin genişlənməsində xüsusi rol oynamışdır.

Naxçıvan XIII – XV əsrdə Azərbaycanda və ümumiyyətlə Şərqdə gedən ictimai-siyasi, iqtisadi və mədəni proseslərin mərkəzlərindən birinə çevrilmişdi və Hülakilərin, Çobanilərin, Cəlalilərin, Qaraqoyunluların, Ağqoyunluların təyin etdikləri hakimlər tərəfindən idarə olunurdu.

Bu dövrdə Naxçıvanda ordunu saxlamaq, idarəetmə aparatını maliyyələşdirmək və ümumiyyətlə, xəzinəni doldurmaq üçün əhalidən müxtəlif vergilər alınırdı. Bunlara misal olaraq tamğa, əvariz, təğar, ülufə, mərsumu və digər vergilərin adını çəkmək olar. Qeyd edilən dövrdə tamğa vergisi əsas etibarilə şəhər əhalisindən – sənətkarlardan, tacirlərdən və habelə duz istehsalı ilə məşğul olanlardan alınırdı.

XVI əsrdə Səfəvilər dövlətinin yaranması Azərbaycanın digər bölgələri kimi Naxçıvanın da iqtisadi inkişafına müsbət təsir göstərmişdir. İqtisadiyyatın əsas sahələrindən biri olan kənd təsərrüfatı Naxçıvanın iqtisadi həyatında mühüm yer tuturdu. Burada bağçılıq, bostançılıq, texniki bitkilər və digər sahələr inkişaf etdirilirdi. Naxçıvanın demək olar ki, bütün ərazilərində taxıl bitkisi əkilirdi. Lakin bu sahə ilə yanaşı əhalinin bir çox məhsullara olan tələbatını ödəmək məqsədilə düyü, mərcimək, noxud, maş (lobya) və digər dənli bitkilər də əkilib becərilirdi.

XVI – XVIII əsrlərdə bir çox mənbələrdə Naxçıvan ərazisində meyvəçiliyin və üzümçülüyün inkişafı haqqında söhbət açılır. Bu dövrdə meyvəçiliyin və üzümçülüyün əsas vətəni Ordubad sayılırdı. Ordubad meyvələri dünyada şöhrət qazanmışdı və

bazarlarda çox həvəslə satılırdı. Bu meyvələr arasında "Mələs" alçası və "Əbutalib" əriyinin qurusundan saraylarda və bütün mötəbər ziyafətlərdə verilən plov xuruşu (üz-gözü – N.Ə.) üçün istifadə edilirdi [54].

Digər bir mənbədə həmin dövrdə Azərbaycana gələn və bu dövlətin ərazisini qarış-qarış gəzən məşhur alman alimi və səyyahı Adam Oleari Ordubadda gözəl üzüm sortlarının, o cümlədən "Kəsəyi", "Xələc", "Əli dərəsi" və s. üzüm sortlarının yetişdirildiyini qeyd edir [20].

Yuxarıda qeyd edildiyi kimi Səfəvilər dövründə Naxçıvanda həm də texniki bitkilər yetişdirilirdi. Bunlar içərisində pambıq, tütün, boyaq kökü və s. üstünlük təşkil edirdi. E.Çələbi əsərlərində göstərirdi ki, həmin vaxt Naxçıvanda 7 növ pambıq, o cümlədən zaği, munlayi, zəfərani, ləli, xac, bəyaz və s. pambıq sortları yetişdirilirdi.

XVI – XVIII əsrlərdə Naxçıvan ərazisində ipəkçilik əhalinin məşğulluğunda mühüm yer tuturdu. Bu ərazidə, xüsusilə Ordubadda geniş tut bağlarının salınması və barama qurdunun bəslənməsi ipəkçiliyin inkişafına təkan vermişdir. İstehsal olunan ipək xammalı və ipək parçalar dünyanın bir çox ölkələrinə, o cümlədən Moskva və Nijneqorod şəhərlərinə ixrac edilirdi.

Naxçıvan hələ qədim zamanlardan şəhərlər arasında sənətkarlıq mərkəzi kimi şöhrət qazanmış və Səfəvilər dövründə də öz əhəmiyyətli mövqeyini qoruyub saxlaya bilmişdir. Naxçıvanda toxuculuq sənəti, o cümlədən xalçaçılıq sənəti, metalişlətmə sənəti, memarlıq sənəti, boyaqçılıq sənəti, misgərlik və digər sənətkarlıq növləri geniş yayılaraq inkişaf etmişdir.

Naxçıvanda təbii ki, kənd təsərrüfatının və sənətkarlığın inkişafı daxili və xarici ticarətin inkişafına gətirib çıxarmışdır.

Ümumiyyətlə, Səfəvilər dövründə Naxçıvan Şərqlə Qərbi birləşdirən qədim karvan yollarının kəsişmə nöqtələri üzərində yerləşməklə mühüm bir məntəqə rolunu oynamış və mühüm ticarət mərkəzinə çevrilmişdir.

Səfəvilər dövlətinin süqutu ilə Nadir şah imperiyasının

tərkibinə qatılan Naxçıvan XVIII əsrin ortalarında, Nadir şah imperiyası parçalandıqdan sonra Naxçıvan xanlığının mərkəzinə çevrilir. Artıq bu zamanlar güclü dövlətə çevrilmiş Rusiya dövləti Cənubi Qafqaz torpaqlarını öz təsiri altına salmaq istəyirdi. Ancaq onun Cənubi Qafqaz siyasəti İranla toqquşduğundan XIX yüzilliyin birinci qərinəsində iki dəfə müharibə baş verdi.

Birinci Rusiya-İran müharibəsi (1805-1813-cü illər) zamanı rus qoşunları Naxçıvan xanlığına daxil olsalar da Gülüstan müqaviləsinə görə Azərbaycanın şimal torpaqları Rusiyaya ilhaq edilsə də, xanlıq İran şahının hakimiyyəti altında qaldı.

İkinci Rusiya-İran müharibəsi dövründə (1826-1828-ci illər) Naxçıvan xanlığı ərazisində qızğın vuruşma getdi. Abbasabad qalası uğrunda döyüşlərdə Naxçıvan və Ordubad hakimləri Rusiyanın tərəfinə keçdilər və Abbasmirzənin 40 min nəfərlik ordusunu əzməkdə rus qoşunlarına böyük yardım göstərdilər. 1827-ci il iyunun 28-də rus qoşunları Naxçıvanı işğal etdilər, iyulun 7-də isə Abbasabad qalası süqut etdi. Rusiya ilə İran arasında 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin şərtlərinə görə Ordubad mahalı da daxil olmaqla Naxçıvan xanlığı və İrəvan xanlığı Rusiyaya ilhaq edildi. Beləliklə, 1813-cü il Gülüstan müqaviləsi ilə əsası qoyulan tarixi ədalətsizlik başa çatdırıldı, Azərbaycan ərazisi iki yerə parçalandı.

XVIII əsrin axırlarında və XIX əsrin əvvəllərində gedən müharibələr nəticəsində Naxçıvanın təsərrüfatı böyük zərər çəkdiyindən onların bərpasına böyük ehtiyac var idi. Ona görə də yaranmış dinc fasilədən istifadə edərək Naxçıvan qəzasının bir çox şəhər və kəndlərini su ilə təmin edən Vayxır suvarma kanalı bərpa edilməyə başlandı. Kənd təsərrüfatı, xüsusən pambıqçılıq və baramaçılıq da inkişaf başladı. Təbii sərvətlərdən, birinci növbədə Zaqafqaziyada ən böyük duz yataqları olan Naxçıvan duz yataqlarından istifadə olunmağa başlandı. 1837-ci ildə Sust kəndi yaxınlığında ikinci duz mədəni açıldı. İran hökmranlığı dövründə ən çoxu 50-60 min pud duz çıxarıldığı halda, duz

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI
110906

hasilatı XIX əsrin 40-cı illərində üç dəfə, 80-ci illərində isə on dəfə artdı.

Başqa sənətlər də intensiv inkişaf etdi. Naxçıvanda 4 toxuculuq manufakturası, 8 dabbaqxana, 27 duzxana, 6 kərpic emalatxanası, 8 kustar gəc istehsalı yaradıldı. Culfa və Ordubad şəhərləri böyüməyə başladı.

İpək sənayesinin təkmilləşdirilməsi başlandı. XIX əsrin 70-80-ci illərində ipək istehsalı artdı. İki fabrikdə barama buxar maşınları işə salındı. Hər il Ordubad müəssisələrində 700 puddan artıq barama açılırdı. Ordubad və Naxçıvan ipəyi bir sıra ölkələrə, o cümlədən imperiyanın paytaxtı Moskvaya göndərilirdi. 1882-ci ildə Moskva ticarət-sənaye sərgisində Ordubad ipəyi qızıl medala layiq görülmüşdür.

Aparılan araşdırmalar göstərir ki, ipəkçiliklə yanaşı kənd təsərrüfatının başqa sahələri də inkişaf edirdi. Statistik məlumatların təhlili göstərir ki, XIX əsrin axırlarında buğdanın ümumi yığımı və məhsuldarlığı 2,5 dəfə, arpanın ümumi yığımı və məhsuldarlığı 2,7 dəfə, darının ümumi yığımı və məhsuldarlığı 6 dəfə, çəltiyin ümumi yığımı və məhsuldarlığı isə 1,8 dəfə artmışdır.

XIX əsrdə kənd təsərrüfatının və sənətkarlığın inkişafı ticarətin tərəqqisinə səbəb olurdu. Naxçıvan, Ordubad, Culfa şəhərləri yerli ticarət mərkəzləri olmaqla bərabər Şərq ölkələrinin Rusiya ilə ticarətində də həlledici rol oynayırdı.

Ümumiyyətlə, XX əsrin əvvəllərində baş vermiş müharibələr və qardaş qırğınları təbii ki, Naxçıvan iqtisadiyyatına öz mənfi təsirini göstərmiş və böhran getdikcə dərinləşmişdir. İqtisadi böhran sənayedə, kənd təsərrüfatında və xalq təsərrüfatının digər sahələrində də özünü biruzə verirdi. İqtisadiyyatın tənəzzülə uğraması Naxçıvan əhalisinin həyat səviyyəsinin də aşağı düşməsinə gətirib çıxarmışdır.

Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra əhalinin iqtisadi və mədəni həyatında köklü dəyişikliklər baş verməyə başladı.

## II BÖLMƏ

# YÜKSƏK İQTİSADİ İNKİŞAFI TƏMİN EDƏN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ

## 1. NAXÇIVAN MUXTAR RESPUBLİKASI

1924-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Nax.MSSR) yaradılmış və 1990-cı ilədək fəaliyyət göstərmişdir. 1990-cı ildə adı dəyişdirilərək Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası – muxtar dövlət elan olunmuşdur. Özünün konstitusiyası vardır.

Naxçıvan MR üç dövlətlə – 246 km məsafədə Ermənistan Respublikası, 11 km məsafədə Türkiyə Respublikası və 204 km məsafədə İran İslam Respublikası ilə həmsərhəddir.

Ərazinin üçdə ikisi dağlıq sahələrdir. Elə iqlimin sərt kontinental olması da ərazisinin dağlarla əhatə olunması və iri su hövzələrindən uzaqda yerləşməsi ilə əlaqədardır. Naxçıvan MR ərazisi faydalı qazıntılarla çox zəngindir. Mineral su bulaqlarının rəngarəngliyinə görə Naxçıvan MR dünyanın ən diqqətəlayiq bölgələrindəndir. İndiyə kimi burada 250-dən artıq mineral su mənbəyi qeydə alınmışdır. Naxçıvan MR ərazisi zəngin floraya və rəngarəng bitki örtüyünə malikdir.

Muxtar respublikanın ərazisi 5,5 min kvadrat kilometr olmaqla bütövlükdə Azərbaycan Respublikası ərazisinin 6,4 faizini təşkil edir.

Naxçıvan MR əhalisi 1 yanvar 2015-ci il tarixə 435,4 min nəfərdir. 2009-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasına əsasən əhalinin 99,6 faizi azərbaycanlılardan, qalan hissəsi isə ruslar, kürdlər, gürcülər və s. xalqların nümayəndələridir.

Naxçıvan MR inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur. Elektronika,

metal emalı, tikinti materialları və yüngül sənaye sahələri fəaliyyət göstərir. Kənd təsərrüfatı əsasən taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır.

Muxtar respublikada iqtisadi islahatlar ardıcıl olaraq həyata keçirilmiş, torpaq islahatları başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır. 2013-cü ildə muxtar respublikada 1 milyard 339 milyon manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal olunmuşdur ki, bu da 2012-ci ilə nisbətən 10,3 faiz çoxdur. Ümumi Daxili Məhsulun tərkibində birinci yeri 28,5 faizlik payla sənaye, ikinci yeri isə 25,5 faizlik payla tikinti sahəsi tutmuşdur. 2013-cü ildə muxtar respublikada istehsal olunan Ümumi Daxili Məhsulun 64,8 faizi maddi istehsal sektorunun payına düşmüşdür.

Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatına görə 2012-ci ilə nisbətən 2013-cü ildə sənaye məhsulunun ümumi həcmi 6,3 faiz, əsas kapitala yönəldilən investisiyalar 5,6 faiz və kənd təsərrüfatının ümumi məhsulu 6,9 faiz artmışdır.

Muxtar respublikada, habelə 2012-ci ilə nisbətən 2013-cü ildə xarici ticarət dövriyyəsi 13,5 faiz, hər bir nəfərə düşən gəlirlər 4,9 faiz, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı isə 3,1 faiz artmışdır.

Naxçıvan Muxtar Respublikasında cəmi əkilən sahələr 60 min 127 hektar təşkil etmişdir ki, bunun da 58 min 665 hektarı suvarılan torpaqlardır.

2013-cü ildə muxtar respublikada 103 min tona yaxın taxıl istehsal edilmişdir ki, bunun da 77,2 min tonu buğda, 25,7 min tonu isə arpadan ibarətdir. Habelə 2013-cü ildə muxtar respublikada 41,3 min ton kartof, 66,5 min ton tərəvəz, 43,3 min ton meyvə 15,1 min ton isə üzüm istehsal edilmişdir. Bütün bunlar onu göstərir ki, muxtar respublikada iqtisadi artım və dinamik inkişaf bir meyar kimi qəbul edilmişdir.

## 1.1. NAXÇIVAN ŞƏHƏRİ

Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. İri sənaye, elm və mədəniyyət mərkəzi olan Naxçıvan şəhəri Naxçıvan çayının sahilində yerləşir.

Ərazisi 0,19 min km$^2$, əhalisi isə 90,2 min nəfərdir (1 yanvar 2015-ci il). Əhalinin 49,8%-ni kişilər, 50,2%-ni isə qadınlar təşkil edir. Sərt kontinental iqlimə malikdir.

Qədim rəvayət və miflərə əsaslanan bir sıra antik və orta əsr tarixçi və coğrafiyaşünasları Naxçıvanın eramızdan əvvəl 1539-cu ildə salındığını göstərərək 3500 ildən çox yaşı olduğunu qeyd edirlər. Lakin tədqiqatçılar Naxçıvanın 3500 il yox, 5000 ildən çox yaşı olduğunu artıq sübut etmişlər. Hazırda Naxçıvanda yerli arxeoloqlarla birlikdə ən inkişaf etmiş dövlətlərin arxeoloqları da çalışırlar.

Naxçıvan şəhəri karvan yolu üzərində yerləşdiyindən qədim ticarət mərkəzi kimi də şöhrət qazanmışdır. Naxçıvan şəhərində sənayenin inkişafı muxtar respublikanın digər rayonlarına nisbətən üstünlük təşkil edir. XX əsrdə Naxçıvan şəhərində yeni sənaye müəssisələri tikilsə də özünün əsl inkişafına 1970-ci illərdən başlamışdır. Ümummilli liderimiz Heydər Əliyevin birinci hakimiyyəti dövründə Naxçıvan şəhərində ittifaq əhəmiyyətli iri sənaye müəssisələri, o cümlədən Xalça Kombinatı, Alt Trikotaj Məmulatları Fabriki, Şüşə Qablar Zavodu, Alüminium Qablar Zavodu və digər iri sənaye müəssisələri tikilib istifadəyə verildi.

2004-cü ildə muxtar respublikada sənaye məhsulunun 42,9 faizi, kapital qoyuluşunun 59,1 faizi, cəmi əmtəə dövriyyəsinin 48 faizi Naxçıvan şəhərinin payına düşmüşdür. 2013-cü ilin göstəriciləri isə daha böyükdür. Artıq bu gün muxtar respublikanın sənaye potensialının əsas hissəsi məhz Naxçıvan şəhərində yerləşir.

Naxçıvan şəhəri muxtar respublikanın paytaxtı kimi Azərbaycanın elm, təhsil və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Naxçıvan şəhərində 19 orta məktəb, 10 məktəbəqədər müəssisə,

3 ali məktəb (Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti, Naxçıvan Müəllimlər İnstitutu), 3 orta ixtisas məktəbi, Azərbaycan MEA-nın Naxçıvan bölməsi (tərkibində 5 elmi-tədqiqat institutu), 8 klub və mədəniyyət evi, 8 kitabxana, 7 uşaq musiqi məktəbi, 3 teatr, filarmoniya, 12 muzey fəaliyyət göstərir.

Naxçıvan şəhərində geniş abadlıq və quruculuq işləri gedir, şəhər gözəlləşir və gündən-günə öz simasını dəyişir.

## 1.2. ŞƏRUR RAYONU

Şərur rayonu Naxçıvan MR-in mühüm təsərrüfat əhəmiyyətinə malik olan inzibati rayonudur. Rayon 1930-cu ildə təşkil edilmişdir. Bu rayon XX əsrin 30-64-cü illərində Noraşen rayonu, 64-91-ci illərində isə İliç rayonu adlandırılmışdır. Rayon şimaldan və şimal-şərqdən Ermənistan Respublikası, cənubdan və cənub-qərbdən isə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,87 min $km^2$, əhalisi isə 1 yanvar 2015-ci il tarixə 112,3 min nəfərdir. Rayon mərkəzi Şərur şəhəri olmaqla 1 şəhər və 65 kənd yaşayış məntəqəsindən ibarətdir. İri yaşayış məntəqələri Şərur şəhəri, Dəmirçi və Düdəngə kəndləridir.

Şərur rayonu Naxçıvan MR-in ən böyük üzümçülük, heyvandarlıq, meyvəçilik, taxılçılıq və tərəvəzçilik rayonudur. Rayonda kənd təsərrüfatına yararlı torpaqlar 2551 min hektardır ki, bunun da 17,1 min hektarında əkin aparılmış, suvarılan torpaqlar 16,4 min hektar təşkil etmişdir. Təsərrüfatlarda əsas etibarilə, arpa, buğda, qarğıdalı, meyvə-tərəvəz bitkiləri, kartof və s. bitkilər becərilir.

Son illər Şərur rayonunun iqtisadiyyatı inkişaf etmiş və mühüm nailiyyətlər əldə edilmişdir. Belə ki, təkcə 2013-cü ildə rayonda 28,2 min ton taxıl, 10,0 min ton kartof, 19,6 min ton tərəvəz, 18,1 min ton meyvə və 1479 ton üzüm istehsal edilmişdir.

Şərur rayonu həm də muxtar respublikanın ən böyük heyvandarlıq rayonlarından biridir. Burada heyvanların baş sayı ildən-ilə çoxalmaqdadır.

Şərur rayonunda əhalinin təzə ət, süd məhsullarına olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə xüsusi diqqət yetirilir. 2014-cü il 1 yanvar tarixə rayonda 33,7 min baş iribuynuzlu, 118 min baş xırdabuynuzlu heyvan, 8858 arı ailəsi saxlanılmışdır. Qeyd etmək lazımdır ki, tarixən dəvəçiliyin inkişaf etdirildiyi Şərurda bu sahəyə maraq artıb. 2013-cü ilin sonuna rayonda 48 dəvə və 56 dəvəquşu saxlanılması qeydə alınmışdır. Bunun nəticəsində də heyvandarlıq məhsulları istehsalı daim artmaqda davam edir.

Şərur rayonunda sənaye də inkişaf etmişdir. Sənaye əsas etibarilə kənd təsərrüfatı məhsullarının emalı və tikinti materialları istehsalı üzrə ixtisaslaşdırılmışdır. Son illər geniş tikinti-quruculuq işləri gedir və rayon öz simasını dəyişir.

Rayonun sosial infrastrukturunun möhkəmləndirilməsi, əhalinin güzəranının yaxşılaşdırılması, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Onlarla kənddə yeni məktəblər tikilmiş və əsaslı təmir edilmiş, inzibati binalar, səhiyyə obyektləri tikilib istifadəyə verilmişdir.

## 1.3. BABƏK RAYONU

Babək bölgəsinin təbii-coğrafi mövqeyi əkinçi-maldar tayfaların bu ərazidə qədim dövrlərdən məskunlaşmasına və uzun müddət yaşamasına şərait yaratmışdır. Təsadüfi deyil ki, I Kültəpə və II Kültəpə kimi dünya miqyaslı abidələr məhz bu ərazidədir. Burada yaşamış qədim tayfalara məxsus zəngin mədəniyyət arxeoloji abidələrdə qorunub saxlanmışdır. Naxçıvan ərazisində elmə məlum olan ilk arxeoloji tapıntılar 1870-ci ildə Babək rayonu bölgəsində qeydə alınmışdır. 1895-ci ildə Qızılburun adlı yerdən tapılmış boyalı qablar alimlərdə böyük maraq doğurmuşdur. Babək rayonu ərazisində elmi əhəmiyyətə malik Eneolit, Tunc, Dəmir dövrlərinə və Antik dövrə aid arxeoloji abidələr, qədim duzdağ yatağı və digər maddi-mədəniyyət qalıqları aşkara çıxarılmış və tədqiq edilmişdir.

Babək rayonu 1978-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Babək rayonu şimal-qərbdə Ermənistan Respublikası, cənubda İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,76 min km$^2$, əhalisi isə 1 yanvar 2015-ci ilə 72,3 min nəfərdir. Rayonda 1 qəsəbə, 34 kənd var. Mərkəz Babək qəsəbəsidir. İri yaşayış məskənləri Nehrəm və Cəhri kəndləridir.

Babək rayonunun iqtisadiyyatında üzümçülük, taxılçılıq, bostançılıq, tərəvəzçilik mühüm yer tutur. Burada kənd təsərrüfatına yararlı torpaqlar 24842 hektar, əkilən sahələr isə 15664 hektar təşkil edir. Babək rayonu böyük rayon olmaqla məhsul istehsalında da böyük xüsusi çəkiyə malikdir. Belə ki, 2004-cü ildə muxtar respublikada istehsal olunan taxılın 36,4 faizi, tərəvəzin 31,9 faizi, bostan bitkilərinin 69,5 faizi, üzümün isə 69,7 faizi məhz bu rayonun payına düşmüşdür.

2013-cü ildə Babək rayonunda bitkiçilik məhsulları istehsalı artmışdır. Adıçəkilən ildə rayonda 31,7 min ton taxıl, 5,9 min ton kartof, 16,2 min ton tərəvəz, 6,5 min ton meyvə 5,5 min ton üzüm istehsal edilmişdir.

Heyvandarlıq sahəsində də inkişaf var. Heyvanların baş sayı artmaqla məhsul istehsalı sahəsində də ildən-ilə artım dinamikası müşahidə edilməkdədir.

Rayonda sənaye sahələri yenidən qurulur. Burada daş emalı və yeyinti sənaye sahələri fəaliyyət göstərir.

Babək rayonunda tikinti-quruculuq işlərinə də xüsusi diqqət yetirilir. Son illər aparılan quruculuq tədbirləri nəticəsində rayonda sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində böyük irəliləyişlərə nail olunmuşdur. Rayon mərkəzində və kənd yaşayış məskənlərində yeni inzibati və ictimai obyektlər tikilmişdir. Məktəblər, səhiyyə və mədəniyyət obyektləri tikilmiş, su xəttləri çəkilmiş, yeni avtomobil yolları çəkilmiş və yenidən bərpa edilərək istifadəyə verilmişdir. Görülən tikinti-abadlıq işləri rayonun simasını kökündən dəyişmişdir.

## 1.4. ORDUBAD RAYONU

1930-cu ildə yaradılmış Ordubad rayonu Naxçıvan Muxtar Respublikasında inzibati rayonlardan biridir. 1963-cü ildə bu rayon ləğv edilərək ərazisi Culfa rayonu ilə birləşdirilmiş və 1965-ci ildə yenidən müstəqil rayona çevrilmişdir. Ordubad rayonu cənubdan İran, şimal və şərqdən isə Ermənistanla həmsərhəddir. Sahəsi 0,98 min $km^2$, əhalisi isə 1 yanvar 2015-ci il tarixə 48,7 min nəfərdir. Rayonda 1 şəhər, 3 qəsəbə, 43 kənd vardır. Rayon mərkəzi Ordubad şəhəridir.

İri yaşayış məntəqələri Ordubad şəhəri, Dəstə, Vənənd, və Yuxarı Əylis kəndləridir.

Ordubad rayonu əsasən kənd təsərrüfatı rayonudur. Kənd təsərrüfatında meyvəçilik və maldarlıq mühüm yer tutur. 2013-cü ilin məlumatına görə kənd təsərrüfatına yararlı torpaqlar 20353 min hektar təşkil edir ki, bunun da cəmi 3,9 min hektarında əkin aparılmışdır. Rayon 4,8 min hektar suvarılan torpaqlara malikdir. Dənli və dənli-paxlalı bitkilər (buğda, arpa və s.), tərəvəz-bostan bitkiləri və kartof, yem bitkiləri əkilir. Ordubad rayonu respublikanın mühüm meyvəçilik rayonlarından biridir. Ordubadın meyvəçilik diyarı olması haqqında hələ I və II minilliklərdə yaşayıb-yaradan bir çox alimlərin əsərlərində qiymətli materiallar vardır. Yeniskop Sebeos, İran tarixçisi Həmdullah Qəzvini və xüsusilə etnoqraf və tarixçi, mənşəcə fransız olan İ.İ.Şopen Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə və coğrafiyasına həsr etdiyi əsərində Ordubad haqqında maraqlı məlumatlar vermiş, əla meyvələri – üzümü, əriyi, şaftalısı, albuxarası, heyvası olan Ordubad bağlarının Qafqazda, hətta Şərqdə şöhrət tapdığı, həmçinin sağlam iqlimi haqqında yazır: "...Dağlarla əhatə olunmuş Ordubad al-əlvandır, sağlam iqlimə malikdir, şəhər sudan boldur. Ordubadı, mübaliğəsiz, bütün Qafqazın ən şairanə, ən dilbər guşələrindən biri adlandırmaq olar".

Hesab edirəm ki, ümummilli liderimiz Heydər Əliyev "Ordubad

Azərbaycanın incisidir" adlandırmaqda da yanılmamışdır.

Əkinçilik təsərrüfatında taxılçılıq xüsusi yer tutur. Rayonun taxılçıları 2013-cü ildə 2145 hektar sahədən 5750 ton məhsul götürüblər. Bundan əlavə, 2013-cü ildə rayonda dənli və dənli-paxlalı bitkilərin istehsalı 6655 tona, kartof istehsalı 8410 tona, üzüm istehsalı 228 tona çatdırılıb. 2013-cü ildə rayonun meyvə bağlarından 3 min tona yaxın meyvə istehsal edilib ki, bu da 2012-ci illə müqayisədə 315 ton çoxdur.

Ordubad rayonunda həm heyvanların baş sayında, həm də heyvandarlıq məhsulları istehsalında əvvəlki illərə nisbətən xeyli artım vardır.

Rayonda iqtisadiyyatın bütün sahələri inkişaf edir, quruculuq işləri gedir, rayon öz simasını dəyişir, gözəlləşir.

## 1.5. CULFA RAYONU

Culfa rayonu ərazisində aparılan arxeoloji tədqiqat işləri nəticəsində e.ə. III minilliyin ortalarından başlayaraq son orta əsrlərədək xeyli abidə qeydə alınmışdır. Tapıntılar bölgənin qədim sakinlərinin əkinçilik, maldarlıq, ovçuluqla məşğul olduğunu göstərir.

E.ə. III-II minilliklərdə bu ərazidə (Ərəfsə, Bənəniyar, Göydərə və s.) boyalı qablar mədəniyyəti yayılmışdır.

Culfa şəhərinin salındığı tarix dəqiq məlum olmasa da, buradan e.ə. XIII-IX əsrlərə aid maddi mədəniyyət nümunələri tapılmışdır. Orta əsrlərdə Culfa, nəinki Naxçıvan bölgəsinin, eləcə də Azərbaycanın iqtisadi həyatında mühüm rol oynamışdır. XVI – XVII əsrlərdə burada sənətkarlıq inkişaf etmişdir. Culfa şəhəri qədim İpək yolu üzərində yerləşdiyindən Naxçıvanın ticarət mərkəzi kimi şöhrət tapmışdır.

Culfanın bir rayon kimi yaradılması isə XX əsrə aiddir. 1930-cu ildə yaradılan Culfa rayonu Naxçıvan MR-in inzibati rayonlarından biridir. Rayon şimal-şərqdə Ermənistan Respublikası, cənubdan isə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,99 min km$^2$, əhalisi isə 1 yanvar 2015-ci iltarixə 45,1 min

nəfərdir. Rayonda 1 şəhər, 24 kənd yaşayış məntəqəsi vardır. İri yaşayış məskənləri Culfa şəhəri, Yaycı və Bənəniyar kəndləridir. Mərkəzi Culfa şəhəridir.

Culfa rayonu təbii sərvətlərlə zəngindir. Burada faydalı qazıntılar: mərgümüş filizləri, gips, gəc və s., mineral sulardan isə Darıdağ, Nəhəcir və s.çıxır.

Culfa rayonu əsasən, üzümçülük və heyvandarlıq rayonudur. Burada kənd təsərrüfatına yararlı torpaqlar 27,895 min hektar, əkilən torpaqlar 8226 hektar, suvarılan torpaqlar isə 5,3 min hektardır. Culfa rayonu müstəqillik illərində geniş inkişaf yoluna qədəm qoymuşdur. 2013-cü ildə rayonda 13,2 min ton taxıl, 5,2 min ton kartof, 9,8 min ton tərəvəz, 3,5 min ton meyvə, habelə bütün rayonlardan çox 5,7 min ton üzüm istehsal edilmişdir.

Culfa rayonunda 2013-cü ildə heyvandarlıq məhsulları istehsalında artıma nail olunmuşdur. Yəni 2013-cü ildə rayonda 2885 ton ət, 9180 ton süd istehsal olunmuşdur. Ümumilikdə isə rayonda 2013-cü ildə 46 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. 2014-cü ildə də kənd təsərrüfatı məhsulları istehsalı davam etməkdədir.

Rayonda karbon qazı zavodu və digər müəssisələr vardır. Əgər 1970-ci ildə muxtar respublikada sənaye məhsulunun 4,5 faizi Culfa rayonunun payına düşürdüsə, 2013-cü ildə bu rəqəm 0,8 faiz olmuşdur.

Rayonda geniş tikinti-quruculuq işləri aparılır. Müstəqillik illərində onlarca yeni məktəb binası, səhiyyə obyektləri, inzibati binalar tikilib istifadəyə verilmişdir.

Culfa rayonunda 2013-cü ildə bütün maliyyə mənbələrindən əsas kapitala 41,8 milyon manat investisiya yönəldilmişdir ki, bu da 2012-ci illə müqayisədə 3,3 faiz çoxdur.

2013-cü ildə rayonda yol tikintisi də əvvəlki illərdə olduğu kimi diqqət mərkəzində saxlanılmış, yeni yolların tikintisi və təmiri aparılmışdır.

## 1.6. KƏNGƏRLİ RAYONU

Kəngərli rayonunun ərazisi qədim yaşayış məskənlərindən biridir. Burada insanların əmək fəaliyyətini və həyat tərzini əks etdirən maddi-mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidə var. Arxeoloji qazıntılar nəticəsində Kəngərli rayonu ərazisində aşkar olunmuş son Tunc və ilk Dəmir dövrünə aid Qalacıq yaşayış yeri, şimalda orta və son Tunc dövrünə aid I Qarabağlar qəbirstanı, Qarabağlar Gavurqalası, cənubda son Tunc və ilk Dəmir dövrünə aid II Qarabağlar qəbirstanı, Çalxanqalada Tunc dövrünə aid yaşayış yeri, indiki Şahtaxtı kəndindən şimal-qərbdə Tunc, ilk Dəmir dövrünə aid Şahtaxtı Gavurqalası, I və II Şahtaxtı nekropolları bu ərazinin insanların ən qədim yaşayış yerləri olduğunu sübut edir.

Naxçıvan MR-də yeni inzibati rayon olan Kəngərli rayonu 19 mart 2004-cü ildə yaradılmışdır. Kəngərli rayonu Şərur və Babək rayonları ərazilərinə qismən dəyişiklik etməklə yaradılmışdır. Ərazi şimal-şərqdə Ermənistan Respublikası, cənub və cənub-qərbdə İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 0,7 min km$^2$, əhalisi 31,0 min (1 yanvar 2015-ci il) nəfərdir. Rayonda 1 qəsəbə, 10 kənd vardır. Rayon mərkəzi Qıvraq qəsəbəsidir. İri yaşayış məntəqələri Qıvraq qəsəbəsi, Qarabağlar, Xok və Şahtaxtı kəndləridir. Rayonda əkilən torpaq sahələri 6871 hektardır.

Yaradılan gündən rayon iqtisadiyyatı daim inkişaf edir. 2013-cü ildə rayonda 15,3 milyon manatlıq sənaye məhsulu, 30,3 milyon manatlıq isə kənd təsərrüfatı məhsulları istehsal edilmişdir.

Qeyd edək ki, Kəngərli rayonu əsasən kənd təsərrüfatı rayonudur. Burada 2013-cü ildə 11,0 min ton taxıl, 2,8 min ton kartof, 3,5 min ton tərəvəz, 10,9 min ton meyvə 512 ton isə üzüm istehsal edilmişdir.

Rayonda heyvandarlıq inkişaf edir. Belə ki, 2013-cü ildə rayonda 7920 baş iribuynuzlu, 90520 baş xırdabuynuzlu və 101950 baş quş qeydə alınmışdır. Arıçılığın inkişafı da daim diqqət mərkəzindədir. Rayon üzrə 40 təsərrüfatda 1560 arı ailəsi

saxlanılır. Heyvandarlığın inkişafı rayonda ət, süd, yumurta və bal istehsalının artmasını şərtləndirir.

Kəngərli inzibati rayonu yeni rayon olduğuna görə burada inzibati binaların tikintisinə üstünlük verilmişdir. Rayonda bir çox təhsil, səhiyyə, mədəniyyət və digər obyektlər tikilmiş və ya yenidən qurulmuşdur.

## 1.7. ŞAHBUZ RAYONU

1930-cu ildə təşkil olunan Şahbuz rayonu Naxçıvan Muxtar Respublikasında inzibati rayondur. Şahbuz rayonu 1963-cü ildə ləğv edilərək ərazisi Naxçıvan rayonuna verilmiş və 1965-ci ildə yenidən bərpa edilmişdir. Şimalda və Şərqdə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 0,83 min kvadrat kilometr, əhalisi isə 1 yanvar 2015-ci il tarixə 24,6 min nəfərdir. Rayon mərkəzi Şahbuz şəhəridir.

İri yaşayış məntəqələri Şahbuz şəhəri, habelə Kolanı, Keçili və Kükü kəndləridir. Rayonun relyefi, əsasən dağlıqdır. Rayon ərazisində ən yüksək zirvə Zəngəzur silsiləsində Şapuq zirvəsidir ki, bunun da hündürlüyü 3204 metrdir. Faydalı qazıntılarla zəngindir. Burada kükürd, torf, tikinti daşı, məmulat daşları və s. çıxır. Rayon ərazisi mineral su mənbələri ilə zəngindir (Badamlı, Biçənək, Batabat, Karvansara və s.).

Şahbuz rayonunda son illər iqtisadi və mədəni həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdir. Rayon əsasən hehvandarlıq rayonudur. Burada cəmi 29,369 min hektar kənd təsərrüfatına yararlı torpaq sahələri vardır ki, bunun da cəmi 2655 hektarında əkin aparılmışdır. Rayondakı torpaqların 2,8 min hektarını suvarılan torpaqlar, 2,5 min hektarını biçənəklər, qalan hissəsini isə otlaqlar təşkil edir. Möhkəm yem bazasının yaradılmasının nəticəsidir ki, burada heyvanların baş sayı ildən-ilə artır, heyvandarlıq məhsulları istehsalı və məhsuldarlığı da artan xətlə gedir. Heyvandarlıq məhsulları ilə yanaşı bitkiçilik məhsulları istehsalı da artmaqdadır.Təkcə 2013-cü ildə rayon təsərrüfatlarından

3,7 min ton taxıl, 6,9 min ton kartof, 4,8 min ton tərəvəz və 6,0 min tona yaxın meyvə yığılmışdır.

Muxtar respublikada olduğu kimi Şahbuz rayonunda da tikinti-quruculuq işləri geniş vüsət almışdır. Kükü, Mahmudoba, Qızıl Qışlaq kəndlərində, Batabat yolu üstündə Zərnətün körpüsü tikilmişdir. Rayonun Türkeş, Şada, Biçənək, Keçili, Külüs, Sələsüz, Güney Qışlaq və bir sıra digər kəndlərdə müasir tipli məktəblər tikilmiş və inzibati binalar istifadəyə verilmişdir. Neçə-neçə tibb müəssisəsi, mədəniyyət ocaqları, kitabxanalar və s. obyektlər də tikilmiş və yenidən qurularaq əhalinin istifadəsinə verilmişdir. Batabat rəsədxanası da Şahbuz rayonu ərazisində yerləşir. Bu rəsədxana Sankt-Peterburqdan sonra dünyada ən iri dairəli teleskopu olan rəsədxanadır.Təsadüfi deyil ki, 1975-ci ildə dünyanın 65 ölkəsindən gələn alimlər günəşin tutulmasını Batabat rəsədxanasından müşahidə etmişdilər.

## 1.8. SƏDƏRƏK RAYONU

Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarından biri də Sədərək rayonudur. Bu sərhəd bölgəsinimn sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə, habelə ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 28 avqust 1990-cı il tarixdə Sədərək rayonu yaradılmışdır. Sədərək rayonu iki xarici dövlətlə, o cümlədən 11 kilometr məsafə ilə Türkiyə və 24 kilometr məsafə ilə isə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 0,16 min km$^2$, əhalisi isə 15,4 min nəfərdir (1 yanvar 2015-ci ilə). Mərkəzi Heydərəbad qəsəbəsidir. Rayonda 1 qəsəbə və 3 kənd yaşayış məntəqəsi vardır.

Sədərək təkcə sərhəddə yerləşən bölgə, rayon deyil, o həm də qərbə - Avropaya açılan qapıdır.

Sədərək qədim yaşayış məskənidir. Sədərəyin cənubunda e.ə. IV-III minilliyə aid yaşayış yeri aşkar olunmuşdur. Rayon ərazisində tarixi-memarlıq abidələrindən 3 məscid, orta əsrlərə aid qala xarabalığı, müdafiə istehkamı, karvansara, Ağoğlan piri, XIX-XX əsrin əvvəllərində tikilmiş hamam binası və s. indiyə

kimi mühafizə olunmuşdur.

Rayon iqtisadiyyatını əsas etibarilə üzümçülük, taxılçılıq və heyvandarlıq təşkil edir. Müstəqillik dövründə Sədərəyin iqtisadiyyatında mühüm nailiyyətlər əldə edilmişdir. 1998-2013-cü illərdə bütün təsərrüfat kateqoriyaları üzrə istehsal olunan bitkiçilik və heyvandarlıq məhsullarının hamısında artım olmuşdur. Təkcə 2013-cü ildə Sədərək rayonunun təsərrüfatlarından 6142 ton taxıl, 2122 ton bostan məhsulları, 1796 ton kartof, 4862 ton tərəvəz, 629 ton meyvə və 1310 ton üzüm toplanmışdır ki, bu da əvvəlki illərə nisbətən xeyli çoxdur.

Sədərək rayonunda insanlara gəlir gətirən sahələrdən biri də heyvandarlıqdır. 2013-cü ilin statistik məlumatlarına əsasən təhlili göstərir ki, rayonda 2725 baş iribuynuzlu, 15 min 684 baş xırdabuynuzlu heyvan saxlanılır. Heyvandarlığın inkişafı və baş sayının artması rayonda əhalinin ət-süd məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə gətirib çıxarmışdır. Qeyd etmək lazımdır ki, təkcə 2013-cü ildə rayonda diri çəkidə 398 ton ət və 1715 ton süd istehsal edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra sabitlik yaranmış və ölkənin bütün bölgələrində olduğu kimi Sədərək bölgəsində də tikinti-quruculuq işlərinə başlanmışdır. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi və gücləndirilməsi sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, Sədərək öz simasını büsbütün dəyişmiş, bu gün özünün inkişaf dövrünü yaşayır. Rayonda təhsil və səhiyyə obyektləri, inzibati binalar, sənaye müəssisələri tikilir, su qurğuları, rabitə xətləri və s. çəkilməklə bütün bunlar həm əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırır, həm də bu sərhəd bölgəsinin daha da inkişafına xüsusi görkəm verir.

# III BÖLMƏ

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI

*(1924-1990-cı ilə qədərki dövr)*

## I FƏSİL

## 1924-1990-cı İLLƏRDƏ NAXÇIVANDA SƏNAYENİN İNKİŞAFI

### 1.1. Naxçıvan sənayesinin inkişafı 1924-1969-cu illərdə

Naxçıvan Muxtar Respublikasının müasir iqtisadiyyatı özünün yüksək səviyyədə inkişafı ilə səciyyələnir. Bu inkişafın əsasını muxtariyyət illərində yaranmış çoxsahəli təsərrüfat sistemi təşkil edir.

Çox qısa bir tarixi dövr ərzində, hər yerdə olduğu kimi Naxçıvan MSSR-də də xalq təsərrüfatının bütün sahələrinin coşqun yüksəlişi təmin edilmişdir. Bu yüksəlişi təmin edən əsas amillərdən biri muxtar respublikada təbii sərvətlərin əsaslı surətdə öyrənilməsi, onun iqtisadiyyatının mühüm sahələrinin inkişafını təmin etmiş zəngin təbii ehtiyatların aşkara çıxarılmasıdır.

Naxçıvana muxtariyyət statusu verildikdən sonra burada sənayenin yeni sahələri yaradılmış, köhnə müəssisələrin yeni texnika əsasında təşkili nəticəsində xalq təsərrüfatının quruluşunda sənayenin mövqeyi misilsiz dərəcədə yüksəlmişdir.

Sənayenin inkişafında müvəfəqiyyətlər qazanılmışdı. Sənayeləşmə dövründə yerli şəraiti və təbii resurslardan geniş miqyasda istifadə edilməsi nəzərə alınmaqla yeni sənaye müəssisələrinin tikilməsinə böyük əhəmiyyət verilirdi. Birinci beşillik dövründə Ordubadda konserv zavodu və yeni tipli ipəkçilik fabriki tikilmişdi. Həmin illərdə Şərur rayonunda pambıq zavodu bərpa olunmuş və yenidən qurulmuşdur.

Beləliklə, Böyük Vətən müharibəsinə qədərki dövrdə nəinki

sənaye bərpa olunmuş, habelə ipəkçilik, şərabçılıq, konserv, pambıq təmizləmə, tikinti materialları istehsalı sahələri yeni texniki baza üzərində təşkil olunaraq sürətlə inkişaf etmişdi.

Naxçıvan Muxtar Respublikasında 1933-1937-ci illərdə yağ və pendir zavodları, mərmər və mebel fabrikləri tikilib istifadəyə verildi. Badamlı mineral su doldurma zavodunun tikintisinə başlandı və Ordubad baramaaçma fabriki yenidən quruldu.

Ümumiyyətlə, muxtar respublikada görülən işlər nəticəsində 1924-1940-cı illərdə sənayenin ümumi məhsulunun 21 dəfə artmasına gətirib çıxardı.

Lakin İkinci Dünya müharibəsinin, onun ardınca isə Böyük Vətən müharibəsinin başlanması ölkə iqtisadiyyatı ilə bərabər Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına da öz mənfi təsirini göstərdi, sənaye istehsalı aşağı düşdü. Müharibə qurtardıqdan sonra dördüncü beşillik planın (1946-1950) qəbul edilməsi və sənaye sahələrinin yenidən bərpası bu sahədə də dirçəlişə səbəb oldu. Elə bu baxımdan da 50-60-cı illərdə Naxçıvan MR-də sənayenin inkişafı baxımından mühüm mərhələ hesab edilə bilər. Bu dövrdə bütün sənayenin ümumi məhsul istehsalının artım sürəti 1940-cı ildəkinə nisbətən 1950-ci ildə 144%, 1960-cı ildə 286% çatdırılmışdır [55, s.23].

Naxçıvan MR-də sənaye məhsullarının ümumi artım sürəti yeni sənaye müəssisələrinin yaradılması hesabına olmuşdur. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1951-1960-cı illərdə Muxtar Respublikada 5 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdi [38, s.90].

Belə sənaye müəssisələrindən yeni istilik-elektrik stansiyasını, Parağaçay və Gümüşlü dağ-mədən müəssisələrini, Naxçıvan şəhərində ət kombinatını, tikiş fabrikini, Badamlı mineral su dolduran zavodu göstərmək olar.

Müharibədən sonrakı illərdə Azərbaycan xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planda sənayenin və

kənd təsərrüfatının inkişafını müharibədən əvvəlki səviyyəyə çatdırmaq, bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü [1, s.105].

1946-cı il sentyabrın 9-da Naxçıvan MSSR Ali Sovetinin VII sessiyası Azərbaycan SSR-in dördüncü beşillik planı haqqında Qanuna uyğun olaraq "1946-1950-ci illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan" təsdiq edildi. Bu planda yeni sənaye müəssisələrinin yaradılması, geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi, sənaye məhsullarının istehsalını müharibədən əvvəlki səviyyəyə çatdırmaq və bu səviyyəni ötüb keçmək kimi məsələlər nəzərdə tutulmuşdur.

Beşillikdə Naxçıvan MSSR Sənaye Nazirliyi və onun tabeliyində olan müəssisələr üzrə ümummilli məhsul istehsalı 12,4 milyon manat, o cümlədən yerli sənaye üzrə 5,1 milyon (1926-1927-ci illərin qiyməti ilə) müəyyən edilmişdir ki, bu da müharibədən əvvəlkinə (1940-cı ilə) nisbətən 63% artıq idi [56, v.169].

Dördüncü beşillikdə ittifaq əhəmiyyəti olan sənaye sahələrinin inkişafına xüsusi diqqət yetirilmişdi. Plana görə Ordubad ipək və konserv zavodları, Culfa dağ-mədən kombinatında istehsal xeyli genişləndirilməli, Parağaçay kombinatı işə salınmalı idi.

Əsaslı tikinti sahəsində Naxçıvan duz mədəninə su kəmərinin çəkilməsi, kərpic zavodlarının mexanikləşdirilməsi, mexaniki emalatxanaların genişləndirilməsi, Badamlı mineral sular zavodunun, şərab anbarlarının və s. obyektlərin tikilməsi də beşillik plana daxil edilmişdi.

Qeyd etmək olar ki, dördüncü beşillik plan, Böyük Vətən müharibəsinin gedişi nəticəsində dayandırılmış inkişaf yolunu davam etdirdi. Bu yol muxtar respublikada dinc məqsədlər üçün sənaye məhsulları istehsal etmək, yerli sənaye müəssisələri tikmək, yenidən qurmaq, geoloji kəşfiyyat işləri aparmaq və genişləndirməkdən ibarət idi.

Naxçıvanda sənaye müəssisələrinin fəhlələri, mühəndis-

texniki işçiləri və qulluqçuları da müharibədən sonrakı 4-cü beşilliyi yüksək istehsalat qələbələri ilə başa çatdırdılar. Muxtar respublikada sənayenin istehsal planı beşilliyin sonunda, yəni 1950-ci ildə 102,3% yerinə yetirilmişdi, o cümlədən yerli sənaye 120,8% ittifaq və respublika tabeliyində olan sənaye 100,1% ödəmişdi [57, v.59].

1950-ci ildə muxtar respublikada sənaye məhsulu istehsalı 1940-cı il səviyyəsini 1,4 dəfə ötüb keçdi [2, s.4].

Dördüncü beşillikdə xalq təsərrüfatını dinc quruculuq dövrünün tələblərinə uyğun olaraq bərpa və inkişaf etdirmək üçün böyük kapital qoyuluşu həyata keçirildi. Yağ və pendir zavodları, mərmər və mebel fabriki, başqa müəssisə və istehsal sahələri tikilib istifadəyə verildi. Badamlı mineral su doldurma zavodunun tikintisinə başladı. Ordubad baramaaçma fabriki yenidən quruldu. Ordubadın Parağaçay və Şərurun Gümüşlü dağlarında böyük əhəmiyyəti olan yeni dağ mədənləri kəşf olundu. Muxtar respublikanın müalicə əhəmiyyəti olan mədən sularının zəngin bulaqları aşkar edildi. Qarabağlar və Xok kəndlərində muxtar respublikada ilk dəfə olaraq kənd elektrik stansiyaları tikildi. 1940-cı ilə nisbətən 1950-ci ildə elektrik enerjisi istehsalı 4,5 dəfə artdı. Bütün bunların nəticəsində 1940-cı ilə nisbətən 1950-ci ildə muxtar respublikada olan göstərici Azərbaycanın orta göstəricilərindən 39% çoxdur [51, s.24].

Muxtar respublikada sənaye məhsullarının dördüncü beşillikdə bu qədər artması fəhlə və qulluqçular arasında yarışın (rəqabətin) genişlənməsi, sənaye müəssisələrinin yenidən qurulması, kütləvi izahat işlərinin aparılması, əmək məhsuldarlığının artması, məhsulun maya dəyərinin aşağı salınması kimi obyektiv amillər nəticəsində mümkün olmuşdu.

Müharibədən sonrakı beşillik inkişaf planının əsas vəzifəsi xalq təsərrüfatını dinc quruculuq məqsədlərinə yönəltmək olduğundan əsas diqqət istehsalın bu istiqamətdə bərpasına yönəldilirdi. Bununla belə, bir sıra yeni sahələrin inkişaf etdirilməsi üçün də

müəyyən addımlar atılmışdı, lakin bu sahədə fəaliyyətin miqyası xeyli məhdud olmuşdu. Ona görə də Azərbaycan və Naxçıvan iqtisadiyyatında uzun müddət davam edən birtərəfli inkişaf meyli bu dövrdə də qalırdı.

Müharibədən sonrakı xalq təsərrüfatının ilk beşillik planı keçmiş SSRİ, o cümlədən Azərbaycan iqtisadiyyatının bərpa və inkişaf vəzifəsini nəzərdə tutsa da, respublikada onların gerçəkləşdirilməsi tam həyata keçirilmədi. Ona görə yenə də birtərəfli inkişaf əlamətlərini özündə saxlayan Azərbaycan və Naxçıvan iqtisadiyyatının uzun illərdən bəri yaratdığı sosial-iqtisadi problemlər məhz bu dövrdə özünü daha kəskin şəkildə göstərməyə başladı. Respublika ərazisi daxilində məhsuldar qüvvələrin həmahəng yerləşdirilməsində yaranan uyğunsuzluqlar nəticəsində onun ayrı-ayrı bölmələri arasında sosial-iqtisadi inkişafın ümumi səviyyəsinə görə tarixən özünü biruzə verən fərqlər artmaqda davam edirdi.

Ərazinin başqa hissələrinin təbii sərvətlərindən və digər imkanlardan kifayət qədər istifadə edilməməsi nəticəsində onların əksəriyyətində sənaye məhsulları istehsalının həcmi xeyli aşağı səviyyədə idi. Kənd təsərrüfatının lazımi dərəcədə inkişaf etməməsi, buna əsasən həm də emal sənayesinin xeyli zəif inkişafı əksər regionların sosial-iqtisadi yüksəlişini məhdudlaşdırdı. Nəticədə əhalinin yüksək təbii artımı baş verən ərazilərdən Bakı-Sumqayıt bölməsinə kütləvi və daimi axın prosesi baş verdi ki, bu da bütövlükdə respublikada ciddi sosial problemlərin yaranmasına səbəb oldu [1, s.115]. Halbuki, Azərbaycanın regionlarında, xüsusilə Naxçıvanda əhalini məskunlaşdırmaq üçün yeni sənaye müəssisələrinin yaradılmasına böyük ehtiyaclar var idi.

Keçmiş SSRİ Dövlət Plan komitəsində yerləşən ermənilərin Naxçıvanı Ermənistana birləşdirmək üçün məkrli siyasətləri mərkəzi inandırmışdı ki, Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələri yaratmaq və inkişaf etdirmək qeyri mümkün-

dür. Buna baxmayaraq mərkəzin fabrik və zavodlarının xammala olan tələbatı, xüsusilə dağ-mədən sənaye xammallarına olan ehtiyacı muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılması və inkişafı üçün zəmin yaratmışdı.

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dördüncü beşilliyin qarşısında duran vəzifələrin yerinə yetirilməsi regionun tərəqqi və inkişafı üçün daha geniş perspektivlər açdı və zəmin yaratdı. Böyük Vətən müharibəsindən sonrakı beşillik dövründə xalq təsərrüfatının bərpa edilib və inkişaf etdirilməsi nəticəsində möhkəmləndirilmiş təməl üzərində beşinci beşilliyin (1951-1955-ci illər) əsası qoyuldu.

Beşinci beşillikdə məhsulun keyfiyyətini yüksəltmək və çeşidini artırmaq sahəsində mühüm tədbirlər görülməli idi.

Əvvəllərdə olduğu kimi, beşinci beşillikdə də sənayenin daha da inkişafına çox böyük əhəmiyyət verilirdi: 1955-ci ildə ümumiyyətlə ölkədə sənaye istehsalının səviyyəsi 1950-ci ilə nisbətən 70% artmalı idi [6, s.202].

1955-ci ildə Naxçıvan MR-də sənaye müəssisələrinin ümumi məhsulu 1950-ci ilə nisbətən 90,5%, o cümlədən yerli sənaye 66,7%, yeyinti sənayesi 117,3%, sənaye kooperasiyası 45,5%, yüngül sənaye 29,3% artırılması nəzərdə tutulurdu. Beşinci beşilliyin sonunda yerli tikinti materialların istehsalı 2-2,5 dəfə, yeyinti sənaye 2,2 dəfə artırılmalı idi. Çox işlənən mallar istehsalının səviyyəsi 70%-ə yüksəlməli idi [58, v.52].

1951-1955-ci illərdə Naxçıvan MR-də xalq təsərrüfatının inkişafı üçün 136797,9 min manat əsaslı vəsait nəzərdə tutulmuşdu. Bu vəsaitdən 3429,5 min manatı Naxçıvan MR Sənaye İttifaqına, 4837,9 min manatı Naxçıvan MR Yerli Sənaye Nazirliyinə, 16154,2 min manatı Naxçıvan MR Yeyinti Sənaye Nazirliyinə 9500 min manatı Sabir adına Əlillər arteli üçün müəyyən edilmişdi [59, v.4].

Naxçıvan MR sənaye işçiləri beşillik planı yerinə yetirmək

üçün ilk gündən fədakarlıq göstərdilər. Nəticədə 1951-ci ildə sənaye üzrə məhsul istehsalı planı 108,7%, 1952-ci ildə isə 112,7% yerinə yetirilmişdi. Bununla yanaşı Naxçıvan MR Yerli Sənaye Nazirliyi, Naxçıvan Sənaye İttifaqı dövlət planlarını yerinə yetirməmişdi.

1953-cü ilin dekabr ayında Azərbaycan KP Naxçıvan Vilayət təşkilatının XX konfrasında muxtar respublika sənaye müəssisələrinin fəaliyyəti dərin və hərtərəfli təhlil edildi, Naxçıvan MR sənayesi qarşısında duran məsul vəzifələrin həyata keçirilməsi sahəsində konkret tədbirlər işlənib hazırlandı. Konfrans yerli sənaye müəssisələrinə rəhbərliyi kökündən yaxşılaşdırmağa, iqtisadiyyatın inkişafının perspektiv məsələləri ilə daha dərindən məşğul olmağa, sənaye işçilərinin bütün qüvvələrini sənaye istehsalının daha da artırılması uğrunda mübarizəyə səfərbərliyə almağa, sənaye istehsalı üzrə beşinci beşillik planın tamamilə yerinə yetirilməsini təmin etməyə çağırdı.

Naxçıvan vilayət təşkilatının XX konfransının qərarlarına əməli işlə cavab verən muxtar respublikanın sənaye işçiləri daimi texniki tərəqqidən ən yüksək texnikaya keçilməsində, əmək məhsuldarlığının yüksəldilməsində, məhsulun maya dəyərinin aşağı salınmasında yeni texnikanın istehsala tətbiq edilməsində görkəmli nailiyyətlər qazandılar. Məhz bunun nəticəsindədir ki, Naxçıvan MR sənaye nazirliyinin müəssisələri beşinci beşillik planı vaxtından əvvəl, 4 il 6 ayda yerinə yetirdilər [62, v.7].

Beşinci beşillikdə muxtar respublikada sənaye istehsalını 1950-ci ilə nisbətən 67,6% sənaye kooperasiyası üzrə 40,5%, şərab tresti 282,5% yerinə yetirilmişdi.

1955-ci ildə yerli tikinti materiallarının istehsalı 1950-ci ilə nisbətən 3 dəfə artırılmışdı [62, v.8].

Beşinci beşillik planın nəticələrinin təhlili göstərir ki, 1955-ci ildə Naxçıvan MR Yerli Sənaye Nazirliyinin müəssisələri 1950-ci ilə nisbətən ümumi məhsul istehsalının artım planını 140,6%, Naxçıvan Sənaye Şurası 165,5%, Naxçıvan Şərab tresti isə

382,5% yerinə yetirilmişdi [62, v.14].

1951-1955-ci illər müvafiq olaraq 1950-ci illərdə Naxçıvan Muxtar Respublikasında sənayenin şəbəkəsi xeyli genişləndi. Naxçıvan, Ordubad şəhərləri ilə yanaşı Şərur, Şahbuz və Culfa rayonlarında yeni sənaye müəssisələri tikilib istifadəyə verildi.

1951-1955-ci illərdə Şərur rayonunda elektrik şəbəkəsi, Ordubadda Parağaçay, Şərurda Gümüşlü dağ-mədən sənaye müəssisələri, Naxçıvanda çörək zavodu, ət kombinatı, Şahbuz rayonunda Badamlı mineral su doldurma zavodu və s. sənaye müəssisələri tikilib istismara verildi. Nəticədə sənayenin yeni sahələri (mineral sular, ət-süd, çörək-bulka, əlvan metal istehsalı) meydana gəldi və bu sahələr hesabına sənaye məhsulu istehsalı 1951-1955-ci illərdə daha sürətlə (Azərbaycanda 45%, Naxçıvan Muxtar Respublikasında 87%) artdı [51, s.24].

1951-1960-cı illərdə muxtar respublikada Mebel fabrikası, elektrik şəbəkəsi, ət-süd kombinatı, mərmər fabriki, Badamlı mineral sular zavodu, Parağaçay, Gümüşlü dağ-mədən sənayesi kimi mühüm sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi muxtar respublika iqtisadiyyatında böyük rol oynadı.

1955-ci ildə mebel fabriki 800,0 min manatlıq, mərmər fabriki isə 28,6 min ton məhsul istehsal etmişdi [62, v.16].

1955-ci ildə Naxçıvan MR sənaye müəssisələrinin ümumi məhsul istehsalı planı 107,6%, o cümlədən yerli tabelikdə olan sənaye sahələri 111,5% və respublika tabeliyində olan sənaye sahələri 105,6% yerinə yetirmişlər. Ordubad sənaye kombinatı dövlət planlarını 127,2%, Şərur rayon kombinatı 116,3%, Culfa rayon kombinatı 106,3%, Naxçıvan sənaye kooperasiyası 111,1%, Badamlı mineral sular zavodu 104,1%, Şərur çox sənədli sənaye arteli 114,7%, Azərbaycan SSR X illiyi adına Ordubad sənaye arteli 105,0%, Naxçıvan çox sənədli sənaye arteli 103,1%, Naxçıvan ət soyuducu kombinatı 129,4%, Naxçıvan yağ sənayesi 107,9%, Ordubad ipək fabrikası 114,0%, Şərur pambıq təmizləmə zavodu 106,0%, Asfalt beton zavodu

168%, Çörək-bulka zavodu 107% yerinə yetirilmişdi [62, v.18]. Beşillik planın müvəffəqiyyətlə muxtar respublikada yerinə yetirilməsi onun iqtisadi və sənaye potensialını daha da gücləndirdi. Sənayenin inkişafı və yüksəlişi üçün maddi baza yaradıldı.

Muxtar respublikada beşinci beşilliyin vaxtından əvvəl yerinə yetirilməsi respublika zəhmətkeşlərinin çox böyük qələbəsi olmaqla, qarşıdakı VI beşilliyi də vaxtından əvvəl yerinə yetirmək üçün zəmin yaratdı. Sənaye işçilərini yeni daha mürəkkəb vəzifələrin həllinə hazırladı.

1956-1960-cı illər üçün xalq təsərrüfatının inkişafına dair altıncı beşillik plan haqqında XX qurultayının direktivlərində yaxın beş ildə sənayenin konkret vəzifələri ifadə olundu. Ölkənin, milli respublikaların iqtisadiyyatının daha da inkişaf etdirilməsi altıncı beşillik planın xüsusi vəzifəsi idi.

25 yanvar 1956-cı ildə keçirilən Azərbaycan KP XXI qurultayının qərarları Naxçıvan MR-nə də aid idi. 1956-1960-cı illərdə Naxçıvan MR-də xalq təsərrüfatının inkişaf planında sənayeni inkişaf etdirmək vəzifəsi qarşıya qoyulmuşdu.

1956-1960-cı illərdə Naxçıvan MR-də xalq təsərrüfatını inkişaf etdirmək üçün əsaslı vəsaitin ümumi həcmi bütövlükdə 216746,0 min manat idi. Bu vəsaitdən 60000 min manatı Naxçıvan MR Yerli Sənaye Nazirliyi, 32600 min manatı Naxçıvan MR Sənaye Şurası, 250000 min manatı Naxçıvan MR Yeyinti Nazirliyi üçün müəyyən edilmişdi. Bu da muxtar respublikada sənayenin daha sürətlə inkişaf etdirməyə imkan verirdi.

Naxçıvan MR sənaye müəssisələrinin kollektivləri qabaqcıl təcrübələrdən istifadə edərək, altıncı beşilliyin birinci ili olan 1956-cı ildə sənayenin ümumi istehsal planını 104,1% yerinə yetirmişdi. 1956-cı il muxtar respublika sənaye müəssisələri dövlətə plandan əlavə 5,3 milyon manatlıq məhsul vermişdilər [64, v.47].

1957-ci ildə muxtar respublikanın sənayesi 166 milyon 298 min 700 manatlıq məhsul istehsal etmiş və ya dövlət planını

102% yerinə yetirmişdir ki, bu da 1956-cı ildəkindən 6 milyon 486 min 900 manatlıq və yaxud 4,05% çoxdur. O cümlədən, Azərbaycan SSR Xalq təsərrüfatı Şurasının tabeliyində olan sənaye təşkilatları 107 milyon 279 min 700 manatlıq məhsul istehsal etmiş və ya ümumi məhsul buraxılışı planını 108,4% yerinə yetirdilər. Bu isə 1956-cı ildəkindən 16 milyon 363 min 200 manat və ya 18% artıqdır [22, s.4].

Naxçıvan MR-in sənaye işçiləri altıncı beşilliyin iki ilində əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmiş, əmək məhsuldarlığını xeyli artırmış, məhsulun maya dəyərini aşağı salmışdılar. Məhz bunun nəticəsi olaraq 1958-ci ildə sənaye məhsulları istehsalı planı 101,6% yerinə yetirmişdi [74, v.5]. Naxçıvan MR-də sənayenin ümumi məhsulunun artım sürəti 1940-cı ildəkinə nisbətən 1958-ci ildə 246% olmuşdu [55, s.33].

Naxçıvan MR-nin sənaye işçiləri 1959-cu ildə 1958-ci ildəkinə nisbətən 29 milyon manatdan çox sənaye məhsulları istehsal etmişdilər.

1959-cu ildə muxtar respublikanın rayonları dövlət sənaye istehsal planlarını aşağıdakı qaydada yerinə yetirmişdi:

Naxçıvan rayonu üzrə 100,6%, Ordubad rayonu üzrə 104,3%, Culfa rayonu üzrə 102,5%, Şahbuz rayonu üzrə 105,2%, Şərur rayonu üzrə 97,6%.

1959-cu ildə ümumi sənaye məhsul istehsal planı Yerli Sənaye Nazirliyinin müəssisələri üzrə 101,5% yerinə yetirmişdi [65, v.5].

50-60-cı illərdə Naxçıvan MR-də sənayenin inkişafı baxımından irəliləyiş olmuşdur. Belə ki, muxtar respublikada sənayedə ümumi məhsul istehsalının artım sürəti 1940-cı ildəkinə nisbətən 1950-ci ildə 144%, 1960-cı ildə 28,5%, 1961-ci ildə 301%, 1962-ci ildə 314%-ə çatdırılmışdı [55, s.33].

Sənaye məhsullarının artım sürəti ikinci dünya müharibəsindən sonrakı illərdə Naxçıvan MR-də sənaye potensialının yaradılması,

inkişafı ilə istismara verilməsi hesabına mümkün olmuşdur.

Böyük Vətən müharibəsindən sonrakı illərdə sənaye potensialının yaradılması nəticəsində Naxçıvan MR-də sənaye xeyli inkişaf etmiş və genişləndirilmişdi. Belə ki, muxtar respublikada dağ-mədən, elektroenergetika, yeyinti, yüngül, tikinti materialları sənayesi və sənayenin digər sahələri yaradılmışdır. Burada sənayeni inkişaf etdirmək üçün külli miqdarda filiz və qeyri-filiz yataqları, mineral sular, kənd təsərrüfatı məhsulları, ekoloji şərait, əmək ehtiyatları və s. amillər vardır.

Ümumiyyətlə, müharibədən sonrakı illərdə Naxçıvan Muxtar Respublikasının sənayesi çətin, ziddiyyətli və eyni zamanda uğurlu inkişaf yolu keçmişdir.

### 1.2.Naxçıvanda əsas sənaye sahələrinin quruluşu və inkişafı *(1969-cu ilə qədərki dövr)*

Muxtar respublikada üç sənaye sahəsini xüsusilə fərqləndirmək lazımdır. Bunlar içərisində dağ-mədən, yeyinti və yüngül sənaye sahələri digər sənaye sahələri içərisində mühüm rola malikdir. Dağ-mədən sənayesi sahəsində Azərbaycan Respublikası özünün çox zəngin təbii sərvətləri ilə Zaqafqaziyada mühüm yer tutur. Təbii sərvətlərlə zəngin olan ərazilərdən biri Naxçıvan Muxtar Respublikasının ərazisidir.

Yeraltı və yerüstü təbii sərvətlərlə zəngin olan Naxçıvan MR-in iqtisadiyyatında dağ mədən sənayesi mühüm yer tutur. Muxtar respublika ərazisində böyük əhəmiyyəti olan müxtəlif filiz və qeyri-filiz yataqları geniş yayılmışdır. Bu yataqlar başlıca olaraq molibden, mis, qurğuşun, sink, daş duz, pirit, mərgümüş, dolomit, kükürd, odadavamlı gillər, mərmər, tuf daşı, əhəng daşları, gəc, ondaluzit, gips, barıt, gümüş, qızıl, okra, kvars, torf, uran, marqa, malaxit, melenterit, həqiq daşları, mineral boyalar, bir çox faydalı mədən suları və s. ibarətdir [7, s.170; 5, s.118].

Naxçıvan ərazisinin təbii sərvətlərə malik olmasına baxma-

yaraq, burada duz mədəni istisna olmaqla dağ-mədən sənayesi Böyük Vətən müharibəsindən sonrakı illərdə yaradılmış və inkişaf etdirilmişdir.

50-60-cı illərdə Naxçıvan MR-də dağ mədən sənaye kompleksi hər tərəfli və dinamik inkişaf yoluna qədəm qoyması üçün əməli tədbirlər həyata keçirilmişdi. Nəticədə muxtar respublika ərazisində iki dağ-mədən sənaye müəssisəsi Parağaçay molibden və Gümüşlü qurğuşun-sink mədənləri yaradılmışdı. Yeni yaradılmış müəssisələr də digər keçmiş sənaye müəssisələri kimi mərkəzin fabrik və zavodlarını xammalla təmin edən zəruri məsələlərdən biri idi. Qeyd etmək olar ki, keçmiş sovet ittifaqının tələbatı ilə əlaqədar olaraq, 1950-1960-cı illərdə filiz-mədən sənayesinin sürətlə inkişafına çox ciddi fikir verilmişdir.

Keçən əsrin 50-60-cı illərində sənayenin xammal, enerji mənbələrinə və istehsal regionlarına yaxınlaşması prinsipi əsasında muxtar respublika ərazisində təbii sərvətlərdən istifadə edilməsi işi xeyli genişlənmişdi. Bu dövrdə Naxçıvan MR-də dağ mədən sənayesi daha geniş inkişaf etdirilərək, ümumi Zaqafqaziyanın qabaqcıl sənaye sahələrindən birinə çevrilmişdi. Naxçıvan MR-də dağ mədən sənaye məhsullarının bir qismi Ufa, Novoçerkaski, Kuybışev, Xarkov, Çelyabinski, Yaroslavl, Sverdlovski, İrəvan, Üst-Kameneqorski, Dişidinski və başqa yerlərdə əlvan və kimya metallurgiya zavod və kombinatlarına göndərilirdi.

Böyük Vətən müharibəsindən sonrakı illərdə muxtar respublika ərazisində yerləşən və istismar olunan Parağaçay molibden, Gümüşlü sink, duz-mədən sənaye müəssisələrinin fəaliyyəti daha da gücləndirilmişdi.

Dağ-mədən sənayesinin mühüm sahələrindən birini molibden istehsalı sahəsi tutur. Mənbələrin vermiş olduğu məlumata görə Naxçıvan MR-də molibden yataqları 1951-1952-ci illərdə müəyyən edilmişdi. Parağaçay kəndi ətrafındadır. Dəniz səviyyəsindən

2300-2800 m yüksəklikdə yerləşir. Yataq istismar obyekti kimi 4 kvars molibden damarlarından ibarətdir. Əsas filiz mineralları prit, xalkoprit və molibdendir. Yataq 1952-ci ildən istismara verilmişdir [66, v.75].

Keçmiş SSRİ Əlvan Metallurgiya Sənaye naziri "Azərbaycan SSR ərazisində əlvan və az tapılan metalların kəşfi və axtarışlarını gücləndirmək, Parağaçay molibden müəssisəsində tikinti işlərini yaxşılaşdırmaq barəsində" 1952-ci il aprelin 19-da qərar qəbul etmişdi [97, v.3].

İqtisadi cəhətdən çox böyük əhəmiyyətə malik olan Parağaçay dağ-mədən sənayesinin yaradılması bir sıra çətinliklərlə qarşılaşdı. İşçi qüvvəsinin, yol təsərrüfatının, yanacaq, enerji və s. amillərin azlığı və olmaması müəyyən çətinliklər törədirdi. "Azərbaycan SSR ərazisində SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin müəssisələrinə köməklik göstərmək barədə" Azərbaycan K/b/P MK və Azərbaycan SSR Nazirlər Soveti 1952-ci il mayın 27-də birgə qərar qəbul etmişlər. Bu qərarı Azərbaycan K/b/P Naxçıvan Vilayət Komitəsi və Naxçıvan MSSR Nazirlər Soveti 1952-ci il iyunun 18-də birlikdə müzakirə edərək müvafiq qərar qəbul etmişlər [67, v.2]. Həmin qərarda deyilir: "Azərbaycan K/b/P rayon partiya komitələrindən və rayon icraiyyə komitələrinin sədrlərindən tələb edilsin ki, Naxçıvan MSSR ərazisində olan SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin və Azərbaycan SSR-nin müəssisələri üçün lazımi köməklik göstərsinlər" [67, v.5].

1953-cü ildə Parağaçayda ən qiymətli metal istehsal edən saflaşdırıcı fabrik tikilib qurtarmış və istifadəyə verilmişdi.

Parağaçay dağ-mədən sənayesinin perspektivlərini və onun gələcək inkişafını nəzərə alan Azərbaycan SSR Ali Soveti Rəyasət heyəti Parağaçay molibden yataqları yaxınlığında şəhər tipli Parağaçay qəsəbəsinin yaradılması haqqında 1954-cü il 13 avqust tarixdə fərman vermişdi [68, v.1]. Bu fərmana əsasən Parağaçay molibden yataqları yaxınlığında şəhər tipli fəhlə

qəsəbəsi yaradılmışdı.

Az vaxt ərzində muxtar respublikanın qabaqcıl müəssisələrindən olan Parağaçay dağ-mədən sənaye idarəsi 1954-cü ildə əmtəə məhsulları istehsalını 126,9 faiz [67, v.3], molibden istehsalını 111,0 faiz, filizin çıxarılmasını 110,2 faiz, filizin saflaşdırılmasını 115,0 faiz, filizdən molibdenin tərkibinin yüksəldilməsi 102,3 faiz yerinə yetirilmişdi [67, v.12].

1956-cı ilin əvvəlində kollektiv molibden sənaye məhsulu planını 109,1%, filiz çıxarmanı 101,8%, filizin saflaşdırılmasını 103,6%, filizdə molibdenin miqdarı 106,4%, dağ mədən işləri 217,6%, əmtəə məhsulu planını isə 109,2% yerinə yetirmişdir [90, v.3].

Ən yeni texnika ilə təchiz olunmuş Parağaçay dağ-mədən sənaye müəssisəsi ildən-ilə öz istehsal gücünü artırmışdı. 1969-cu ildə məhsul satışı planı 111% yerinə yetirilmiş, məhsulun artım sürəti 1968-ci ilə nisbətən 110% olmuşdu [91].

Muxtar respublikada yerləşən dağ-mədən sənaye müəssisələrindən biri də Gümüşlü qurğuşun-sink yataqlarıdır. Gümüşlü dağ-mədən sənayesi Naxçıvan MR Şərur rayonunda Zaqafqaziya dəmir yolundan 18 km, Şərqi Arpaçayın sol sahilində çox əlverişli bir sahədə yerləşir. Bu mədən də müharibədən sonrakı illərdə istifadəyə verilmişdi. Keçmiş SSRİ Əlvan Metallurgiya Sənaye Nazirliyinin göstərişi ilə 1952-ci ildən Gümüşlü dağ-mədən yataqlarında, Azərbaycan SSR geoloji kəşfiyyat idarəsi tərəfindən çox da böyük olmayan bir fabrik tikilmişdi.

1952-1955-ci illərdə aparılmış geoloji kəşfiyyat işləri nəticəsində məlum oldu ki, Gümüşlü yatağı şimal, şimal-şərq istiqamətində 3,5 km uzanır. Şərti olaraq geoloqlar yatağı 4 hissəyə bölmüşdülər. Birinci sahəyə aid edilən şimal hissə 1953-cü ildən istifadə edilir. 2 sahə mərkəz, 3 sahə şərq və cənub hissələri əhatə edir ki, bu sahələrdə 1952-1955-ci illərdə tədqiqat işləri aparılıbdır. 4-cü sahə Yaycı hissəsi adlanır. Burada tədqiqat işləri 1955-ci ilin sonunda aparılmışdır. Eyni zamanda geoloqlar

Danzik sahəsin də tədqiq etmişlər.

Birinci sahədə filizli damar 130 m dərinlikdə və 300 m-lik şaxtada, ikinci lay isə ondan 100 m aralıda yerləşir [70, v.145].

Gümüşlü yatağında mineroloji tədqiqat işləri 1954-1955-ci illərdə V.Q.Kruqlov və L.A.Yevseyev tərəfindən aparılmışdı. Yatağın tərkibində qalenit, sfalerit, az halda pirit, xalkopirit, arqentit, çerusit, anqlevit, nadir hallarda saf filizlər: kovelinə, xalkovinə, malaxitə, liminvitə rast gəlinir.

Qeyri-filiz minerallarından kvarts, barit, dolomit, ankerit, kalsit və s. var. Əsas filiz komponentlərindən başqa, spektral analiz nəticəsində məlum olubdur ki, sürmə, mis, gümüş, titan, qalay, vanadium və marqans izləri var [70, s.147].

Gümüşlü polimetal yatağında filizdə qurğuşun 4,5%, sink isə 0,5%-dir. Yataq 1954-cü ildən istifadəyə verilmişdi [ 59, s.172].

1958-ci ildə Gümüşlü qurğuşun-sink idarəsinin göstəricisi belə olmuşdu: əmtəə məhsulu planı 112%, filizin çıxarılması 114,6%, tikinti işləri 102,5%, konsentrat istehsalı 107,0%, filizin emalı 112,4%, filizdən metal alınması 92,6%, məhsulun keyfiyyəti 9,8%, dağ hazırlıq işləri 109,5%, qazma işlərini 107,8%, geoloji kəşfiyyat işləri planı 162,6% yerinə yetirilmişdi [71, v.76,78].

Sonrakı illərdə də məhsul istehsalı getdikcə artmışdır. Belə ki, 1969-cu ildə Gümüşlü dağ-mədən sənaye müəssisəsində məhsul satış planı 102% yerinə yetirilmişdi. İstehsalın artım sürəti 1968-ci ilə nisbətən 80% olmuşdu [91].

Qeyd etmək lazımdır ki, muxtar respublika ərazisində olan təbii sərvətlər tükənməzdir. XX əsrin II yarısında aparılan kəşfiyat işləri nəticəsində geoloqlarımız Naxçıvan MR ərazisində böyük təsərrüfat əhəmiyyəti olan Ağdərə, Nəsrivaz, Pəzməri, polimetal filiz yataqlarını, Xalxal, Sirab, Qahab, Göydağ, Misdağ, Yaşıllıq mis porfir yataqlarını, Nehrəm, Püsyan duz yataqlarını, Buzqov, Şahtaxtı, Qarabağlar travertin yataqlarını,

Xalac mərmər yatağını, mineral su mənbələrini, Darıdağ mərgümüş yatağını, Şəkərdərə, Ağyurd, Pyazbaşı qızıl yataqlarını və s. yataqları aşkar etmişdilər.

Naxçıvanda dağ-mədən sənayesinin ən qədim sahələrindən biri duz çıxarılmasıdır. Duz dağı adlanan ərazidə dəniz səviyyəsindən 850-1200 metr yüksəklikdə, Naxçıvan şəhərindən şimal-qərb tərəfdə 10 km məsafədə yerləşən duz mədəni çox qədim zamanlardan istifadə edilən təbii, zəngin duz ehtiyatlarına malik yataq olub, oradan xörək duzu çıxarılır. Duz mədənində faydalı qatın qalınlığı 60 metr, ehtiyatı isə 97 milyon tona çatır [26, s.277].

Hazırda Naxçıvan MR bütün Zaqafqaziyada yeganə daş duz istehsal edən regiondur. Burada istehsal edilən daş duz mal-qara və müəyyən texniki sənaye müəssisələri (gön, dəri, sabun istehsalında, soyuducu və s. işlərdə) üçün istifadə edilir. O müxtəlif qatışıqlardan (gips, mergil və s.) təmizləndikdən sonra mətbəx duzu kimi istifadə edilir. Naxçıvan duzu bir mətbəx duzu kimi çox keyfiyyətlidir. 20-ci illərdə sənayenin digər sahələri kimi duz istehsalı sənayesi də yenidən yaradılmışdır. Muxtar respublikada duz istehsalının texniki səviyyəsi xeyli yüksəldilmiş, hazır məhsulun daşınması üçün mədəndə dəmir yolu stansiyasını birləşdirən hava məftil yolu çəkilmişdir. Bu tədbirlər nəticəsində duz istehsalı 1924-cü ildəki 18,5 min tondan 1940-cı ildə 45,5 min tona çatdırılmışdı [2, s.41]. 1950-ci ildə duz mədəninin istehsalı 1913-cü il səviyyəsini 12 dəfə ötüb keçmişdir. Lakin 1940-cı il səviyyəsinə çatmamışdır. Bunun əsas səbəbi ondan ibarətdir ki, müharibə digər sənaye sahələri kimi duz mədəninin də işinə ağır zərbə vurmuş və duz istehsalı sonrakı illərdə getdikcə azalmışdı. Belə ki, duz mədənində 1950-ci ildə natural şəkildə 44,5 min ton duz məhsulu istehsal edildiyi halda, 1953-cü ildə 40,3 min ton, 1955-ci ildə 37,9 min ton, 1956-cı ildə 35,0 min ton, 1957-ci ildə 15,7 min ton natural şəkildə duz məhsulu istehsal edilmişdi.

Naxçıvan duz mədənində yaranmış tarixi gerilik 1959-cu ildə qismən aradan qaldırılmışdı. Duz mədəninin kollektivi mütərəqqi üsullardan istifadə edərək 1959-cu ildə 45 min ton natural şəkildə məhsul istehsal etmişdilər [55, s.35]. İllik plan 116,5% yerinə yetirilmişdi [72, v.6]. 1959-cu ildə duz mədənin yeni texnikanın istehsalata tətbiqinə, istehsal proseslərinin təkmilləşdirilməsinə, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilməsi nəticəsində muxtar respublikada 1965-ci ildə 72,7 min ton natural şəkildə duz istehsal edilmişdir [38, s.30].

Lakin səkkizinci beşilliyin iqtisadi göstəricilərinin təhlili göstərir ki, məhz bu illərdə duz istehsalı yenidən azalmışdır. Belə ki, 1965-ci ildə Naxçıvan Muxtar Respublikasında 72,7 min ton duz istehsal edildiyi halda, 1966-cı ildə 65,6, 1967-ci ildə 52,0, 1968-ci ildə 53,0, 1969-cu ildə 44,6, 1970-ci ildə 62,1 min ton duz istehsal edilmişdi [38, s.30].

Naxçıvan MR ərazisində daş duz yataqlarının çox olmasına baxmayaraq, səkkizinci beşillikdə erməni xəyanəti nəticəsində duz mədəni böhrana düşmüşdü.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, 50-60-cı illərdə Naxçıvan MR-da dağ-mədən sənayesinin aparıcı müəssisələrindən olan Parağaçay və Gümüşlü dağ-mədən sənaye müəssisələri yüksələn xətlə inkişaf etdiyi halda, duz mədəni qeyri-sabit inkişaf etdirilmişdir.

Muxtar respublikanın iqtisadiyyatında yeyinti sənayesi öndə gedən sənaye sahələrindən biri olmuşdur. Azərbaycanın digər iqtisadi rayonlarından nisbətən daha çox sahəli quruluşa malik olması ilə səciyyələnən Naxçıvan MR yeyinti sənayesi burada istehsal edilən ümumi sənaye məhsulunun yarıdan çox hissəsini vermişdir. 50-60-cı illərdə muxtar respublikanın yeyinti sənayesində bir sıra yeni sahələr yaradılmış, bütün sahələrdə məhsul istehsalı xeyli artmış, şərabçılıq, həmçinin mineral sular istehsalı yüksək sürətlə inkişaf etmişdi. Tütün fermentasiya və pivə

sənayesi kimi mühüm sahələr istifadəyə verilmişdi. Yeyinti sənayesində baş vermiş müsbət dəyişikliklər muxtar respublikanın iqtisadiyyatı, xüsusən onun kənd təsərrüfatının yüksəlişi ilə əlaqədardır. Mineral sular doldurulması Naxçıvan MR yeyinti sənayesinin inkişaf səviyyəsinin xeyli yüksəldilməsinə səbəb olmuşdur. Bütün dövrlərdə muxtar respublikada yeyinti sənayesinin inkişafı hökumətin diqqət mərkəzində olmuşdu. Bu qayğı və diqqətin nəticəsidir ki, burada konserv-şərab, mineral su, tütün fermentasiya sənaye sahələri və digər qrup (ət, süd, qənnadı, çörək bişirmə, pivə, un və s.) sənaye sahələri muxtar respublikanın yerli tələbatının ödənilməsi məqsədi ilə inkişaf etdirilmişdir.

Qeyd etmək olar ki, Naxçıvan MR yeyinti sənayesi muxtar respublikada istehsal olunan ümumi məhsulların yarıdan çox hissəsini vermişdir. 1973-cü ilin məlumatına görə Naxçıvan MR-nin müstəqil balansında olan 40 iri sənaye müəssisəsinin 17-si yeyinti sənayesi sahələrinin payına düşmüşdür [73, s.339].

Yeyinti sənaye sahələrindən biri konserv sənayesidir. Muxtar respublika ərazisində yerləşən yeyinti sənaye müəssisələrindən biri Ordubad şəhərində yerləşən konserv zavodudur.

Ordubad konserv zavodu ilə təmsil olunan bu sahə Azərbaycanın müvafiq sənaye sahəsinin də inkişafında əhəmiyyətli rol oynamışdır. Burada 46 növ mürəbbələr, kompotlar və s. hazırlanır. Ordubad konserv zavodu məhsullarının keyfiyyətinə görə Azərbaycanın qabaqcıl müəssisələrindən biri sayılırdı və onun məhsulları ölkənin 70-dən artıq rayonuna göndərilirdi. 1929-cu il iyul ayının 15-də istifadəyə verilmiş, 1932-ci ilin əvvəllərində Azərbaycan konserv trestinin tabeliyinə keçmiş [74, v.7,8] bu zavodun işi müharibədən sonrakı illərdə yenidən qurulmuşdu. 1947-ci ildə zavod 1,275 min manatlıq məhsul istehsalı əvəzinə 1,355 min manatlıq məhsul istehsal etmişdir ki, bu da planın 106,4% təşkil edir. Zavodda 80,0 min manatlıq, yaxud nəzərdə tutulduğundan 157 ton artıq əmtəə məhsulu istehsal edilmişdi

[74, v.16]. 1960-cı ildə zavodda Ordubad meyvə konserv zavodunun əsas xammalını Ordubad rayonu verirdi. Xammal həcminin müəyyən miqdarı Azərbaycan Respublikasının başqa rayonlarından alınırdı. Bəzi hallarda yerli xammal mənbələrinin məhdudluğu üzündən zavodun istehsal gücündən tam istifadə edilmirdi. Hətta çox zaman səmərəsiz olaraq, Azərbaycanın başqa rayonlarından (Quba-Xaçmaz və b.) zavoda meyvə gətirilirdi. Ordubad meyvə konserv zavodu başlıca olaraq, mürəbbə (qoz, gilənar, gül, qovun və s.), kompot (ərik, şaftalı və s.), pavidla və s. istehsal edirdi.

1940-1960-cı illərdə Ordubad konserv zavodunun buraxdığı məhsullar müntəzəm olaraq artmışdır. Belə ki, əgər 1940-cı ildə zavodda cəmi 1,5 milyon şərti banka məhsul istehsal edilmişdisə, 1950-ci ildə 1,8 milyon şərti banka və 1960-cı ildə isə 4,4 milyon şərti banka məhsul istehsal edilmişdir.

Sonrakı illərdə də konserv zavodu məhsul istehsalını xeyli artırmışdır. Belə ki, zavod 1965-ci ildə 6252 min şərti banka məhsul istehsal etdiyi halda, 1967-ci ildə 7888 min şərti banka, 1968-ci ildə 8703 min şərti banka, 1969-cu ildə 9298 min şərti banka, 1970-ci ildə 10032 min şərti banka, 1971-ci ildə isə 12,7 milyon şərti banka konserv məhsulu istehsal etmişdi [50, s.30; 77, s.20]. Rəqəmlərdən görünür ki, Ordubad konserv zavoda ildən-ilə məhsul istehsalının həcmini artırmışdı. 1971-ci ildə 12,7 milyon şərti banka konserv məhsulu istehsal etmişdir ki, bu da 1940-cı ilə nisbətən 8,5 dəfə (1,5 milyon şərti banka), 1960-cı ilə nisbətən 2,9 dəfə (4,4 milyon şərti banka) çoxdur.

Muxtar respublikanın yeyinti sənayelərindən biri də şərab sənayesidir. 50-60-cı illərdə muxtar respublikada 3 şərab zavodu vardı. Bunlar Naxçıvan, Şahbuz və Əbrəqunusda yerləşirdi. Bu zavodlardan ən böyüyü Naxçıvan şərab zavodu idi. Bundan əlavə, Çalxanqala, Badamlı və başqa kəndlərdə də ilk emal məntəqələri yerləşirdi. Bu müəssisələrdə konditasiya dərəcəsinə çatçış şərab hasilat materiallarından əsas zavodlarda hazır şərab

istehsal edilirdi. Şərab zavodları respublikanın Naxçıvan (indiki Babək), Şahbuz və Culfa rayonlarının verdiyi üzüm əsasında işləyirdi. Lakin üzüm istehsalının Respublikada hələlik aşağı səviyyədə olması başqa sənaye müəssisələri kimi şərab zavodlarının da istehsal gücündən tam istifadə edilməsinə imkan vermirdi. Muxtar respublikanın şərab zavodlarının məhsulu müxtəlif adlarla istehsal olunurdu. Burada əsas olaraq süfrə, dessert şərabları, konyak, üzüm arağı, "Naxçıvan", "Əbrəqunus", "Şahbuz" süfrə, çəhrayı portveyn, "Naxçıvan kaqoru" kimi şərablar istehsal edilirdi. İstehsal edilən şərabların əksəriyyəti öz keyfiyyətinə görə yüksək qiymətləndirilirdi. Azərbaycan ərazisi daxilində istehsal edilən müvafiq şərab məhsullarının mühüm hissəsini təşkil edən muxtar respublika şərab sənayesi məhsulları digər sənaye sahələrinin məhsulları kimi 60-cı illərdə xeyli artmışdır. Təkcə bu faktı göstərmək kifayətdir ki, 1960-cı ildə muxtar respublikada 42 min dekalitr şərab istehsal edildiyi halda, bu rəqəm 1965-ci ildə 67 min dekalitr, 1970-ci ildə 75 min dekalitrə çatdırılmışdır [2, s.41]. Rəqəmlərdən göründüyü kimi, muxtar respublikada 1970-ci ildə 75 min dekalitr müxtəlif çeşiddə şərab məhsulu istehsal edilmişdir ki, bu da 1960-cı ilə nisbətən 33 min dekalitr çoxdur.

Naxçıvan MR-də şərab istehsalının gələcək perspektivi burada üzüm tədarükünün səviyyəsindən çox asılı idi. Respublikanın torpaq, iqlim şəraiti imkan verir ki, burada iri üzümçülük sahələri yaradılsın. 50-60-cı illərdən başlayaraq muxtar respublikada iri üzümçülük sovxozlarının yaradılması imkan vermişdi ki, şərabçılıq sənayesi də geniş inkişaf etsin. Müasir şərab sənayesinin müstəqil balansda olan 8 iri müəssisə - "Arpaçay", "Naxçıvan MR-in 40 illiyi", "Naxçıvan", "Ordubad" və "Sədərək" üzümçülük sovxozları nəzdində olan zavodlarla və Naxçıvan, Şahbuz, Əbrəqunus şərab zavodları ilə təmsil olunmuşdur [73, s.340].

Doğma vətənimiz Azərbaycan özünün mineral suları ilə

bütün dünyada şöhrət qazanmışdır. Azərbaycan Respublikasının başqa rayonlarından fərqli olaraq, Naxçıvan MR müxtəlif fiziki-kimyəvi tərkibli mineral su mənbələri ilə daha zəngindir. 5,5 min kv km sahəsi olan Naxçıvan MR 200-dən çox mineral su mənbəyi aşkar edilmişdir. Dünyada nadir halda təsadüf edilən Darıdağ, Mərgümüşlü mineral suyu, Barjomi tipli Sirab suyu, Botlinski tipli Badamlı mineral suyu, Yesentuki tipli Vayxır mineral suyu və s. mineral bulaqlar muxtar respublikanın tükənməz təbii sərvətləridir. Bu qiymətli təbii sərvətlərdən istifadə edilməsi muxtar respublikanın xalq təsərrüfatında mühüm rol oynayır. Buna baxmayaraq, mərgümüşlü, bromlu, dəmirli, natriumlu, kaliumlu, sulfatlı, maqneziumlu, xlorlu və başqa tərkibindən ibarət olan bu mühüm təbii sərvətlərdən yalnız Badamlı və Sirab mineral su mənbələrindən az miqdarda istifadə edilir. Lazımi iqtisadi və texniki şəraitin olmadığına görə Badamlı və Sirab mineral su zavodlarının da gücündən tam istifadə olunmur.

"Azərbaycan narzanı" adı ilə geniş şöhrət qazanmış Badamlı mineral su zavodu 1947-ci ildə yaradılmışdır. Zavod 1955-ci ildə tam mexanikləşdirilmişdir. Məhz buna görə də 1955-ci ildə 9064 min butulka, 1960-cı ildə 12894 min butulka, 1965-ci ildə 18471 min butulka, 1970-ci ildə 37004 min butulka mineral su istehsal olunmuşdur [55, s. 35; 62, s 89; 102, s.41].

Mütəxəssislərin apardıqları müşahidələr nəticəsində müəyyən edilmişdir ki, Badamlı mineral sular qrupunun ümumi debiti sutkada 980 min litrdi. Lakin Badamlı mineral suyundan ancaq 8,5 % istifadə edilir. Bu qiymətli sərvətin 275 min litri və yaxud 91,5 %-i izafi yerə, çeşmələrə axır [76, s.97].

Naxçıvan ərazisində olan zəngin bulaqlardan biri də Sirab mineral bulaqlarıdır. Sirab mineral suyu ilk dəfə 1935-1936-cı illərdə butulkalara doldurulmuşdu. Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq, burada iş təxirə salınmış və müharibədən sonrakı illərdə yenidən fəaliyyətə başlanmışdı.

1951-ci ildə burada yarım mexanikləşdirilmiş zavod yaradılmışdı. Bu zavod bir müddət "Naxçıvan suyu" adı ilə mineral su istehsal etmişdi. Lakin 1954-cü ildə təbii fəlakət nəticəsində zavod və bulaqların bir neçəsi sıradan çıxmışdı. Yalnız 60-cı ildən sonra yarım mexanikləşdirilmiş zavod bərpa olunub istifadəyə verildi. Azərbaycanın bir çox rayonlarına göndərilən "Naxçıvan suyu" sonralar tariximizə "Sirab" mineral suyu kimi daxil oldu. 1977-ci ildə Sirab mineral sular zavodunda gücü saatda 6 min ədəd butulka olan yeni avtomat su doldurucu xətt quraşdırıldı ki, bunun da nəticəsində zavodun istehsal gücü ildə 30 milyon butulkaya qaldırıldı.

Muxtar respublika ərazisində müalicəvi əhəmiyyətə malik olan mineral sulardan biri də Vayxır kəndinin yanında yerləşir. Vayxır mineral suyu öz kimyəvi tərkibinə görə karbon qazlı, xloridli, hidrokarbonatlı, natrium-kaliumlu olub, tərkibində dəmir və mərgümüş ionları vardır.

Moskva Mərkəzi Elmi-Tədqiqat Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutu Vayxır mineral suyunu müayinədən keçirmiş və SSRİ Həmkarlar İttifaqı Mərkəzi Şurasının Kurortlar İdarəsinə təqdim etdiyi xüsusi arayışda Vayxır mineral suyunun fiziki-kimyəvi xassələrinin Yesentuki 17 №-li suyunun fiziki-kimyəvi xassələrinə uyğun gəldiyi göstərilir. Keçmiş SSRİ Nazirlər Soveti yanında faydalı qazıntılar üzrə Dövlət Ehtiyat Komitəsi Vayxır mineral suyunun uzun müddətli eytiyata malik olmasını qərara almışdı [8, s.19, 26]. Buna baxmayaraq, Vayxır mineral suyundan da hələlik istifadə edilmir.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mineral suları təkcə süfrə üçün deyil, bu mineral sular öz xarakterik xüsusiyyətlərinə görə eyni zamanda müalicəvi xüsusiyyətlərə malikdir. Naxçıvanda olan mineral sular yerli əhalinin nəzər diqqətini ta qədim zamanlardan cəlb etmiş və onlar həmin sulardan müalicə məqsədilə istifadə etmişdilər. Naxçıvan MR ərazisinin Culfa rayonunda yerləşən

Darıdağ mineral suyu daha yüksək müalicə xüsusiyyətinə malikdir. Darıdağ mineral suyunun tərkibində alüminium, dəmir, kalsium, maqnezium, kalium, natrium, xlor, sulfat, silikat turşusu, hidroarsenium, sərbəst karbon qazı, karbon qazı vardır. [8, s.17]. Dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Darıdağ mineral suyu 5 bulaq və 32 kəşfiyyat quyularından ibarətdir.

Mütəxəssislər Darıdağ mineral suyuna keçmiş SSRİ-də olan Sineqor və Zubi sularına nisbətən üstünlük verirlər. Darıdağ mineral suyu öz xüsusiyyətlərinə görə qita Bürbül (Fransa), Dürxeym (Almaniya), Ronnen (İtaliya), Stimbot (ABŞ), Kudova (Polşa), Sipeqorek (Saxalin) sularının analoqudur [12, s.19]. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür. Temperaturu 53-57°S, ehtiyatı 4507 $m^3$/gün təsdiq edilmişdir [77 s.97].

Ümumiyyətlə, Naxçıvan ərazisində çoxlu içməli mineral sularla yanaşı Nəhəcir, Kotam, Ləkətağ, Gömür, Qızılvəng, Parağaçay, Qahab, Sədərək, Cuza, Ərəfsə, Dəstə və s. müalicəvi xüsusiyyətləri tam öyrənilməmiş mineral sular daha çoxdur. Bu qiymətli təbii sərvətlərdən hələ ki, çox az istifadə olunur.

Naxçıvan MR-də digər yeyinti sənaye sahələri (yağ, pendir, süd, ət, çörək, un, qənnadı məmulatları və s.) 50-60-cı illərdə əsasən yerli əhalinin tələbatının ödənilməsi məqsədi ilə inkişaf etdirilmişdi. Əhalinin yeyinti məhsullarına artan tələbatını nəzərə alaraq, demək olar ki, muxtar respublikada qənnadı, biskvit fabriklərinin və digər müəssisələrin tikilməsi işi daha da genişləndirilmişdir.

Muxtar respublikada sənayenin başqa sahələri kimi yüngül sənaye sahəsində istehsal edilən məhsullar ümumi daxili məhsulda müəyyən qədər xüsusi çəkiyə malikdir. Keçən əsrin 50-60-cı illərində iqtisadiyyatın bütün sahələri kimi yüngül sənayenin də inkişaf etdirilməsi üçün imkanlar yaranmışdır.

Azərbaycan Respublikasının sənaye müəssisələri kimi Naxçıvan

MR-in sənayesində də texnikanın tətbiqi miqyası xeyli genişlənmişdi. Köhnə, az məhsuldar avadanlıq, yeni yüksək məhsuldar, kiçik qabaritli maşın və dəzgahlarla əvəz edilmişdi. Nəticədə yerli xammal bazası əsasında inkişaf edən Naxçıvan MR yüngül sənayesi iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmişdi. Yüngül sənayenin bütün sahələrinə texnikanın tətbiqi miqyası genişləndirilmişdi.

Yerli xammal bazası əsasında inkişaf edən Naxçıvan MR yüngül sənaye müəssisələri başqa sənaye müəssisələrinə nisbətən ən çox məhsul istehsal edirdi. Sənayenin bu sahəsinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onun müəssisələri hazır məhsul istehsal etmirdi. Ancaq kənd təsərrüfatı xammalının ilk emalı ilə məşğul olurdu. Muxtar respublikanın yüngül sənaye müəssisələri tərəfindən istehsal olunan yarımfabrikat məhsullar keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabrik və zavodlara göndərilirdi.

Naxçıvan Muxtar Respublikanın yüngül sənayesi yeyinti sənaye sahələri kimi çoxsahəlidir. Keçən əsrin ortalarından başlayaraq burada pambıqtəmizləmə, baramaaçma, pambıq parça, tikiş, gön-dəri və sair sənaye müəssisələri üstünlük təşkil etmişdir.

Pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikanın Şərur rayonunda yerləşirdi. Şərur pambıqtəmizləmə sənaye müəssisəsi muxtar respublikada olan yüngül sənayenin ən iri müəssisələrindən biri idi. Naxçıvan MR-də istehsal olunan bütün pambıq bu zavodda emal edilirdi. 1926-cı ildə istifadəyə verilmiş bu zavod başqa pambıqtəmizləmə müəssisələri kimi əsasən pambıq lifi istehsal edirdi. İstehsal prosesində burada xeyli miqdarda qiymətli çiyid və tiftik kimi tullantılar da alınırdı.

Qeyd etmək lazımdır ki, Şərur pambıqtəmizləmə zavodunun istehsal etdiyi yüksək keyfiyyətli sənaye məhsulları təkcə keçmiş Sovet İttifaqının bir çox şəhərlərində olan fabriklərə

deyil, eyni zamanda xarici ölkələrdə yerləşən fabriklərə də göndərilirdi.

İstehsal prosesində orta hesabla hər bir ton xam pambıqdan 34% pambıq lifi, 63% çiyid və 3% tiftik istehsal edən Şərur pambıqtəmizləmə zavodu beşinci beşillikdə (1951-1955-ci illərdə) böyük uğurlara imza atmışdı.

Statistik məlumatların təhlili göstərir ki, 1951-1960-cı illərdə pambıqtəmizləmə zavodu lif istehsalını müntəzəm olaraq artırmışdı. Belə ki, 1955-ci ildə pambıqtəmizləmə zavodunda 7,9 min ton lif istehsal edilmişdi ki, bu da 1940-cı ildəkinə nisbətən 2477 ton və ya 3,2 dəfə çoxdur.

Lakin pambıqtəmizləmə zavodunun istehsal gücünün cəmi 40-50 faizindən istifadə olunurdu.

Keçmiş SSRİ Dövlət Plan Komitəsi tərəfindən ermənilərin təsiri ilə qəsdən pambıqtəmizləmə zavodunun planı azaldılmışdır ki, az məhsul istehsal etdiyinə, zərərlə işlədiyinə görə bu müəssisənin saxlanılması qeyri-mümkün hesab edilsin. Bu da erməni xislətinin yeritmiş olduğu siyasətin bir forması idi. Bundan sonra isə ermənilər Naxçıvana ikinci zərbəni vurdular.

Ermənilər Şərur pambıqtəmizləmə zavoduna zərbə vurduqları kimi Naxçıvan MR pambıq əkin sahələrinə də ən böyük zərbə vurmuşlar. Onlar Arpaçay suyunun Göycə gölünə axıdılması ilə Şərur rayonunda pambıqçılıq təsərrüfatını sıradan çıxardılar. O zaman keçmiş SSRİ-nin dövlət başçısı N.S.Xruşova Göycə gölü gəzintisində ermənilərin əvvəldən hazırladıqları Arpaçay-Göycə gölü kanalı layihəsinə qol çəkdirdilər. Bununla da Naxçıvanın iqtisadiyyatına ağır zərbə vurdular. Naxçıvan MR-in əsas kənd təsərrüfat istehsalı mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı yarandı. Kənd təsərrüfatının bu və ya digər sahələri kimi pambıqçılıq təsərrüfatına da böyük zərbə dəydi.

70-ci illərin əvvəllərində muxtar respublikada pambıq əkilmədiyinə və tədarük edilmədiyinə görə Şərur pambıqtəmizləmə zavodu fəaliyyətini dayandırmışdır.

Görünür ki, Şərur pambıqtəmizləmə zavodu fəaliyyətinin dayandırılmasında ermənilərin məqsədi ondan ibarət olmuşdur ki, Naxçıvanda sənaye sahələri inkişaf etməsin, Ermənistandan asılı vəziyyətə düşüb, gələcəkdə onun əyalətlərindən birinə çevrilsin.

Onu da qeyd etmək olar ki, 50-60-cı illərdə pambıqtəmizləmə zavodunda hasil edilən çiyid İrəvan yağ-piy zavoduna göndərilmişdi. Bu isə düzgün, normal hal deyildi. Çünki məhdud yem ehtiyatına malik olan muxtar respublika mal-qarası əlavə qiymətli qüvvəli yemdən məhrum olurdu.

Təsadüfi deyil ki, muxtar respublikada yem çatışmadığına görə Azərbaycanın İmişli, Sabirabad, Saatlı rayonlarına muxtar respublikanın kolxoz fermalarından göndərilmiş mal-qaranın əksəriyyəti tələf olmuş, kolxoz təsərrüfatlarına böyük ziyan dəymişdi.

Hər il muxtar respublikadan min tonlarla çiyid Ermənistana göndərildiyi halda, onun özünə başqa regionlardan çiyiddən hazırlanan qüvvəli mal-qara yemi olan jmıx gətirilmişdi. Məsələn, 1956-cı ildə muxtar respublikaya başqa regionlardan 52,6 min sentner jmıx gətirilmişdi ki, buna da 2,7 milyon manat pul sərf edilmişdi [50, s.84].

Düzgün olmayan bu siyasətə son qoymaq üçün pambıqtəmizləmə zavodunun tullantısı olan çiyiddən muxtar respublikanın özündə jmıx istehsal etmək mümkün olardı. Bunun üçün Şərur pambıqtəmizləmə zavodu nəzdində hidravlik məngənə qoymaqla, yeni bir sex açmaq o qədər də çətin məsələ deyilmiş. Aydın məsələdir ki, bu sex niyə açılmamışdır. Deməli, sadə bir hidravlik sex açılmış olsa idi, Şərur pambıqtəmizləmə zavodunun tullantısı olan çiyid xammal kimi İrəvan yağ piy zavoduna gedə bilməzdi.

Naxçıvan MR-də yüngül sənayenin ən mühüm sahələrindən biri də akademik Y.H.Məmmədəliyev adına Ordubad ipək fabriki idi. 1931-ci ildə istifadəyə verilmiş Ordubad ipək

fabrikinin əsas xammalı baramadır. Lakin muxtar respublikada hasil edilən barama ipək sənayesi xammalının 40-50%-ni vermişdi. Qalan xammal Azərbaycanın və keçmiş SSRİ-nin başqa regionlarından gətirilmişdi. Bu da süni ipəyə nisbətən onsuz da baha maya dəyərli olan təbii ipəyin qiymətini bir daha yüksəldir.

Ordubad ipək fabrikası bütün dövrlərdə dövlət planını yerinə yetirmiş, məhsul istehsalını ildən ilə artırmışdı. Hətta Böyük Vətən müharibəsinin törətdiyi ağır çətinliklərə baxmayaraq, Ordubad fabrikində xam ipək istehsalı müharibə illərində azalmamış, əksinə artmışdı. Belə ki, ipək fabrikası istehsalat planını 1943-cü ildə 100,8%, 1945-ci ildə isə 104,5% yerinə yetirilmişdi [78, s.37].

50-60-cı illərdə də Ordubad ipək fabrikinin kollektivi bir qayda olaraq plan və tapşırıqları yerinə yetirmiş və Azərbaycan Yüngül Sənaye Nazirliyinin keçici qırmızı bayrağına layiq görülmüşdü.

Arxiv materiallarının [50, s.84; 55, s.35] təhlili göstərir ki, Ordubad ipək fabrikində xam ipək istehsalı daim inkişaf etmişdir. Belə ki, əgər 1940-cı ildə burada cəmi 16,9 min ton xam ipək istehsal edilmişdisə bu rəqəm 1955-ci ildə 21,3 min tona, 1961-ci ildə isə 25,7 min tona çatdırılmışdır. Sonrakı illərdə xam ipək istehsalını daha da artıran Ordubad baramaaçan fabriki 1965-ci ildə 31 ton, 1970-ci ildə isə 49,1 ton xam ipək istehsal etmişdi [55, s.35; 103, s.30].

Başqa sənaye sahələri kimi, Naxçıvan MR-in iqtisadiyyatında tikiş sənayesinin də əhəmiyyəti böyük idi. Muxtar respublikada olan tikiş sənayesi bir çox müəssisəni özündə birləşdirirdi. Onlar bütün rayonda yerləşən əhaliyə məişət xidməti kombinatı nəzdində yaradılan sexlər, Azərbaycanda iri tikiş fabriklərindən biri hesab edilən 5 saylı Naxçıvan tikiş fabriki və Naxçıvan fərdi tikiş müəssisəsi idi.

1959-cu ildə istifadəyə verilmiş 5 saylı tikiş fabriki müstəsna

olmaqla 50-60-cı illərdə və ondan əvvəlki illərdə də muxtar respublikada tikiş sənayesinin iri müəssisələri olmamışdı. Bu sənaye sahəsi ilə sexlər, artellər və çox da böyük olmayan kombinatlar məşğul olmuşlar ki,bunlar müharibədən sonrakı illərdə Naxçıvan sənaye ittifaqının, Naxçıvan Kooperativlər İttifaqının, Naxçıvan Sənət kooperasiyasının və başqa təşkilatların tərkibində fəaliyyət göstərmişdi. Naxçıvan sənaye ittifaqı sistemi üzrə 1952-ci ildə 300 min manatlıq kütləvi geyim paltarı, 8 min cüt ayaqqabı istehsal edilmişdi [79, v.127].

Naxçıvan MR Sənaye Nazirliyinin müəssisələrinin ümumi məhsul buraxılışı 1955-ci ildə Naxçıvan MR Yerli Sənaye Nazirliyi xətti ilə 104,6%, Naxçıvan Kooperativlər İttifaqı üzrə 107%, Naxçıvan Sənət kooperasiyası üzrə 102,6% olmuşdu [92].

1958-ci ildə muxtar respublika Yerli Sənaye Nazirliyinin müəssisələrində 4,0 min cüt gön-dəri ayaqqabı istehsal edilməsi nəzərdə tutulduğu halda 4,2 min cüt ayaqqabı istehsal edilərək illik plan 105% yerinə yetirilmişdi [95, v.9].

1959-cu ildə istifadəyə verilmiş Naxçıvan 5 saylı tikiş fabriki 1969-cu ildə 603,5 min ədəd kişi və uşaq üst köynəyi, fərdi paltar tikiş müəssisələri isə 196,4 min manatlıq tikiş sənaye məhsulu istehsal etmişdi. 1969-cu ildə 1968-ci isə ildəkinə (502,6 min ədəd) nisbətən 100,9 min ədəd kişi və uşaq üçün üst köynəyi, 47,1 min manatlıq fərdi paltar tikişi artıq istehsal etmişdi [91].

5 saylı Naxçıvan tikiş fabrikinin kollektivi 9 milyon 210 min manatlıq əvəzinə 9 milyon 375 min manatlıq məhsul istehsalı üzrə səkkizinci beşillik plan tapşırıqlarını 101,7% yerinə yetirilmişdi [93].

Ümumiyyətlə, Naxçıvan MR-də yüngül sənayeni inkişaf etdirmək üçün hər cür xammal ehtiyatları vardır. Muxtar respublikada əhalinin tələbatını müxtəlif çeşidli sənaye malları ilə təmin edən, ittifaq və respublika balansına daxil olmayan yerli

sənaye sahəsi də geniş inkişaf etmişdi. Muxtar Respublika ərazisində yerləşən yerli sənaye öz tərkibində 8 sənaye kombinatını və 6 sənaye artelini birləşdirmişdir.

Naxçıvan MR-in bütün rayonlarında yerli sənaye kombinatlarının təşkil edilməsi muxtar respublikanın rayonlarında olan zəngin təbii sərvətlərdən istifadə işini xeyli yaxşılaşdırmışdı. Yerli sənaye kombinatları vasitəsilə respublikanın bütün rayonlarında kənd təsərrüfatı artellərinin təmir emalatxanaları, təzə ayaqqabı, geyim şeyləri hazırlayan sexlər və artellər yaradılmışdı.

Səkkizinci beşillik (1966-1970) dövründə muxtar respublikada bir neçə sənaye müəssisəsi, o cümlədən Sirab mineral su zavodu, Naxçıvan Tütün fermentasiya zavodu və bir neçə şərab zavodu tikilib istifadəyə verildi. Beləliklə, muxtar respublikada zəngin mineral su mənbələrindən, yerli tikinti materiallarından və başqa təbii imkanlardan istifadə edilməsində irəliləmələr baş verdi. Məhz görülən işlər nəticəsində Azərbaycanın sənaye məhsulunda Naxçıvan MR-ın xüsusi çəkisi 1965-ci ildəki 0,7%-dən 1970-ci ildə 1,2%-ə qalxmışdır.

### 1.3. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə Naxçıvanda sənayenin sürətli inkişafı

Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda birinci dəfə hakimiyyətə gəlməsi Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafında əsas dönüş nöqtəsi olmuşdur. Heydər Əliyev 1969-cu ilin avqust ayının 5-də Azərbaycan KP MK Plenumunda çıxış edərək, ölkə iqtisadiyyatını dərin və hərtərəfli təhlil edərək burada nöqsanlar olduğunu qeyd etmiş və onların aradan qaldırılma yollarını göstərmişdir. Lakin qeyd etmək lazımdır ki, bu dövrə qədər bütövlükdə ölkənin və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar

Respublikasının iqtisadiyyatı qeyri-sabit surətdə inkişaf edirdi.

Keçən əsrin 50-60-cı illərində Naxçıvan MR sənayesində bir sıra irəliləyişlər baş versə də kənd təsərrüfatı xammalı emal edən və bu əsasda inkişafına böyük imkanlar olan ənənəvi sənaye sahələrinə diqqət olduqca azalmışdı. Nəticədə 1954-cü ildən başlayaraq sənayedə durğunluq və tənəzzül yaranmış, 1956-1959-cu illərdə sənayedə məhsul istehsalı mütəmadi olaraq azalmış və sonrakı illərdə isə çox cüzi artım qeydə alınmışdır.

60-cı illərdə də Naxçıvan MR iqtisadiyyatı gah inkişaf etmiş, gah da tənəzzül dövrü yaşamışdır. Bunun isə obyektiv və subyektiv səbəbləri ətraflı araşdırılmamışdır.

Ulu öndər Heydər Əliyev bu səbəblərdən birini 1998-ci il yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsini müzakirə edərkən açıqlamışdır. O qeyd etmişdir ki, **"Azərbaycan rəhbərləri tərəfindən Naxçıvana daim ögey münasibət göstərilmişdir".**

Sovet rejiminin xüsusiyyətlərinə bələd olan Heydər Əliyev əvvəllər Azərbaycan iqtisadiyyatında yaranmış boşluqları müəyyən dərəcədə doldurmaq üçün zəruri olan əlavə vəsaitin ittifaq hökumətindən alınması məqsədilə elmi cəhətdən əsaslandırılmış tələblər irəli sürmüşdü. Heydər Əliyevin təşəbbüsü ilə ittifaq hökuməti Azərbaycanda sənayeni və kənd təsərrüfatının intensiv inkişafı üçün beş xüsusi qərar qəbul etdi, xeyli vəsait və maddi-texniki resurslar ayırdı.

Azərbaycan Respublikası iqtisadiyyatının inkişafında ittifaq hökuməti 1970-ci ildə "Azərbaycan SSR-in xalq təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" və "Azərbaycan SSR-in kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" 1975-ci ildə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalının daha da intensivləşdirmək tədbirləri haqqında", 1976-cı ildə "1976-1980-ci illərdə respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP Mərkəzi Komitəsi təkliflərinin nəzərdən keçirilməsi barədə", 1979-cu ildə "Azər-

baycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" tarixi qərarların misilsiz rolu olmuşdur.

Bu qərarlar Azərbaycanda və Naxçıvanda xalq təsərrüfatının, o cümlədən sənaye istehsalının keyfiyyətcə yeni mərhələsini müəyyən edirdi. Yeni mərhələnin konkret və hərtərəfli əsaslandırılmış proqramını verirdi. Sənaye istehsalının quruluşunu kökündən dəyişdirmək və təkmilləşdirmək, onu daha dərindən ixtisaslaşdırmaq və təmərküzləşdirmək üçün tədbirlər kompleksi müəyyən edirdi.

Azərbaycanda və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başladı.

Elə ilk illərdə muxtar respublikada tikinti-quraşdırma işlərinə xüsusi diqqət verildi. 1966-1968-ci illərdə bu sahəyə 58 milyon manat, sonrakı ildə 76 milyon manat əsaslı vəsait qoyulmuşdu [51, s.32]. 1966-1970-ci illərdə Muxtar Respublikanın xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu 1961-1965-ci illərdə olduğuna nisbətən 4,8 dəfə çox idi. 1971-1975-ci illərdə isə xalq təsərrüfatına əsaslı vəsait qoyuluşu əvvəlki 46 il (1924-1970-ci illər) ərzindəki əsaslı vəsaitdən xeyli çox idi. İqtisadiyyatın bütün sahələrinin inkişafı üçün 1970-1985-ci illərdə Naxçıvan MR-ə 900 milyon manatlıq sərmayə qoyulmuşdu. Muxtar respublikada xalq təsərrüfatının müxtəlif sahələrinə aid 783 milyon manatlıq əsas fondlar tikilib istifadəyə verildi [26, s.63].

Muxtar respublikada Azərbaycan miqyasında iri alt trikotaj məmulatlar fabriki, yeni mineral su doldurma zavodu, şüşə qabları zavodu, taxıl məhsulları kombinatı, iri ev tikmə kombinatı, dəmir beton məmulatı zavodu, Şahtaxtı daş karxanası, kərpic zavodu, bir neçə ilkin şərabçılıq müəssisəsi, süd, konserv zavodu və s. bütövlükdə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Naxçıvan xalça kombinatının, Şərur konserv zavodunun, yeni dəmir-beton məmulatı müəssisələrinin tikintilərinin başa

çatdırılması, mövcud müəssisələrin, xüsusən Naxçıvan elektrotexnuka zavodunun, Ordubad konserv zavodunun, ipək fabrikinin yenidən qurulması və genişləndirilməsi sahəsində əsaslı işlər həyata keçirildi. Naxçıvan Muxtar Respublikasında 1969-cu ildə 1, 1970-1979-cu illərdə 13, 1981-1985-ci illərdə 7 (cəmi 21 iri) sənaye müəssisəsi tikilmiş və bir neçəsi əsaslı sürətdə yenidən qurulmuşdur. Sənaye müəssisələrinin əksəriyyəti yeyinti və yüngül sənaye malları və tikinti materialları istehsalı sahələrinə aid idi. 1985-ci ildə Naxçıvanın sənayesi 100-dən çox müəssisə ilə, o cümlədən 50 müstəqil balansda olan iri dövlət müəssisəsi ilə təmsil olunmuşdur. Bunlar isə muxtar respublika xalq təsərrüfatının nisbətən daha sürətlə inkişafını təmin etmişdir.

Keçən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında aparılmış geniş miqyaslı quruculuq nəticəsində sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə (Azərbaycan üzrə 2,9 dəfə) çoxaldı. Bütün mühüm sənaye məhsulları istehsalı, o cümlədən elektrik enerjisi 35 dəfə, ipək xammalı 2,2 dəfə, konservlər 3,5 dəfə, daş duz 2 dəfəyə qədər, mineral sular və şərab məhsulları bir neçə dəfə artdı. Sənaye məhsulunun həcmi 1970-ci ilə nisbətən 1980-ci ildə 2,6 dəfə, 1980-ci ilə nisbətən 1985-ci ildə 1,7 dəfə artmışdı. Bu, Azərbaycanın və əksər respublika daxili iqtisadi rayonların müvafiq göstəricilərindən xeyli yüksək idi.

Sovet hakimiyyəti dövründə ilk dəfə öz imkanlarına daha uyğun səviyyədə inkişaf edərək, sənaye miqyasına görə muxtar respublika Azərbaycanın sənaye potensialında öz mövqeyini artırdı. Azərbaycan Respublikası sənaye məhsulunun istehsalında Naxçıvan MR-in xüsusi çəkisi iki dəfədən çox artaraq, 1970-ci ildəki 1,1 faizdən 1985-ci ildə 2,3 faizə çatmışdı. 1985-ci ildə Naxçıvan MR istehsal etdiyi sənaye məhsulunun ümumi həcminə görə Azərbaycanın 10 iqtisadi rayonu içərisində Bakı-Sumqayıt, Kür-Araz, Gəncə-Daşkəsən, Şəki-Zaqatala, Lənkəran-Astara və keçmiş DQMV-dən sonra 7-ci yerdə dururdu [51, s.33].

Bir sıra sənaye məhsullarının istehsal həcminə görə muxtar respublikanın Azərbaycan iqtisadiyyatında rolu daha çox artmışdı. 1985-ci ildə Azərbaycanda istehsal edilən daş duzun hamısı (118 min ton), alt trikotaj məmulatlarının və mineral suların (147,5 milyon litr) əsas hissəsi, konservlərin (35 milyon şərti banka) 6%-ə qədəri, ipək xammalının (107 ton) 23%-dən çoxu, üzlük travertin, tikinti materiallarının və butulka istehsalının hamısı, şərab məmulatlarının xeyli hissəsi Naxçıvanın payına düşürdü [26, s.64-65].

1970-1985-ci illərdə muxtar respublikada sənayenin müxtəlif sahələrinə aid yeni-yeni müəssisələrin tikilib istifadəyə verilməsi nisbətən inkişaf etmiş çoxsahəli sənaye-istehsal kompleksinin formalaşmasına səbəb oldu. Mənbələrdə göstərilir ki, Azərbaycanda mövcud olan 16 iri sənaye istehsal kompleksindən 11-i Naxçıvan ərazisində az-çox formalaşmışdı. Hər bir sahəvi kompleks özündə bir neçə sənaye məhsulu istehsalını birləşdirmişdi. Bu da sənayenin tədricən kompleks inkişafının və səmərəliliyinin artmasını təmin edən amildir.

70-80-ci illəri əvvəlki illərdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, muxtar respublikada tarixən mövcud olmuş yüngül və yeyinti sənaye sahələri inkişaf etdirilməklə bərabər onların yeni sahələri: üzüm emalı, konserv, un, tikiş və s. yaranmış, energetika, dağ-mədən, maşınqayırma, tikinti materialları və metal emalı kimi mütərəqqi sənaye sahələri də sürətlə inkişaf etmişdir.

1970-1980-ci illərdə Naxçıvan MR iqtisadiyyatının inkişafında yaranmış əsas səciyyəvi xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, onun quruluşunda əvvəllər olduğu kimi, yenə də muxtar respublikanın regionlararası ərazi əmək bölgüsündə fəal iştirakını təmin edən sahələr böyük üstünlüyə malik idi. Əvvəlki illərdə olduğu kimi, 1970-ci illərdə də muxtar respublika əsasən yüngül və yeyinti sənaye rayonu kimi formalaşdı. Naxçıvan MR-də istehsal olunan sənaye məhsulunun 1970-ci ildə 92,9%-i, 1975-ci

ildə 90,9%-i, 1980-ci ildə 90,0%-i bu iki sahənin yüngül və yeyinti sənayenin payına düşmüşdü.

Ümumiyyətlə, uzun müddət sosial-iqtisadi inkişaf sahəsində xeyli geri qalmış Azərbaycanın başqa regionları kimi Naxçıvan MR-də 70-ci illərdə və 80-ci illərin birinci yarısında çox böyük nailiyyətlər əldə edildi. Yeni imkanlar Muxtar Respublikada sənayenin geniş inkişafı üçün xüsusilə əlverişli şərait yaratmaqla bərabər, onun zəngin təbii sərvətlərinin istehsal dövriyyəsinə cəlb edilməsi ehtimalını gerçəkləşdirdi. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişaf səviyyəsinin xeyli yüksəlməsində və onun quruluşunun təkmilləşməsində yeni yaradılan kompleks müəssisələr həlledici rol oynamışdı. Burada sənaye məhsulu istehsalının ümumi həcmi muxtar respublikanın yarandığı 1924-cü ilə nisbətən 1984-cü ildə 700 dəfədən çox artmışdır. Bu artım yeni sənaye müəssisələri yaradılmasının geniş miqyas aldığı 70-ci illərdə xüsusilə yüksək olmuşdu [42, s.78].

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 80-ci illərin ikinci yarısında müəyyən dərəcədə inkişaf etmişdir. Naxçıvan MR-də 1986-cı ildə meyvə-tərəvəz konserv zavodu (55 milyon şərti banka gücündə), 1987-ci ildə xalça kombinatı (əyrici mili 6,48 min ədəd istehsal gücündə), 1989-cu ildə növbədə 45 ton şörək istehsal edən zavod və s. sənaye müəssisələri tikilib istifadəyə verildi. 1990-cı ildə 152,7 milyon yarım litrlik butulka mineral su doldurulmuş, bu əvvəlki hər hansı ildə olduğundan xeyli çoxdur. Elektrik enerjisi istehsalı 1985-ci ildə 68,7 milyon kilovat saata qarşı 1990-cı ildə 94 milyon kilovat saat, qənnadı məhsulları istehsalı 3,14 tona qarşı 568 ton, çörək istehsalı 22438 tona qarşı 24028 ton, tərəvəz istehsalı 14,2 min tona qarşı 20 min ton olmuşdu [51, s.46]. Həm əvvəlki illərdə mövcud olmuş inlişaf sürəti, həm də bir çox yeni sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi elə təsəvvür yaradır ki, muxtar respublikada sonrakı illərdə də sənaye sürətlə inkişaf edəcəkdir. Lakin 1985-ci ildən başlayaraq M.S.Qorbaçovun rəhbərliyi ilə Sov.İKP-nin

guya iqtisadiyyatı sosial yönümlü gücləndirmək məqsədilə aqrar sənaye kompleksinin yenidən qurulması və spirtli içkilər istehsalının kəskin surətdə azaldılması siyasəti Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının sənayesinə kəskin mənfi təsir göstərdi. Üzüm istehsalının azalması nəticəsində şərab və başqa sənaye məhsulu istehsalı da azaldı.

1986-cı ildə muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun həcmi 1985-ci ilin müvafiq göstəricilərinin 77,6%-nə bərabər idi. 1987-1990-cı illərdə sənayenin inkişafında bir sıra müsbət meyllər olsa da, bütövlükdə o durğunluq dövrü keçirmişdi. Ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci ilə nisbətən 92,6% (Azərbaycanda 99,1%), 1989-cu ilə nisbətən 95,9% olmuşdu. Muxtar respublikanın statistikasında göstərilən 16 mühüm sənaye müəssisəsinin 10-da 1985-ci ilə nisbətən 1990-cı ildə istehsalın həcmi azalmış, o cümlədən dəmir-beton məmulatı 47,7 min $m^3$-dən 40 min $m^3$-ə, xam ipək ipliyi 107 tondan 83 tona, duz 118 min tondan 99,3 tona, üzlü süd 9,129 tondan 8,887 tona düşmüşdü [51, s. 47].

Erməni millətçilərinin Dağlıq Qarabağ ətrafında yaratdıqları fitnəkarlıq, SSRİ-nin sürətlə dağılmasından irəli gələn mənfi proseslər, iqtisadi əlaqələrin pozulması, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, xammalın, materialın az göndərilməsi, erməni işğalçıları tərəfindən uzun müddət muxtar respublikanın mühasirədə saxlanılması, 1990-cı ilin əvvəllərindən başlayaraq daxildə ictimai-siyasi vəziyyətin sabitliyinin pozulması, daxili qarışıqlığın, hərc-mərciliyin xeyli vaxt davam etməsi və digər səbəblər üzündən Naxçıvan MR-in iqtisadiyyatına, onun sənayesinə, Azərbaycanın başqa regionlarına nisbətən daha ağır zərbə dəymişdir. 80-cı illərin sonunda muxtar respublikanın sənayesi durğunluq dövrünə keçmiş, qeyri-sabitlik özünü göstərmişdi.

## 1.4.Hasilat sənayesinin inkişafı yeni mərhələdə

Ümummillı liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkədə yeni bir ab-hava yaratmaqla hasilat sənayesinin də inkişafının əsasını qoymuşdur. Hasilat sənayesinin mühüm sahələrindən biri energetika sənayesidir. Naxçıvan Muxtar Respublikasında energetika sənayesi son vaxtlara qədər geridə qalmış sənaye sahələrindən sayılırdı. 1940-cı ildə 0,6 milyon kvt.saat, 1970-ci ildə 0,5 milyon kvt.saat elektrik enerjisi hasil olmuşdu. Keçmiş SSRİ ilə İran arasında olan müqaviləyə əsasən 1967-ci ilin mart ayından etibarən Naxçıvan yaxınlığında Araz çayı üzərində hər biri 22 min kilovat gücündə olan 2 su elektrik stansiyasının tikintisinə başlanılmışdır.

Səkkizinci beşillikdə bu orta güclü elektrik stansiyasının tikilib başa çatdırılması və istifadəyə verilməsi nəticəsində Naxçıvan MR energetika sənayesinin inkişafında mühüm mərhələ olmuşdu. Məhz bunun nəticəsində ilk dəfə olaraq 1971-ci ildə Naxçıvan MR-də 25,7 milyon kilovat saat elektrik enerjisi hasil edilmişdi ki, bu da 1940-cı ildə hasil edilmiş (0,6 milyon kilovat saat) elektrik enerjisindən 43 dəfə, 1960-cı ildə hasil edilmiş elektrik enerjisindən (8,1 milyon kilovat saat) 3,2 dəfə çoxdur.

Naxçıvanda Araz çayı üzərində SES-in tikilib istifadəyə verilməsi nəticəsində muxtar respublikada elektrik enerjisi istehsalı xeyli artmışdı. Belə ki, 1973-cü ildə 85,7, 1974-cü ildə 63,5, 1975-ci ildə 92,1, 1976-cı ildə 95,0 milyon kilovat saat, 1980-ci ildə 73,3, 1985-ci ildə 68,7 milyon kilovat saat elektrik enerjisi hasil olunmuşdur.

Naxçıvan yaxınlığında Araz SES-in istifadəyə verilməsi 70-80-ci illərdə muxtar respublikanın iqtisadi həyatında mühüm rol oynamışdır. Naxçıvanda sənaye sahələrinin kompleks inkişafında avtomatlaşdırma və mexanikləşdirmənin geniş şəkildə tətbiqi üçün energetika sənayesinin mühüm əhəmiyyəti vardır.

Bəşəriyyətin ən böyük kəşflərindən biri olan elektrik enerjisi hasilatını artırmaq, ondan səmərəli istifadə etmək muxtar respublika zəhmətkeşlərinin və təsərrüfat müəssisələrinin qarşısında duran mühüm vəzifələrdən biridir.

Dağ-mədən sənayesi hasilat sənayesinin inkişafında və yeni sənaye sahələrinin yaradılmasında mühüm rol oynayır. Dağmədən sənayesi digər sənaye sahələri içərisində çox gəncdir. Dağ-mədən sənayesinin inkişafı xalq təsərrüfatının bütün sahələrinin yüksəldilməsini təmin edir.

XX əsrin 70-80-ci illərində Naxçıvan MR-ın dağ-mədən sənaye müəssisələrindən Parağaçay və Gümüşlü sənaye müəssisələrində yüksəliş olmuşdur. Doqquzuncu, onuncu və on birinci beşilliklərin yekunları göstərir ki, Parağaçay və Gümüşlü sənaye müəssisələrində məhsul satışı və istehsalına dair beşillik planlar artıqlaması ilə yerinə yetirilmişdir.

Keçmiş SSRİ Nazirlər Sovetinin və Sov.İKP MK-nın 1976-cı il iyul ayında verilmiş "1976-1980-ci illərdə Respublikada sənayenin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təklifinin nəzərdən keçirilməsi nəticələri barəsəndəki" qərarını və Azərbaycan KP MK-nın oktyabr (1976-cı il) plenumunun qərarını yerinə yetirən Parağaçay sənaye işçiləri yeni texnikanın istehsalata tətbiqinə, istehsalat proseslərinin təkmilləşdirilməsinə, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, əmək məhsuldarlığının yüksəldilməsinə və istehsal olunan məhsulun maya dəyərinin aşağı salınmasına daha çox fikir vermişdilər. Nəticədə Parağaçay dağ-mədən sənaye müəssisəsi 1976-cı ildə ümumi məhsul istehsal planını 111% yerinə yetirmiş, əmək məhsuldarlığını 12,3% artırmışdı.

1976-1980-ci illərdə Parağaçay dağ-mədən müəssisəsinin işləri yenidən qurulmuşdu. Damar yataqlarının aralama bağı ilə qısa bloklarla, ştanq bağı ilə filizi maqazinləşdirmək; qısa bloklarla, ən nazik damarların ətraf süxurları damarlar olan sıldırım damarlarla və s. effekti işləmə şəraitində tətbiq olunan

işləmə sistemlərin texniki iqtisadi tədqiqi xeyli yaxşılaşdırılmışdı. Nəticədə, Parağaçay dağ-mədən idarəsi onuncu beşillikdə ümumi məhsul istehsal planını 104,7% sənayə məhsul istehsalı planını 100,2%, filizdə molibdenin keyfiyyəti 105,1%, filizdə molibdenin ayrılması 102,5% ödəməklə mədənin ehtiyat hissəsini xeyli artırmışdı. Mədən idarəsinin kollektivi beşillik plandan əlavə 10 min manatlıq məhsul satmış, filiz istehsalı və üyüdülməsi planları da artıqlaması ilə yerinə yetirilmişdi [37, s.73].

Dövlət istehsal planını ləyaqətlə yerinə yetirən mədənçilər beşillik tapşırığı vaxtından əvvəl dörd ay qabaq ödəmişdilər. Bu müddətdə məhsul istehsalının ümumi həcmi planda nəzərdə tutulduğundan 12% çox artmışdı. Beşillik planın yerinə yetirilməsində Parağaçay mədəninin qazmaçıları daha çox fərqlənmişdilər. Onlar yeni texnika və qazma texnologiyasının təkmilləşdirilməsi, yeni üsullardan səmərəli istifadə edilməsi nəticəsində beş il ərzində plandan 1000 $m^3$ çox filizi süxurdan çıxarıb, filiz saflaşdırıcı fabrikə göndərmişdilər.

1976-1980-ci illərdə olduğu kimi 1981-1985-ci illərdə də Parağaçay dağ-mədən sənaye müəssisəsinin nailiyyətləri yüksək olmuşdur. On birinci beşilliyin akkord ili olan 1985-ci ilin dövlət planları artıqlaması ilə yerinə yetirilmişdi.

Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən dağ-mədən emal sənaye sahələrindən biri də Gümüşlü qurğuşun-sink dağ-mədən sənaye müəssisəsidir. Bu müəssisə də 70-80-ci illərdə daha böyük nailiyyətlər əldə etmişdir.

Gümüşlü dağ-mədən sənaye müəssisəsində geoloji-kəşfiyyat işlərinin həcmi genişləndirilmişdir.

Gümüşlü dağ-mədən yataqlarının filiz qisminin dağ-texniki yardım şəraitinin araşdırılmasından görünür ki, bu yataqlar davamlı yan süxurlardan, quru və davamlı filizlərdən ibarətdir. O kəskin kontaktın olması və faydalı komponenti müəyyən sabitliklə paylanması sıldırım yatım və yer səthindən filizin çeşidləməsinin mümkünlüyü ilə səciyyələnir. Yataqda texniki

və iqtisadi ən əlverişli sayılan sistem filizin maqazinləşdirilməsi ilə işlənməsidir.

Gümüşlü dağ-mədənində aparılan təcrübələr nəticəsində müəyyənləşdirilmişdir ki, filizin bloklarla maqazinləşdirilməsi ilə işləmə sistemi (üsulu) mədəndə tətbiq edilmiş bloklarla aparılma bağı üsuluna nisbətən bir sıra üstünlüklərə malikdir. Belə ki, filizin bloklarla maqazinləşdirilməsi üsulunun tətbiqi qazmaçının əmək məhsuldarlığını 60%, dərində işləyən fəhlənin əmək məhsuldarlığını isə təqribən iki dəfə artırır.

Qazmaçının əmək məhsuldarlığını 25-30% artırılmasına səbəb kiçik diametrli lağımların tətbiqidir. Bu həm də müxtəlif köməkçi əməliyyatlara vaxt sərfini 30-35% azaltmışdır.

Azərbaycan SSR Nazirlər Sovetinin Əlvan Metallurgiya Birliyinin məlumatına əsasən beş il müddətində 1968-ci ildən 1972-ci illərdə Gümüşlü dağ-mədənində təkmilləşdirilmiş texnologiyanın tətbiqi ilə minlərlə ton filiz istehsal edilmişdir. Bu nailiyyətlər sonrakı illərdə də olmuşdu. Yuxarıda qeyd edildiyi kimi 1988-ci ilə kimi Gümüşlü dağ-mədən sənayesi yüksələn xətlə inkişaf etmişdir.

70-80-ci illərdə muxtar respublikada fəaliyyət göstərən dağ-mədən emal sənaye müəssisələrindən biri də Naxçıvan duz mədənidir.

Qeyd etmək olar ki, son illərdə dünyanın bir sıra ölkələrində duz istehsalının inkişafına xasusi diqqət yetirilir. Dünyada duz istehsalının ümumi həcmi əhalinin tələbatı ilə əlaqədar olaraq xeyli artmışdır. Bunu Naxçıvan Muxtar Respublikasında da görmək olar.

Geoloqlar tərəfindən müəyyən edilmişdir ki, Naxçıvan MR ərazisində Nehrəm, Duzdağ, Sust, Pusyan kəndində və s. yerlərdə böyük duz yataqları yerləşir. Duzdağ və Sust duz yataqlarının təsdiq olunmuş ehtiyatı 95,5 milyon tondur. Əlavə məlumata görə, Nehrəm duz yatağının duz ehtiyatı 800 milyon tona çatır. Rayonun geoloji quruluşu belə fikri təsdiq etməyə

imkan verir ki, böyük potensial ehtiyatı olan nəhəng daş duz yataqlarının ancaq bir hissəsi kəşf edilmişdir. Yatağın perspektiv ehtiyatı təsdiq olunmuş ehtiyatdan 8-10 dəfə çoxdur. Bu yataqdan əlavə duz layları Naxçıvan MR ərazisinin çox hissəsində təsadüf olunur. Belə ki, 1950-1955-ci illərdə muxtar respublikada geoloji kəşfiyyat işləri aparılan zaman Püsyan kəndi ərazisindən profil üzrə şimala Oğlanqala kəndinə qədər orta dərinliyi 600 metrə qədər olan 10 quyu qazılmışdı. Cənubdan şimala qədər profilin uzunluğu 15,25 km-dir. Bütün quyularda (5 №-li quyu istisna olmaqla) yer səthindən 150-200 m dərinlikdə daş duz açılmışdır. Kəsilişin yuxarısı ayrı-ayrı laylardan, aşağısı isə qalınlığı 40-50 metrə qədər olan bütöv qatdan ibarətdir. Daş duzun və bütöv qatın qalınlığı (ayrı-ayrı laylar da daxil olmaqla) 60-80 metrdən (6 və 8-ci quyular) 200-210 m-ə qədər (1, 2, 3, 4, 7 və 9 quyular) dəyişir. Göstərilən rəqəmlərdən aydın olur ki, Püsyan kəndi ərazisində duz layları daha geniş yayılmışdır və onun mümkün ehtiyatı bir neçə milyard tona çata bilər [73, s.206].

Muxtar respublikada belə bir nəhəng daş duz yatağı olmasına baxmayaraq, onun istehsal səviyyəsi aşağı olduğu üçün çox da əlverişli olmayan uzaq regionlardan Bakıya duzun daşınmasına səbəb olur. Başqa regionlardan Azərbaycan Respublikasına xeyli miqdarda duzun gətirilməsi ondan irəli gəlir ki, Naxçıvan daş duzunun keyfiyyəti dövlət standartına uyğun gəlmir və onun tərkibində çoxlu miqdarda qarışıq maddələr var. Bu cəhətdən də Naxçıvan daş duzunun istifadə dərəcəsi aşağı olmaqla, ondan xalq təsərrüfatının müxtəlif sahələrində və kənd təsərrüfatında istifadə edilir.

Naxçıvan MR zəngin duz yataqlarının olmasına baxmayaraq 50-80-ci illərdə daş duz parçaları almaq üçün yalnız Duzdağ (Naxçıvan duz mədəni) yataqlarından istifadə edilmişdi.

Buradan 1950-ci ildə 44,5 min ton, 1960-cı ildə 55, 1970-ci ildə 62,1, 1980-ci ildə 81,8, 1990-cı ildə isə 112 min ton daş

duz istehsal edilmişdi. Göründüyü kimi daş duz istehsalı 1950-ci ilə nisbətən 1990-cı ildə 67,5 min ton artmışdır. Muxtar respublikada daş duz istehsalının artırılması Naxçıvan duz mədənində aparılan bir sıra texniki tədbirlərin görülməsi ilə əlaqədardır. Lakin istehsal edilmiş daş duz yeyinti məhsulu üçün əlverişli olmadığından Azərbaycanın əhalisinin mətbəx duzuna olan tələbatını ödəmək məqsədilə 1000-1600 km uzaq məsafədə yerləşən Baskunçakdan (Həştərxan), Slavyanskidən (Ukrayna), Kuuliduzdan (Türkmənistan) və s. yerlərdən Azərbaycana duz gətirilirdi.

Tədqiqatlar göstərir ki, uzaq məsafələrdən Azərbaycana gətirilən hər ton duzun nəqliyyat xərci Naxçıvandan Bakıya gətirilən eyni çəkidə duzun nəqliyyat xərcinə nisbətən daha çoxdur. Deməli, Respublikanın tələbatını ödəmək üçün daşınan duza milyonlarla manat əlavə nəqliyyat xərci sərf edilir.

Mütəxəssislərin fikrincə Naxçıvan daş duzunu kənar qarışıqlardan təmizlədikdən sonra dövlət standartına uyğun gələn mətbəx duzu kimi işlədilməklə bərabər, xalq təsərrüfatının başqa sahələrini də təmin edə bilər. Naxçıvan daş duzunu qarışıq süxurlardan təmizləmək üçün duz istehsal edilən Slavyansk, Baskunçak və Kuuliduz da olduğu kimi, texnik üsulla qaynatma yolu ilə onu yüksək keyfiyyətli mətbəx duzuna çevirmək olar.

Qeyd etmək olar ki, Naxçıvan MR-də duz istehsalını artırmaq üçün mövcud imkanlar çoxdur. Yuxarıda qeyd etdiyimiz kimi, burada tükənməz təbii daş duz yataqları çoxdur.

Hesab edirik ki, muxtar respublikanın xalq təsərrüfatı üçün çox əhəmiyyətli olan Hehrəm daş duz yataqlarının bazası əsasında susuzlaşdırılmış soda zavodunun tikilməsi, Sust və Püsyan daş duz yataqlarından istifadə edilməsi məqsədə uyğun sayılmalıdır.

## 1.5.Daha çox xüsusi çəkiyə malik olan sənaye sahələri: yeyinti və yüngül sənaye

1970-1980-ci illərdə yeni sənaye sahələrinin tikilib işə salınması muxtar respublikada nisbətən inkişaf etmiş çoxsahəli sənaye-istehsal kompleksinin formalaşmasına səbəb olmuşdur.

Heydər Əliyevin birinci hakimiyyəti dövrünü əvvəlki illərdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, muxtar respublikada tarixən mövcud olmuş yeyinti və yüngül sənaye sahələri inkişaf etdirilməklə bərabər onların yeni sahələri yaranmış, maşınqayırma və metal emalı, dağ-mədən və energetika kimi yeni sənaye sahələri də inkişaf etmişdir. Bunu aşağıdakı cədvəl məlumatlarından daha aydın görmək olar:

*Naxçıvan MR sənayesinin sahə quruluşu*
*(yekuna görə, faizlə)*

| Sənaye sahələri | Ümumi məhsula görə | | |
|---|---|---|---|
| | 1970 | 1975 | 1980 |
| Bütün sənaye | 100 | 100 | 100 |
| O cümlədən | | | |
| Elektroenergetika | 0,1 | 1,3 | 1,2 |
| Dağ-mədən | 0,9 | 0,6 | 0,4 |
| Maşınqayırma və metal emalı | 2,1 | 2,3 | 3,8 |
| Meşə və ağac emalı | 0,8 | 0,6 | 0,4 |
| Tikinti materialları sənayesi | 2,7 | 3,3 | 3,9 |
| Yüngül sənaye | 30,9 | 14,8 | 12,5 |
| Yeyinti sənayesi | 62,0 | 76,1 | 77,5 |
| Sair sənaye sahələri | 0,5 | 0,8 | 0,5 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, 70-ci illərdə Naxçıvan MR sənayesinin sahə quruluşunda xeyli dəyişikliklər baş vermişdir. Sənayenin ümumi məhsulunda maşınqayırma və

metal emalı, tikinti materialları və yeyinti sənayesi məhsullarının xüsusi çəkisi xeyli artmışdır. Belə ki, bu sahələrin ümumi məhsulda xüsusi çəkisi 1970-ci ildə 66,8 faiz olduğu halda 1980-ci ildə 85,2 faiz təşkil etməklə 10 il ərzində 18,4 faiz artmışdır.

Habelə cədvəl məlumatlarının təhlili onu da deməyə əsas verir ki, muxtar respublikada istehsal olunan sənaye məhsulunun 1970-ci ildə 92,9 faizi, 1975-ci ildə 90,9 faizi, 1980-ci ildə isə 90,0 faizi yeyinti və yüngül sənaye sahələrinin payına düşmüşdür. Bu sahələr içərisində isə əsas yer yeyinti sənayesi sahələrinə məxsusdur.

Yeyinti məhsulları sənayesi Naxçıvan MR-in ən çox sahəli və yüksək səviyyədə inkişaf etmiş sənaye sahələrindəndir. Məhsul istehsalının ümumi həcminə görə, o sənayenin bütün sahələri içərisində birinci yerdə durur. Yeyinti sənayesi Naxçıvan MR-in tamamilə yerli xammal əsasında, daha çox şəbəkələri olan, geniş çeşidli məhsul istehsal edən sənaye sahəsidir.

1990-cı ildə Naxçıvan MR-də istehsal edilən ümumi sənaye məhsulunun 74,8%-i və sənaye istehsal fondunun 35%-ə qədərini özündə cəmləşdirmişdi.

Naxçıvan MR-in bütün rayonlarında yeyinti sənaye sahəsi inkişaf etmişdir. İstehsal edilən məhsulların bir hissəsi yerli əhalinin tələbatını, digər hissəsi isə kənar rayonların əhalisinin həmin məhsullara olan tələbatını ödəmək məqsədilə göndərilir.

1970-1985-ci illərdə muxtar respublika sənayesində tikilib istifadəyə verilmiş 21 müəssisədən 11-i və ya 53%-i yeyinti sənayesinin payına düşmüşdü. 1970-1985-ci illərdə 5 ilkin şərab zavodu (Ordubad üzümçülük sovxozunda, 1973-cü ildə Sədərək üçümçülük sovxozunda gücü 10 min ton, 1974-cü ildə Naxçıvan MR-in 40 illiyi adına sovxozda gücü 10 min ton, 1977-ci ildə Naxçıvan üzümçülük sovxozunda gücü 10 min ton, Şərur rayonunun Düdəngə kəndi Dmitrov adına üzümçülük sovxozunda gücü 10 min ton), quşçuluq fabriki (1974-cü il 50 min toyuq is-

tehsalı gücündə) pivə zavodu (1970-ci il, növbədə 1 ton istehsal gücündə), süd zavodu (1985-ci il, növbədə 2,5 ton), pendir zavodu (yeni 1985-ci ildə, növbədə 0,5 ton gücündə), dəyirman kombinatı (1979-cu ildə sutkada istehsal gücü 245 ton), mineral su zavodu (1985-ci ildə, gücü 200 milyon şərti butulka), çörək bişirmə müəssisəsi (1982-ci il, sutkada 18 ton istehsal gücündə) tikilib istifadəyə verilmiş, mövcud müəssisələrdə yenidənqurma işləri aparılmışdır.Bütün bunların nəticəsində Naxçıvan MR-də çoxsahəli yeyinti sənaye istehsal kompleksi formalaşmışdır. Yeyinti sənayesinin məhsul istehsalında xüsusi çəkisi 1960-1980-cı illərdə daha da artmışdır. 1955-ci ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun 36,3%-i, 1970-ci ildə 62%-i, 1975-ci ildə 76,1%-i və 1980-cı ildə 77,5%-i yeyinti sənayesinin payına düşmüşdü. Doqquzuncu beşillikdə onun artım sürəti bütövlükdə sənayenin artım sürətindən 1,5 dəfə, X beşillikdə 1,1 dəfə yüksək olmuşdur.

1970-ci ilə nisbətən 1990-cı ildə fermentasiya edilmiş tütün 2,6 dəfə, konservləşdirilmiş məhsullar 3,2 dəfə, mineral sular 8 dəfə, duz istehsalı 2 dəfə, ət-süd məhsulları 2,6 dəfə, qənnadı məhsulları 1,3 dəfə artmışdı. Şərab məhsulları istehsalı 6 dəfə azalmışdır. Yeyinti sənaye sahələrinin çoxu ixtisaslaşmış sahələrdir və onlar Naxçıvanın Azərbaycan Respublikasının ictimai əmək bölgüsündə yerini müəyyən edir..

Ümumiyyətlə, keçən əsrin 70-80-cı illərində Naxçıvan MR-də demək olar ki, Azərbaycanda olan bütün yeyinti sənaye sahələri az və ya çox dərəcədə inkişaf etmişdir. Əhalinin ərzaq məhsullarına getdikcə artan tələbatı, kənd təsərrüfatının bir çox yeni sahələrinin yaranması Naxçıvan MR-də yeyinti sahələrinin nisbətən kompleks inkişafına şərait yaratmışdır.

İndi isə muxtar respublikada yeyinti sənayesinin bəzi sahələrinə dair qısa məlumat verək.

Şərabçılıq sənayesi 70-80-cı illərdə Naxçıvan Muxtar Respublikasında yeyinti sənayesinin ən cox inkişaf etmiş sahələrindən

biridir. 1970-ci ildə yeyinti sənaye məhsulunun 57,5%-i, 1978-ci ildə 64,5%-i, 1982-ci ildə isə bütün sənaye məhsulunun 42%-i və yeyinti sənaye məhsulunun 63%-i şərabçılıq sənayesinin payına düşürdü.

Muxtar respublikada üzüm əkin sahələrinin genişləndirilməsi məhsul istehsalının və tədarükünün artırılması ilə əlaqədar olaraq, şərabçılıq sənayesi daha çox inkişaf etmişdi. Əla şərab istehsalını artırmaq üçün şərab zavodlarının sayı çoxalmışdır. 1985-ci ildə şərabçılıq 10 iri müəssisə ilə təmsil olunurdu. Bu müəssisələr: "Ordubad", "Culfa", "Naxçıvan", "Naxçıvan MR 40 illiyi", "Əbrəqunus", "Şahbuz", "Leninabad" (indiki Kərimbəyli), "Xanlıqlar", "Arpaçay", "Sədərək" şərab zavodlarından ibarət idi. Burada istehsal olunan şərab və şərab materiallarının çeşidi 25-dən çox olmuşdur.

Naxçıvan şərab zavodu həm də müxtəlif markalı hazır şərab məhsulları istehsal edirdi. Hazır şərab istehsalı böyük sürətdə artırdı. 1970-ci ildə 75 min dekalitr şərab istehsal edildiyi halda, bu rəqəm 1980-ci ildə 319, 1981-ci ildə 337 min dekalitr, 1982-ci ildə 521 min dekalitr, 1983-cü ildə 536 min dekalitrə çatmışdır.

Naxçıvanda istehsal edilən şərab məhsulları özünün keyfiyyətinə və çeşidinin sayına görə Azərbaycanın başqa iqtisadi rayonlarında istehsal edilən məhsullardan fərqlənirdi.

70-80-cı illərdə muxtar respublikada istehsal edilən şərabın əsasını "Ağ portveyn", "Çəhrayı portveyn", "Süfrə Naxçıvan", "Süfrə Şahbuz", "Konyak üç ulduz" və s. kimi yüksək keyfiyyətli məhsullar təşkil etmişdir.

Naxçıvan MR-də 1970-ci ilə nisbətən 1990-cı ildə şərab məhsulları 6 dəfə azalmışdır. Bunun başlıca səbəbi 1985-ci ildən başlayaraq M.S.Qorbaçovun rəhbərliyi ilə Sov.İKP-nin guya iqtisadiyyatının sosial yönümünü gücləndirmək məqsədilə aqrar-sənaye kompleksinin yenidən qurulması və spirtli içkilər istehsalını kəskin surətdə azalması siyasəti Azərbaycanın, o

cümlədən Naxçıvan Muxtar Respublikasının sənayesinə kəskin mənfi təsir göstərmişdi.

Qeyd etmək lazımdır ki, muxtar respublikada üzümçülüyü inkişaf etdirmək üçün torpaq və əlverişli iqlim şəraiti vardır. Məlum olduğu kimi, üzümçülük tək şərabçılıq üçün deyil, tarixən mühüm əhəmiyyətə malik olan qida məhsuludur.

Tütün fermentasiyası sənayesi muxtar respublikada emal sənaye sahələri arasında tütün mühüm yerlərdən birini tutur və perspektivli sahələrdən hesab edilirdi. Muxtar respublikada istehsal edilən yeyinti sənaye məhsulunun 32,1%-ni tütün emal sənayesi təşkil edir. Tütün sənayesinin istehsal gücünün 3,1 min ton olmasına baxmayaraq, ildə burada 4 min ton tütünün ilkin emalı başa çatdırılırdı.

Naxçıvan tütün fermentasiya zavodu səkkizinci beşillikdə istifadəyə verilmişdi. Zavod muxtar respublika ərazisində tədarük olunan tütünü ilkin emal edib, Moskva, Kiyev, Minsk, Vilnus, Tallin, Murmansk, Rostov, Donbas, Vladivostok, Bakı və b. şəhərlərə göndərirdi. Ümumiyyətlə, 45 ünvanda yerləşən tütün fabriklərinin xammala olan tələbatını ödəyirdi.

Tütün kənd təsərrüfatı məhsulları içərisində və yeyinti sənayesində gəlirli sahə olduğundan son vaxtlar onun inkişafına xüsusi diqqət yetirildi. Muxtar respublikada tütün fermentasiya sənayesinin inkişafı aşağıdakı rəqəmlərdə səciyyələnir.

Həmçinin verilmiş rəqəmlərdən görünür ki, onuncu beşillikdə muxtar respublikada tütün-fermentasiya sənayesinin istehsalı yüksək olmuşdur. On birinci beşillikdə onuncu beşilliyə nisbətən istehsal aşağı səviyyədə olmuşdu.

Bunun başlıca səbəbi ondan ibarətdir ki, muxtar respublikada tütün əkin sahəsi azalmış, nəticədə az tütün tədarük edilmişdir. Belə ki, 1975-ci ildə muxtar respublikada tütün əkin sahələri 3,9 min hektar olduğu halda, 1983-cü ildə 1,2 min hektar olmuşdu. Halbuki, bu qiymətli bitkini burada inkişaf etdirmək üçün hər cür imkanlar, torpaq, su, iqlim şəraiti vardır. Əlavə

etmək olar ki, burada tütün əkin sahələrinin məhsuldarlığı da yüksək olur.

Naxçıvan Azərbaycanda istehsal edilən tütünün 3,3 %-ni vermişdi. Ərazidə istehsal olunan tütün, əsasən "Samson", "Trabzon" və "Dikqulaq" növlərindən (sortlarından) ibarətdir. Muxtar respublikada tütünçülük sənayesinin artmasını nəzərə alaraq, yerli əhalinin siqaretə olan tələbatını təmin etmək məqsədilə, tütün fermentasiya zavodu nəzdində yeni siqaretdolduran sexin tikilməsi də iqtisadi cəhətdən məqsədəuygundur.

**Konserv sənayesi.** Konserv emal sənayesi Naxçıvan MR-də ixtisaslaşmış yeyinti sənaye sahələrindəndir. Konserv sənayesi əsasən Ordubad şəhərində yerləşən aqrar sənaye kombinatından və Şərur meyvə-tərəvəz konserv məhsulları istehsal edən zavoddan ibarət idi.

Ordubad konserv zavodunun məhsulları ölkənin 70-dən çox rayonuna göndərilirdi. Burada 46 çeşiddə dadlı mürəbbələr, kompotlar, pavidlo və s. məhsullar hazırlanırdı. Ordubad konserv zavodu məhsullarının keyfiyyətinə görə Azərbaycanın qabaqcıl müəssisələrindən biri sayılırdı. Burada ən çox ərik, qızılgül, qoz, heyva, şaftalı, qovun və s. yüksək keyfiyyətli konserv məhsulları istehsal olunurdu.

Yerli meyvə-tərəvəz xammalının emalına əsaslanan Ordubad konserv zavodunun hasil etdiyi məhsulların həcmi ildən ilə artmışdı. Belə ki, 1971-ci ildə zavod 12,7 milyon şərti banka konserv məhsulu istehsal etmişdir ki, bu da 1940-cı ilə nisbətən (1,5 milyon şərti banka) 8,5 dəfə, 1960-cı ilə nisbətən isə (4,4 milyon şərti banka) 2,9 dəfə şoxdur.

X-XI beşilliklər dövründə Ordubad konserv zavodu yenidən qurulmuş və genişləndirilmişdi. Nəticədə, bu müəssisədə məhsul istehsalı xeyli artırılmışdır. Bu artım aşağıdakı kimi səciyyələnir. Zavod 1940-cı ildə 1,5, 1960-cı ildə 4,4, 1970-ci ildə 10,0, 1975-ci ildə 20,3, 1980-ci ildə 26,0, 1981-ci ildə 25,7, 1982-ci ildə 31,2, 1983-cü ildə isə 32,6 milyon şərti banka konserv

istehsal etmişdir.

Statistikanın vermiş olduğu məlumatlardan görünür ki, 70-80-ci illərdə Ordubad konserv zavodu məhsul istehsalını həmişə artırmışdı. Belə ki, 1985-ci ildə Ordubad konserv zavodu 1940-cı ildəkinə nisbətən 23 dəfə, 1960-cı ilə nisbətən 7,8 dəfə, 1970-ci ilə nisbətən 3,45 dəfə çox konserv istehsal etmişdir.

**Mineral sular istehsalı.** Azərbaycan Respublikasında yeraltı suların öyrənilməsi zamanı müəyyən edilmişdir ki, başqa rayonlardan fərqli olaraq Naxçıvan MR ərazisi müxtəlif fiziki-kimyəvi mineral su mənbələri ilə daha zəngindir. Onu haqlı olaraq, mineral sular qalereyası adlandırırlar.

Ərazinin mineral sularla zəngin olmasına baxmayaraq, yalnız "Badamlı", "Sirab" mineral sularından, çox az miqdarda "Vayxır" mineral suyundan istifadə olunmuşdur.

1970-1980-ci illərdə Badamlı mineral su zavodunun istehsal gücü xeyli artırıldı. Sirab və Vayxır mineral su mənbələrindən məqsədəuyğun istifadə olundu. 1979-cu ildə Naxçıvan şüşə tara zavodunun tikilib istifadəyə verilməsi mineral su zavodlarının şüşə taralarla təminatını yaxşılaşdırmağa imkan verdi.

80-ci illərin birinci yarısında Naxçıvan Azərbaycanın nəinki təkcə mineral su dolduran əsas mərkəzinə çevrilmiş, eyni zamanda keçmiş Sovetlər İttifaqının müxtəlif müalicə suları istehsal edən iri rayonlarından biri kimi tanınmışdı. Badamlı və Sirab mineral su mənbələri (müvafiq olaraq "Narzan" və Barjomi tipində) əsasında tikilmiş zavodlarda, 1960-cı ildə 12,9 və 1970-ci ildə 37,0 milyon yarımlitrlik şüşə su doldurulmuşdur. 70-80-ci illərdə bu istehsal daha da artmışdı. Belə ki, 1975-ci ildə 67,7, 1980-ci ildə 98,5, 1981-ci ildə 106,7, 1982-ci ildə 104,8, 1983-cü ildə isə 134,1 milyon yarımlitrlik şüşə mineral su istehsal edilmişdir.

Rəqəmlərdən görünür ki, 1980-ci ildə 98,5 (1970-ci ilə nisbətən 2,62 dəfə çox), 1983-cü ildə 134 milyon yarımlitrlik butulka və ya 1970-ci ilə nisbətən 3,6 dəfə çox su doldurulmuşdu.

Sonrakı illərdə muxtar respublikada istehsal edilən mineral su daha da çoxalmışdır. Naxçıvan MR-in mineral suları Naxçıvan sərhədlərindən çox-çox kənarda özünə layiqli nüfuz qazanmış, istehlakçı tapmışdı. 1980-ci ildə istehsal olunan mineral suyun 60%-dən çoxu Naxçıvan MR-dən kənara ixrac edilmişdi. 1983-cü ildə istehsal olunmuş 134 milyon butulka suyun 80 milyon butulkası keçmiş Sovet İttifaqının 150-dən çox şəhərinə göndərilmişdi.

Muxtar respublikada istehsal edilən yeyinti məhsullarının 8,3%-ni təşkil edən mineral suların istehsalını artırmaq olar. 1990-cı ildə onun istehsal səviyyəsi 10 milyon dekalitrə çatmışdır ki, bu da 1960-cı ilə nisbətən 9 dəfə, 1970-ci ilə nisbətən 8 dəfə çoxdur.

**Ət-süd emal sənayesi.** Muxtar respublikada istehsal edilən yeyinti sənaye məhsulunun 8,5 %-ni ət-süd emal sənayesi təşkil edirdi. Bu sənaye müəssisəsi yerli xammal, eləcə də Azərbaycanın rayonlarından gətirilən ət məhsulları hesabına işləyirdi. Əsasən yerli əhalinin ət-süd məhsullarına olan tələbatını ödəyir. 1951-ci ildə yaradılmış bu müəssisə, sonrakı ildə kombinat kimi fəaliyyət göstərmişdi. Kombinatın tərkibinə ət emalı sexləri, soyuducu, yarımfabrikatlar sexi, bir sıra başqa əsas və yardımçı sexlər, anbar və digər sahələr daxil idi. Kombinatda geniş çeşiddə süd məhsulları (yağ, pendir, kəsmik, xama, qaymaq, qatıq və s.) da hazırlanır. Son illər kombinat genişləndirilmiş, yüksək məhsuldar aqreqat və texniki avadanlıqlarla təchiz edilmişdi.

Əgər 1970-ci ildə ət-süd kombinatında 3,7 min ton ət, 122 ton kolbasa məhsulları istehsal edilmişsə, 1990-cı ildə həmin göstəricilər müvafiq olaraq 6,5 ton və 232 ton təşkil etmişdir. 1990-cı ildə əvvəlki illərlə müqayisədə ət məhsulu 2 dəfə, kolbasa məhsulları isə 2,1 dəfə artmışdır.

Naxçıvanda ət-süd sənaye məhsullarının inkişafının başlıca cəhəti ətlik-südlük heyvandarlıq üzrə ixtisaslaşmış bir sıra sovxoz və kolxozların yaradılması idi. Kombinata gətirilən ətin

9,1%-i Azərbaycanın İmişli və Zəngilan rayonları, 90,9%-i isə muxtar respublikanın rayonları təşkil edirdi. Kombinata gətirilən ət xammalının çəkisinin əvvəlki illərə nisbətən yüksək olmasına baxmayaraq, istehsal gücünün 46,5%-dən istifadə olunmuşdur. Muxtar respublikada ət istehsalını artırmaq və kryfiyyətini yüksəltmək üçün mühüm məsələlərdən biri zonalar üzrə ətlik heyvanların müxtəlif kökəldilməsidir. Təcrübələr göstərir ki, heyvan kökəltməklə kombunatı xammalla təmin etmək olar.

Naxçıvan ət-süd kombinatında ildə 39,7 min ton süd və süd məhsulları istehsal olunurdu. Süddən alınan məhsullar yerli tələbatı ödəyirdi. Süd məhsulları içərisində ərinmiş yağ, qatıq yüksək göstəricilərə malik olmaqla başqa məhsul növlərinə nisbətən üstünlük təşkil edirdi.

Kombinata süd yalnız muxtar respublikanın rayonlarından gətirilirdi Süd gətirilən rayonlar içərisində Şərur rayonu (43,9%) üstünlük təşkil edirdi. Süd və süd məhsullarını artırmaq üçün muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi zəruri məsələlərdən biridir.

Naxçıvan MR-də yeyinti sənayesinin bir sıra başqa müəssisələri də fəaliyyət göstərirdi. Bunlardan bütün rayon mərkəzlərində və Naxçıvan şəhərində fəaliyyət göstərən çörək zavodlarını, Tumbul pivə zavodunu, Naxçıvan dəyirman kombinatını, süd, pendir zavodlarını, əsasən yumurta istehsalı üzrə ixtisaslaşmış quşçuluq fabrikini, qənnadı kombinatlarını, duz sexlərini və s. göstərmək olar.

Bütün bu müəssisələr bilavasitə Naxçıvan MR əhalisinin tələbatının ödənilməsinə xidmət edirdi.

**Yüngül sənaye.** Yüngül sənaye muxtar respublikada istehsal olunan sənaye məhsullarının ümumi həcmində ikinci yerdə gedirdi. 70-80-ci illərdə Naxçıvan MR-də sənayenin digər sahələri kimi, yüngül emal sənayenin inkişafında da mühüm nailiyyətlər əldə edilmişdir.

Qeyd etmək olar ki, xalq təsərrüfatının mövcud sahələri

yüksəlmiş və yeni sahələrin yaradılmasında və inkişafında yüngül sənayenin də özünəməxsus mühüm rolu vardır. Yüngül sənayenin istehsal etdiyi məhsullara bütün müəssisə və təşkilatlarda tələbat vardır.

Naxçıvan sənaye sahələri içərisində ümumi məhsul istehsalının həcminə görə yüngül sənaye mühüm rol oynayırdı. Yüngül sənaye Naxçıvan MR-də istehsal edilən ümumi sənaye məhsulunun 15,6%-ni verirdi.

Yüngül sənaye müəssisələri daha çox əmək tutumlu sahələrdən biri kimi, həm də yerli xammalın ilkin emalı prosesini başa çatdırmaqla məhdudlaşırdı.

Yüngül sənaye Naxçıvan MR-in ənənəvi sənaye sahələrindən olub, bir sıra mühüm sahələri əhatə edirdi.

**İpək sənayesi.** Muxtar respublikada yüngül sənayenin ən iri və uzun inkişaf tarixi olan sahələrdən biri ipək sənayesidi. Ordubad şəhərində yerləşən ipək fabriki muxtar respublikanın ən iri yüngül sənaye müəssisəsi idi. Bu sənaye müəssisəsi Naxçıvan MR-də əsasən inqilabdan sonra inkişaf etmişdi. 1924-cü ildə Ordubad baramaaçma fabrikində cəmi 2 ton ipək xammalı emal edildiyi halda, burada istehsalın həcmi 1940-cı ildə 17 ton, 1960-cı ildə 24,2 ton, 1970-ci ildə 49 ton, 1980-ci ildə isə 104 tona çatdırılmışdır.

Deməli, 1980-ci ildə fabrikdə 1924-cü ilə nisbətən 52 dəfə artıq barama istehsal edilmişdir. Ordubad baramaaçma fabriki bir sıra rayonlardan alınan baramanı da emal edərək, buraxılan məhsulu Şəki İpək kombinatına və keçmiş SSRİ-nin bir çox ipək toxuma fabriklərinə göndərmişdi.

1969-cu ildə Ordubad baramaaçma fabrikində yenidənqurma işləri aparılmış, müasir avadanlıqlar quraşdırılmış, müəssisə kombinat kimi fəaliyyət göstərmişdir. Həmin ildə kombinatda 103 ton xam ipək sapı və 1200 min metr xam parça istehsal edilmişdir. İstehsal olunan xam ipəyin bir hissəsindən cod parça hazırlanmış, digər hissəsi isə Şəki, Şamaxı, İsmayıllı, Moskva,

Kiyev, Leninqrad (indiki Sankt-Peterburq), Düşənbə və s. şəhərlərə, həmçinin İsveçrə, İtaliya, Belçika, Yaponiya, Tailand, Koreya və s. ölkələrə göndərilirdi [77, s. 461].

Ordubad ipək fabriki muxtar respublikanın ən iri yüngül sənaye müəssisəsi idi. Müəssisənin payına 1982-ci ildə Naxçıvan MR yüngül sənayesinin ümumi məhsulunun 63%-i və sənaye istehsal heyətinin 27%-i düşmüşdü. Ordubad ipək fabriki əsasən yerli baramanın emalı ilə məşğul olaraq, respublikanın və ölkənin bir sıra ipək parça fabriklərini xammalla təmin etmişdi. 1983-cü ildə fabrikdə 100,1 ton ipək xammalı emal edilmişdir ki, bu da 1940-cı ilə nisbətən 6 dəfə çoxdur.

1983-cü ilin sonunda ipək fabrikasının kollektivi 20 milyon 637 min manatlıq əvəzinə 21 milyon 59 min manatlıq məhsul istehsal edərək, planı 102% ödəmişdilər. 20 milyon 487 min manatlıq əvəzinə 21 milyon 188 min manatlıq məhsul satılmışdır ki, bu da tapşırığın 103,4% yerinə yetirilməsi deməkdir. Əmək məhsuldarlığı tapşırığına isə 101,8% əməl olunmuşdur. Fabrikdə keçən ilin müvafiq dövrünə nisbətən istehsalın həcmi 3,3 dəfə, məhsul satışı 2,6%, əmək məhsuldarlığı isə 2,3% artmışdı (79, qəzet, 14 dekabr 1983).

1984-cü ildə fabrikin sexlərində 34 müasir tipli "STB-2-216" nömrəli daha məhsuldar toxucu dəzgahları quraşdırılaraq işə salınmışdı. Bu dəzgahların hər biri gün ərzində 8 metr parça toxuya bilirdi. Bu o deməkdir ki, yeni dəzgahlar köhnə toxucu dəzgahlardan gün ərzində 5,5 metr çox ipək parça toxumağa imkan verirdi. Məhz bunun nəticəsində fabrik 1984-cü ildə 22 milyon 970 min manatlıq əvəzinə 23 milyon 696 min manatlıq məhsul satmışdır. Ümumi məhsul istehsal tapşırıqlarının 105,2 % əməl edilmişdir.

1985-ci ildə ipək fabrikinin burucu sexində 4 ədəd "TK-136" nömrəli burucu-cütləyici və 5 ədəd "KE-145" nömrəli burucu dəzgah quraşdırılmışdı. Burucu maşınların istifadəyə verilməsi fabrikin istehsalını xeyli artırmışdır. Belə ki, 1985-ci ildə

Ordubad ipək fabrikasında 107 ton xam ipək istehsal olunmuşdu ki, bu da 1940-cı ildə istehsal olunduğundan 6,3 dəfə, 1970-ci ildəkindən isə 2,2 dəfə çoxdur. 1987-ci ildə Ordubad ipək kombinatında 108 ton ipək sapı istehsal olunmuşdur. Naxçıvan MR-in blokada şəraitinə düşməsi ilə əlaqədar burada istehsalın həcmi azalmışdır.

**Tikiş sənayesi.** Naxçıvan MR-də yüngül sənayenin ən geniş yayılan sahələrindən biri də tikiş sənayesidir. Onun müəssisələri muxtar respublikanın bütün rayonlarında mövcud olan məişət xidməti kombinatlarında yaradılmış, ən iri istehsalı isə Naxçıvan tikiş fabrikində, Naxçıvan istehsal kombinatında, Naxçıvan fərdi tikiş fabrikində cəmləşmişdir. Bu müəssisələr yerli əhalinin və Azərbaycanın başqa rayonlarının tələbatını ödəmək üçün geniş çeşidli müxtəlif tikiş məmulatları istehsal edirdilər.

Naxçıvan MR-in müstəqil balansda olan bütün sənaye müəssisələrində çalışan sənaye istehsal heyətinin 18%-dən çoxu bu sənaye sahəsinin müəssisələrində cəmlənmişdir. Ümumiyyətlə, Naxçıvan MR-də tikiş sənayesi işçi qüvvəsinin ən çox cəmləşdiyi sənaye sahəsi idi.

Onuncu və on birinci beşilliklər dövründə muxtar respublikanın əsas tikiş sənaye müəssisələrində yenidənqurma işləri aparılmışdır. Yeni texnika və texnologiyadan istifadə edilmişdir. Bunun nəticəsində tikiş sənaye müəssisələri 1975-ci ildə 1,5 min ədəd, 1976-cı ildə 1,6 min ədəd, 1977-ci ildə 1,8 min ədəd, 1978-ci ildə 1,9 min ədəd, 1979-cu ildə 2,0 min ədəd, 1980-ci ildə 2,1 min ədəd, 1981-ci ildə 2,3 min ədəd, 1982-ci ildə 2,2 min ədəd, 1983-cü ildə isə 2,1 min ədəd kişi və uşaq geyimləri istehsal etmişdilər [80, s. 28; 84, s.13].

Naxçıvan MR-də fəaliyyət göstərən yüngül sənayenin iri müəssisələrindən biri Naxçıvan tikiş fabrikidir. Bu müəssisə 1959-cu ildə Naxçıvan Muxtar Respublika Yerli Sənaye Nazirliyinin nəzdində 1 sex və 74 nəfər işçi ilə fəaliyyətə başlamışdır. 1964-cü ildə Yüngül Sənaye Nazirliyinin tərkibinə daxil olaraq

"5 saylı Naxçıvan tikiş fabriki", 1974-cü ildə isə "Naxçıvan Muxtar Respublikasının 50 illiyi adına Naxçıvan tikiş fabriki" adlandırılmışdır.

1967 və 1987-ci illərdə fabrikdə tikilmiş 2 istehsalat körpüsü ilə birlikdə 3 tikiş sexi, 1 biçim sexi, hazır mal anbarı, xammal anbarı və idarə binası mövcuddur.

Naxçıvan tikiş fabriki əsasən məktəbəqədər uşaq, məktəbli uşaqlar və böyüklər üçün köynək istehsalı üzrə ixtisaslaşmışdır. Fabrik işə düşəndən ən yüksək nəticəsini 1987-ci ildə əldə etmişdi. 1200 nəfər təcrübəli tikişçi ilə iki növbədə işləyən fabrik 250 min ədəd müxtəlif çeşidli və ölçülü köynək istehsalına nail olmuşdur. Keçmiş SSRİ-nin 87 şəhərindəki ticarət təşkilatları ilə müqavilə bağlayaraq, məhsullarının satışını təşkil etmiş, 27 şəhərdən isə xammal və köməkçi materiallar almışdır. 1987-ci ildə fabrikin yeni tikilmiş korpusunda Almaniyanın "PFAFF" firmasının istehsalı olan yeni modelli tikiş maşınları quraşdırılmışdır. Bu isə fabrikin istehsal gücünü xeyli artırmışdır.

Yüngül sənaye müəssisələrindən biri də Naxçıvan Alt trikotaj fabriki idi. Bu fabrikin tikintisinə 1976-cı ildə başlanmışdır. 1982-ci ildə işə salınmışdır. Layihə üzrə ümumi işçi sayı 1500 nəfərdir. Fabrikin ilkin istehsal gücü 9,0 milyon ədəddir. Fabrikdə əsasən kişi, qadın və uşaq alt trikotaj məhsulları istehsal olunurdu. Son illərdə fabrik alt trikotaj məhsulları ilə yanaşı üst paltarları və s. məhsulların da istehsalına başlamışdır. Qeyd etmək olar ki, fabrikdə müxtəlif çeşiddə 150-160 modeldə alt paltarları, fəhlə paltarı, fəhlə kombinzonları, yataq dəstləri, xalat, əlcək və s. tikilirdi. Onu da qeyd etmək olar ki, 80-ci illərdə fabrik xammalı xarici dövlətlərdən, sosialist ölkələrindən əldə edirdi. İstehsal etdiyi malların 30%-nin alıcısı keçmiş sovetlər birliyində idi.

Fabrikdə istehsal olunan xammalın əsas hissəsi (ip, parça və s.) Bakıdan və Gəncədən alınırdı. Alınan ip burada toxunur, boyanır, biçilir və tikilirdi.

1983-cü ildə fabrikin gücündən səmərəli istifadə olunmamışdır. Fabrikdə avadanlıqlar tam gücü ilə işləməmiş, kadrlar düzgün seçilib yerləşdirilməmiş, müəssisənin işində nöqsanlara yol verilmişdir. Məhz bunun nəticəsində 1983-cü ildə burada 5,6 milyon ədədə qədər müxtəlif çeşidli alt trikotaj məmulatı emal edilmişdir. Halbuki, fabrikin istehsal gücü 9,0 milyon ədəd trikotaj məmulatları buraxmağa malikdir.

On birinci beşilliyin son ilində həyata keçirilən təşkilat və texnoloji tədbirlər nəticəsində fabrikdə xeyli irəliləyiş yaranmışdır. 1985-ci ilin sonunda istehsal tapşırıqlarına 107%, satış planına isə 108% əməl olunmuşdur. "H" indeksi ilə istehsalat tapşırıqları 2,5 dəfə artıqlaması ilə yerinə yetirilmişdir. Əmək məhsuldarlığı keçən ilin müvafiq dövrünə nisbətən 29,5% artmışdır.

Sonrakı illərdə fabrikin sexində olan müxtəlif markalı dəzgahlar tam gücü ilə işləyir, toxucu, tikiş, biçim, boyaq, qurutma sexlərində və bir sıra yardımçı istehsal sahələri ahəngdarlığını artırmışdır. Tikiş sexində Çexoslovakiyadan alınmış yeni etiket hazırlayan və vuran maşınlar quraşdırılmış, istehsal xeyli artmışdı.

**Xalçaçılıq.** Muxtar respublikada olan yüngül sənaye müəssisələrindən biri də Naxçıvan Xalça Kombinatı idi. Bu müəssisə Azərbaycan Respublikası "Xalq üçün mallar" Dövlət Konserninə daxil idi. Naxçıvan Xalça Kombinatının tikintisinə 1979-cu ildə başlanmışdır. Ümumi sahəsi 50000 m$^2$, istehsal sahəsi 3000m$^2$, yardımçı bina və tikilişlərin sahəsi isə 10000 m$^2$-ə yaxındır. Layihə gücü ildə 2,5 milyon m$^2$ xalça və xalça məmulatı istehsalı olacaq kombinatda üçnövbəli iş rejimində 2500 nəfərdən artıq fəhlə və qulluqçunun çalışması nəzərdə tutulmuşdu.

Xalça kombinatı əsasən iki fabrikdən: əyirici (sahəsi 15000 m$^2$) və toxucu (sahəsi 15000 m$^2$) fabrikindən ibarət idi. Boyaqxana, hazırlayıcı, aparat-darayıcı, əyirici sexlərindən ibarət olan əyirici fabrik 1988-ci ilin yanvarında istifadəyə verilmişdi. Naxçıvan

MR-in blokada vəziyyəti ilə əlaqədar olaraq, toxucu fabrikinin tikilməsi tamamlanmamışdır.

Xalçaçılıq Naxçıvanda yüngül sənayenin ənənəvi sahələrindən olmaqla yerli əhalinin qədimdən bu sahədə böyük səriştəyə malik olmasının təcəssümüdür. Gələcəkdə xalçaçılığın inkişafını sürətləndirmək üçün Naxçıvan Muxtar Respublikasının yerli tələbatı ilə əlaqədar olan poliqrafiya, kimyəvi təmizləmə, boyama və digər məişət xidməti olan emal sahələri təşkil ediləcəkdir.

Naxçıvan MR-də yüngül sənayenin inkişafı təhlil edilən zaman məlum olunur ki, 70-80-ci illərdə bu sənaye sahəsi yüksələn xətt boyu inkişaf etmişdir. Yüngül sənayeni inkişaf etdirmək üçün muxtar respublikada əmək ehtiyatları daha çoxdur. Yerli əhalinin ayaqqabıya olan tələbatını ödəmək üçün muxtar respublikada zənnimizcə bir ayaqqabı fabrikası tikmək məqsədəuyğun olar.

**Meşə və ağac emalı.** Naxçıvan MR-də meşə və ağac emalı sənayenin yeni sahələrindən olub, Naxçıvan şəhərində yerli tələbatı ödəmək məqsədilə mebel istehsal edir. Bu sənaye müəssisəsi 1950-ci ildə mebel kombinatı kimi yaradılmışdır. 1964-cü ildə Naxçıvan MR-in 40 illiyi adına Naxçıvan mebel fabriki adlandırılmışdır.

Məlumdur ki, meşə və ağac emalı, o cümlədən mebel istehsalı çox material tutumlu sahədir. Əsasən xammal mənbələrinə yaxın yerdə yerləşir. Bu baxımdan muxtar respublikada meşə və ağac emalı sənayesinin inkişafı üçün kifayət qədər xammal yoxdur. Azərbaycanda olan bütün meşə sahəsinin cəmi 0,2%-i Naxçıvan MR-nin payına düşür. Meşə sahəsi yalnız Şahbuz rayonunun Batabat bölgəsində olmaqla muxtar respublikanın ərazisinin 0,4%-ni tutur. Bu meşə sahəsi də təbiəti mühafizə xarakterli funksiya yerinə yetirir və sənaye əhəmiyyəti kəsb etmir. Buna görə də Naxçıvandakı nisbətən kiçik mebel fabriki kənardan gətirilən xammal əsasında fəaliyyət göstərir və yerli

tələbatı ödəyirdi.

Meşə və ağac emalı sənayesi Azərbaycanın rayonlarından gətirilən hazır mebel materialları əsasında işləyirdi. Mebel fabrikində istehsalın texniki vəziyyəti məişət üçün kompleks mebel məhsullarının istehsal edilməsinə imkan verirdi. Lakin buna baxmayaraq, bir sıra mebel məhsulları fabrikdə istehsal edilmədiyindən yerli əhalinin tələbatı çox da əlverişli olmayan uzaq rayonlardan gətirilən mebel hesabına ödənilirdi ki, bu da əlavə nəqliyyat xərclərinə səbəb olurdu və əhalinin tələbatı ödənilmir.

Mebel fabrikində məişət üçün mebel istehsalı məsələsi həll edilərsə, nəinki yerli əhali, hətta Azərbaycanın bura yaxın rayonlarının bu növ məhsullara olan tələbatını ödəmək olardı.

50-60-cı illərdən fərqli olaraq, 70-80-ci illərdə mebel fabrikasının kollektivi istehsalat planlarını bütün göstəricilər üzrə yerinə yetirməyi qarşılarına məqsəd qoymuşlar. Bu məqsəd uğrunda mübarizə aparan mebelçilər onuncu və onbirinci beşilliklərdə gözəl nəticələrə nail olmuşdular. Belə ki, mebel fabriki 1975-ci ildə 500, 1976-cı ildə - 634, 1977-ci ildə - 683, 1978-ci ildə - 579, 1979-cu ildə - 703, 1980-ci ildə - 766, 1981-ci ildə - 856, 1982-ci ildə - 918 və 1983-cü ildə - 984 min manatlıq mebel istehsal etmişlər.

Bu rəqəmlərdən görünür ki, on və on birinci beşillikdə mebel fabrikasında mebel istehsalı müntəzəm olaraq artmışdır. 1975-ci ilə nisbətən 1980-ci ildə muxtar respublikada istehsal olunan sənaye məhsulunun 0,4%-i meşə və ağac emalının payına düşmüşdür. 1990-cı ildə muxtar respublikada istehsal olunan ümumi sənaye məhsulunun 0,6%-ni bu sənaye sahəsi təşkil etmişdir.

**Maşınqayırma və metal emalı.** Bu sənaye sahəsi muxtar respublika üçün tamamilə yeni bir sənaye sahəsi idi. Maşınqayırma və metal emalı Naxçıvan Muxtar Respublikasının sənaye strukturunda 70-ci illərdə baş vermiş mütərəqqi dəyişiklərin məhsu-

ludur. 1970-ci ildə bu sənayenin payına sənaye məhsulunun 2,1%-i və sənaye istehsalı heyətinin 6,6%-i düşürdü.

Naxçıvan MR sənayesinin quruluşunda maşınqayırma və metal emalı sənayesinin xüsusi çəkisi müntəzəm olaraq artmışdır. Məişətdə geniş tətbiq olunan məhsullar istehsal edən Naxçıvan elektrotexnika zavodu, Naxçıvan alüminium qablar zavodu və Şahbuz avtomobil təmiri zavodu onun ən iri müəssisələridi. Bu sahə 70-80-ci illərdə muxtar respublikada əmək ehtiyatlarının istehsal prosesinə cəlb edilməsində əhəmiyyətli rol oynamışdı.

Maşınqayırma və metal emalı Naxçıvan MR üçün vacib olan bir çox sənaye məhsulu, o cümlədən elektrotexnika məhsulları, istehsal təyinatlı metal məhsullar, təsərrüfat və məişət təyinatlı metal qablar istehsal edir, maşın və avtomaşınların təmirini və modernləşməsini həyata keçirir, işsizliyi aradan qaldırır, əhalini sakinləşdirir və s. amilləri yerinə yetirir. 1982-ci ildə muxtar respublikanın bütün sənayesində çalışan sənaye istehsal heyətinin 11,6%-ə qədəri bu sahənin payına düşmüşdür.

Muxtar respublikada maşınqayırmanın ən iri müəssisəsi Naxçıvan elektrotexnika zavodudu. Müvafiq sənaye sahəsində çalışan sənaye istehsal heyətinin 39%-ni əhatə edən və emal edilən sənaye məhsulunun 55%-dən çoxunu verən müəssisədə əsasən buraxılışı tənzimedici aparatlar, elektroqurğu məmulatları, drossellər, starter saxlayıcıları, müxtəlif xalq istehlakı malları istehsal olunurdu. İstehsal edilən məhsulların əsas hissəsi kənara göndərilir. Ümumiyyətlə, müxtəlif işıq texniki avadanlığı istehsalının ümumi həcmi 1975-ci ildə 1,3 milyon manat olduğu halda, 1980-ci ildə 3,5, 1981-ci ildə 3,6, 1982-ci ildə 4,0, 1983-cü ildə 4,1, 1990-cı ildə isə 4,7 milyon manat olmuşdur. Bu rəqəmlərdən görünür ki, elektrotexnika zavodu hər il məhsul istehsalını artırmış, öhdəsinə düşən vəzifəni şərəflə yerinə yetirmişdir.

Naxçıvan alüminium qablar zavodu 1975-ci ildən müstəqil zavod kimi fəaliyyət göstərirdi. Zavodun istehsal gücü 1000

ton alüminium qablar istehsalına malik olub, əsasən kənardan gətirilən xammal hesabına işləyirdi. Zavoda gətirilən xammalın əsasını Abşeron iqtisadi rayonundan alınırdı.

1968-1975-ci illərdə zavodda 1500 ton məhsul istehsal olunmuşdur. Naxçıvan alüminium qablar zavodu sonrakı illərdə də məhsul istehsalını ilbəil artırmışdı. 1975-ci ildə zavod 294 ton məişət qabları istehsal etdiyi halda, 1976-cı ildə 400 ton, 1977-ci ildə 387 ton, 1978-ci ildə 294 ton, 1979-cu ildə 318 ton, 1980-ci ildə 317 ton məhsul istehsal etmişdi. 1990-cı ildə istehsal edilən ümumi məhsulun dəyəri 9,8 milyon manat olmuşdur.

Alüminium qablar zavodunda istehsal edilmiş məhsullar yerli əhalinin tələbatını ödəməklə bərabər, kənar rayonların tələbatını ödəmək məqsədilə də ixrac edilirdi.

Naxçıvan alüminium qablar zavodu, Şahbuz avtomobil təmiri zavodu, Naxçıvan müxtəlif məişət texnikası kombinatı, maşınqayırma və metal emalı sənayesinin muxtar respublikada iri müəssisələri idi.

Qeyd etmək olar ki, 70-80-ci illərdə Şahbuz avtomobil təmiri zavodu muxtar respublikada mövcud olan maşın və avadanlıqların təmir olunmasında, modernləşməsində və saz saxlanılmasında böyük rol oynamışdı.

**Tikinti materialları emal sənayesi.** 70-80-ci illərdə Naxçıvan Muxtar Respublikasının tikinti materiallar emal sənayesi sürətlə inkişaf etmiş və çox sahəli xarakter daşıması ilə səciyyələnmişdir. Əsasən müxtəlif yerli xammaldan istifadə etməklə muxtar respublikanın öz tələbatını ödəmək vəzifəsini yerinə yetirən bu sahənin müəssisələri başlıca olaraq dəmir-beton hissələri, kərpic, üzlük plitələr, mərmər, müxtəlif gillər, əhəng, gəc, gips, tikinti daşları, dəmir-beton, asfalt-beton istehsal edir, qum xammalı hasil edirdi.

İttifaq tərkibində olan dövrlərdə muxtar respublikaya minlərlə vaqon kubik, sement, taxta-şalban, qum-çınqıl və digər inşaat materialları gətirilirdi.

Muxtar respublikada sement zavodunun olmaması burada tikintinin inkişafına mənfi təsir göstərmişdi.

Keçmiş SSRİ Tikinti Materialları Sənayesi Nazirliyini və digər nazirliklər qarşısında Naxçıvan MR-də sement zavodunun tikilməsi barədə dəfələrlə məsələ qaldırılmasına baxmayaraq 80-ci illərdə muxtar respublikada sement zavodu olmamışdır. Halbuki, muxtar respublika tikintisinin sementə, kubikə, divar daşı, qeyri-filiz materiallarına və s. böyük ehtiyacı vardı.

Məlumdur ki, tikintinin inkişafı, onun keyfiyyətinin yaxşılaşması, əsaslı vəsait qoyuluşunun səmərəsinin artması tikinti materialları sənayesinin sürətli inkişafı olmadan mümkün deyildi. Tikinti materialları istehsalı inşaat proqramının artmasına nisbətən daha sürətlə inkişaf etməlidir. Lakin Azərbaycan KP MK-nin 1971-ci il iyul Plenumunda göstərildi ki, tikinti materialları sənayesi əsaslı tikintinin inkişaf sürətindən və həcmindən geri qalır, plan tapşırıqlarının yerinə yetirilməsini təmin etmir. Plenumda qeyd edildiyi kimi, Azərbaycan Respublikasında olduğu kimi, Naxçıvan MR-də də tikinti materialları sənayesi əsaslı tikintinin inkişaf sürətindən geri qalır, plan tapşırıqlarının yerinə yetirilməsini təmin etmirdi.

Naxçıvanda sement zavodunun olmaması, kubikin Qaradağdan gətirilməsi və taxta-şalbanın Rusiyadan alınması muxtar respublikada tikinti işlərini bir qədər çətinləşdirir, nəqliyyat xərclərini artırırdı.

Xalq təsərrüfatının və əhalinin sürətlə artan tələbatını, habelə uzaqdan daşınmasının çox baha başa gəlməsini nəzərə alaraq, 70-80-ci illərdə tikinti materialları istehsalının artmasına və bu sahədə yeni müəssisələrin tikilib işə salınmasına xüsusi fikir verilmişdir.

Muxtar respublikada 1973-cü ildə gücü 20 min kub metr olan dəmir-beton məmulatları zavodu, 1977-ci ildə yenə həmin gücdə yığma, dəmir-beton məmulatları zavodu, 1979-cu ildə 50 milyon ədəd butulka istehsalı gücündə şüşə tara zavodu,

1982-ci ildə 10 min kub metr gücündə Şahtaxtı travertin bloklar karxanası, 1984-cü ildə 58,3 min kub metr gücündə yığma dəmir- beton məmulatları-panellər zavodu, yenə həmin ildə gücü 52,3 min kub metr olan iri panellər, evtikmə zavodu istifadəyə verilmişdir. Nəticədə tikinti materialları istehsalı, bütövlükdə, sənayeyə nisbətən daha sürətlə inkişaf etmiş və onun sənayenin strukturunda xüsusi çəkisi xeyli artmışdır.

Ümumiyyətlə, tikinti materialları sənayesi 70-80-ci illərdə muxtar respublikada yüksələn xətlə inkişaf etmişdi. Belə ki, əgər tikinti materialları sənayesi 1970-ci ildə, bütövlükdə, Naxçıvan MR-də istehsal olunan sənaye məhsulunun 2,7 faizini təşkil edirdisə, bu rəqəm 1,2 faiz artaraq 1980-ci ildə 3,9 faiz təşkil etmişdi.

Tikintidə yığma dəmir-betonlar işlədilməsinin böyük üstünlüyünü və iqtisadi cəhətdən faydalı olmasını nəzərə alaraq 70-80-ci illər ərzində muxtar respublikada tikilmiş dəmir-beton konstruksiyalar və detallar buraxan sənaye müəssisələrinin tikinti-quraşdırma işlərinin sürətləndirilməsində, tikintiləri daha keyfiyyətli tikinti sənaye materialları ilə təmin etməkdə mühüm rol oynamışdır. Bu özünü aşağıdakı rəqəmlərdə göstərir. Belə ki, muxtar respublikada dəmir-beton məmulatı zavodu 1975-ci ildə 22,5, 1980-cı ildə 21,2, 1981-ci ildə 30,7, 1982-ci ildə 25,7, 1983-cü ildə 21,9 min kub metr məmulat istehsal etmişdi. Əmtəəlik beton istehsalı 1975-ci ildə 10,8 min kub metr, 1980-cı ildə 24,3 min kub metr, 1981-ci ildə 31,1 min kub metr, 1982-ci ildə 26,0 min kub metr, 1983-cü ildə 31,4 min kub metr olmuşdur [37, s.97].

Tikinti materialları sənayesinin məhsulları dəmir-beton məmulatları, tikinti daşı, emal olunmuş mərmər, müxtəlif üzlük plitələr, kərpic, inşaat gəci, travertin bloku və s. istehsalından ibarət olmaqla çoxsahəli xarakter daşıyır və əsas yerli tələbatı ödəyirdi. İstehsal olunmuş mərmərin, üzlük plitənin, travertin blokunun bir hissəsi muxtar respublikadan başqa Azərbaycanın

digər rayonlarına və xarici ölkələrə də ixrac olunmuşdu.

Şərur rayonunun Şahtaxtı kəndində istehsal olunan yüksək keyfiyyətli travertin üzlük plitələri metro, kinoteatr, inzibati binaların tikintisində və s. yerlərdə işlədilirdi. Bu keyfiyyətli və qiymətli tikinti sənaye materialı təkcə Azərbaycanda deyil, həm də keçmiş SSRİ-nin başqa rayonlarında və xarici ölkələrdə yüksək qiymətləndirilmişdi. Misal üçün, təkcə 1983-cü ildə istehsal olunmuş 27,6 min kub metr travertinin, 10 min kub metri Moskva, Leninqrad, Minsk, Daşkənd və Soçi şəhərlərinə ixrac olunmuşdu. 1985-ci ildə 47,7 min kub metr istehsal olunmaqla, həmin şəhərlərə travertin bloku ixracı daha da artmışdı.

Muxtar respublikada zəngin travertin yataqları vardır. Bu yataqların qalınlığı 1,5 metr, bəzən daha çoxdur. Travertinlərin ehtiyatları B kateqoriyası üzrə 1.609000 metr kubdur. Bu travertinlər bir çox ölkələrə, xüsusən Yaponiyaya göndərilirdi.

Muxtar respublikada travertin yataqları Şahtaxtı, Qarabağlar, Xok, Sirab, Badamlı, Buzqov və başqa kəndlərin ərazisində yerləşir.

**Şüşə emal sənayesi.** Naxçıvan MR-də şüşə sənayesi yeni sənaye sahələrindən biridir. 1979-cu ildə muxtar respublikada istifadəyə verilmiş şüşə sənayesi Azərbaycanda yeganə olan iri həcmli (50 milyon ədəd butulka istehsalı gücündə) şüşə tara zavodu ilə təmsil olunurdu. Bu zavod Naxçıvan MR-də mineral su istehsalının artması nəticəsində şüşə qablara yaranmış böyük tələbatı ödəmək üçün tikilmişdir. Bu zavodun ümumi tikintisinin sahəsi 3,5 hektar, tam ərazisi isə 12 hektardır. İlk fəaliyyəti dövründə zavodda 450-500 nəfər işçi işləyirdi [59, s.428].

Zavodda tara butulkalardan əlavə transformatorlar yarımstansiyaları üçün təcridedicilər (izolyatorlar) müxtəlif çeşidli məişət qabları və keramika məhsulları istehsal olunurdu.

Naxçıvan şüşə qablar zavodunun əsas xammalı andaluzit, kvarts, qumlardan ibarət idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvan MR ərazisi tikinti

materialları ilə son dərəcə zəngindir. Parağaçayın yuxarı axınında, Qapıcıq dağının ətəklərində 3000-3200 metr yüksəklikdə andaluzit yatağı aşkar edilmişdir. Böyük ehtiyata və yüksək keyfiyyətə malik olan andaluzitdən çini, oda və turşuya davamlı materiallar istehsalında geniş istifadə edilə bilər [21, s.191].

Geoloji kəşfiyyatlar zamanı Naxçıvan Respublikası ərazisində hədsiz dərəcədə böyük ehtiyatları olan qum, gil, mergil və s. tikinti sənaye materialları aşkar edilmişdir. Bunlar muxtar respublikanın Ordubad, Babək, Culfa, Şahbuz, Kəngərli, Şərur və Sədərək rayonlarının ərazilərində yerləşmiş və Naxşıvan şüşə sənaye zavodunu xammalla təmin edirdi.

1983-cü ildən qaz yanacağı ilə işləyən zavod 34 milyon ədəd şüşə tara istehsal etmişdir.

Buna baxmayaraq, tələbat yenə də ödənmirdi. Çünki muxtar respublikada 1983-cü ildə 134,1 milyon yarımlitirlik mineral su istehsal olunmuşdur. Buna görə də zavod 1984-1986-cı illərdə butulka istehsalının həcmini xeyli artırmışdır. 1986-cı ildən başlayaraq ildə 60 milyona qədər butulka istehsal etmişdir.

Araşdırmalar göstərir ki, Azərbaycanın başqa regikonları kimi Naxçıvan MR-də də 70-ci və 80-ci illərdə iqtisadi sahədə çox böyük müvəffəqiyyətlər əldə edilmişdir.

Naxçıvanda iqtisadi potensial aşkar edilmiş, bir sıra təbii sərvətlərin müntəzəm surətdə istehsal dövriyyəsinə daxil edilməsi, yeni sənaye müəssisələrinin yaranmasına və sənayenin kompleks inkişafı üçün zəmin yaratmışdır. Yeni imkanlar Muxtar Respublikada məhsuldar qüvvələrin daha geniş inkişafı üçün, xüsusilə əlverişli şərait yaratmaqla bərabər, onun zəngin təbii sərvətlərinin istehsal dövriyyəsində cəlb edilməsi ehtimalını gerçəkləşmişdir.

Yüksək sürətlə və hərtərəfli inkişaf nəticəsində muxtar respublikada sənaye istehsalının həcmi muxtar respublikanın yarandığı 1924-cü ildəkinə nisbətən 700 dəfədən çox artmışdır.

70-80-cı illərdə 26 iri sənaye müəssisələri tikilmiş və yenidən qurularaq məhsul istehsal etmişdir. Bu, müharibədən əvvəlki bütün illər ərzində tikilmiş müəssisələrin sayından üç dəfə yarım çoxdur.

Lakin sonrakı illərdə ölkədəki ictimai-siyasi vəziyyət, xüsusilə 1988-ci ildən başlayaraq erməni millətçilərinin Qarabağ ətrafında yaratdıqları fitnəkarlıq, keçmiş SSRİ-nin dağılması nəticəsində ittifaq hökumətinin tərkibinə daxil olmuş respublikalar arasında iqtisadi əlaqələrin pozulması, özbaşınalıq və s. amillər başqa regionlar kimi Naxçıvan Muxtar Respublikası sənayesinə də öz mənfi təsirini göstərmişdi. Naxçıvan MR-ın sənayesi 1990-cı illərin birinci yarısında Azərbaycanın başqa regionlarına nisbətən daha ağır vəziyyətə düşmüşdür.

# II FƏSİL
# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI
*(1924-1990-cı illər)*

## 2.1.Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı *(1924-1969-cu illərdə)*

XX əsrin əvvəllərində iqtisadi cəhətdən geridə qalmış Naxçıvan diyarı sovet hakimiyyəti illərində iqtisadi cəhətdən inkişaf etmiş, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilmiş və çox qısa bir müddət ərzində iqtisadi cəhətdən mühüm nailiyyətlər əldə etmişdir. Muxtariyyət əldə etdikdən sonra respublikamız geridə qalmış kənd təsərrüfatı ölkəsindən inkişaf etmiş sənaye ölkəsinə çevrilmişdir. Muxtar respublikada yeraltı sərvətlərin çoxluğu burada sənayenin yeni sahələrinin yaradılmasına və inkişafına müsbət təsir göstərmişdir.

1924-cü ildə muxtar respublikada olan 90 min nəfər əhalinin 12 faizi şəhərdə, 88 faizi isə kənddə yaşayırdı. Məhz bu amilin nəzərə alınması kənd təsərrüfatının inkişaf etdirilməsini zərurətə çevirmişdir. Çünki bir tərəfdən kənd təsərrüfatı yeyinti sənayesinin kənd təsərrüfatı xammalına, digər tərəfdən isə əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını təmin edir. Bu nöqteyi-nəzərdən kənd təsərrüfatının inkişafının mühüm əhəmiyyəti vardır.

Muxtar respublikanın coğrafi mövqeyi, torpaq örtüyü, iqlim şəraiti, relyefi, su mənbələri burada kənd təsərrüfatını daha da inkişaf etdirməyə, habelə qiymətli və əhəmiyyətli kənd təsərrüfatı bitkiləri yetişdirməyə imkan verir.

Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra kəndlilər torpağın sahibi oldular. Burada torpaq sahəsinin təxminən 73 faizi bilavasitə kəndlilərin istifadəsinə verildi, yerdə qalan torpaq sahəsi isə dövlət torpaq ehtiyatı fonduna keçirildi.

Suvarma əkinçiliyi şəraitində torpaqlardan səmərəli istifadə olunması və bunun əsasında kənd təsərrüfatının irəliləməsi bilavasitə su təsərrüfatının inkişafı ilə əlaqədardır.

Azərbaycanın hər yerində olduğu kimi Naxçıvanda da sovet hakimiyyətinin ilk günlərindən başlayaraq, süni suvarma şəbəkəsinin genişləndirilməsi, əkin suyunun artırılması məqsədi ilə geniş su təsərrüfatı tədbirləri həyata keçirildi. Hökumətin həyata keçirdikləri tədbirlər nəticəsində kənd təsərrüfatının sürətlə inkişafı üçün möhkəm zəmin yarandı.

Məhz bu baxımdan muxtar respublikada dinc quruculuq işlərinin genişləndirilməsi və kənd təsərrüfatını inkişaf etdirmək üçün su təsərrüfatına da diqqəti artırmaq tələb olunurdu. Təkcə 1924-1928-ci illərdə Naxçıvanda 161 kəhriz təmir edilmiş, Dəstə, Qaraxanbəyli, Böyükdüz və başqa kəndlərə Araz çayından suvarma qurğuları qoyulmuş, 25 kilometrlik Fərhad arxında təmir işləri aparılmışdı. D.Bünyadzadə adına sovxoza Arpaçayından, Yaycı, Dəstə kəndlərinə isə Araz çayından su kanalları çəkilmiş, Bulqan kəndində böyük su anbarı tikilmişdi. Görülmüş tədbirlər muxtar respublikanın ərazisində suvarılan əkin sahələrini 40 faiz genişləndirməyə imkan vermişdi.

1925-ci ildə ölkənin sənayeləşdirilməsi məsələsi bir vəzifə kimi qarşıya qoyuldu. Ölkənin sənayeləşdirilməsi isə sosializmin maddi-texniki bazasının yaradılmasına, xalq təsərrüfatının bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsinə imkan verdi. Çünki kənd təsərrüfatının maddi-texniki bazasını möhkəmləndirmədən onun inkişafını təmin etmək olmazdı. Məhz buna görə də muxtar respublikada kənd təsərrüfatının enerji ilə təchiz olunmasına, onun traktor, kənd təsərrüfatı maşın və alətləri ilə, eləcə də mineral kübrələrlə təmin edilməsinə xüsusi fikir verilirdi.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının müasir texnika ilə təchiz olunması həmişə diqqət mərkəzində olmuşdu. Bu məqsədlə 1925-ci ildə Azərbaycan SSR Kənd Təsərrüfatı Komissar-

lığında kənd təsərrüfatı texnikası və alətləri satan Naxçıvan, Ordubad və Şərur şöbələri açılmışdı.

1925-ci ilin iyulunda Naxçıvanın kənd təsərrüfatı ilk traktoru qəbul etmişdi. Kənd təsərrüfatının mexanikləşdirilməsini sürətləndirmək üçün 1925-1926-cı illərdə Naxçıvana 10 traktor verilmişdi.

Azərbaycan SSR hökuməti Şərur və Naxçıvan bölgələrində pambıqçılığı inkişaf etdirmək məqsədi ilə 1926-1928-ci illərdə 7 maşın şirkəti yaratmış və şirkətlərin sərəncamına daha 10 traktor vermişdi.

Muxtar respublikada kənd təsərrüfatının dirçəldilməsində aqrotexniki qaydalardan istifadə edilməsinin böyük rolu olmuşdu. 1924-cü ildə Naxçıvanda, Şərurda və Ordubadda aqrotexniki, Biçənək kəndində isə zootexniki məntəqələr yaradılmışdır. Aqronomluq məntəqələrinin təşəbbüsü ilə muxtar respublika ərazisində 128 yerdə təcrübə sahəsi təşkil edilmişdi.

Naxçıvanda aqrotexniki qaydaların yayılmasında D.Bünyadzadə adına sovxozun mühüm xidməti olmuşdur. Sovxozun yerli şirkətləri vasitəsilə kəndliləri yeni növ toxumla, o cümlədən çiyidlə təmin edirdi.

Ordubad qəzasının Aşağı Əndəmic kəndində yaradılmış aqrotexniki məntəqəsi yerli şəraitə uyğunlaşa bilən yeni meyvə sortlarını yaymaq üçün Krımdan və Şimali Qafqazdan yeni ağaclar gətirib kəndlilərə paylayırdı. Biçənək kəndində yerləşən zoobaytar məntəqə mal-qaranın cinsinin yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyət göstərmişdir. Zaqafqaziyada "balbas" qoyunlarının vətəni sayılan Naxçıvan diyarında qoyunçuluğun inkişafına xüsusi əhəmiyyət verilməsinin nəticəsi idi ki, burada qoyunların sayı müharibədən əvvəlki dövr ilə müqayisədə 1929-cu ildə 39,7 faiz artmışdı. Artımın 36,7 faizi balbas qoyunları hesabına olmuşdu.

Naxçıvanda kənd təsərrüfatının dirçəldilməsi sahəsində həyata keçirilmiş tədbirlər əkin sahələrini xeyli genişləndirməyə imkan

vermişdi. Məhsuldarlıq artmışdı. Məsələn, pambıq əkini sahəsi 1921-ci ildəki 4233 hektardan artıb 1927-ci ildə 8307 hektar olmuşdu, məhsuldarlıq isə müharibədən əvvəlki səviyyəni 84 faiz ötmüşdü.

Fakt və rəqəmlərdən göründüyü kimi, kənd təsərrüfatının kollektivləşdirilməsinə başlayana qədər Naxçıvanın kənd təsərrüfatında xeyli irəliləyiş əldə edilmişdi. Əgər həmin əsas üzərində iş davam etdirilsəydi, şübhəsiz, daha böyük uğurlar əldə ediləcəkdi.

1927-ci ilin dekabrında keçirilən ÜİK(b)P-nin XV qurultayı nisbətən normal vasitələrlə kənd təsərrüfatının dirçəldilməsi tədbirlərini qeyri-qənaətbəxş hesab etdi, inzibati-amirlik metodlarının xalq təsərrüfatının bu mühüm sahəsində də tətbiqini zəruri saydı. Qurultayın "xırda fərdi kəndli təsərrüfatını birləşdirmək və iri kollektivlərə çevirmək vəzifəsi"ni əsas vəzifə kimi elan etməsi həmin normal inkişaf prosesinə son qoymuş oldu. 1929-cu ilin martında toplanmış Azərbaycan K(b)P IX qurultayının həmin vəzifəni Azərbaycan kənd təsərrüfatı üçün baş vəzifə kimi səciyyələndirməsi Azərbaycan kəndində, o cümlədən Naxçıvanın kənd təsərrüfatında sonrakı geriləmələrin təməlini qoydu. Kənd təsərrüfatı təbiətinə zidd sıçrayışlarla inkişaf xəttinin həyata keçirilməsinə əməli olaraq başlandı. Kəndin dirçəldilməsində böyük əməyi olan varlı kəndli təsərrüfatlarına qarşı hücum dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Qeyd edək ki, 1928-ci ildə qolçomaq adlanan varlı kəndlilər muxtar respublikada kəndli təsərrüfatlarının cəmi 3 faizini təşkil edirdi. Yeri gəlmişkən, kəndliləri kollektiv təsərrüfatların yaradılmasına hazırlamaq üçün müəyyən siyasi xarakterli tədbirlər həyata keçirilmişdi. Bundan məqsəd, "kollektiv təsərrüfatın üstünlüklərini" nümayiş etdirmək idi. Məsələn, 1929-cu ildə muxtar respublikada 22540 təsərrüfatdan 15580-i müxtəlif şirkətlərə cəlb edilmişdi, bunlardan da 1306 təsərrüfat, əsasən yoxsul kəndlilər vergilərdən azad edilmişdi. Bütün vergilərin 60 faizi

qolçomaqların üzərinə qoyulmuşdu. Hələ 1928-ci ilin sonunda muxtar respublikada 580 təsərrüfatı birləşdirən 20, 1929-cu ilin oktyabrında isə 790 təsərrüfatı birləşdirən 36 kolxoz yaradılmışdı.

Kollektivləşmə xəttinin həyata keçirilməsi ilə əlaqədar 1929-cu ildən tətbiq edilən zorakılıq metodları kənddə ümumi narazılıq və etirazlara səbəb olurdu. Kəndlilərin zorla kolxozlara cəlb olunması, əmlaklarının müsadirə edilməsi, kolxoz hərəkatına qarşı çıxanlar haqqında ciddi cəza tədbirlərinin tətbiqi, güllələmə, sürgün, siyasi hüquqlardan məhrumetmə halları artdıqca, onların etiraz səsi də güclənirdi. Azərbaycan kəndində mal-qaranın məhv edilməsi, taxıl məhsullarının yandırılması, silahlı müqavimət göstərilməsi halları getdikcə artırdı. Məsələn, təkcə Naxçıvan MR-də qaramalın, qoyun və keçilərin sayı 1930-cu ildəki 279,5 min başdan 1932-ci ildə 160,3 min başadək azalmışdı. 1929-cu ilin sonundan etibarən başlayan silahlı müqavimət 1930-cu ilin yayında daha geniş yayılmışdı. Şahbuz rayonunda Sovet hakimiyyətinə göstərilən silahlı müqavimət xüsusilə güclü olmuşdu. Naxçıvan, Şərur, Ordubad rayonlarının dağ kəndləri silahlı müqavimət tərəfdarları üçün sığınacaq məntəqələrinə çevrilmişdi. 1930-cu ildə Naxçıvanda kommunistlərin hakimiyyətini devirmək üçün əhali tərəfindən cəhd göstərilmiş, yalnız sovet qoşunlarının müdaxiləsi bolşevik hakimiyyətini bərpa etməyə imkan vermişdi. Həmçinin daxili müqavimət hərəkatını xaricdəki mühacir təşkilatlarının fəaliyyəti ilə əlaqələndirmək üçün təşəbbüslər göstərilmişdi. Doğrudur, silahlı müqavimət genişlənib bütün respublika ərazisini əhatə etməsə də, hər halda kolxoz quruculuğunun "zəfərli yürüşü"nü müəyyən müddətdə dayandırmış və hətta geriyə çəkmişdi. Məsələn, 1930-cu il mart-may ayları ərzində Naxçıvan Muxtar Respublikasında kolxozların sayı 56-ya, onlarda birləşən təsərrüfatların sayı 1387-yə enmişdi.

Muxtar respublikada yaranmış gərgin vəziyyət yüksək səviyyəli partiya və sovet hakimiyyəti orqanlarında dəfələrlə müzakirə

olunmuş və bu məqsədlə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Q.Musabəyov SSRİ və ZSFSR MİK-ləri adından tam səlahiyyətlə Naxçıvana təhkim edilmişdi. Yalnız təbliğat və təşviqat vasitələrinin tam qüvvəsi ilə işə salınması, kömək üçün hərbi birləşmələrə müraciət edilməsi vəziyyətin daha təhlükəli hala düşməsinin qarşısını almış,Sovet hakimiyyətini qoruyub saxlaya bilmişdi. 1930-cu il martın 20, 21 və 22-də sayı 500 nəfərə çatan və ən çox Şahbuz rayonunda toplaşan silahlı müqavimət dəstələrinə qarşı nizami ordu hissələrinin yeridilməsi döyüşlərin taleyini həll etmişdi. Yenə də qılınc və qan hesabına bolşeviklərin hakimiyyəti qalib gəlmişdi. Kədərli cəhəti bu idi ki, hər iki tərəfdə itki verənlər azərbaycanlılar olmuşdu. Yəni Sovet hakimiyyəti əleyhdarları da, yalançı təbliğata uyub Qızıl Ordu hissələri tərəfindən vuruşub canından keçənlər də elə azərbaycanlılar idi. Ayrı-ayrı yerlərdə aprel ayında da ağır döyüşlər getmişdi. Lakin çox təəsüf ki, öz vətənini bolşevik azarından xilas etmək istəyən vətənpərvərlər "quldurlar" adlandırılmış, yalançı təbliğata uyaraq vətən torpağında əsarət rejimini gücləndirməyə kömək edənlərin adları isə əbədiləşdirilmişdi.

Bununla belə, tökülən günahsız qanlar onların səbəbkarlarını öz cinayətkar əməlləri üzərində az da olsa düşünməyə vadar etmişdi. Nəhayət, anlaşılmışdı ki, tarixən tək təsərrüfatçılığın üstünlük təşkil etdiyi, müəyyən iqtisadi sərbəstliyin mövcud olduğu Azərbaycanda kəndli təsərrüfatlarının kollektivləşməsi asanlıqla başa gəlməyəcəkdir. Həm də iş elə gətirmişdi ki, Azərbaycanda kollektivləşmə prosesi Sovet dövlətinin dinə, milli adət-ənənələrə qarşı apardığı mübarizə ilə eyni vaxta düşmüşdü. Bir tərəfdən kəndlilərin olan-qalan əmlakının müsadirə edilib kolxozlara qatılması, digər tərəfdən onun dini mərasimlərinin qadağan edilməsi xalqın narazılığını qat-qat artırmışdı. Bunlardan başqa Azərbaycanda kolxoz quruculuğuna onun ən yüksək forması olan kommuna və artellərdən başlanılması da vəziyyəti xeyli gərginləşdirmişdi.

Naxçıvan Vilayət Partiya Komitəsinin rəyasət heyəti özünün 1930-cu il 1 və 3 may, 16 iyun tarixli iclaslarında yuxarı partiya təşkilatlarının rəhbər göstərişlərini əsas tutaraq onları həyata keçirmək üçün tədbirlər müəyyən etmişdi. Muxtar respublikanın rəhbərliyində dəyişikliklər edildi. Muxtar respublika əhalisi arasında təbliğat-təşviqat işləri gücləndirildi. Bakı şəhərinin Lenin rayonu müəssisələrinin muxtar respublika kəndlərinin hamiliyə götürməsi haqqında qərarı elan edildi. Azərbaycan Həmkarlar İttifaqlarının Mərkəzi Şurası və Gəncə şəhər həmkarlar təşkilatlarının nümayəndələrindən ibarət briqada avqust ayında Naxçıvana gəldi. Eyni zamanda muxtar respublikanın rayon mərkəzlərindəki təşkilat və müəssisələri kolxozları hamiliyə götürdülər. Sovet hakimiyyəti üçün ənənəvi olan tədbirlər – iməciliklər və məhsul bayramları keçirildi. 31 kənddə savadsızlığı ləğv etmə kursları təşkil edildi. 12 radio nöqtəsi çəkildi. 16 kolxozda körpələr evi açıldı. Bütün bu tədbirlər Naxçıvanda kolxozların sayının artmasına gətirib çıxardı. Məsələn, 1930-cu ilin avqustun 1-də muxtar respublikada 2340 təsərrüfatı birləşdirən 62 kolxoz var idisə, dekabrda onların sayı 77-yə çatmışdı. 1931-ci il aprelin sonunda kolxozların sayı artıq 101-ə, onlarda birləşmiş təsərrüfatların sayı isə 3400-ə çatdırılmışdı. 1931-ci ilin sonuna olan məlumata görə Naxçıvan Muxtar Respublikasında kolxozların sayı 161, onlarda birləşmiş təsərrüfatların sayı isə 6234 olmuşdur. Bunlardan da 115-i pambıqçılıq, 29-u taxılçılıq, 19-u isə heyvandarlıq kolxozları idi. Göründüyü kimi, kollektivləşmə daha çox pambıqçılıq sahəsini, qismən də taxılçılıq və heyvandarlıq sahələrini əhatə etmişdi ki, bu da həmin sahələrdə kənd təsərrüfatı maşınlarının tətbiqi və mexanikləşdirmə üçün böyük perspektivlə bağlı idi.

Muxtar respublikanın təsərrüfatında üzümçülük mühüm yer tuturdu. Göstərilən dövrdə üzümçülük bir çox kəndlərin iqtisadi inkişafının əsasını təşkil edirdi. Üzümçülüyün muxtar respublika iqtisadiyyatı üçün səmərəliliyi nəzərə alınaraq 1931-ci ildə 1442 hektarlıq üzümçülük sahəsini daha 1000 hektar artırmaq haqqında

qərar qəbul edilmişdi. Azərbaycan SSR Xalq Komissarları Soveti 1929-1932-ci illərdə Naxçıvan, Əbrəqunus və Şahbuz şərab zavodlarını inşa edərək istifadəyə vermişdi. 1929-1930-cu illərdə təkcə üzümçülüklə məşğul olan fərdi təsərrüfatçılar dövlət tədarükü məntəqələrinə 18,9 min sentner üzüm satmışdılar. 1931-ci və 1932-ci illərdə üzümçülüklə məşğul olan kəndlərdə kolxozların təşkilinə başlanmışdı. Artıq 1932-ci ildə muxtar respublikada bağçılıq və üzümçülüklə məşğul olan 13 kolxoz var idi.

Kolxozların maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə 1930-cu ildə Şərurda, 1931-ci ildə isə Naxçıvanda maşın-traktor stansiyaları (MTS) təşkil edildi. Kolxozlara texniki və təşkilati yardım göstərmək üçün yaradılmış traktor, kombayn və sair maşınlarla təchiz edilmiş MTS-lər ilk növbədə fərdi təsərrüfatçıya kollektiv təsərrüfatın üstünlüyünü nümayiş etdirməli idilər. Əlbəttə, fərdi təsərrüfatçılığın inkişafı yolunda süni maneələr yaradıldığı bir şəraitdə kəndlinin onsuz da kolxozlara üzv yazılmaqdan başqa çarəsi qalmırdı. MTS-lərin yaradılması ilə bu iş bir qədər də sürətlənirdi. Məsələn, əgər 1931-ci il yanvarın 1-i üçün Naxçıvan rayonu üzrə kənd təsərrüfatının kollektivləşməsi 23 faiz təşkil etmişdisə, dekabr ayında 31,9 faizə çatmışdı. 1931-ci ildə muxtar respublikanın dağ kəndlərində ilk dəfə olaraq 14 kənddə kolxoz təşkil olunmuşdu. Böyükdüzdə heyvandarlıq, toxumçuluq, Ordubadda meyvəçilik, ipəkçilik sovxozları yaradılmışdı. Təkcə 1931-ci ilin yaz əkin kampaniyası zamanı MTS işçilərinin apardıqları izahat işi nəticəsində 300 nəfər yoxsul və ortabab kəndli kolxozlara üzv yazılmışdılar.

Dövlətin MTS-lərin maşın və traktor parkını gücləndirmək üçün gördüyü tədbirlər, həm də kolxozların təşkilat-təsərrüfat cəhətdən möhkəmləndirilməsinə kömək edirdi, dünənki kəndlilərdə yeni əmək vərdişlərinin yaranmasına səbəb olurdu.

1932-ci ildə Şərur və Naxçıvan MTS-lərində traktorların sayı 82-yə çatmışdı. Müasir kənd təsərrüfatı texnikasının faydasını öz gözləri ilə görən və ondan yalnız kolxoz üzvü olmaqla istifadə

edə biləcəyini başa düşən kəndli 1931-ci ilin sonu və 1932-ci ilin birinci yarısından etibarən kolxozlara yeni gözlə baxmağa başladı. Digər tərəfdən də, aparılan güclü təbliğat və təşviqat işləri onda belə bir ümidi möhkəmləndirdi ki, kolxoza girməklə o, nəhayət, bütün əvvəlki məhrumiyyətlərdən yaxa qurtara biləcəkdir. Əlbəttə, belə hisslər kəndlilərin yoxsul və ortabab kütlələrinə daha doğma və yaxın idi. Deyilənləri əlimizdə olan fakt və rəqəmlər təsdiq edir. Muxtar respublikada kənd təsərrüfatının kollektivləşməsi 1932-ci il yanvarın 1-də 33,4 faiz, apreldə 42,7 faiz, noyabrın 10-da isə 47 faiz təşkil etmişdi. Kolxozların sayı artaraq 193-ə çatmışdı. 122 pambıqçılıq, 32 taxılçılıq, 13 bağçılıq-üzümçülük, 18 heyvandarlıq, 7 tütünçülük və 1 ipəkçilik kolxozu fəaliyyət göstərirdi.

Kolxozların sayca çoxalması və iqtisadi cəhətdən nisbətən möhkəmlənməsi ilə yanaşı onların əkin sahələri də qat-qat artmışdı. Əgər 1928-ci ildə ümumi əkin sahəsinin 1,25 faizi kolxozların payına düşürdüsə, 1932-ci ildə bu rəqəm 44 faiz təşkil etmişdi.

1929-cu ildə kolxozlar 369 hektar pambıq və 744 hektar taxıl əkmişdilərsə, 1932-ci ildə pambıq əkini sahəsi 6073 hektar, taxıl əkini sahəsi isə 8804 hektar olmuşdu.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının dirçəldilməsi dövründə sovxoz təsərrüfatının da sürətlə genişlənməsi diqqəti cəlb edir. İri mexanikləşdirilmiş dövlət müəssisəsi olan sovxozlar həm dövlətin ərzaq bazasını möhkəmləndirir, həm də kəndlilər üçün təsərrüfatları mədəni qaydada aparmaq nümunəsi göstərməklə onları cins mal-qara, keyfiyyətli toxumla təmin edir, kolxozlarda birləşmələrinə kömək edirdilər. Zaqafqaziyada ilk sovxozlardan biri D.Bünyadzadə adına sovxoz, "Naxçıvanın 10 illiyi" adına heyvandarlıq sovxozu, 1931-ci ildə Ordubad şəhərində konserv zavodu nəzdində təşkil olunmuş ipəkçilik-meyvəçilik sovxozu və Naxçıvan şəhərindəki quşçuluq sovxozu kənd təsərrüfatının dirçəldilməsi işində mühüm rol oynamışdılar.

Əlbəttə, kolxoz və sovxozların sayca çoxalması onların kəndin məhsul istehsalındakı payını da artırmışdı. 1932-ci ildən etibarən kolxoz və sovxozlar kənd təsərrüfatı məhsulları tədarükü planlarını yerinə yetirməyə başladılar. Məsələn, 1932-ci ildə Naxçıvan rayonunun kolxozları kənd təsərrüfatı məhsullarının tədarükü planlarını pambıq üzrə 120,5 faiz, taxıl üzrə 120, tütün üzrə 135, üzüm üzrə 105 faiz yerinə yetirmişdilər.

Beləliklə, birinci beşilliyin sonlarına doğru kənd təsərrüfatının kollektivləşməsi yolunda əməli addımlar atılmışdı.

İkinci beşilliyin əvvəllərində Naxçıvan MSSR-də 193 kolxoz yaradılmışdı ki, onlar da bütün kəndli təsərrüfatlarının 47,7 faizini, əkin sahələrinin isə 44 faizini təşkil edirdi.

Kənddə kolxozların təşkilat-təsərrüfatca möhkəmlənməsi fərdi təsərrüfatçıların kolxozlara axınını xeyli sürətləndirmiş və onu müəyyən mənada "elliklə kollektivləşmə" səviyyəsinə çatdırmışdı. Məsələn, 1934-cü ilin oktyabrında muxtar respublikanın kolxozlarında birləşmiş təsərrüfatların sayı 13,2 min nəfərə çatmışdı ki, bu da bütünlükdə təsərrüfatçıların 61,6 faizini təşkil edirdi.

Naxçıvan MR-də kənd təsərrüfatının kooperasiya əsasları üzərində dirçəldilməsində heyvandarlıq fermalarının təşkilinin də mühüm rolu olmuşdur. Bu işə əsasən, 1933-cü ildə başlanmış və 3448 davarı əhatə edən 17 ferma təşkil olunmuşdu. 1934-cü ildə fermaların sayı 53-ə, davarların sayı isə 6254-ə çatdırılmışdı. Heyvandarlıq fermalarının təşkili ilə yanaşı onların yem bazasının möhkəmləndirilməsi üçün də lazımi tədbirlər görülmüşdü. 1932-ci ildə muxtar respublikada 3152 hektar çoxillik və 3425 hektar birillik yem otları əkilən sahələr olduğu halda, 1934-cü ildə həmin sahələr 2,5 dəfə artırılmışdı. Bununla yanaşı, 1934-cü ildə 1930-1931-ci illərlə müqayisədə muxtar respublikada heyvanların sayının xeyli azaldığı faktı da müşahidə edilir. Məsələn, mal-qaranın sayı 1930-1931-ci illərdə 46090 başdan 1934-cü ildə 24809 başa, davarların sayı 174650 başdan 126481 başa, atların sayı

3417 başdan 1904 başa qədər azalmışdı. Bütün bu xoşagəlməz faktlar kolxoz quruculuğu sahəsində yol verilmiş əyintilərə kəndlilərin mənfi əks-sədası mənasında izah edilə bilər. Həmin əyintilər xalq arasında şayiələr yaratmışdı ki, sovet dövləti kolxozların və fərdi təsərrüfatçıların qoyun, keçi və inəklərini, iş heyvanlarını əllərindən alıb kolxozlara verəcəkdir. Belə şayiələrdən qorxuya düşmüş kəndlilər 11787 iribuynuzlu malqaranı və 1644 camışı, 32163 baş qoyunu, 11180 baş keçini, 107 dəvəni qırmışdılar. Göründüyü kimi, heyvandarlıq fermalarının yaradılması ərəfəsində muxtar respublikada bütünlükdə heyvandarlığın inkişafına güclü zərbə endirilmişdi. Bütün bunlar kənddə xalqın ənənəvi təfəkkür tərzinə zidd olan yeni istehsal münasibətləri yaranmasına onun düşmən münasibətindən irəli gəlirdi.

Hökumətin gördüyü bir çox həvəsləndirmə tədbirləri kənd təsərrüfatı məhsulları istehsalının daha da artmasına səbəb olmuşdur. Məsələn, 1935-ci ildə Azərbaycanda pambıq yetişdirmək və toplamaq sahəsində daha çox müvəffəqiyyət qazanmış Naxçıvan MR-in 5 kolxozu, 18 nəfər kolxozçusu və MTS işçisi Azərbaycan K(b)P MK və respublika Xalq Komissarları Soveti tərəfindən pul və qiymətli hədiyyələrlə mükafatlandırılmışdı.

Şərur rayonunun kolxozlarında kənd təsərrüfatının inkişafında daha çox nailiyyətlər əldə edilməsi xüsusilə qeyd edilmişdi. Məsələn, rayonun kolxozları 1935-ci ildə dövlətə 4890 ton məhsul təhvil vermişdilər ki, bunun da 900 tonu öhdəlik hesabına toplanmışdı. Ümumiyyətlə isə muxtar respublikada 1935-ci ildə dövlətə 7 min ton pambıq təhvil verilmişdi və bunun da 1500 tonu öhdəlik hesabına idi. Həmin ildə kənd təsərrüfatı məhsulları tədarükü planları taxıl və barama üzrə 100 faiz, üzüm üzrə 120 faiz, ət-süd məhsulları isə 118 faiz yerinə yetirilmişdi. 1935-ci ildə kolxozların əksəriyyətində yardımçı təsərrüfat sahələri kimi fəaliyyət göstərmiş bağçılıq, üzümçülük, bostançılıq, arıçılıq, quşçuluq, heyvandarlıq və baramaçılıqda da müəyyən irəliləyişlər nəzərə çarpmışdır.

İkinci beşillikdə Naxçıvan MR kənd təsərrüfatında kolxoz quruluşunun qələbəsini təmin edən mühüm amillərdən biri də texniki təchizatın xeyli yaxşılaşdırılması olmuşdu. Ən yeni kənd təsərrüfatı texnikası fərdiyyətçi kəndlilərin son müqavimətini də aradan qaldırdı. Daha doğrusu, fərdi təsərrüfatçının ətrafında yaradılmış bütün şərait onu son nəticədə kolxoza çəkib gətirdi. Bu şəraitin yaranmasında isə, heç şübhəsiz, kənd təsərrüfatı texnikasının da mühüm əhəmiyyəti olmuşdu. 15-16 il əvvəl əsas təsərrüfat aləti ağac xışdan ibarət olan Naxçıvan kəndliləri 1937-ci ildə 2 MTS-də 182 traktora və yüzlərlə müxtəlif kənd təsərrüfatı maşınlarına malik olmuşdular.

1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR-in X fövqəladə sovetlər qurultayı muxtar respublikanın yeni konstitusiyasını qəbul etdi.

İkinci dünya müharibəsindən əvvəlki illərdə də muxtar respublikanın kənd təsərrüfatı xeyli inkişaf etmişdi. Əkin sahələri genişlənmiş, məhsuldarlıq artmış, kolxozların ümumi gəliri çoxalmışdı. 1939-cu ildə muxtar respublika üzrə kolxozların ümumi gəliri 38 milyon manata çatmışdı.

Üçüncü beşillikdə muxtar respublikada kolxozlardan kənarda qalmış tək-tək kəndli təsərrüfatlarının da demək olar ki, hamısı kolxozlara daxil olmuşdu. 1940-cı ildə ümumi təsərrüfatların 98,9 faizi və 55193 hektar əkin sahəsi kolxozların payına düşmüşdü. Pambıqçılıq və taxılçılıq kolxozlarının mexanikləşdirilməsi başa çatdırılmışdı. Məsələn, 2 MTS-də birləşən 207 traktor, 10 kombayn və yüzlərlə müxtəlif kənd təsərrüfatı maşınları kolxozların sərəncamına verilmişdi. Yenə həmin ildə Naxçıvan MSSR kolxozlarında 272 qoyunçuluq, 209 qaramal, 46 atçılıq, 19 donuzçılıq və onların əksəriyyətində isə quşçuluq fermaları təşkil olunmuşdu.

Beləliklə, hələ müharibədən əvvəlki illərdə Naxçıvan MSSR-də kənd təsərrüfatının dirçəldilməsi yeni sosialist münasibətlərinin tətbiqi ilə eyni vaxtda düşdüyündən böyük çətinliklərlə üzləşərək

ciddi məhrumiyyətlərlə qarşılaşsa da, 30-cu illərin ortalarına doğru bu çətinliklər əsasən aradan qaldırılmışdı. Bütün bunlar 30-cu illərin ortalarından kənd təsərrüfatında sabit və perspektivli inkişaf yolu tapmağa qismən imkan vermişdir.

Lakin 1939-cu ildə başlanmış ikinci dünya müharibəsi və Böyük Vətən müharibəsi Naxçıvan MSSR-də dinc həyatı pozmuş və iqtisadiyyata ciddi zərbə vurmuşdu.

1945-ci ildə müharibənin başa çatması və faşist Almaniyası üzərində çalınan qələbə Naxçıvan MR-də də yenidən dinc quruculuq işlərinə başlamağa imkan verdi. 1946-1950-ci illəri əhatə edən dördüncü beşillik plan qəbul edildi. Planda iqtisadiyyatın başqa sahələri ilə yanaşı kənd təsərrüfatının da inkişafına, xüsusilə onun bağçılıq, üzümçülük, ipəkçilik, ictimai heyvandarlıq kimi daha perspektivli sahələrinin inkişafına da ciddi əhəmiyyət verilirdi. Sənayedə olduğu kimi kənd təsərrüfatında da müəyyən irəliləyiş əldə edilmişdi. Xırda kolxozların iriləşdirilərək iri kolxozlara çevrilməsi artıq kənd təsərrüfatı qarşısında duran böyük vəzifələri həll etməyə qadir olan müəssisələr idilər. Dördüncü beşillik planların müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində muxtar respublikada pambıq istehsalı iki dəfə artmışdı. Tütün istehsalı xeyli çoxalmışdı. Heyvandarlıq inkişaf etmiş və burada olan heyvanların sayı 1950-ci ildə 1940-cı illə müqayisədə 40 min baş artmışdır.

Müharibədən sonrakı illərdə, xüsusilə dörd və beşinci beşilliklərdə qazanılan nailiyyətlər sonrakı illərdə də davam etdirilməli idi. Həm də ilk dəfə olaraq və Naxçıvan Muxtar Respublikasının öz imkanlarından zəif sosial-iqtisadi inkişafı nəzərə alınaraq 1954-cü ilin dekabrında "1955-1960-cı illərdə Naxçıvan MR-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan KP Mərkəzi Komitəsi tərəfindən xüsusi qərarın qəbul edilməsi bunu deməyə əsas verirdi. Həm də həmin qərar əsasında bir neçə su anbarının və başqa əhəmiyyətli suvarma obyektlərinin tikilməsi nəzərdə

tutulurdu. Bu isə muxtar respublika iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının bir qədər canlanmasına səbəb olmalı idi.

Lakin 1956-1965-ci illərdə Naxçıvan iqtisadiyyatının inkişafı bir qədər ziddiyyətli olmuşdur. Yəni Naxçıvan MR-də kənd təsərrüfatının inkişafına dair qəbul olunmuş qərar yerinə yetirilməmiş, 1956-1965-ci illərdə inkişafı kənd təsərrüfatından asılı olan yüngül və yeyinti sənaye sahələrində sənaye məhsulu istehsalı on il ərzində cəmi 14 faiz artmışdır.

Əlbəttə ki, kənd təsərrüfatının inkişaf etdirilməsinə aid olan bu qərarın yerinə yetirilməməsinin bir çox obyektiv və subyektiv səbəbləri olmuşdur ki, onlardan bir səbəbini biz yuxarıda qeyd etmişik. Digər səbəblərdən də bir neçəsini qeyd etmək yerinə düşər.

Belə ki, əvvəlki illərdə olduğu kimi keçən əsrin 50-60-cı illərində də erməni millətçilərinin törətdiyi fitnəkarlıqlar Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının, xüsusilə aqrar-sənaye kompleksinin inkişafına mənfi təsir etmiş və sovet rəhbərliyi tərəfindən bunların qarşısı vaxtında alınmamışdır.

İkinci dünya müharibəsi qurtarandan sonra Azərbaycanın qədim əraziləri olan və əsrlər boyu Şərur rayonu heyvandarları tərəfindən dədə-baba yaylaqları kimi istifadə edilən Göycə gölü ətrafı Ağmanqan, Əyricə və s. kimi ərazilərin yay otlaqlarından Şərur heyvandarlarının istifadə etmələri qadağan olundu. Baxmayaraq ki, onların istifadəsinə görə Naxçıvan Muxtar Respublikası Ermənistanın dövlətə ət tədarükünün bir hissəsini ödəyirdi. Təbii ki, həmin otlaqların istifadəsiz qalmasından SSRİ-nin iqtisadiyyatına da müəyyən ziyan dəydi. Beləliklə, Şərur rayonu heyvandarlarının yem bazasından məhrum olması uzun müddət muxtar respublikada ağır iqtisadi və sosial nəticələr verdi.

Bundan əlavə elə təxminən o vaxtlar ermənilər tərəfindən "Zəvvar arxı" məsələsi törədildi. Qeyd edək ki, Zəvvar arxı Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd ərazisində yerləşən Ordubad rayonu üçün həddən artıq lazımlı su mənbəyi

olmuşdur. Hələ çox qədimlərdən Ordubad rayonunun suvarma əkinçiliyində böyük əhəmiyyət kəsb edən bu su arxının sonralar ermənilərin törətdikləri təxribatlar nəticəsində uzun müddət işləməməsi burada daima əkin suyuna qıtlıq yaradırdı. Ermənistanla sərhəd ərazisindən öz başlanğıcını götürən bu su mənbəyi 40-cı illərin axırlarında bərpa edildi. Lakin az sonra ermənilər müxtəlif hiylələrlə bu həyat qaynağı olan arxı yenidən sıradan çıxartdılar. Bununla da Ordubad rayonunun iqtisadiyyatına ağır zərbə vuruldu.

Nəhayət ermənilərin Naxçıvan Muxtar Respublikası iqtisadiyyatına vurduğu ən böyük zərbə Arpa çayı suyunun Göyçə gölünə axıdılması oldu. SSRİ-nin o zamankı başçısı N.S.Xuruşşova Göyçə gölü gəzintisində ermənilərin əvvəlcədən hazırladıqları qərara qol çəkdirdilər və bununla da Naxçıvan iqtisadiyyatına ağır zərbə vurdular. Naxçıvan MR-in əsas kənd təsərrüfatı istehsalı mərkəzi olan Şərur rayonunda kəskin su qıtlığı meydana gəldi. Şərur rayonunun ekologiyası pozuldu. Çünki bu rayonda yeraltı suların yaranmasının başlıca mənbələrindən biri Arpa çayı olmuşdur. Gələcəkdə bu sahədə çox təhlükəli vəziyyət yarana bilər. Ümummilli liderimiz Heydər Əliyev 1999-cu il sentyabrın 13-də ABŞ-ın yeni müstəqil dövlətlərə yardım üzrə əlaqələndiricisi səfir Uilyam Teylorun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Arpa çay məsələsində yaranmış vəziyyətə toxunaraq demişdi ki, Ermənistan ərazisindən keçərək Naxçıvana gələn Arpa çayı "Naxçıvan Muxtar Respublikası ərazisinin bir hissəsini su ilə təmin etmək üçün böyük əhəmiyyətə malikdir. Bu çaydan da Ermənistanda müxtəlif yollarla istifadə edirlər və onun suyu son vaxtlar xeyli azalıbdır".

Ermənilər Bakı-İrəvan dəmir yolunun Ermənistan ərazisindən keçən hissəsində hərəkəti dayandırmaqla Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafına çox ağır zərbə vurdular.

1966-1970-ci illərdə Naxçıvan MR-in kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında məlum qərarın xeyli gecikdirilməklə

yerinə yetirilməsi, bir neçə su anbarı və başqa əhəmiyyətli suvarma obyektlərinin tikilməsi muxtar respublikada kənd təsərrüfatının bir qədər canlanmasına səbəb oldu.

## 2.2. Naxçıvan Muxtar Respublikası Heydər Əliyevin həyata keçirdiyi aqrar siyasət dövründə (XX əsrin 70-80-ci illəri)

Ölkə iqtisadiyyatının başqa sahələrində olduğu kimi kənd təsərrüfatının da əsl inkişafı XX əsrin 70-80-ci illərində mümkün olmuşdur. Belə ki, 1969-cu ildə ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana hakimiyyətə gəlməsi ilə kənd təsərrüfatının inkişafının əsasları qoyuldu.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gələn kimi ölkənin strateji xəttini müəyyənləşdirdi. 70-ci illərdə Azərbaycan iqtisadiyyatını düşdüyü böhran vəziyyətindən çıxarmaq və inkişaf yoluna salmaq üçün Sov.İKP MK-nın beş qərar qəbul etməsinə nail olundu. Qeyd edək ki, bu beş qərarın dördü məhz kənd təsərrüfatı barədə qəbul olunmuş qərarlar idi.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, 50-60-cı illərdə Azərbaycan iqtisadiyyatının başqa sahələri kimi kənd təsərrüfatı da zəif inkişaf etmiş və onun artım dinamikası xeyli azalmışdı. Hətta o səviyyəyə çatmışdı ki, respublikamızda kənd təsərrüfatı bitkilərinin və xüsusən heyvandarlığın məhsuldarlıq göstəriciləri müttəfiq respublikalar üzrə ən axırıncı yerləri tuturdu. Kənd yerlərində kənd təsərrüfatı məhsullarını emal edən sənaye obyektləri yox idi. Əmək şəraiti dözülməz olduğundan və kütləvi işsizlik ucbatından gənclərin böyük əksəriyyəti şəhərlərə üz tutmağa məcbur olurdular. Xüsusən dağ və dağətəyi rayonlarda yerləşən kəndlərin boşalma təhlükəsi artmışdı.

Ona oxşar proseslər Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatında da müşahidə edilirdi. Lakin ulu öndərin hakimiyyətə gəlməsi və Naxçıvan MR-də kənd təsərrüfatının inkişaf etdirilməsi

məqsədilə həyata keçirilən tədbirlər elə ilk ildəcə bu təsərrüfat sahəsinin canlanmasına səbəb oldu. Belə ki, görülən işlər nəticəsində 1970-ci ildə 1965-ci illə müqayisədə qaramalın sayı 8 faiz, xırdabuynuzlu mal-qaranın sayı isə 6 faiz artmışdır. Həmin dövrdə dənli bitkilərin əkin sahəsi 3 faiz azaldığı halda yığılan məhsul 631 ton, üzüm 23065 ton, tütün 605 ton artmışdır. Əlbəttə ki, bu artım məhsuldarlığın hesabına əldə edilmişdir. Lakin bu artıma baxmayaraq muxtar respublikada kənd təsərrüfatının inkişafı bütövlükdə ümumrespublika səviyyəsindən, o cümlədən Dağlıq Qarabağ Muxtar Vilayətinin göstəricisindən xeyli geri qalırdı.

Ulu öndərin apardığı aqrar siyasət nəticəsində ölkədə olduğu kimi Naxçıvan MR-də də kolxoz və sovxozların maddi-texniki bazası getdikcə genişlənirdi.

Statistik rəqəmlərdən məlum olur ki, 1973-cü ildə muxtar respublikanın kolxoz və sovxozlarına 1000-dən çox traktor (15 at qüvvəsi hesabı ilə), 200-ə yaxın taxıl kombaynı, 600-dən çox yük avtomobili xidmət edirdi. Burada hər kolxoz və sovxozun payına orta hesabla 10-dan çox traktor, bir neçə taxıl kombaynı, yük avtomobili və digər kənd təsərrüfatı maşınları düşürdü. Həmin illərdə muxtar respublikada mövcud olan sovxoz və kolxozlara Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyinin 5 rayon şöbəsi xidmət göstərir, onları müasir traktor və kənd təsərrüfatı maşınları, həmçinin ehtiyat hissələrlə təmin edirdi.

Yalnız bunu demək kifayətdir ki, muxtar respublikanın kolxozlarındakı traktorların sayı (fiziki vahidlə) 1950-ci ildə 8 ədəd idisə, 1973-cü ildə 379 ədədə, taxıl kombaynlarının sayı 2-dən 61 ədədə, yük abtomobillərinin sayı isə 53-dən 450 ədədə çatmışdır. Əvvəlki illərdə kolxozlarda traktor və kənd təsərrüfatı maşınlarının az olması onunla izah edilirdi ki, onlara texniki yardım maşın-traktor stansiyaları tərəfindən göstərilirdi. Məsələn, 1956-cı ilin axırına olan məlumata əsasən Naxçıvan MR-də 42,9 min hektar əkin sahəsinə malik 66 kolxoza maşın-traktor stansiyalarının

7,1 min at gücünə malik 472 traktoru və 56 taxılyığan kombaynı xidmət edirdi.

Muxtar respublikada nəinki traktor və kənd təsərrüfatı maşınlarının sayı, eyni zamanda onların gücü də artmış, maşın-traktor parkının quruluşu da yaxşılaşmışdır. Maşın-traktor parkında güclü və daha məhsuldar traktor və maşınların xüsusi çəkisi yüksəlmişdir. Bununla əlaqədar olaraq, əsas istehsal fondlarının quruluşu da dəyişmişdir. İstehsal fondlarının tərkibində onların fəal hissəsinin, əmək məhsuldarlığının yüksəldilməsinə bilavasitə təsir göstərən hissəsinin xüsusi çəkisi artmışdır. Məsələn, 1973-cü ilin məlumatına əsasən, muxtar respublikanın kolxozlarının əsas istehsal fondlarının 51 faizi traktor, kənd təsərrüfatı maşını və alətlərinin payına düşürdü. Deməli, kənd təsərrüfatının maddi-texniki bazasını əsasən müasir elmi-texniki tərəqqinin tələblərinə cavab verən kənd təsərrüfatı maşın və alətləri təşkil edirdi.

Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ona yönəldilən əsaslı vəsait qoyuluşu ilə əlaqədardır. Kənd təsərrüfatına əsaslı vəsait həm dövlət, həm də kolxozların özləri tərəfindən, öz vəsaitləri hesabına qoyulurdu. Sovet hakimiyyəti illərində muxtar respublikada dövlətin su təsərrüfatı işlərinin genişləndirilməsi – suvarma kanallarının çəkilişi, su anbarlarının tikilməsi, maşın-traktor stansiyalarının yaranması və s. yollarla kənd təsərrüfatının inkişafına külli miqdarda əsaslı vəsait sərf etmişdir. Bununla yanaşı, kolxozların özləri də kənd təsərrüfatının inkişafına öz vəsaitləri hesabına əsaslı vəsait qoymuşlar. Təkcə bunu qeyd etmək kifayətdir ki, muxtar respublikanın kolxozları kənd təsərrüfatının inkişafına 1968-ci ildə 5041 min manat, 1969-cu ildə 6311 min manat və 1971-ci ildə isə 6502 min manat əsaslı vəsait sərf etmişdilər.

Kənd təsərrüfatının maddi-texniki bazasının əsas tərkib hissələrindən biri də torpaqdır. Texnika ilə yanaşı, torpağın da kənd təsərrüfatı müəssisələrinin balansında olması kənd təsərrüfatının inkişafı üçün möhkəm zəmin yaradırdı.

Kənd təsərrüfatı istehsalının əsasını təşkil edən torpaq kolxoz, sovxoz və digər müəssisə və təşkilatların balansında olmuşdur. 90-cı illərin əvvəllərində Naxçıvan MSSR-in malik olduğu 536,3 min hektar torpaq sahəsinin 483,4 min hektarı kolxoz və dövlət təsərrüfatlarının, 23,4 min hektarı dövlət torpaq ehtiyatı fondunun, 1,3 min hektarı dövlət su fondunun, 3,4 min hektarı dövlət meşə təsərrüfatlarının, müəssisə və idarələrin, 1,3 min hektarı şəhərlərin, şəhər tipli qəsəbə və kənd yaşayış məntəqələrinin, 23,5 min hektarı isə sənaye, nəqliyyat, kurort təsərrüfatlarının istifadəsində idi.

Torpağın kəndlilərə verilməsi, xırda, pərakəndə kəndli təsərrüfatlarının yerində iri, müasir texnika ilə təchiz edilmiş kənd təsərrüfatı müəssisələrinin yaradılması Naxçıvan MR-in iqtisadi inkişafında çox böyük dönüş yaratdı. 1973-cü il məlumatına əsasən Naxçıvan MR Azərbaycanda istehsal olunan taxılın 2,43, pambığın 1, tütünün 15,95, tərəvəzin 2,24, üzümün 5,93, ətin 3,98, südün 3,69, yunun 3,95, yumurtanın isə 4,04%-ni vermişdir. Bu rəqəmlərdən görünür ki, həmin dövrdə Naxçıvan əsasən tütün, üzüm, taxıl, tərəvəz və digər kənd təsərrüfatı məhsulları istehsalında respublikada əhəmiyyətli yer tutmuşdur.

Naxçıvanın kənd təsərrüfatı əsasən texniki bitkilər – tütünçülük, üzümçülük və bağçılıq üzrə ixtisaslaşmışdır. Üzüm bağlarının sahəsi 1947-ci ildə 1469 hektardan 1972-ci ildə 8437 hektara çatmış, yəni 5,7 dəfə artmışdır.

İctimai əmək bölgüsündə muxtar respublikanın kənd təsərrüfatında tütünçülük, pampıqçılıq və üzümçülük mühüm yer tuturdu. Burada həmçinin, taxılçılıq və heyvandarlıq da inkişaf etmişdir. Heyvandarlıqda qoyunçuluq mühüm yer tuturdu. Belə ki, respublikada istehsal olunan yunun təxminən 2,2%-i Naxçıvan MR-ın payına düşür. 1971-ci ilin məlumatına görə, Naxçıvanda istehsal olunan yunun hər sentneri 725 manata başa gəldiyi halda, hər sentner yundan 910 manat pul gəliri əldə edilmişdir. Deməli, yun istehsalının hər sentnerindən orta hesabla 185 manat,

cəmi yun istehsalından isə 565 min manat xalis gəlir götürülmüşdür. Muxtar respublikada "Balbas" cinsli qoyunlar daha sürətlə inkişaf etmişdir. Bu cins qoyunların inkişaf etdirilməsində Naxçıvanda yaradılmış damazlıq məntəqəsinin mühüm rolu olmuşdur.

Muxtar respublikanın kənd təsərrüfatında bağçılıq və baramaçılıq da mühüm yer tuturdu. Hələ qədim zamanlardan Naxçıvan ölkəsi ipəkçiliklə məşğul olurdu. Ordubad rayonunun ipək məhsulu geniş şöhrət qazanmışdır. Lakin inqilaba qədər kustar üsulu ilə aparılan və əsasən ağır əl əməyinə əsaslanan ipəkçilik təsərrüfatı yalnız Sovet hakimiyyəti qurulandan sonra yüksək inkişaf yoluna qədəm qoymuşdur. Sovet hakimiyyətinin ilk günlərindən muxtar respublikada barama və ipək istehsalı üçün hər cür şərait yaradılmışdır. 1926-cı ildə Ordubad şəhərində barama toxumu hazırlayan stansiya yaradılmışdır ki, bu da respublikada baramaçılığın inkişafına müsbət təsir göstərmişdir. Bu stansiya təkcə Naxçıvan MR-in yox, Azərbaycanın digər rayonlarını da barama toxumu ilə təchiz etməkdə mühüm rol oynamışdır. Lakin qeyd etmək lazımdır ki, son illər muxtar respublikada barama istehsalı, 1940-cı ildə 101 tondan 1972-ci ildə 85 tona enmiş, yəni 15,9% azalmışdır. Barama istehsalının azalması əsasən Culfa, Ordubad və Naxçıvan rayonlarında müşahidə edilmişdir. Məsələn, Culfa rayonunda barama istehsalı 1964-cü ildə 50 tondan 1970-ci ildə 9,4 tona, Ordubad rayonunda 44 tondan 33,2 tona, Naxçıvan rayonunda 16 tondan 11 tona enmiş, Şahbuz rayonunda isə heç dərəcəsində olmuşdur. Son illərdə muxtar respublikada barama istehsalının azalmasının səbəbi yem bazasının zəifləməsi ilə əlaqədardır.

Baramaçılıq kənd təsərrüfatının ən gəlirli sahələrindən biridir. Onun yem bazasının möhkəmləndirilməsi üçün Naxçıvan MR-də tut bağlarının genişləndirilməsi zəruridir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ərazidə bağçılıq kənd təsərrüfatının əsas sahələrindən birini təşkil etsə də, onun müasir inkişaf səviyyəsi qənaətbəxş hesab oluna bilməz.

Bağçılıq respublikanın malik olduğu yerli təbii imkanlardan hələ çox-çox geridə qalır. Muxtar respublikada bağçılıq kimi, arıçılığı da inkişaf etdirmək üçün geniş imkanlar vardır. Arıçılıq Ordubad, Şahbuz və Naxçıvan rayonlarında xüsusilə geniş inkişaf etmişdir. Belə ki, 1973-cü ilin məlumatına əsasən muxtar respublikanın kolxozlarında cəmi 1082 arı ailəsi olmuşdur.

Sovet hakimiyyəti illərində muxtar respublikada xalq təsərrüfatının digər sahələri kimi, kənd təsərrüfatının da inkişafında mühüm dəyişikliklər baş vermiş, kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artmışdır. Belə ki, muxtar respublikada ət istehsalı (kəsilmiş çəkidə) 1924-cü ildə 0,9 min tondan 1971-ci ildə 3,8 min tona, süd istehsalı 5,2 mindən 17,9 min tona, yumurta istehsalı (1960-cı ildə) 15,4 mindən 17,3 min ədədə, tütün istehsalı (1940-cı ildə) 0,4 mindən 4,2 min tona, üzüm istehsalı (1953-cü ildə) 0,3 mindən 16,8 min tona çatmışdır.

Muxtar respublikada taxılın və pambığın əkin sahəsi digər bitkilərin əkin sahəsinin genişləndirilməsi hesabına qismən azalmışdı. Belə ki, burada dənli bitkilərin əkin sahəsi 1940-cı ildə 38,6 mindən 1972-ci ildə 20,2 min hektara, pambıq bitkisinin əkin sahəsi isə 9435 hektardan 3811 hektara enmişdir. Bununla əlaqədar olaraq, əkin sahələrinin quruluşunda köklü dəyişiklik baş vermişdir. Keçmişdə başlıca olaraq taxılçılıq istiqamətində aparılan kənd təsərrüfatı indi hərtərəfli inkişaf etmiş, çoxsahəli kənd təsərrüfatına çevrilmişdir. Əkin sahələrinin tərkibində texniki və yem bitkilərinin xüsusi çəkisi xeyli artmışdır.

Sovet hakimiyyəti illərində Naxçıvan MR-də kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı xeyli artmışdır. Məsələn, hər hektardan götürülən buğda məhsulunun miqdarı 1953-cü ildəki 7,4 sentnerdən 1972-ci ildə 11,9 sentnerə, tərəvəz məhsulunun miqdarı 20,4 sentnerdən 47,9 sentnerə, dənli bitkilərin məhsulunun miqdarı 7,5-dən 11,3 sentnerə, tütün məhsulunun miqdarı 17,6 sentnerdən 20,2 sentnerə, üzüm məhsulunun miqdarı isə 8,3 sentnerdən 26,2 sentnerə (1970) çatmışdır.

Əkinçiliklə yanaşı, heyvandarlığın da inkişafında müəyyən irəliləyiş nəzərə çarpmışdır. Kənd təsərrüfatının istər ümumi, istərsə də əmtəəlik məhsulunun tərkibində heyvandarlıq məhsullarının xüsusi çəkisi getdikcə artır. Bu, bir tərəfdən əhalinin heyvandarlıq məhsullarına olan tələbatının getdikcə artması, digər tərəfdən isə sənayenin inkişafı və heyvandarlığın yem bazasının möhkəmləndirilməsi ilə əlaqədardır.

Muxtar respublikada qaramalın sayı 1924-cü ildəki (ilin axırına olan məlumata əsasən) 31 min başdan 1972-ci ildə 61,4 min başa, o cümlədən inək və camışların sayı 9 min başdan 24,3 min başa, qoyun və keçilərin sayı 79 min başdan 270,8 min başa çatmışdır. Deməli, göstərilən müddət ərzində qaramalın sayı 2 dəfədən çox, o cümlədən inək və camışların sayı 2,8, davarların sayı isə 3,4 dəfə artmışdır.

Heyvandarlıq yalnız kəmiyyətcə deyil, keyfiyyətcə də inkişaf etmişdir. İctimai heyvandarlığın inkişafında baş verən müsbət keyfiyyət göstəricilərindən biri qaramalın tərkibində inək və camışların xüsusi çəkisinin artmasıdır. İnək və camışların qaramalın tərkibində tutduğu xüsusi çəki 1924-cü ildə 29% idisə, 1972-ci ildə 39,6%-ə çatmışdır.

Məhsuldarlığın yüksəlməsi heyvandarlığın keyfiyyətcə inkişaf etməsini səciyyələndirən əsas göstəricilərdən biridir. Muxtar respublikanın kolxozlarında hər inəkdən orta hesabla sağılan südün miqdarı 1953-cü ildə 419 kiloqram idisə, 1973-cü ildə 831 kiloqrama çatmış, yəni 412 kiloqram artmışdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk ilində baş vermiş inkişaf nəticəsində muxtar respublikanın kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinə, əkinçilik və maldarlıq məhsulları istehsalının artırılmasına yönəlmiş bir sıra kompleks tədbirlər həyata keçirildi.

1970-ci illərin əvvəllərindən başlayaraq muxtar respublikanın kənd təsərrüfatının planlaşdırılmasında buraxılmış çatışmamaz-

lıqların aradan qaldırılması üçün işlər aparılmağa başlandı. Rentabelsiz, yüksək maya dəyərinə malik pambıqçılıq Naxçıvan MR-də yüksək məhsuldarlığa malik üzümçülüklə əvəz edildi. Bu ideyanın əsas təşəbbüskarı məhz Heydər Əliyev olmuşdur.

Ulu öndərimizin təşəbbüsü ilə Azərbaycanda kənd təsərrüfatının inkişafı ilə bağlı üç mühüm tarixi qərar – Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" 23 iyul 1975-ci il tarixli, "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" 9 iyul 1975-ci il tarixli və "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" 23 fevral 1979-cu il tarixli qərarlarını qəbul etdi. Bu sənədlərdə həm Azərbaycanda, həm də onun tərkib hissəsi olan Naxçıvan MR-də kənd təsərrüfatının geniş inkişaf proqramı əks olunmuşdur.

Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında muxtar respublikada kənd təsərrüfatı istehsalını artırmaq barədə bir sıra mühüm maddələr öz əksini tapmışdır. Bu qərarlar arasında muxtar respublikada heyvandarlığı inkişaf etdirmək məqsədilə yem bazasının möhkəmləndirilməsi, təsərrüfatların su təchizatının yaxşılaşdırılması, tədarük, texniki xidmət müəssisələrinin yaradılması, kolxoz və sovxozlarda mədəni-məişət obyektlərinin tikintisi və s. var idi.

Muxtar respublikada doqquzuncu beşillikdə kənd təsərrüfatının orta illik ümumi məhsulu 1,4 milyard manata qaldırıldı. Bu da səkkizinci beşillikdə olan müvafiq göstəricidən 34 faizə qədər çox idi. Beş il ərzində (1971-1975) taxıl, tütün, pambıq və meyvə istehsalı planı yerinə yetirildi. 1975-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 1969-cu ildəki 1 milyard manatdan 1,6 milyard manata qalxdı.

Azərbaycan KP-nın XXIX qurultayı IX beşilliyə yekun vurdu. Qurultayda göstərildiyi kimi IX beşilliyin müvəffəqiyyətlə

başa çatdırılmasında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci ilin iyul ayında qəbul etdiyi "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" qərarının böyük əhəmiyyəti olmuşdur. IX beşillik muxtar respublikanın kolxoz və sovxozlarının inkişafında mühüm tarixi dönüş nöqtəsinə çevrildi. Beləliklə, kənd təsərrüfatının uzun sürən geriliyinə son qoyuldu, onun bütün sahələrinin əsaslı yüksəlişi təmin edildi, kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək üçün möhkəm təminat yaradıldı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi və təşkilati tədbirlər nəticəsində artıq doqquzuncu beşillikdə muxtar respublikada kənd təsərrüfatının səmərəliliyinin yüksəldilməsinə və plan tapşırıqlarının yerinə yetirilməsinə nail olundu. Səkkizinci beşilliklə müqayisədə doqquzuncu beşillikdə 3,7 dəfə çox taxıl və üzüm, 2 dəfə çox tütün, 4,2 dəfə çox tərəvəz, 1,3 dəfə meyvə, 1,5 dəfə çox süd istehsal olunmuş və nəticədə bütün kənd təsərrüfatı məhsulları üzrə dövlət planları yerinə yetirilmişdir. 1970-ci illə müqayisədə kolxoz və sovxozların ümumi gəliri 191 faiz, xalis gəliri isə iki dəfə artmışdır. İctimai istehsalın artımı əsasında kənd əməkçilərinin maddi rifah halı yaxşılaşmış, kəndlilərin orta illik əmək haqqı 1,7-2,0 dəfə artmışdır.

Kənd təsərrüfatının inkişafının mühüm şərti kolxoz və sovxozların elektriklə tam təminatı olmuşdur. Elektrikləşdirmə əmək məsrəflərini azaltmaqla bərabər, fiziki əməyi yüngülləşdirmək, əmək məhsuldarlığını artırmaq, istehsalın avtomatlaşdırılmasını təmin etmək imkanı idi.

XX əsrin 70-80-ci illərində kənd təsərrüfatını elektrik enerjisi ilə təmin etmək üçün bir sıra tədbirlər hazırlanmış və həyata keçirilmişdir. 70-ci illərdə kolxoz və sovxozlarda elektrik stansiyaları və elektrik dizelləri dövlət elektrik energetika sistemi ilə əvəz edildi. Araz çayı üzərində su elektrik stansiyası tikilib istifadəyə verildi. Bütün kolxozlar, təsərrüfatlararası kənd təsərrüfatı müəssisələri tamamilə elektrikləşdirildi. 1970-ci ilə nisbətən

1980-ci ildə muxtar respublikada elektrik enerjisi istehsalı 3,4 dəfə artmışdı.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1975-ci ilin iyulunda qəbul etdiyi "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında"kı qərarı onuncu beşillikdə respublikada kənd təsərrüfatı inkişafının möhkəm təməlini qoydu. Bu qərar respublikada müvafiq sahənin yüksəldilməsi üçün mühüm amil hesab olunan intensivləşdirmə, ixtisaslaşdırma və təmərküzləşdirmə prosesinin daha da təkmilləşməsi üzrə əsas tapşırıqlar müəyyən etmişdir. Azərbaycan zəhmətkeşləri kənd təsərrüfatı məhsulları istehsalının artımı üzrə beşillik plan tapşırıqlarını vaxtından əvvəl yerinə yetirmişlər. Beləliklə, beş il ərzində (1976-1980) kənd təsərrüfatında 10,2 milyard manatlıq ümumi məhsul istehsal olunmuşdur. Bu isə səkkizinci beşillikdəkindən 5 milyard manatlıq və doqquzuncu beşillikdəkindən isə 3,2 milyard manatlıq çoxdur. Doqquzuncu və onuncu beşilliklərdə kənd təsərrüfatının ümumi məhsulu təqribən 2 dəfə artmışdır. Halbuki əvvəlki 50 ildə bu rəqəm cəmi 4 dəfə təşkil etmişdir.

Əlbəttə ki, ölkədə bu görkəmli qələbənin qazanılmasında Naxçıvan MR kənd əməkçilərinin də payı az olmamışdır. Onlar kənd təsərrüfatı sahəsində beşillik tapşırığa müvəffəqiyyətlə əməl etmişlər. Belə ki, onuncu beşillikdə muxtar respublikanın kənd təsərrüfatında ümumi məhsulun həcmi əvvəlki beşilliklə müqayisədə 69 faiz çoxalmış, ümumi gəlir 98 faiz, xalis gəlir 4 dəfə, rentabellik 2 dəfə, pul gəlirləri 66 faiz, orta illik məhsuldarlıq 33 faiz yüksəlmişdir. Dövlətə məhsul satışına dair beşilliyin bütün tapşırıqları vaxtından əvvəl yerinə yetirilmişdir.

Kənd təsərrüfatının sürətlə inkişafı istehsalın kimyalaşdırılmasından daha çox asılı idi. 70 –ci illərdə Naxçıvan MR-in kənd təsərrüfatında mineral kübrələrdən daha səmərəli istifadə olunmağa başlanmışdı. Bu işi yaxşılaşdırmaq üçün 1980-ci ildə kolxoz və sovxozlarda 35449 ton kübrə, zəhərləyici maddə, herbisid və

stimulyator istifadə olunmuşdur ki, bu da 1970-ci illərlə müqayisədə 4,5 dəfə çox idi.

Kənd təsərrüfatının inkişaf strategiyasının ən mühüm istiqamətlərindən biri də Heydər Əliyevin bu sahəyə ixtisaslı kadrları cəlb etməsidir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu sahəyə böyük diqqət ayırmağın özü də ulu öndərimizin çox uzaqgörən fəaliyyətinin bir cəhəti kimi qiymətləndirilməlidir. Əgər torpağın kübrələnməsi səriştəsiz, ixtisassız kadr tərəfindən aparılarsa, əlbəttə ki, gələcəkdə onun xeyrindən çox zərərini körmək olardı. Odur ki, Heydər Əliyev aqrar sahənin ixtisaslı kadrlara, təcrübəli işçilərə tapşırılmasına xüsusi diqqət yetirirdi.

Haqqında danışılan dövrdə artıq kənd təsərrüfatının ali və orta ixtisas təhsilli kadrlarla təmin edilməsində böyük uğurlar əldə edilmişdi. 1980-ci ildə Naxçıvan MSSR-in kənd təsərrüfatında ali təhsilli mütəxəssislərin sayı 486 nəfərə çatmışdı ki, bu da 1970-ci illə müqayisədə 49% çox idi. Kənd təsərrüfatı mütəxəssislərinin ümumi sayı 1,9 dəfə artmışdı. Kənd təsərrüfatında çalışan mexanizatorların sayı 1970-ci ildəki 1184 nəfərdən 1980-ci ildə 1805 nəfərə çatmışdı.

70-ci illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının sənaye əsasına keçirilməsi, onun təmərküzləşməsi və ixtisaslaşmasına Heydər Əliyev xüsusi diqqət yetirirdi. Kənd təsərrüfatının ixtisaslaşdırılması sahəsində elmi cəhətdən əsaslandırılmış tədbirlər həyata keçirilir, əmək bölgüsünün dərinləşməsi prosesi sürətləndirilirdi.

Naxçıvan MR-in özündə təsərrüfatlararası kooperasiya və aqrosənaye inteqrasiyası əsasında kənd təsərrüfatı istehsalının təmərküzləşməsi və ixtisaslaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Ordubad rayonunun meyvə-tərəvəz və ipəkçilik üzrə ixtisaslaşdırılması qərara alınmış, bu məqsədlə Ordubad aqrar-sənaye birliyi yaradılmışdı. 1971-1980-ci illər ərzində muxtar respublikada ixtisaslaşdırılmış 18 üzümçülük, 1 tərəvəzçilik,

1 qoyunçuluq, 6 tütünçülük sovxoz və aqrosənaye inteqrasiyası əsasında işləyən 6 sovxoz zavod yaradılmışdır. Heydər Əliyevin imzası ilə 10 fevral 1981-ci ildə Şahbuz, Culfa və Ordubad rayonlarının iqtisadi cəhətdən zəif olan 16 kolxozu əsasında 9 qoyunçuluq, 3 ətçilik və 3 südçülük sovxozunun yaradılması haqqında qərar qəbul edilmişdi. 2 iyun 1981-ci il tarixdə isə Naxçıvan MR-də 2 yeni ixtisaslaşdırılmış üzümçükük və südçülük sovxozu yaradıldı. Kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və göndərilməsi zamanı yol verilən böyük itkilərin qarşısını almaq məqsədilə 1982-ci ildən bütün ölkədə olduğu kimi, muxtar respublikada da aqrar-sənaye birlikləri yaradılmağa başlandı və bu iş 1985-ci ildə başa çatdırıldı.

Görülən işlər kənd təsərrüfatı məhsulları istehsalının və əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artmasına kömək etdi. Muxtar respublikanın kənd təsərrüfatının ümumi məhsulu 1970-ci ildəki 16,9 min manatdan, 1980-ci ildə 54,4 min manata qədər, yaxud 3,2 dəfə artmışdı. 1980-ci ildə kənd təsərrüfatı müəssisələrinin xalis gəliri 8,9 min manat təşkil etmişdi ki, bu da 1970-ci ildəkindən 2,7 dəfə şox idi.

70-80-ci illərdə ölkənin kənd təsərrüfatı qarşısında duran ən mühüm məsələlərdən biri də taxıl istehsalının inkişaf etdirilməsi idi. 1970-ci ildə Azərbaycanda dənli bitkilər bütövlükdə 662 min hektardan çox sahəni tuturdu ki, bu da bütün əkin sahələrinin 52%-ni təşkil edirdi. 70-ci illər və 80-ci illərin əvvəllərində taxılçılıq mədəniyyətinin yüksəldilməsinə və dənli bitkilərin sort tərkibinin yaxşılaşdırılmasına diqqət artırıldı, məhsuldarlıq yüksəldildi. Nəticədə 1970-ci ildəkinə nisbətən, 1985-ci ildə Azərbaycanda əkin sahələri 128 min hektar azalsa da, taxıl yığımı bu dövrdə təqribən 1,8 dəfə artmışdı.

Taxılçılıq Naxçıvan MR-in kənd təsərrüfatında mühüm yer tuturdu. Muxtar respublikanın torpaq-iqlim şəraiti burada dənli və bir sıra aqrotexniki bitkilərin inkişafı üçün əlverişli idi. Bununla belə, muxtar respublikanın kolxozlarında dənli və paxlalı

bitkilərin əkin sahəsi cəmi 18,8% təşkil edirdi. Dənli bitkilərin sahələrinin azalmasına baxmayaraq, taxıl istehsalı əhəmiyyətli dərəcədə artmışdı. Araşdırmalardan məlum olur ki, 1970-ci ildə 23655 ha əkin sahəsindən 21443 ton taxıl yığılmışdısa, 1980-ci ildə 11428 ha-dan 26436 ton yığılmışdı. Taxıl istehsalının artması, əsasən intensivləşdirmə hesabına əldə edilmişdi. Belə ki, 1970-ci ildə kolxoz və sovxozlarda hər hektardan 9,5 sentner məhsul yığılmışdısa, 1975-ci ildə bu göstərici 13,2 sentnerə, 1980-ci ildə isə 23,2 sentnerə çatmışdı.

1970-ci illərdə və 80-ci illərin birinci yarısında üzümçülük özünün inkişaf sürəti ilə muxtar respublikanın ən mühüm sahələrindən birinə çevrilmişdi. Həmin dövrdə üzüm plantasiyaları 11 dəfə genişlənmiş, üzüm istehsalı 2-3 dəfə artmışdı. 1970-ci ildə üzümün məhsuldarlığı hər hektardan 36,7 sentner idisə, 1975-ci ildə bu rəqəm 44,6, 1980-ci ildə 52,7 sentner olmuşdur. Halbuki, hələ 1970-ci illərin əvvəllərində kənd təsərrüfatının bu sahəsi çox geridə qalırdı. Dövlət tapşırıqları çox kəsirlə yerinə yetirilirdi. Təsərrüfatlarda aqrotexniki qaydalara əməl edilmirdi, əmək intizamı çox aşağı səviyyədə idi.

Ulu öndər Heydər Əliyev şərabçılıqla bağlı sahələrin inkişafına xüsusi diqqət yetirməklə bu işə bilavasitə rəhbərlik etmişdir. O, Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1979-cu il 22 fevral tarixli xüsusi qərar qəbul etmələrinə nail olmuş, həmin ilin noyabrında Azərbaycan KP MK-nın xüsusi plenumunu keçirərək orada respublikada üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı sahələrin inkişafını mühüm iqtisadi vəzifə kimi qarşıya qoymuşdu. Azərbaycan KP MK-nın 1979-cu ilin noyabr plenumunda bu qərarın yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının vəzifələri haqqında məsələ müzakirə edilərək Azərbaycanın kənd təsərrüfatının uzunmüddətli strateji inkişaf proqramı müəyyənləşdirilmişdi. Təkcə Naxçıvan MR üzrə 1979-1986-cı illərdə 19,4 min

hektar yeni üzüm sahəsinin yaradılması, 1985-ci ildə üzüm istehsalının 230 min, 1990-cı ildə isə 400 min tona çatdırılması nəzərdə tutulurdu. Həmin qərara əsasən on il ərzində muxtar respublikanın üzümçülük və şərabçılıq üzrə ixtisaslaşması nəzərdə tutulmuşdu. Nəticədə Azərbaycanda üzümçülüyün təbii-iqtisadi rayonlar üzrə ixtisaslaşdırılması, üzümçülük sahələrinin genişləndirilməsi prosesi getdikcə güclənmiş və kənd təsərrüfatı məhsullarının istehsalında bu sahənin xüsusi şəkisi artmışdı. Üzüm plantasiyalarının sahəsi 1970-ci ildəki 212, min hektardan 1985-ci ildə 268 min hektara çataraq 2,2 dəfə artmışdı. Azərbaycan 70-ci illərin sonlarında ildə orta hesabla 2 milyon ton üzüm istehsal edərək SSRİ-də birinci yeri tuturdu.

Ulu öndərin Naxçıvanda üzümçülüyün inkişafına qayğı və diqqətini aşağıdakı rəqəmlər də sübut edir. 1970-ci illərin sonlarında respublikada19 ixtisaslaşdırılmış üzümçülük sovxozu yaradılmış, üzümlüklərin sahəsi 12759 hektara çatdırılmış, 1969-cu ildə üzüm istehsalı 5,3 dəfə artmışdı. Üzümçülük təsərrüfatları təkcə 1976-1979-cu illərdə 17 mln. manat xalis gəlir əldə etmişdilər ki, bu da bütün doqquzuncu beşiilikdəkindən (7 mln. 400 min manat) xeyli çox idi. Həmin dövrdə sovxoz fəhlələrinin əmək haqqı da 1,2 dəfə artmışdı.

Ümummilli lider 1980-ci ildə Naxçıvanda üzümçülük təsərrüfatlarında olarkən Azərbaycan Dövlət Üzümçülük və Şərabçılıq Komitəsindən, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin rəhbərlərindən Naxçıvanda üzümçülüyün problemlərinə diqqət yetirməyi tələb etmişdi. Naxçıvan üzümçüləri qarşısında çıxış edən Heydər Əliyev diyarın ənənəvi süfrə üzüm sortlarının "Mələyi", "Kişmişi", "Xəlili", "Şəfayi" sortlarının əvvəlki şöhrətini qaytarmağı vacib vəzifə kimi qarşıya qoymuşdu. O, həmçinin əhalidən üzümün satın alınmasının təşkilinə xüsusi fikir verməyi, fərdi bağlarda məhsul itkisinə yol verməməyi tələb etmişdir.

Lakin alkoqolizmə qarşı qondarma və uğursuz bir şəkildə aparılan mübarizə kompaniyası Azərbayanın, eləcə də Naxçıvanın

böyük zəhmətlər hesabına yaradılmış mükəmməl üzümçülük plantasiyalarını yerlə yeksan etdi. Plantasiyaların dağılması üzümçülüyü, şərabçılığı dərin böhranlara saldı. Muxtar respublika ərazisində yerləşən şərab zavodlarının, şərabçılıq müəssisələrinin fəaliyyəti iflic oldu. Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü olarkən bu ağılsız siyasətə öz kəskin etirazını bildirsə də, bu dağıdıcı hərəkatı dayandıra bilmədi.

Doqquzuncu və onuncu beşilliklərdə muxtar respublikada tərəvəzçiliyin inkişafında da müəyyən uğurlar əldə edilmişdi. 1970-ci illə müqayisədə tərəvəz istehsalı 1980-ci ildə 7,7 dəfə artmışdı. Həmin ildə kolxoz və sovxozlar hər hektardan 99 sentner tərəvəz almışdılar ki, bu da 1970-ci ildəkindən 4,9 dəfə çox idi. 1982-ci ildə isə tərəvəz istehsalı 17912 tona çatmışdı.

70-ci illərdə muxtar respublikada kənd təsərrüfatının ən rentabelli sahəsi olan tütünçülüyün inkişafına da diqqət yetirilirdi. Həmin dövrdə ixtisaslaşmış tütünçülük sovxozu yaradılmışdı. Burada işlərin əksəriyyəti əl əməyinə əsaslandığından təsərrüfatların mexanikləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Tütün istehsalı 1970-ci ildə 3096 tondan, 1981-ci ildə 6396 tona çatdırılmış, bu zaman hər hektarın məhsuldarlığı müvafiq olaraq 14,5 sentnerdən 24,0 sentnerə yüksəlmişdi.

Muxtar respublikada ənənəvi təsərrüfat sahəsi olan heyvandarlığın inkişafı üçün geniş imkanlar olsa da, 70-ci illərə qədər bu sahədə də geriləmə davam edirdi. Ümumi kənd təsərrüfatı məhsulunun 20%-i heyvandarlığın payına düşsə də, mal-qaranın və quşçuluğun məhsuldarlığı hələ də aşağı olaraq qalırdı. Orta süd sağınının göstəricilərinə görə muxtar respublika Azərbaycan üzrə göstəricilərdən xeyli geri qalırdı. 1970-1980-ci illərdə muxtar respublikada heyvandarlığın inkişafı üçün kompleks işlər aparılırdı. Həyata keçirilən tədbirlər sırasında bu sahənin ixtisaslaşdırılması, mal-qara cinsinin yaxşılaşdırılması, təmərküzləşmə və təsərrüfatlararası kooperasiyaların yaradılması kimi tədbirlər xüsusi yer tuturdu. Bu tədbirlərin nəticəsi olaraq, ictimai heyvandarlığın

inkişafında müsbət dəyişikliklər baş verdi. 1970-ci ilə nisbətən, 1980-ci ildə muxtar respublikanın kolxoz və covxozlarında ət istehsalı 2,1 dəfə (Azərbaycanda 1,4 dəfə), süd istehsalı 2,8 dəfə (Azərbaycanda 1,6 dəfə), yumurta istehsalı 1,3 dəfə (Azərbaycanda 1,3 dəfə) artmışdı. Əgər 1970-ci ildə hər inəkdən orta hesabla 544 litr süd sağılmışdırsa, hər toyuqdan 49 yumurta, hər 100 qoyundan 80 quzu alınmışdırsa, 1980-ci ildə bu göstərici hər inəkdən 1264 litr süd sağılmış, hər toyuqdan 121 yumurta, hər 100 qoyundan isə 87 bala alınmışdır.

Ümummilli lider 70-80-ci illərdə Naxçıvan MR-in kənd təsərrüfatının üzümçülük, taxılçılıq, meyvəçilik və maldarlıq üzrə ixtisaslaşmasının perspektivlərini görmüş və artıq bu prosesin başlanmasına rəvac vermişdi. Lakin görülən işlərə baxmayaraq bu sahələrdə istehsal hələ də lazımi səviyyədə deyildi.

Aparılan araşdırmalardan məlum olur ki, 1982-ci ildə SSRİ-də adam başına 58 kq ət və ət məhsulları düşürdüsə, Azərbaycanda bu göstərici 32 kq-a, muxtar respublikada isə cəmi 24,3 kq-a bərabər idi. Heyvandarlığın inkişafı hər şeydən əvvəl, yemdən asılı idi. 1981-ci ildə hər şərti başa burada cəmi 9,8 sentner yem vahidi hazırlanmışdır. Ona görə də ulu öndər Heydər Əliyev muxtar respublikada yem bazasının möhkəmləndirilməsi üçün yeni suvarılan torpaqlar hesabına taxıl və yem bitkilərinin əkin sahələrinin genişləndirilməsini tövsiyyə edirdi. Heydər Əliyev dəfələrlə qeyd etmiş, muxtar respublika rəhbərlərindən vəziyyəti düzəltməyi tələb etmişdir. Məsələn, 1978-ci ilin oktyabrında Naxçıvanda olarkən Naxçıvan MR-də maldarlığın çox geridə olduğunu ürək ağrısı ilə bildirərək, bir sıra konkret rəqəmlər göstərmiş (təhvil verilən malın orta çəkisi ümumi Azərbaycan üzrə 260 kq olduğu halda, burada 215 kq, hər inəkdən sağılan südün miqdarı isə ümumölkə üzrə 1500 litr olduğu halda, burada 1071 litr təşkil edirdi), bunu biabırçı vəziyyət adlandırmış və bu biabırçılığı aradan qaldırmağı tələb etmişdi. 1982-ci ildə Naxçıvanda olarkən burada yem tədarükünün artırılması, süd sağımı və qara-

malın çəki artımının yüksəldilməsi üçün konkret tapşırıqlar vermişdi.

1970-ci illərdə Naxçıvan MR-də heyvandarlığın mühüm sahəsi olan sənaye quşçuluğunun da əsası qoyuldu. Heydər Əliyevin göstərişi ilə Naxçıvanda qabaqcıl texnologiyaya əsaslanan quşçuluq kompleksləri quraşdırıldı. Naxçıvan və Ordubadda yeni quşçuluq fermaları istifadəyə verildi.

Kənd təsərrüfatı məhsulları istehsalının artması onun dövlətə satışının da artmasına gətirib çıxarmışdır. Belə ki, 1970-ci illə müqayisədə 1980-ci ildə dövlətə taxıl satışı 2,4 dəfə, tütün 2,6 dəfə, üzüm 2,4 dəfə, tərəvəz 8,8 dəfə, yun 1,5 dəfə, yumurta 2,6 dəfə, ət 1,7 dəfə, süd isə 1,9 dəfə artmışdır.

Bütövlükdə 1970-ci ildən 1980-ci ilədək olan 10 il ərzində Naxçıvan MSSR-də ümumi kənd təsərrüfatı məhsulları istehsalı və məhsuldarlığı hər il ardıcıl şəkildə dinamik sürətlə artırdı. Bitkiçilik və heyvandarlıq sahəsində hər il yüksək artım sürəti əldə edilmişdir. Bunu aşağıdakı cədvəllərdən görmək olar:

***Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və məhsuldarlığı***

| Bitkilərin adı | İstehsal (min ton) | | | Məhsuldarlıq (sent/ ha) | | |
|---|---|---|---|---|---|---|
| | 1970 | 1980 | 1985 | 1970 | 1980 | 1985 |
| Taxıl | 22,5 | 27,0 | 33,9 | 9,3 | 23,2 | 35,2 |
| Tütün | 3,1 | 6,4 | 2,1 | 14,5 | 23,3 | 27,8 |
| Tərəvəz | 8,4 | 16,3 | 14,2 | 96,0 | 137,0 | 116,0 |
| Üzüm | 23,3 | 62,1 | 146,3 | 39,9 | 64,7 | 103,8 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, muxtar respublikada 1970-1985-ci illərdə tütün istisna olmaqla bütün məhsulların istehsalında artım müşahidə olunmuşdur. 15 ildə taxıl üzrə artım 16,3 min ton, tərəvəz üzrə artım 5,8 min ton və üzüm üzrə artım isə 123 min ton təşkil etmişdir.

Həmin illərdə bütün bitkilər üzrə məhsuldarlıq qeydə alınmışdır. Məsələn, 1970-ci illə müqayisədə 1985-ci ildə taxılın məhsuldarlığı hər hektardan 25,1 sentner, tütün 13,3 sentner, tərəvəz 20 sentner və üzüm isə 63,9 sentner təşkil etmişdir.

70-80-ci illərdə muxtar respublikada görülən tədbirlər və heyvandarlığın yem bazasının möhkəmləndirilməsi nəticəsində mal-qaranın say tərkibi xeyli artmışdır. Aşağıdakı cədvələ nəzər salaq:

***1970-1985-ci illərdə Naxçıvan Muxtar Respublikasında mal-qaranın sayı (min baş)***

| | 1970 | 1980 | 1985 |
|---|---|---|---|
| İri buynuzlu mal-qara | 63,7 | 69,0 | 72,5 |
| Qoyun və keçilər | 254,8 | 292,2 | 281,7 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, 1970-ci ilə nisbətən 1985-ci ildə iribuynuzlu mal-qara 8,8 min baş, qoyun və keçilər isə 26,9 min baş artmışdır.

Muxtar respublikada mal-qaranın baş sayının sürətli artımı heyvandarlıq məhsulları istehsalının da artmasına gətirib çıxarmışdır. Belə ki, son 15 ildə (1970-1985) heyvandarlıq məhsulları istehsalı ət üzrə (kəsilmiş çəkidə) 2,7 min ton, süd üzrə 14,4 min ton, yumurta üzrə 28,4 milyon ədəd, yun istehsalı sabit qalmış və barama istehsalı isə 50,2 min ton artmışdır.

Kənd təsərrüfatının əsas istehsal fondları 1980-ci ildə 105,6 milyon manat təşkil edirdi ki, bu da 1970-ci ildəkindən 2,4 dəfə çox idi. Təsərrüfatlarda rentabellik 8,3%, kənd təsərrüfatında işləyən bir nəfərin əmək məhsuldarlığı 2,2 dəfə, kənd təsərrüfatı müəssisələrinin xalis gəliri 3,6 dəfə artmışdı.

Heydər Əliyevin böyük təşkilatçılıq fəaliyyəti nəticəsində muxtar respublikanın kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxmış, əhalinin ərzaq məhsulları ilə təminatında müsbət dəyişikliklər baş vermişdir.

1969-1979-cu illərdə Naxçıvan MR-də kənd təsərrüfatının ümumi məhsulu 2,4, taxıl istehsalı 2, tütün 2,3, üzüm 5,3, tərəvəz 6,7, meyvə 9,8, bostan məhsulları 5,4, ət 1,7, süd 2,6, yumurta 2,9, yun 1,9, barama 1,3 dəfə artmışdı. Kənd təsərrüfatında əmək məhsuldarlığı 2 dəfədən çox artmışdı. 1965-ci illə müqayisədə 1981-ci ildə muxtar respublikada əməyin fondla təchizatı 2,6 dəfə artmış, təsərrüfatlara mineral gübrələrin verilməsi 4 dəfə, kolxoz və sovxozlarda əmək məhsuldarlığı 2,2 dəfə, heyvandarlığın ixtisaslaşdırılması və təmərküzləşdirilməsi, onun sənaye əsasında keçirilməsi üzrə mühüm işlər görülmüşdü. Bütün bunlar isə həmin dövr ərzində kənd təsərrüfatı məhsullarının istehsalının artmasına imkan yaratmışdı. Beləliklə, 1965-ci illə müqayisədə 1981-ci ildə muxtar respublikada taxıl 1,9, üzüm 4, tərəvəz və bostan məhsulları 2,7, ət 1,6, süd 2,4, yumurta 3,2 dəfə artmışdı.

1965-ci illə müqayisədə 1980-ci ildə ərzaq məhsullarının istehlakı ət və süd məhsulları üzrə 1,6 dəfə, süd və süd məhsulları üzrə 14 dəfə, yumurta üzrə 2,5 dəfə, tərəvəz və bostan məhsulları 2,6 dəfə artmışdı. Yeddinci beşilliyin orta illik göstəriciləri ilə müqayisədə 1981-ci ildə taxıl bitkilərinin məhsuldarlığı bostan məhsulları üzrə 34,9 sentner, hər inəkdən və camışdan sağım 979 litr, hər iribuynuzlu malın orta təhvil çəkisi 81 kq artmışdı. Nəticədə, kənd təsərrüfatının orta illik ümumi məhsulu 3,2 dəfə, kolxoz və sovxozların xalis gəliri 3,6 dəfə, kənd təsərrüfatında işləyən hər bir adamın orta illik əmək haqqı 2 dəfə yüksəlmişdi.

Beləliklə, araşdırmalar və aparılan elmi təhlillər belə bir nəticəyə gəlməyə imkan verir ki, 1969-cu ildən sonra Naxçıvan MR-in kənd təsərrüfatında köklü dəyişikliklər baş vermiş, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, əkinçilik və heyvandarlıq məhsullarının istehsalı və tədarükü sahələrində, kəndin sosial inkişafında nəzərəçarpacaq uğurlar əldə edilmişdi. Bu, isə öz növbəsində muxtar respublika əhalisinin həyat səviyyəsinin daha da yüksəlməsinəı kömək etmişdir.

Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin Azərbaycana

rəhbərliyinin birinci hakimiyyəti dövründə Naxçıvan Muxtar Respublikasının qazandığı nailiyyətlər keçmiş SSRİ və Azərbaycan hökuməti tərəfindən yüksək qiymətləndirilmişdir.

Muxtar respublikanın kənd əməkçiləri IX beşilliyin yekun ilində kənd təsərrüfatı məhsulları istehsalı və dövlətə satışı sahəsində əldə etdikləri nailiyyətlərə görə Ümumittifaq sosializm yarışının qalibi hesab edilmiş, Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nın və ÜİLKGİ MK-nın keçici Qırmızı bayrağına layiq görülmüşdür.

Bundan əlavə, muxtar respublikamızın kənd əməkçiləri X beşillikdə qazandıqları nailiyyətlərə görə 2 dəfə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nın və ÜİLKGİ MK-nın, 3 dəfə isə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin, AHİŞ və Azərbaycan LKGİ MK-nın keçici Qırmızı Bayrağını almışdır. Qeyd edək ki, X beşilliyin yekunlarına görə muxtar respublikanın ayrı-ayrı təsərrüfatları da yüksək dövlət mükafatları ilə təltif edilmişlər.

Ümumiyyətlə, həyata keçirilən tədbirlər Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, aqrar islahatlar sahəsində də çox dəqiq və düzgün siyasət yeritdiyini, xalqın rifahının yaxşılaşdırılması üçün böyük səy göstərdiyini bir daha təsdiqləyir.

### 2.3. Naxçıvan MR-də su təsərrüfatı və meliorasiya sisteminin inkişafı (1924-1990)

Kənd təsərrüfatının sürətli inkişafının təmin edilməsində meliorasiya və torpaqların irriqasiyası mühüm yer tuturdu. Naxçıvanda su təminatı tarixin bütün mərhələlərində demək olar ki, ciddi problemə çevrilmişdir. İqtisadi ədəbiyyatlarda kənd təsərrüfatının inkişafında suvarmanın və meliorasiyanın mühüm rol oynadığı dəfələrlə qeyd edilmişdir. Hətta əkinçi kəndlilər suvarma suyunu "torpağın ürəyi" hesab edirdilər.

Su inqilabdan əvvəl Naxçıvan qəzasında daha ciddi məsələ idi. Hələ Sovet hakimiyyəti qurulanadək hazırlanmış bir məlumatda

bu çətinlik daha dəqiq əsaslandırılır. Məlumatda göstərilir ki, Naxçıvan qəzasında su işi çətindir. Arpaçayını hesaba almasaq, qalan çaylar az suludur. Məsələn, Naxçıvan çayı 13117 desyatin suvarılan torpaqdan 8200, Cəhri çayı 2170 desyatindən 1214, Əlincə çayı 3088 desyatindən 1800 desyatin, Vənənd çayı və Gilan çayı 6957 desyatindən 5202 desyatin sahəni suvarırdısa, Arpa çayı 13103 desyatin yararlı əkin sahəsindən 12943 desyatin əkin sahəsini su ilə təchiz edirdi. Xok su dairəsi (Qarabağlar, Xok, Şahtaxtı, Qıvraq, Qabıllı və Yurdçu) 162 kəhriz və 88 çeşmə ilə hər il 3600 desyatin əkin sahəsindən ancaq 1185 desyatin sahəni suvarırdı.

Bu Naxçıvanın təbii iqlim şəraiti ilə əlaqədardır. Coğrafi vəziyyəti və təbii şəraitinə görə Naxçıvan MSSR məhdud su ehtiyatına malikdir. Muxtar respublikanın Naxçıvan çayından qərbə doğru olan hissəsində Arpaçay istisna edilərsə, demək olar ki, səth suları yox dərəcəsindədir. Şərq hissəsində isə çaylar çox olsa da (Naxçıvançay, Əlincəçay, Gilançay, Düyülünçay, Qurfuçay, Vənəndçay, Əylisçay, Qaradərəçay, Gənzəçay, Kotamçay, Kilidçay və s.) bu çayların az sulu olması üzündən kənd təsərrüfatının suya olan tələbatı tam ödənilmir. Muxtar respublikanın cənub ərazisindən axan sərhəd Araz çayının yatağı əkin sahələrindən aşağı səviyyədə yerləşdiyinə görə, onun suyundan suvarma işlərində son dərəcə az istifadə olunur. 50-ci illərin axırlarınadək əkin sahələrinin cəmi 7 faizi Araz çayının suyu ilə suvarılırdı. Bu isə Araz sahili düzənliklərini münbitləşdirmək üçün o zaman 5 sudartan nasosun qurulması sayəsində mümkün olmuşdur. Həmin dövrdə 341 kəhriz və bulaqların suyundan istifadə olunurdusa da (onlar su məsarifinin 20 faizini verməklə, 2000 hektar əkin sahəsini suvarmaq qabiliyyətinə malikdirlər), bu, suvarma işi sahəsində olan çətinlikləri aradan qaldırmırdı. Beləliklə, Azərbaycanın bütün rayonlarında olduğu kimi, Naxçıvan MR-də də kənd təsərrüfatının sürətli inkişafı mühüm su təsərrüfatı vəzifələrinin yerinə yetirilməsindən asılı idi.

Əvvəllərdə istifadəyə verilmiş Fərhadarxı, Azərbaycan, Şəngirayarxı, Arxaşan, Züvvararxı kanalları və yerli çayların mənbəyi hesab olunan Qanlıgöl, Salvatıgöl, Batabatgöl, Edilağagölü, Qazangöl və s. göllərin suyu da əkin sahələrinin suvarılmasını təmin etmirdi. Bu göllərdən çəkilən 150 iri və 13 kiçik arx çox vaxt tələb olunan qədər su axıtmırdı.

Yerli sahibkarların bir sıra suvarma tikintiləri aparmalarına baxmayaraq, suya olan ehtiyac aradan qaldırılmırdı. Məsələn, ən iri göl hesab olunan Qanlıgöl su anbarı hələ XVII əsrdə Heydərxan tərəfindən tikilmişdir. Sonralar müharibələr nəticəsində dağılmış bu anbar 1853-cü ildə Naxçıvan hakimi Kalbalıxan tərəfindən bərpa edilmiş və hasara alınmışdı. Onun o zaman böyük təsərrüfat əhəmiyyəti vardı, uzunluğu 150, eni 75, dərinliyi isə 2-4 sajina qədər idi. Həm də 40-50 min kub sajinadək sahəni tuturdu. Anbarın suyu yay zamanı indiki Şahbuz rayonunun Qarababa kəndi yaxınlığında Naxçıvançaya buraxılır və oradan da arxlara bölünürdü.

Bu arxların hamısı mühəndis layihəsi əsasında tikilmədiyi üçün tez sıradan çıxırdı. O dövrdə Naxçıvan və Şərur-Dərələyəz qəzaları üzrə 4 su mühəndisinin (1891-ci il nəzərdə tutulur) fəaliyyət göstərdiyi, habelə 1897-ci ildə Naxçıvan və Əlincədə suvarma idarələrinin açıldığı da məlum idi.

Müvafiq sahəni tənzim edən mirablar suvarma məqsədilə nəzərdə tutulmuş suyun düzgün bölüşdürülməsi qaydalarına və müxtəlif texniki üsullara riayət olunmasını təmin edə bilmirdilər. Beləliklə, nüfuzlu və himayəsi olan varlılar suyu istədikləri qədər öz torpaqlarına axıdırdılar. Yoxsullara isə belə hüquq verilməmişdi. Onların gözləri qabağında susuzluqdan əkinləri yanıb tələf olurdu. Tarixi məlumatlardan görünür ki, Naxçıvançay hövzəsində hər həyət sahibi öz növbəti su payını qonşu həyətlər tərəfindən oğurlanmaması üçün arxların başlandığı yerlərə gedərkən nəinki bel ilə, hətta xəncərlə də silahlanırdılar. Naxçıvançayda çəkilmiş magistral arxların aşağı hissəsində yerləşən kəndlər üçün su

payını qorumaq xüsusilə çətin idi. Hətta Naxçıvan qəzasının Ordubad sahəsində, Şərur-Dərələyəz qəzasında yoxsul kəndlilərin özbaşınalığı ölüm hadisələri ilə nəticələnərdi.

Ölkənin hər yerində olduğu kimi, Naxçıvanda da əkinlərin bol su ilə təmin edilməsi və bu sahədə hər cür narazılıqlara son qoyulması ancaq Sovet hakimiyyəti illərində mümkün oldu. Sovet hakimiyyətinin ilk illərindən başlayaraq Naxçıvan MSSR-in ərazisində su təsərrüfatını inkişaf etdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirildi. Mövcud suvarma sistemləri qaydaya salındı, kanallar, kəhrizlər bərpa olundu. Bütün bunlara baxmayaraq iqtisadi və texniki çətinliklərə görə iri su tikintilərinin istifadəyə verilməsi çox ləngiyirdi. Qeyd etmək lazımdır ki, 60-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikası üzrə dövlət fondunun əkinə yararlı 537037 hektar torpaq sahəsindən 64761 hektar sahəni suvarmağa imkan vardı. Lakin elə həmin il onun yalnız 4739 hektarından istifadə olunmuşdur..

Bu dövrdə Naxçıvan MR-in kolxoz və sovxozlarına 336216 hektar daimi torpaq sahəsi təhkim edilmişdi. Bunun 131741 hektarı, yaxud 99,92 faizi ictimai istifadə, 4475 hektarı, yəni 0,08 faizi isə kolxozçuların fərdi həyətyanı sahələri üçün verilmişdi. Beləliklə, bütün torpaq sahələrinin 22 faizi əkin sahələrindən, 16 faizdən çoxu isə otlaq və biçənəklərdən ibarət idi. Kənd təsərrüfatı üçün istifadə olunan toqpaqlar bütün torpaq sahəsinin 38 faizdən çoxunu təşkil edirdi.

Muxtar respublikada bütün torpaq sahəsinin 61,8 faizi əkinçilik üçün əlverişli olmayan torpaqlardan, yəni örüşlərdən ibarət idi. Onlar əsas etibarı ilə dağ və dağətəyi zonalarda yerləşirdilər.

Hesablamalar göstərir ki, muxtar respublikanın torpaq balansına görə bütün əkin sahələrinin 52,4 faizi suvarılan torpaqlar, 19,1 faizi şərti suvarılan sahələr (yəni yayın əvvəllərində su bol olanda və 28,5 faizi isə dəmiyə (suvarılması mümkün olmayan) torpaqlardır.

Əgər istifadəsi mümkün olmayan 86 min hektar sahənin

suvarılması təmin edilsəydi, qiymətli kənd təsərrüfatı bitkilərinin əkin sahəsi qat-qat artardı. Odur ki, əsas vəzifə göstərilən miqdarda və daha artıq əkin sahəsində suvarma problemini tezliklə həll etməkdən ibarət idi.

Bu məsələyə muxtar respublikada müharibədən sonrakı illərdə, xüsusən inkişaf etmiş sosializm şəraitində (1959-1980-ci illər) çox ciddi diqqət yetirilirdi. Buna görə də su ehtiyatlarının istifadəsindəki tələbat – ayrı-ayrı rayonlardakı su çatışmazlığını aradan qaldırmaq üçün yeni su anbarlarının yaradılması, sudartan nasosların qurulması, su kanalları şəbəkəsinin genişləndirilməsi, subartezian quyularının qazılması zərurətini meydana çıxarırdı.

Naxçıvan Vilayət Partiya Komitəsi 1961-ci ilin iyulunda vilayətdə suvarma işindəki çətinliklə əlaqədar Azərbaycan KP MK-ya "Naxçıvan MSSR-də su tikintisi tədbirləri haqqında" məktubla müraciət etdi. Suvarma işini yaxşılaşdırmaq məqsədilə görülmüş bir sıra tədbirlər respublikada su məsələsini tam həll etmirdi. Şahbuz rayonunda Batabat, Naxçıvan rayonunda Təzəkənd, Qahab, İliç (keçmiş Noraşen) rayonunda Qıvraq, Xok, Qarabağlar, Ordubad rayonunda Dəstə gölləri istifadəyə verilmişdir. Onların su tutumu az idi. Demək olar ki, bu göllərə hər il 13,5 milyon kubmetr su ehtiyatı toplanırdı.

Şərur rayonundakı Yuxarı sovxoz kanalının yenidən qurulması 2500 hektar sahəni su ilə təmin etmiş və 6000 hektar sahənin suvarılması işini yaxşılaşdırmışdır. Lakin on min hektarla sahələrin suvarılması üçün su ehtiyatları yaratmaq çətinlik törədirdi. Ona görə də Azərbaycan KP MK 1961-ci ilin iyulunda Naxçıvan MR-də su tikintisi işlərinə dair xüsusi məsələ müzakirə etdi.

Beləliklə, burada vilayətin kolxoz təsərrüfatının su ilə təchiz edilməsi məqsədilə bir sıra obyektlərin tikilib istifadəyə verilməsinin konkret vaxtı müəyyənləşdirildi. Qaraçuq, Nehrəm, Təzəkənd, Culfa, Böyükdüz, Yaycı və Ordubad sahələrində belə obyektlərin 1962-1964-cü illərdə tikilib başa çatdırılması planlaşdırıldı. Sədərək (Şərur rayonu) üzümçülük və Dəstə (Ordubad rayonu)

meyvəçilik sovxozunda su təchizatını yaxşılaşdırmaq üçün vəsait ayrıldı.

Azərbaycan KP MK muxtar respublikanın Y.Cabbarov (Naxçıvan rayonu), 26 Bakı komissarı, "Pravda" (Culfa rayonu), M.F.Axundov, M.İ,Kalinin, "Bir May", 26 Bakı komissarı, "Sovet", Engels, Jdanov adına (Şərur rayonu) pambıqçılıq kolxozlarına və digər kolxozlara diametri 63 millimetr olan 19 kilometr uzunluğunda təzə boruların göndərilməsi, 3 ədəd "PQ-35" markalı və 8 ədəd müxtəlif markalı nasosun, 15 nasos dəzgahının ayrılması, 20 subartezian quyusunun qazılması barədə əlaqədar nazirliklərə və idarələrə göstəriş verdi. Eyni zamanda Naxçıvan MR Nazirlər Sovetinə istifadə üçün 30 kəhrizin təmir edilməsi tapşırıldı.

Bu işdə tarla zəhmətkeşlərinə köməklik etmək "Azərneft" Birliyinə həvalə olundu. Muxtar respublikada suvarma işlərinin yaxşılaşdırılmasına göstərilən qayğı öz müsbət nəticəsini verdi. 1960-cı ildə 10 milyon kubmetr su tutumu olan Uzunoba su anbarı və Sədərək nasos stansiyası işə salındı. Böyük sovxoz kanalının məsafəsi uzadıldı. 7 milyon kubmetr su tutumu olan mövcud göllər təmir edildi və 55 kəhriz saz hala salındı. Sədərək və Dəstə sovxozlarındakı kanalların tikintisinə başlanıldı.

1964-cü il muxtar respublika üçün daha əlamətdar idi. Zəhmətkeşlər Naxçıvan MR-in yaradılmasının 40 illiyini qeyd edirdi. Bu tarixi hadisə münasibətilə Azərbaycan KP MK muxtar respublikada xalq təsərrüfatının inkişaf etdirilməsinə dair 25 fevral 1964-cü il tarixli xüsusi qərar qəbul etmişdi. Qərarda xalq təsərrüfatının başqa sahələri ilə yanaşı, muxtar respublikada əkinçilik mədəniyyətini yüksəltmək, torpaqlardan sabit məhsul götürmək və əkin sahələrini suvarılan torpaqlar hesabına genişləndirmək üçün bir sıra konkret tədbirlər də nəzərdə tutulmuşdu. Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı Nazirliyinə tapşırıldı ki, 1964-cü ilin birinci yarısınadək Vayxır və Quru arxların yenidən qurulması, Yuxarı sovxoz kanalının uzadılması məqsədilə cmeta-layihə işini başa çatdırsın. Sədərək sovxozunun irriqasi-

ya-suvarma sistemini, Ordubad, Yaycı, Culfa sahələrinin mexaniki suvarılmasını və Cəhri çayı üzərində Şeytanabad su anbarının tikintisini sürətləndirsin. Arpaçay dəryaçası tikintisinin 1965-ci ildə layihələşdirilməsinə başlanması da bu qərarla müəyyənləşdirildi. Qərarda həmçinin Böyükdüz qışlağının 16100 hektar otlağından istifadə edilməsi və mal-qaranın içməli suya olan tələbatının ödənilməsi də nəzərdə tutulurdu.

Muxtar respublika zəhmətkeşlərinin gərgin əməyi sayəsində həmin su təsərrüfatı obyektləri dalbadal istifadəyə verildi. Sədərək və Culfa nasos stansiyalarının gücü ilə 5000 hektar əkin sahəsini suvarmağa imkan yarandı. 1962-ci ildən tikintisinə başlanmış Culfa nasos stansiyasında 3 nasos işə salınmışdır. Hər nasos saatda 250 kubmetr su vurmaq gücünə malik idi. Bu 3 nasosun gücü ilə 450 hektar yeni torpaq sahəsini suvarmaq mümkün olmuşdur. 6500 hektar torpaq sahəsinin suvarılmasını təmin edə biləcək Qaraçuq, Dəstə, Yaycı nasos stansiyaları, Şərur kanalı və Nehrəm su anbarının tikintisi başa şatdırıldı. Belə su təsərrüfatı obyektlərindən ən böyüyü Nehrəm su anbarı idi. Bu anbarda 6 milyon kubmetr su ehtiyatı saxlanılması nəzərdə tutulmuşdu. O zaman bu anbar Uzunoba gölündən sonra ikinci yeri tuturdu. Hündürlüyü 16,5 metr olan bəndin uzunluğu 766 metr, eni isə 110 metr idi. Yuxarıda dediyimiz kimi bu su anbarının imkanı ilə 2500 hektar əkin sahəsi suvarıla bilirdi.

Şərur kanalı Sədərək düzündəki torpaqları su ilə təmin etməklə, Şərur rayonundakı Nizami, Dmitrov, XXII partiya qurultayı, M.Hüseynzadə adına kolxozların 500 hektar yeni torpaq sahəsinin istifadə olunmasına nəinki əlverişli şərait yaratdı, həm də 4800 hektar sahənin suvarılmasını yaxşılaşdırdı.

Ümumiyyətlə, muxtar respublikada 1959-1965-ci illər ərzində suvarma və irriqasiya cəhətdən hazırlanmış əkin sahələri 3402 hektara çatdı. Bunun da 1252 hektarı təkcə 1965-ci ildə istifadəyə verilmişdi.

İliç (Şərur) rayonunda Yuxarı sovxoz kanalının, habelə

Sədərək kanalının işə salınması yüzlərlə hektar xam torpağın kənd təsərrüfatı dövriyyəsinə verilməsini təmin etdi.

Ölkəmizin hər yerində olduğu kimi, Azərbaycanda və Naxçıvan MR-də kənd təsərrüfatı bitkilərindən yüksək və sabit məhsul götürmək üçün torpaqların meliorasiyasının genişləndirilməsinə dair Sov.İKP MK may (1966-cı il) plenumu qərarının böyük əhəmiyyəti oldu. Plenumda göstərildi ki, torpaqların meliorasiyası ölkədə kənd təsərrüfatı məhsullarının sabit istehsalını yaratmaq sahəsində əsas problemlərdən biridir. SSRİ-də kənd təsərrüfatının inkişaf etdirilməsi hökumət tərəfindən hazırlanmış və həyata keçirilməsi vacib sayılan kompleks proqramın tərkib hissəsidir.

Sov.İKP MK may (1966-cı il) plenumunda ölkədə yaxın 10 ildə 7-8 milyon hektar sahədə toqpaqların qurudulması da müəyyənləşdirdi.

Habelə Sov.İKP MK may (1966-cı il) plenumunda müəyyənləşdirilən meliorasiya proqramına yüksək qiymət verilmişdir. Plenumun materiallarında deyilir ki, bu çox böyük vəzifədir, ölkəmizdə həmin vəzifəni kənd təsərrüfatı sahəsində partiyamızın indiyədək yerinə yetirməli olduğu hər hansı mühüm bir vəzifə ilə müqayisə etməyə bütün əsaslar vardır. Eyni zamanda Azərbaycanda 5 il ərzində (1960-1965-ci illər) 50 min hektardan artıq suvarılan torpağın istifadədən çıxarılması və 148 min hektar torpaqdan istifadə edilməməsi də ciddi tənqid edilmişdir.

Bunun nəticəsində də kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı ildən-ilə aşağı düşürdü. Təkcə, 1965-ci ildə SSRİ üzrə pambığın hər hektarından alınan məhsul 23,2 sentner idisə, Azərbaycanda bu 15,6 sentnerə enmişdir.

Azərbaycanın kənd təsərrüfatında, xüsusən meliorasiya və irriqasiya sahəsində kök salmış bu nöqsanlar Naxçıvan MR-də da özünü göstərirdi.

Muxtar respublikada olan belə nöqsanların aradan qaldırılması və bu işin yüksək səviyyədə inkişafını təmin etmək üçün mühüm tədbirlərin hazırlanması Azərbaycan KP Naxçıvan Vilayət Komitə-

sinin 1966-cı ilin iyulunda keçirilmiş plenumunda günün vacib məsələsi kimi qarşıya qoyuldu. Burada bütöv muxtar respublikanın, həmçinin onun ayrı-ayrı rayonlarının, təsərrüfatlarının suvarma sahəsindəki nöqsanları, çətinlikləri və gələcək vəzifələri hərtərəfli təhlil edildi. Naxçıvan MR-də 131895 hektar əkinə yararlı torpaq vardı. 1935-ci ilin torpaq balansına görə həmin torpaqların 62734 hektarı əkin yerlərini, 7200 hektarı çoxillik bitkilər əkilən sahələri, 61961 hektarı isə təbii biçənəklər və örüşləri təşkil edirdi. Muxtar respublikada hər adam başına 0,36 hektar torpaq düşürdü ki, bu da Azərbaycan SSR-nin başqa rayonlarına nisbətən çox az idi.

1965-ci ildə muxtar respublikada 64150 hektar suvarılan torpaq sahəsi olmuşdur. Bundan 54665 hektarı irriqasiya cəhətcə hazırlanmış sulu torpaqlardır. Deməli, göstərilən miqdarda əkin sahəsinin hamısından istifadə edilə bilərdi. Lakin bunun ancaq 50121 hektarı mənimsənilmişdir, 4544 hektar sahə isə əkilməmiş qalmışdır. Bu zaman Culfa rayonunda 4891 hektar suvarılan torpağın 1218 hektarı və ya 25 faizi, Şahbuz rayonunda 4156 hektar suvarılan torpağın 1635 hektarı, yaxud 39 faizi, Naxçıvan rayonunda 18885 hektar suvarılan torpağın 1490 hektarı, yəni 8 faizi kənd təsərrüfatı bitkilərinin əkini üçün istifadə edilmişdir.

İliç (Şərur) rayonunun əsas təsərrüfatlarında bu vəziyyət daha dözülməz idi. 1965-ci ildə burada olan 26367 sulu torpağın 20491 hektarı, 1966-cı ildə isə 20729 hektarı becərilmişdir. Beləliklə, rayonda suvarma və irriqasiya işləri görülmədiyinə görə hər il 5500 hektar torpaq sahəsi əkilmirdi.

Ümumiyyətlə, Naxçıvan rayonunda suvarma və irriqasiya nöqteyi-nəzərincə hazırlanmış 23206 hektar sahənin su qıtlığına görə, yalnız 17407 hektarında əkin aparılırdı.

Vilayət partiya təşkilatının plenumu suvarma və irriqasiya işlərindəki nöqsanları aradan qaldırmağın əməli yollarını göstərməklə bərabər, növbəti 8-ci beşillikdə bu sahədə vəzifələri də müəyyənləşdirdi. 1966-70-ci illərdə muxtar respublikada suvarma

və irriqasiya işlərinə 26,0 milyon manat vəsait ayrılmışdı. Bu vəsait hesabına 9100 hektar sahədə meliorasiya işlərinin aparılması, 3970 hektar yeni torpaq sahəsinin kənd təsərrüfatı dövriyyəsinə verilməsi və 23700 hektar torpağın suvarılmasının yaxşılaşdırılması planlaşdırılmışdı. Yəni muxtar respublikanın hər bir təsərrüfatında torpaqların münbitliyini və məhsuldarlığını bilavasitə artırmağa yönəldilmiş kompleks tədbirlər işlənib hazırlanmışdı. Beləliklə, beş il ərzində Naxçıvançay suvarma sisteminin yenidən qurulması, Şərur kanalı zonasında 5100 hektar, Qaraçuq stansiyası yaxınlığında 6400 hektar torpaq sahəsində meliorasiya işlərinin aparılması, Arpaçay üzərində 150 milyon kubmetr həcmində su anbarının, Culfa və Yaycı düzündə suvarma şəbəkəsinin tikilməsi, Sədərək sovxozunda 1,2,3-cü sudartan stansiya kanallarının tam betonlaşdırılması, Şərur su kanalı çəkilişinin başa çatdırılması, Böyükdüz su tikintisində əlavə əsaslı işlərin görülməsi və s. nəzərdə tutuldu.

Sov.İKP MK-nın may (1966-cı il) plenumundan sonra keçən 4-5 il ərzində muxtar respublikada bir çox suvarma şəbəkələri tikilib istifadəyə verildi. 1969-cu ilin yayınadək burada 7830 hektar əkin sahəsində su təminatı yaxşılaşdırıldı. 2330 hektar yeni torpaq əkin dövriyyəsinə daxil edildi və 54 km uzunluğunda kanallar çəkildi. O cümlədən İliç (Şərur) rayonunda qurulmuş 1,2,3 №-li Sədərək və Şərur nasos stansiyalarının qüvvəsi ilə 7100 hektar sahədə torpaqların suvarma vəziyyəti yüksəldildi. Naxçıvan rayonunda tikilmiş bir sıra suvarma obyektləri, xüsusən Nehrəm su anbarı bu rayonda 13680 hektar əkin sahəsinin su ilə təmin etməyə imkan yaratdı.

Burada "Azərbaycan" kolxozunun əkin sahələrini suvarmaq məqsədilə Vayxırdakı su qəbuledici qurğuda işlər başa çatdırıldı. Qurğunun işə salınması nəticəsində həmin kolxozların 1550 hektar əkin sahəsinə su verildi. Əkin sahələri Araz dəryaçasının altında qalan kəndləri (Təzəkənd, Yemxana, Qaraçuq, Bulqan, Böyükdüz) yeni əkin sahələri ilə təmin etmək məqsədilə Araz

çayı üzərində üzən nasos stansiyasının birinci növbəsi işə salındı. Yeri gəlmişkən göstərmək lazımdır ki, köçürülən bu kəndlərin əhalisi üçün 226 ev tikilmişdi. Sonralar bunların ümumi sayı 755-ə çatdırıldı. Ümumiyyətlə, 1967-1970-ci illərdə Bulqan və Qaraçuq kəndlərindən 390 ailə Qaraxanbəyli kəndinə, Yemxana və Təzəkənd kəndlərindən 298 ailə Qoşadizə - Kommunizm kolxozuna köçürüldü.

Böyükdüz kəndindən 58 ailə isə Kommunizm kolxozuna yaxın olan dövlət fondu torpaqlarında həyətyanı sahə ilə təmin edildi. Təkcə 1 və 2 nömrəli Qaraçuq nasos stansiyalarının suvarma şəbəkəsində işlər başa çatdıqdan sonra Naxçıvan rayonunun Y.Cabbarov, Kommunizm və Naxçıvan MSSR-nin 40 illiyi kolxozların 3000 hektardan artıq torpaq sahəsinin suvarılması yaxşılaşdırıldı, 1600 hektar xam torpaq su ilə təmin edildi. Culfa və Ordubad rayonlarında da torpaqların kifayət qədər su ilə təchiz olunması üçün bir çox suvarma kanalları çəkilmiş və sudartan nasos stansiyaları işə salınmışdır. Culfa rayonunun H.Cavid adına sovxozunda istifadəsiz qalmış "Cuxa düzü"nün 300 hektarlıq sahəsinə su çıxarıldı.

Ordubad rayonunun Dəstə kəndindən keçən yolun sağ və sol sahilində "Əylis düzü" adlanan 1500 hektarlıq susuz düzənlik diqqəti cəlb edir. Əsrlər boyu əylislilər bu düzə su verilməsi arzusunda olmuşlar. Sudartan nasosların gücü ilə sonradan ora su verilmişdir. Bütün bu nailiyyətlər hökumətin meliorasiya və irriqasiya işlərinə səxavətlə vəsait ayırması ilə bağlı idi. Göstərilən dövrdə (1966-1970-ci illər) muxtar respublikanın suvarma obyektlərinin tikintisi üçün ayrılmış vəsaitdən on milyonlarla manat xərclənmişdir. Yeni suvarma şəbəkələrinin düzəldilməsi nəticəsində muxtar respublikanın 5000 hektar yeni suvarılan torpaq sahəsi kənd əməkçilərinin istifadəsinə verilmişdir. Bundan başqa 20 min hektar sahədə torpaqların meliorasiya vəziyyəti xeyli yaxşılaşdırılmışdır. Yuxarıda göstərilən müddətdə muxtar respublika ərazisində 119 subartezian quyusu qazılmışdır. Bu zaman Naxçıvan

rayonunun Y.Cabbarov, Şərur rayonunun Nizami, Jdanov və Nərimanov adına, Culfa rayonunun Ü.Hacıbəyov və C.Cabbarlı adına kolxozlarında subartezian quyularından daha səmərəli istifadə edilirdi.

Ümumiyyətlə, həmin müddətdə muxtar respublikada 100 kilometrlərlə uzanan suvarma kanalları, saniyədə 17 kubmetrə qədər su verə bilən 10 nasos stansiyası, 30 milyon kubmetrə qədər sututumu olan 24 su anbarı və ayrı-ayrı kanallar üzərində 500-dən artıq hidrotexniki qurğular, 120 subartezian quyusu işə salındı. Bütün bu tədbirlər öz bəhrəsini verdi. Suvarılan torpaqlarda məhsuldarlıq 1962-65-ci illərə nisbətən 1966-76-cı illərdə pambıq üzrə 5,11 faiz, taxıl üzrə 33 faiz, tütün üzrə 15,2 faiz, üzüm üzrə 17,1 faiz artırıldı.

Bu dövrdə torpaqların qurudulması da vacib məsələ kimi qarşıya qoyulmuşdu. Azərbaycanda eroziyaya uğrayan torpaqların sahəsi 160 min hektar idi ki, bunun da bir qismi Naxçıvan MR-nın payına düşürdü. Bundan başqa, İliç və Naxçıvan rayonlarında torpaqların şoranlaşması prosesi də davam edirdi. Bunun qarşısını almaq üçün bir sıra tədbirlər görüldü. Kolxoz və sovxozlarda 2150 hektar sahəni daşqın və sel sularından müdafiə etmək üçün bəndlər tikildi, 50 hektar sahədə tarla qoruyucu meşə zolaqları salındı.

Torpaqların meliorasiyasına dair kompleks proqramın həyata keçirilməsi uğrunda mübarizə 70-ci illərdə, yəni IX və X beşilliklər dövründə daha geniş vüsət aldı. Ölkəmizin milyon yarımlıq meliorator ordusu son 14 il ərzində (1964-1980-ci illər) 20 milyon hektar yeni torpağı kənd təsərrüfatı dövriyyəsinə daxil etdi. Bunun 16 milyon hektarı X beşillikdə yerinə yetirilmişdir.

70-ci illərdə Azərbaycanda meliorasiya və irriqasiyanın inkişafı sahəsində sözün əsl mənasında, görünməmiş zirvələr fəth edildi. Bu illər quruculuq işlərinin vüsətinə görə respublikanın salnaməsində görkəmli yer tutur.

Naxçıvanda su təminatı ciddi problemə çevrilmişdi. Bu

məsələnin həlli üçün sovet hakimiyyətinin əvvəlki illərində bir sıra işlər görülsə də, yalnız Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu istiqamətdə ciddi dönüş yarandı. Azərbaycan KP MK və Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvan MR-də meliorasiya və irriqasiya sahəsində bir sıra işlərin, o cümlədən Naxçıvan şəhərindəki 6 kilometrlik Bazarçay kanalının betonlaşdırılması, Şahbuz rayonunun suvarılan torpaqlarının su təminatını yaxşılaşdırmaq üçün Durnalı, Ağbulaq, Qeyçi-Gözəl su tutarlarının tikintisi, Şərur və Babək rayonlarının bəzi kolxoz və sovxozlarının şoranlaşmış torpaqlarının meliorasiyası, Sirab su anbarının tikintisi və s. işlərin görülməsi nəzərdə tutulmuşdur.

Göstərilən dövrdə su təsərrüfatı qurğularının tikintisinə kapital qoyuluşu əhəmiyyətli dərəcədə artmışdı. Təkcə IX beşillikdə Naxçıvan MR-in probleminin həlli üçün 66 milyon manat vəsait sərf olunmuşdu. 1971-1980-ci ilində bu məqsədlə ayrılmış vəsait xeyli artmış və bu sahəyə 119 milyon manat kapital qoyulmuşdu. IX və X beşilliklərdə 60-cı illərə nisbətən su təsərrüfat qurğularının tikintisi 7 dəfə artmışdı. 70-ci illərdə 1,35 milyard kubmetr həcmə malik Araz, 150 milyon kubmetrlik Arpaçay və 12,7 milyon kubmetrlik Sirab su anbarı istismara verildi. Nurs (Nursu), Bənəniyar su tutarları tikildi. Eyni zamanda kiçik suvarma qurğularının tikintisi də genişləndirildi. 1980-ci ildə muxtar respublikada 22 su anbarı var idi. Araşdırmalardan məlum olur ki, 1971-1980-ci illərdə 4863 hektar suvarılan torpaq sahəsi istifadəyə verildi. Həmin dövrdə həmçinin 40575 hektar suvarılan torpağın meliorasiya və su təminatı yaxşılaşdırılmış, 636 hektar torpaq sahəsində əsaslı yuma aparılmış, 6838 hektar torpağın səthi hamarlaşdırılmışdır. Arpaçay su tikintisinin 1975-ci ildə istifadəyə verilməsi 46 min hektar əkin sahəsinin suvarılmasına, 2 min hektara yaxın yeni suvarılan torpaq sahəsinin dövriyyəyə buraxılmasına imkan yaratdı ki, bu da yenə Heydər Əliyevin səyləri və nəzarəti ilə həyata keçirilmişdir. O dövrün ən böyük su tikintisindən olan

Arpaçay su anbarının tikintisinə Heydər Əliyev çox böyük diqqət yetirmişdir.

Ümumiyyətlə, 1971-1980-ci illər ərzində təqribən 90 min hektar yeni suvarılan torpaq, 313 min hektar meliorasiya cəhətdən yaxşılaşdırılmış torpaq, 375 min hektar əsaslı surətdə hamarlanmış torpaq və 180 min hektar əsaslı surətdə yuyulmuş torpaq, 460 min hektar su çıxarılmış otlaq kənd təsərrüfatı dövriyyəsinə daxil edilmiş, 743 min hektar sahədə suvarma sistemləri yenidən qurulmuş və onların su təminatı artırılmışdır. Bu müddət ərzində 18 min kilometr uzunluğunda magistral kanallar və suvarma şəbəkələri çəkilmiş, 14 min kilometr kollektor-drenaj şəbəkəsi, 310 nasos stansiyası tikilmiş, 4 min subartezian quyusu qazılmışdır. Ümumiyyətlə, təqribən 2,8 milyard kubmetrlik dəryaçalar yaradılmışdır ki, bu da respublika dəryaçalarının ümumi tutumunun 15 faizini təşkil edir, o cümlədən tutumu 60 milyon kubmetr olan 200-dən artıq kiçik suvarma obyektləri tikilmişdir.

Azərbaycanda xalq təsərrüfatının bütün sahələri coşqun inkişaf etdiyi kimi, meliorasiya və irriqasiya sahəsində də böyük nailiyyətlər qazanılmışdır. IX və X beşilliklər Naxçıvan MR-də da suvarma təsərrüfatının yüksək zirvəyə çatdığı, nəhəng suvarma qurğularının, dəryaçalarının istifadəyə verildiyi beşilliklər kimi daha əlamətdardır.

Muxtar respublikanın su təsərrüfatı tikintilərindən söz açarkən, Araz su qovşağı tikintisi haqqında ayrıca danışmaq lazımdır. Bu obyekt keçmiş SSRİ ilə İran arasında iqtisadi və texnuki əməkdaşlıq barəsində 27 iyul 1963-cü il tarixli sazişə uyğun olaraq tikilirdi. Həmin su qovşağı hər iki ölkəyə 60 min hektardan çox xam torpaqlardan istifadə etməyə imkan verdi. Arazın qarşısını hündürlüyü 40 metr və uzunluğu 1000 metr olan torpaq bənd kəsir. 42 min kilovatt elektrik enerjisi gücünə malik olan iki hidroelektrik stansiyası (biri İran, o biri Naxçıvan MR üçün işləyir) quraşdırılmışdır. Bir milyard 350 milyon kubmetr su tutumu olan dəryaça öz həcmi etibarı ilə Azərbaycanda Mingəçevir gölündən sonra

ikinci yeri tutur. Onun tikintisinə 1966-cı ildə başlanılmışdır. Mərmər lövhə üzərində yazıldığı kimi "Arazda dostluq tikintisinin bəndinə ilk beton 1967-ci il dekabrın 10-da döşənmişdir. Araz su qovşağının rəsmi açılışı isə 1971-ci il iyun ayının 28-də olmuşdur".

Bu iki qonşu ölkə arasında səmərəli əməkdaşlığın parlaq nümunəsi idi. Burada 14 millətin nümayəndəsi çiyin-çiyinə çalışırdı. Qovşağın inşası muxtar respublikada suvarma işlərini bir qədər yaxşılaşdırdı. Xalq təsərrüfatının elektrik enerjisinə olan tələbatını tam ödədi. O, istifadəyə verildikdən sonra burada olan işçi qüvvəsi və texnika büsbütün Arpaçayın üzərindəki dəryaçanın tikintisinə köçürüldü. Dəryaçanın tikintisi ilə əlaqədar bir sıra tədbirlər həyata keçirildi. Obyektin tikintisi zamanı su altında qalası kəndlərin (Danzik və Cağazir) köçürülməsi planlaşdırıldı. Naxçıvan MR Nazirlər Sovetinin qərarı ilə (12 dekabr 1969-cu il) həmin kəndlər "Naxçıvan MSSR-nin 40 illiyi" covxozu ərazisində yerləşdirildi. 130 ailənin ev tikməsi üçün lazımi qədər tikinti materiallarının verilməsi nəzərdə tutuldu. Həmin kəndləri əkin sahələri ilə təmin etmək məqsədilə sudartan nasoslar vasitəsilə "Naxçıvan MR-nın 40 illiyi" sovxozunun 800 hektar, Səməd Vurğun adına sovxozun isə 200 hektar əkin sahəsinə su çıxarılması qərara alındı.

Lakin bütün bu tədbirlərə baxmayaraq, muxtar respublikada suvarma işi hələ tam təmin edilməmişdi. Burada nəhəng suvarma qurğularının tikintisinə ehtiyac vardı. Elə bunu göstərmək kifayətdir ki, 1968-ci ildə su çatışmazlığı üzündən 3377 hektar əkin sahəsindən istifadə edilməmişdir. Bunu nəzərə alaraq Naxçıvan-Şərur şosse yolunun 80 kilimetrliyində, yəni Arpaçayın yuxarı axınında, dörd tərəfdən dağlarla əhatə olunmuş "Dəvə ölən" deyilən yerdə bənd tikilməsi qərara alınmışdır. Buraya ilk fəhlə dəstələri 1969-cu ilin mart ayında gəlmişdir. Onlar bu nəhəng tikintinin özülünü qoydular. Lakin Arpaçayda əsas inşaat işləri bir il sonra – 1970-ci ildə başlanıldı və həmin vaxtdan

Arpaçay dəryaçası tikintisi Ümumittifaq zərbəçi tikintisi elan edildi. 1972-ci ilin oktyabr ayında Azərbaycan LKGİ MK-da bu tikintini zərbəçi komsomol tikintisi adlandırdı. Burada getdikcə iş qızışırdı. SSRİ-nin hər yerindən buraya külli miqdarda texnika, işçi qüvvəsi və başqa tikinti vasitələri gətirildi. Ona görə ki, yerli qüvvə ilə bu nəhəng tikintini başa çatdırmaq çətin olardı. Bəndin eni və uzunluğu 500 metr, hündürlüyü isə 66 metrdir. Axı dəryaçanın su tutumu yuxarıda deyildiyi kimi 150 milyon kubmetr, uzunluğu isə 11 kilimetrdir. Bu nəhəng tikintiyə dövlət tərəfindən 5,6 milyon manat pul xərclənmişdir. Dəryaça İliç və Babək rayonlarının 45 min hektar dəmyə torpağını cana gətirəcəkdir. İlk növbədə çəkilmiş 22 kilometrlik kanal vasitəsi ilə İliç rayonunun torpaqları, sonra isə 52 kilimetrlik kanal vasitəsi ilə Babək rayonunun ilan mələyən Böyükdüz çölləri suvarılacaqdır. Burada üzüm plantasiyaları və meyvə bağlarından alınan gəlir qoyulan xərci qat-qat çıxaracaqdır.

Arpaçay tikintisi plana görə IX beşilliyin axırında, 1975-ci ildə istifadəyə verilməli idi. Lakin bir çox çətinliklərə məruz qalan inşaatçılar tikintini X beşillikdə (1979-cu ilin may ayında) təhvil verdilər.

Arpaçay Ümumittifaq zərbəçi komsomol tikintisinə ölkənin hər yerindən ardı-arası kəsilmədən müxtəlif maşın hissələri, tikinti materialları göndərilirdi. Belorusiyadan "Bel-Az" maşınları, Voronej, Barnaul, Novosibirck, Leninqrad, Kiyev şəhərlərindən traktor, buldozer, ekskavator və başqa yol tikintisi maşınlarının ehtiyat hissələri və aqreqatları gətirilirdi. Krivoy-Roq şəhərində hazırlanmış armaturlar, Murmansk, Verxoyanck şəhərlərindən göndərilən meşə materialları Arpaçay tikintisini sürətləndirdi. Araz su tikintisində olduğu kimi, Arpaçay dəryaçasının tikintisində çalışanlar beynəlmiləl bir kollektivdə birləşmişdilər. Burada 25 millət və xalqın nümayəndəsi mehribancasına işləyirdilər.

Muxtar respublikada IX beşillik ərzində Arpaçay dəryaçası istifadəyə verilə bilmədisə də, su təsərrüfatı sahəsində bir sıra

başqa işlər yerinə yetirildi. Yeni beşillikdə suvarma və meliorasiya işlərinə cəmi 49,9 milyon manat sərf edildi. Bu vəsait hesabına IX beşillikdə muxtar respublika üzrə 2500 hektar yeni torpaq sahəsi istifadəyə verildi. 1100 hektar əkin sahəsində suvarma işi yaxşılaşdırıldı. Şərur rayonunda Səməd Vurğun və Əzizbəyov adına tütünçülük sovxozlarının ərazisində qurulmuş nasos stansiyaları 1200 hektar sahənin əkilməsinə imkan yaratdı. Həmçinin bu rayona məxsus olan "SSRİ-nin 50 illiyi", Kirov adına kolxozların və 3 №-li tütünçülük sovxozunun ərazisində də geniş meliorasiya tədbirləri həyata keçirildi.

Babək rayonunun 1000 hektar sahəsinə su verən Cəhri nasos stansiyaları işə salındı. Bundan sonra Lenin və Nərimanov adına sovxozların sahələrində həmin nasoslardan istifadə etmək üçün lazımi işlər görüldü.

Ordubad rayonunda "Naxçıvan MSSR-nin 40 illiyi" və Ordubadi adına kolxozların 1000 hektar sahəsini su ilə təmin edən nasos stansiyasının tikintisi başa çatdırıldı.

IX beşillikdə dövlətin əsaslı vəsaiti hesabına görülən tədbirlərlə yanaşı, kolxoz və sovxozlar öz vəsaitləri hesabına da xeyli işlər gördülər. Babək rayonunda Lenin, N.Nərimanov və Kommunizm adına, Şərur rayonunda M.Qorki, Dmitrov adına, Culfa rayonunda Ü.Hacıbəyov adına kolxozlar, o cümlədən Kalinin və S.Vurğun adına sovxozlar təsərrüfatdaxili nasos qurğuları yaradıb, su anbarları tikdilər. Bunun nəticəsində isə onların təsərrüfatlarında sahələrin suvarılması işi yaxşılaşdırıldı, əkin dövriyyəsinə yeni torpaq sahələri daxil edildi.

Bundan başqa IX beşillikdə torpaqların eroziyaya uğramaması məqsədilə 196 hektar sahədə meşə zolaqları salınmış, 2500 hektar əkin sahəsinin sel sularından müdafiəsi üçün bəndlər çəkilmiş, 10 min hektar sahədə külək və su erroziyasına qarşı lazımi tədbirlər həyata keçirilmişdir. Eyni zamanda 300 hektar suvarılan mədəni otlaq sahələri yaradıldı. Ümumiyyətlə, suvarma şəbəkəsinin getdikcə genişləndirilməsi nəticəsində IX beşillikdə

VIII beşilliyə nisbətən taxıl istehsalı 8850 ton, tütün istehsalı 8500 ton, meyvə istehsalı 1250 ton, üzüm istehsalı 25 min ton artırılmışdır.

Onu da qeyd etməliyik ki, əgər IX beşillik dövründə suvarma və meliorasiya qurğuları tikintisinə ayrılmış vəsaitdən tam istifadə edilib, nəzərdə tutulan su obyektləri işə salınsaydı kənd təsərrüfatı məhsulları daha artıq olardı. Belə ki, IX beşillikdə bu məqsəd üçün ayrılmış əsaslı vəsaitdən 14 milyon manata qədər xərclənmişdir ki, bunun da 11,4 milyon manatdan çoxu Arpaçay su tikintisinin payına düşürdü.

Beşillik ərzində 9300 hektar əvəzinə 6435 hektar suvarılan torpaq meliorasiya cəhətdən yaxşılaşdırılmış, 1368 hektar sahədə torpaqlar əsaslı surətdə hamarlanmışdır.

Yuxarıda deyildiyi Arpaçay su anbarının, Qaraçuq nasos stansiyasının, Ordubad düzənliyindəki su qurğuları obyektlərinin istifadəyə verilməsi sonrakı beşilliyə keçirildi. Bunu da göstərmək lazımdır ki, IX beşillikdə 28 suvarma və meliorasiya tikintisindən yalnız 12-si vaxtında istismara buraxılmışdı.

Onuncu beşillikdə muxtar respublikanın su qurğuları tikintisi üçün 120 milyon manat vəsait ayrılmışdı. Beşillik ərzində Arpaçay su anbarı tikintisinin, onun sağ və sol sahil kanallarının başa çatdırılması, Sirab, Bənəniyar, Vayxır su anbarlarının tikilməsi, Əlincəçay suvarma sisteminin yenidən qurulması və bir sıra başqa irriqasiya-meliorasiya tədbirlərinin həyata keçirilməsi planlaşdırıldı. Bütün bunlar muxtar respublikada əlavə olaraq 5800 hektar yeni torpaq sahəsini suvarmağa, 48500 hektar sahənin su təminatını yaxşılaşdırmağa imkan verməli idi.

X beşillikdə inşa olunan obyektlərdən biri də Sirab gölünün tikintisi idi. Babək rayonunun ərazisindən axan Naxçıvançay üzərində tikilən Sirab gölü suvarma obyektinin başa çatdırılması üçün 9,9 milyon manat vəsait ayrılmışdı. Gölün su tutumu 12,7 milyon kubmetrdir. Onun anbarı 22 metr dərinlikdə olub, 154 hektar sahəni əhatə edir. 1979-cu ilin yazından başlayaraq bu

anbara 3,5 milyon kubmetr su doldurulurdu. İlin axırına qədər anbara axıdılan suyun miqdarı 5,5 milyon kubmetrə çatdı. Beləliklə, Sirab su anbarı istifadəyə verildi. Bu göldən axıdılan su "Naxçıvan" üzümçülük sovxozunun, N.Nərimanov adına kolxozun, Orconikidze adına sovxozun 2266 hektar əkin sahəsində suvarma işlərinin keyfiyyətini daha da yüksəltmişdir.

1980-ci ilin aprel ayında Culfa rayonunun Bənəniyar kəndi yanında "Göl yeri" adlanan sahədə Bənəniyar su anbarının tikintisinə başlanıldı. Bu iş Naxçıvan meliorasiya və su qurğuları tikintisi trestinin 10 №-li tikinti-quraşdırma idarəsinin kollektivinə tapşırılmışdı. Kollektiv Sirab gölünün tikintisini təhvil verdikdən sonra, Bənəniyarda işə başladı. Onun inşası 1984-cü ildə başa çatdırılmışdır. Bənəniyar su anbarının smeta dəyəri 19 milyon manatdır, su tutumu isə 15,7 milyon kubmetrdir. O, istifadəyə verildikdən sonra, qonşu Babək rayonunda "Kommunizm" sovxozunun malik olduğu torpaqların bir hissəsində və Culfa rayonundakı Lenin, H.Cavid, C.Cabbarlı adına sovxozların 2000 hektar sahəsində suvarma işləri yaxşılaşdırılmışdır.

Babək rayonunun Vayxır kəndi yaxınlığında – Naxçıvançay üzərində 94 milyon kubmetr su tutumuna malik olan Vayxır su anbarı tikilib. Bu obyekt 1985-ci ildə istifadəyə verilmişdir. Vayxır su anbarı hazır olduqdan sonra, Babək rayonunda 6300 hektar torpaq əkin dövriyyəsinə daxil edilib, 7600 hektar sahənin suvarma vəziyyəti müasir dövrün tələblərinə cavab verir, 22 min hektara yaxın sahə su ilə tam təmin olunmuşdur. Muxtar respublikada ikinci böyük dəryaça hesab olunan Vayxır dəryaçası həmçinin Babək, Şahbuz və Culfa rayonlarının 18 min hektar əkin sahəsində suvarma işlərinin mədəniyyətini daha da yüksəltmişdir. Onun tikintisinə 91 milyon manata qədər vəsait sərf edilmişdir.

X beşilliyin axırlarında istifadəyə verilən Arpaçay dəryaçasında 1979-cu ilin yazında 56 milyon kubmetr, 1980-ci ilin yanvarında isə 100 milyon kubmetr su toplanıldı. Lakin Arpaçay suvarma

sisteminin ikinci növbəsinin işə salınması muxtar respublikanın əkinçiliyində xüsusilə böyük perspektivlər açmışdır. Burada sağ və sol sahil kanalları başa çatan kimi İliç rayonunda suvarılan torpaqların sahəsi daha da genişlənmişdir. Beləliklə, 1985-1990-cı illərə qədər Arpaçay dəryaçasının suyu İliç rayonunun Qıvraq kəndindən keçib, Babək rayonunun Əznəbürd kəndi ətrafındakı torpaqlara və Böyükdüzə axıdılmalı idi.

X beşillik ərzində (1976-1980-ci illər) Arpaçay və Sirab su anbarlarının, bununla yanaşı kiçik suvarma qurğularının (5,5 milyon kubmetr su tutumu olan 8 ədəd su anbarının) tikilməsi nəticəsində muxtar respublikada dövlət hesabına 3303 hektar torpaq suvarıldı. Eyni zamanda 33896 hektar əkilən sahənin su təchizatı, 3789 hektar sahənin isə meliorasiya vəziyyəti yaxşılaşdırıldı. Bu beşillikdə kiçik su tutumlarından istifadə edilməsi haqqında Azərbaycan SSR Nazirlər Sovetinin qərarını rəhbər tutaraq, muxtar respublikanın kolxoz və sovxozlarında müvafiq məsələ ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilmişdir. Beşilliyin axırıncı ilində Babək rayonunda Q.Əkbərov adına sovxozun ərazisində 1 №-li Cəhri su anbarı inşa edilmişdir ki, bu da 800 min kubmetr su saxlama qabiliyyətinə malikdir. Ordubad rayonunda N.Nərimanov adına sovxozda həcmi 500 min kubmetr olan "Cənnab" su anbarı, Culfa rayonunda C.Cabbarlı adına sovxozda həcmi 60 min kubmetr olan "Şurut" su anbarı tikilib istifadəyə verilmişdir. Bunlardan başqa 2 №-li Dəstə, Culfa və s. nasos stansiyaları ətrafında kiçik suvarma obyektləri də təhvil verilmişdir. Qeyd etmək lazımdır ki, X beşillikdə muxtar respublika üzrə dövlətə taxıl satışı 2 dəfə, üzüm satışı 125,8 faiz, meyvə satışı 105,2 faiz, bostan məhsulları satışı 184 faiz, tərəvəz satışı 109 faiz, ət satışı 104 faiz, yun satışı 108 faiz yerinə yetirilmiş və tütün satışı planı da ödənilmişdir.

70-ci illərdə Naxçıvanda su təsərrüfatı qurğuları tikintisi 60-cı illərə nisbətən 7 dəfədən çox artmışdır. Burada kənd təsərrüfatı istehsalını intensiv surətdə yüksəltməyin həlledici amili olan su

təsərrüfatının daha geniş miqyasda inkişafı qarşıda dururdu.

Naxçıvanda 70-ci illərdə su təsərrüfatı qurğuları tikintisi 60-cı illərə nisbətən 7 dəfədən çox artmışdır. Lakin kənd təsərrüfatı istehsalını yüksək inkişaf etdirmək əsas problemlərdən biri idi. 1975-ci ildə Naxçıvan meliorasiya və su tikinti tresti təşkil edildi. 1979-cu ilin noyabr ayının 16-da isə Naxçıvan MSSR su təsərrüfatı idarəsi əsasında Naxçıvan MSSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyi yarandı.

80-ci illərin əvvəllərində muxtar respublikada kənd təsərrüfatına yararlı 140 min 902 hektar torpaq sahəsi olmuşdur ki, bunun da 50 min 802 hektarı suvarılırdı. Deməli, 90 min hektaradək əkinə yararlı sahədən hələlik su yoxluğu üzündən istifadə olunmur.

Bu baxımdan XI beşillikdə böyük suvarma obyektlərinin tikintisi nəzərdə tutulub. Ölkəmizin hər yerində olduğu kimi, XI beşilliyin əsas istiqamətlərində Azərbaycan və Naxçıvan MR-də də su təsərrüfatı qurğuları tikintisinə geniş yer verilmişdir. Sov.İKP XXVI qurultayında göstərilmişdir ki, ərzaq proqramının əsasını kənd təsərrüfatının daha da yüksəldilməsi, onun səmərəliliyinin artırılması təşkil edir. Qurultayda partiyanın aqrar siyasətinin 1960-cı illərdə qəbul edilmiş istiqamət üzrə yerinə yetirilməsi, kəndə çoxlu maliyyə ehtiyatı və maddi ehtiyat ayrılması, bu sahənin planauyğun surətdə sənaye təməli üzərinə keçirilməsi irəli sürülmüşdür.

Bu qayğı sahəsində XI beşillikdə Azərbaycan Respublikasının melioratorları 1,2 milyard manatlıq əsaslı vəsait sərf etməlidirlər. Onun hesabına 29 iri su təsərrüfatı obyektinin, o cümlədən 15 dəryaçanın layihə və tikintisinin, texniki-iqtisadi əsaslarının işlənilib hazırlanması planlaşdırılmışdır. Ümumi su tutmu 1,5 milyard kubmetr olan 5 dəryaça elə cari beşillikdə təhvil verilmişdi. Beşillik ərzində 80 min hektar yenidən suvarılmış, 90 min hektar isə meliorasiya cəhətdən yaxşılaşdırılmış torpaq istifadə üçün nəzərdə tutulmuşdur.

1980-1981-ci illərdə muxtar respublikada su təsərrüfatı

obyektlərinin tikintisi xeyli genişləndirilmişdir. Bu məqsədlə 120 milyon manat və ya X beşillikdəkindən 2 dəfə çox əsaslı vəsait ayrılmışdır. 1981-90-cı illərdə Naxçıvan MSSR-də yeni torpaqlarının suivarılmasına etibarlı təminat yaratmaq üçün Bənəniyar, Vayxır və Cəhri gölləri kimi iri həcmli su anbarları tikilmişdir. Həmçinin suvarma-drenaj şəbəkəsinin yenidən qurulması layihələşdirilmişdir. XI beşillikdə isə 2 №-li Cəhri, Yurdçu, Yaycı kiçik su anbarlarının, Babək rayonunda Məzirə sututarının, Nehrəm nasos stansiyasının inşası başa çatdırılmışdır. Bundan başqa, Naxçıvan tingçilik sovxozunu su ilə təchiz etmək üçün Naxçıvan çayı üzərində saatda 360 kubmetr su vuran nasos stansiyası quraşdırılıb, Ordubad rayonunun Dəstə kəndində nasos stansiyasının gücünün artırılması üçün müvafiq tədbirlər görülübdür.

Bütün bunların nəticəsində də XI beşillikdə üzümçülüyün inkişafı üçün 6300 hektar suvarılan torpaq sahəsi istifadəyə verilmiş, 7600 hektar suvarılan torpağın meliorasiya vəziyyəti yaxşılaşdırılmış, 22 min hektar sahədə suvarma sistemləri yenidən qurulmuş və su təchizatı qaydaya salınmışdır, o cümlədən 17700 hektar torpaq sahəsində hamarlanma işləri həyata keçirilmişdir.

Muxtar respublikanın tarla əməkçiləri XI beşillikdə daha mühüm və şərəfli vəzifələr yerinə yetirmişlər. Onlar bu beşillikdə taxılın məhsuldarlığını ən azı 30 sentnerə, üzümün məhsuldarlığını 150 sentnerə, meyvəni 30 sentnerə, bostan məhsullarını 110 sentnerə çatdırmışdılar. Bu isə bol su ehtiyatlarından çox asılıdır. Bol su ehtiyatı yaratmaq isə çətin, uzunmüddətli bir işdir. O, kənd təsərrüfatı sahəsində böyük səy, çoxlu vəsait qoyuluşu və maddi-texniki vəsait tələb edən bir proqramdır.

Bu proqramı müvəffəqiyyətlə yerinə yetirmək üçün partiyanın XXVI qurultayı qərarlarını rəhbər tutaraq Sov.İKP MK-nın may (1982-ci il) plenumunda 1990-cı ilədək olan dövr üçün SSRİ-nin Ərzaq proqramı hazırlanmışdır. Ərzaq proqramı partiyanın kənd

təsərrüfatını daha da inkişaf etdirmək xəttini davam etdirən proqramdır. Çünki məhz kənd təsərrüfatı Ərzaq proqramının əsaslı həlli üçün ilkin təməldir.

Proqramda eyni zamanda meliorasiya sisteminin durmadan inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında meliorasiyanın rolunun daha da yüksəldilməsi, meliorasiya sisteminin istismarının və onlara göstərilən texniki xidmətin müxtəlif təşkilati formalarının geniş tətbiq edilməsi nəzərdə tutulmuşdur. Suvarılan torpaqların sahəsi 1985-ci ildə 20,8 milyon hektara və 1990-cı ildə 23-25 milyon hektara, qurudulmuş torpaqların sahəsi müvafiq olaraq 15,5 və 18,9 milyon hektara çatdırılmalı idi.



*Kəngərli rayonunda Gəmiqaya Holdinq Şirkətlər İttifaqının sement istehsalı zavodu*




*Kəngərli rayonunda Gəmiqaya Holdinq Şirkətlər İttifaqının sement istehsalı zavodunun məhsulları*




*Naxçıvan şəhərində «Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti*



*Naxçıvan şəhərində «Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi» Məhdud Məsuliyyətli Cəmiyyəti*



*«Naxçıvan Avtomobil Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində iş prosesi*



*«Naxçıvan Avtomobil Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunmuş ilk minik avtomobili*



*Naxçıvan şəhərində "Zümrüd" kiçik müəssisəsində iş prosesi*



*"Gəmiqaya Holdinq Şirkətlər İttifaqı"nın plastik tara üçün kapsul və qapaq istehsalı müəssisəsində iş prosesi*



*Naxçıvan şəhərində qarışıq qüvvəli yem istehsalı sahəsində iş prosesi*



*Naxçıvan "Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin un dəyirmanında iş prosesi*



*Naxçıvan şəhərində "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətində cipsi istehsalı sahəsində iş prosesi*



*Naxçıvan şəhərində "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətində vafli istehsalı sahəsində iş prosesi*



*"Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin Metaləritmə Zavodu*



*Naxçıvan "Xalça" Açıq Səhmdar Cəmiyyətinin polietilen torba və örtüklər istehsalı sexi*



*Şərur rayonunun Siyaqut kəndində istixana kompleksi*



*"Gəmiqaya Qida Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində meyvə şirəsi, püresi (konsentrantı) istehsalı sexində iş prosesi*




*"Gəmiqaya Mineral Sular" MMC*



*"Gəmiqaya Mineral Sular" MMC-də iş prosesi*



*“Gəmiqaya Kərpic Kompleksi” MMC*



*“Gəmiqaya Kərpic Kompleksi” MMC-nin məhsulları*




*Gəmiqaya Mebel Fabriki*



*Gəmiqaya Mebel Fabrikinin məhsulları*



*Ordubad rayonunun Aza kəndində Beton Zavodu və Qum-Çınqıl Karxanası*



*Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsində istehsal gücü saatda 125 ton olan Asfalt-Beton Zavodu*



*"Gəmiqaya Yol Su Enerji" MMC*



*Naxçıvan - Sədərək magistral avtomobil yolu*



*"Naxçıvan Duz İstehsalı" MMC*



*"Naxçıvan Duz İstehsalı" MMC-nin məhsulları*



*Naxçıvan şəhərində "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətində ətlik istiqamətində damazlıq yumurta istehsalı sahəsi*



*Babək rayonunda heyvandarlıq təsərrüfatı*



*"Bərəkət Qida Məhsulları" MMC*




*"Bərəkət Qida Məhsulları" MMC-nin məhsulları*

## III FƏSİL

## NƏQLİYYAT VƏ RABİTƏNİN İNKİŞAFI
### *(1990-cı ilə qədərki dövrdə)*

XX əsrdə dünya iqtisadiyyatında baş vermiş inqilabi dəyişikliklərin ana xəttini dinamik inkişaf təşkil edir. İqtisadçıların hesablamalarına görə ötən yüzillikdə dünya üzrə ümumi daxili məhsul 19 dəfə, əhalinin sayı isə 4 dəfə artmışdır. XX əsrdə ən dinamik inkişaf edən sahələrdən biri də nəqliyyat sektoru olmuşdur. Nəqliyyat sektoru əsrlərə bərabər inkişaf yolu keçmişdir. Artıq nəqliyyat sektorunun mürəkkəb bir infrastruktur kimi formalaşması başa çatmış, onun təkmilləşdirilməsi istiqamətində mühüm dəyişikliklər aparılmışdır. Yəni əgər XIX əsr su nəqliyyatının genişlənməsi və dəmir yollarının yeni-yeni ərazilərə çəkilməsi ilə xarakterizə olunurdusa, XX əsr nəqliyyatın yeni-yeni sahələrinin yaradılması (hava nəqliyyatı, boru nəqliyyatı və s.), bütünlükdə iqtisadiyyatın bu sektorunun sürətli inkişafı ilə fərqlənir.

Nəqliyyatın inkişaf tarixinə nəzər saldıqda məlum olur ki, cəmiyyətin inkişafında nəqliyyat mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, dünya nəqliyyatının formalaşmasında, ayrı-ayrı dəniz və quru yollarının müəyyən olunmasında görkəmli səyyahların çox böyük xidmətləri olmuşdur. Xüsusilə dünya dəniz yollarının açılmasında Avropanın dənizsahili ölkələrində dənizçiliyin inkişafı ilə əlaqədar olaraq dənizçilikdə uzun illər qazandıqları təcrübə əsasında dünyanın müxtəlif ölkələrinə səyahət etmiş və yeni dəniz yollarının açılmasında nailiyyətlər qazanmışdılar.

Dünya dəniz yollarının açılmasında İrland səyyahı Svyatac Brendanın (VI əsr), Normand səyyahı Erik Rijiy (IX əsr), İsland səyyahı Torfin Karlsefni (XI əsr), Portuqaliya səyyahı, dənizçi Henrix (XIII əsr), Portuqaliya dənizçisi Xristofer Kolumb (XV əsr), Fernando Magellan (XVI əsr) və Yer kürəsinin quru ərazilərinin öyrənilməsində, ölkələrarası yolların müəyyən olun-

masında böyük xidmətləri olan səyyahlardan Marko-Polo, XIV-XV əsrlərdə Ərəb səyyahı İbn Abu Abdahıllah Məhəmməd, Afanasi Nikitin (XV əsr) və digərlərini göstərmək olar.

Araşdırmalar göstərir ki, bütün əsrlərdə yolların hərtərəfli öyrənilməsi bəşər cəmiyyətini daima narahat etmişdir. Bütün tarixi dövrlərdə ayrı-ayrı ölkələrin öyrənilməsi istər nəqliyyat baxımından, istərsə də ölkələrin təbii sərvətlərinin öyrənilməsi baxımından dünya ölkələrinin iqtisadi inkişafına təsir göstərən ən mühüm amillər hesab edilmişdir.

Dünya iqtisadiyyatının inkişafında XIX əsrin axırları və XX əsrin əvvəllərində məhsuldar qüvvələrin təsir dairəsi daha intensiv hal almağa başlamışdır. Xüsusilə dünyanın iqtisadi cəhətdən inkişaf etmiş avropa ölkələrində İngiltərə, Fransa, Almaniya, İtaliya və digər ölkələrdə sənayeləşmənin sürətli inkişafı ölkələrarası iqtisadi əlaqələrin yaradılmasında mühüm rol oynayan nəqliyyatın əvvəlki primitiv formasından yeni sənaye dövrünün tələblərinə uyğun şəkildə inkişafını tələb edirdi. Bu baxımdan istər dəniz yollarından, istərsə də quru yollarından səmərəli istifadə olunmaqla dünya ölkələri ilə əlverişli iqtisadi əlaqələrin təkmilləşdirilməsinə və inkişafına zəmin yaranırdı.

XX əsrdə dünya iqtisadiyyatının inkişafında bir sıra sosial-iqtisadi amillərlə yanaşı nəqliyyat amili də mühüm rol oynamışdır. Dünya ölkələrinin təbii resurslarından istifadə etmək üçün iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan dəmir yolu nəqliyyatı, dəniz nəqliyyatı, avtomobil nəqliyyatı, boru kəmər və hava nəqliyyatının inkişaf etdirilməsi iqtisadi inkişafa müsbət təsir göstərir.

Dünya ölkələrində nəqliyyat sisteminin inkişafı Azərbaycanı da nəqliyyat sektorunun inkişafına gətirib çıxarmışdır. Ölkəmizin əlverişli coğrafi məkanda yerləşməsi, onun nəqliyyat sektorunda istər daxili, istərsə də beynəlxalq nəqliyyata xas olan nəqliyyat sahələrinin dəmir yolu, dəniz nəqliyyatı, avtomobil, hava, boru kəməri və şəhər nəqliyyatının inkişafı öz əksini tapmışdır. Bu

nəqliyyat sahələri respublikadaxili vahid nəqliyyat sisteminin inkişafına təsir etməklə yanaşı, Avrasiya ölkələrarası nəqliyyat iqtisadi əlaqələrin formalaşmasına öz təsirini göstərir.

Nəqliyyat sektorunun formalaşmasını amerikan alimi Vilyam Xey xarakterizə edərək göstərir ki, "Nəqliyyat sistemi dövlətdir – bu əsas arteriyadır, ölkə iqtisadiyyatının qidalanma şirəsidir".

Azərbaycanda nəqliyyat sektorunun inkişafına diqqət yetirsək, qeyd etmək lazımdır ki, ölkəmizin neft sektorunda tarixən neft sənayesinin inkişafı ilə əlaqədar olaraq dəmir yolu başqa nəqliyyat sahələrinə nisbətən daha tez inkişaf etmişdir.

Azərbaycanda 20 yanvar 1983-cü ildə Sabunçu-Suraxanı neft mədənləri arasında uzunluğu 20 km olan dəmir yolu çəkilmişdir. Azərbaycan Rusiyanın ucqar regionlarından olmasına baxmayaraq burada olan filiz və qeyri-filiz təbii sərvətlərinin Rusiyanın bazarlarına daşınması üçün rus imperiyasının daim diqqət mərkəzində olmuşdur. Rusiya üçün mühüm xammal bazası sayılan Azərbaycan neftini Rusiya bazarlarına daşınması məqsədilə çar Rusiyası tərəfindən Tbilisi-Ağstafa-Bakı dəmir yolunun tikintisi üçün sərəncam verilir. Həmin sərəncam əsasında 1883-cü ildə Azərbaycan daxilində 500 km uzunluğunda Aqstafa-Bakı dəmir yolu istifadəyə verilir. Bu dəmir yolu vasitəsilə Azərbaycanda istehsal olunan neftin 90 faizi Rusiyaya daşınırdı. 1900-cü ildə bütün Rusiyada istehsal və istifadə olunan neftin 95 faizi Abşeron mədənlərinin payına düşürdü.

Rusiya Azərbaycanla əlaqələrini möhkəmlətmək və xalq təsərrüfatı yüklərinin Rusiya bazarlarına daşınmasını intensivləşdirmək məqsədilə daha əlverişli yollar axtarırdı. Bu məqsədlə Rusiyanın Azərbaycanla birbaşa əlaqəsini təmin etmək və ölkəmizin şərq və şimal-şərq regionlarında olan kənd təsərrüfatı məhsullarını, həmçinin nefti daha tez daşımaq məqsədilə 1901-ci ildə Azərbaycan daxilində uzunluğu 211 km olan Bakı-Dərbənd (Arablinka stansiyasınadək) dəmir yolunun tikintisi başa çatdırıldı. Bu dəmir yolu Azərbaycanın mühüm neft rayonu ilə yanaşı

Quba-Xaçmaz kimi tərəvəzçilik və meyvəçilik iqtisadi rayonundan keçirdi. Bu dəmir yolu vasitəsilə Quba-Xaçmaz regionunda istehsal edilən kənd təsərrüfatı məhsullarının Rusiyanın daxili bazarlarına ixrac olunmasına əlverişli zəmin yaratmışdır. Eyni zamanda respublikanın qərb bölgələri ilə iqtisadi əlaqələri inkişaf etdirmək məqsədilə Ələt-Mincivan-Culfa dəmir yolunun tikintisi planlaşdırılırdı. 1925-ci ildə Ələt-Culfa dəmir yolunun Ələt-İmişli hissəsi, 1930-cu ilin mayında 283 km uzunluğunda Ələt-İmişli-Mincivan dəmir yolunun tikintisi başa çatdırılırdı. 1936-cı ildə 39 km uzunluğunda Mincivan-Qafan dəmir yolu tikintisi istifadəyə verilir. Böyük Vətən müharibəsi illərində (1941-1945) 445 kilometrlik Ələt-Mincivan-Culfa dəmir yolu istifadəyə verildi.

Göründüyü kimi Azərbaycanda olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Rusiya imperiyasının tərkibinə daxil edildikdən sonra onun nəqliyyat vasitələrinin inkişafında da irəliləmələr olmuşdur. Çar Rusiyası 1934-cü ildə, hər şeydən əvvəl, özünün hərbi strateji məqsədlərini nəzərə alaraq 272 km uzunluğunda Tiflis-Ağstafa-Dilican-İrəvan-Culfa şose rolunun inşasına başladı ki, bunun da 120 kilometrə qədəri Naxçıvan ərazisi daxilindən keçirdi. Bu şose yolu tamamilə dövlət hesabına çəkilərək onun başa gəlməsinə 2 milyon manata qədər, o cümlədən Şərur dairəsinin Dizə kəndi yaxınlığındakı Şərqi Arpaçay üzərindəki böyük körpüyə 78 min manata yaxın pul sərf edilmişdir. İkinci başqa bir yol, lakin özünün iqtisadi əhəmiyyətinə görə Ağstafa-Tiflis-Dilican-İrəvan-Naxçıvan-Culfa yolundan az əhəmiyyətli Naxçıvan-Biçənək yolu idi. 1899-cu ildə başlanmış və 1906-cı ildə başa çatdırılmış Tiflis-İrəvan-Culfa dəmir yolunun çəkilməsinin Naxçıvanın iqtisadiyyatına böyük təsiri olmuşdur.

Muxtar respublikanın öz daxili imkanlarından səmərəli istifadə etməsi və ölkənin digər rayonları ilə həyata keçirdiyi geniş iqtisadi əlaqələr nəticəsində Sovet hakimiyyəti illərində Naxçıvan MR-də məhsuldar qüvvələrin coşqun yüksəlişinə nail olunmuşdur.

Respublikanın istər digər rayonlarla, istərsə də öz ərazisi daxilində iqtisadi əlaqələrin həyata keçirilməsi məqsədilə burada nəqliyyat vasitələrinin müxtəlif növləri inkişaf etmişdir. Öz əhəmiyyətinə görə nəqliyyat vasitələri içərisində mühüm yeri dəmir yolu tutur. Bakı-Culfa-İrəvan dəmir yolu, Şahbuz rayonu müstəsna olmaqla Naxçıvan MR-in bütün inzibati rayonlarının ərazisindən keçmişdir. Muxtar respublikanın daxilində, uzunluğu 190 km-dən artıq olan bu yol 1906-cı ildə İrəvandan Culfayədək çəkilib başa çatdırılmış, 1940-ci ildə isə Culfadan Mincivana qədər uzadılaraq Azərbaycanın digər dəmir yolu xətləri ilə əlaqələndirilmişdir. O zaman muxtar respublikanın ölkəmizin, həmçinin SSRİ-nin başqa rayonları ilə iqtisadi əlaqələri əsasən bu yeganə dəmir yol xətti vasitəsilə həyata keçirilirdi.

XX əsrdə Naxçıvan MR ərazisi daxilində şose yollarının geniş şəbəkəsi yaradılmış, bütün əsas istiqamətlərdə bu yollara asfalt döşənilmişdir.

Böyük Vətən müharibəsi illərində bütün Sovet İttifaqında olduğu kimi Naxçıvan MR-in də iqtisadiyyatı hərbi məqsədlər üçün qurulmuşdu. Bu dövrdə respublikada pambıq bitkisi əvəzinə məhsulundan hərbi məqsədlər üçün yağ istehsal edilən gənəgərçək bitkisi əkilirdi. Taxıl bitkilərinin sahəsinin və məhsuldarlığının artırılması hesabına onun istehsalı xeyli artırılmışdı. Respublikanın bütün sənaye müəssisələri məhsul istehsalını genişləndirərək ölkəni çoxlu miqdarda yeyinti və yüngül sənaye məhsulları ilə təmin edirdi. Müharibənin ən ağır günlərində İranla dəmir və şose yolları ilə birləşən Naxçıvan respublikası SSRİ-nin xarici ölkələrlə ticarət əlaqələrinin genişlənməsində böyük rol oynamışdır.

Muxtar respublika sənayesinin inkişafında şose yollarının böyük əhəmiyyəti olduğu üçün həmin sahəyə diqqət xeyli artırılmışdır. Təkcə 1933-1937-ci illərdə dövlət vəsaiti və zəhmətkeşlərin qüvvəsi səfərbər olunmaqla 232 km şose yolları salınmışdır. Bütövlükdə isə muxtar respublikanın şəhər və kəndlərinə çəkilmiş

yolların uzunluğu 430 km-dən çox idi.

Keçən əsrin 60-70-ci illərində muxtar respublikanın mərkəzi olan Naxçıvan şəhəri nəinki inzibati rayonlarla, habelə şəhər tipli qəsəbələrilə və bir çox ucqar kəndlərlə də əlverişli yollar vasitəsilə əlaqələndirilmişdir.

Çəkilmiş yollarla Naxçıvan MR ölkəmizin və keçmiş SSRİ-nin müxtəlif rayonları ilə geniş iqtisadi əlaqə saxlamış, xalq təsərrüfatının mühüm məhsullarını bir çox rayonlara göndərmiş, muxtar respublikanın xalq təsərrüfatını dönmədən yüksəltmək, əhalinin tələbatını ödəmək üçün başqa rayonlardan xeyli miqdarda müxtəlif məhsullar gətirmişdir. Naxçıvan MR-in digər rayonlarla iqtisadi əlaqələrini həyata keçirən və əsas nəqliyyat vasitəsi olan dəmir yolu ilə 1970-ci ildə muxtar respublikadan 372 min ton yük göndərilmiş və 1828 min ton yük gətirilmişdir. Göründüyü kimi digər rayonlardan gətirilən yüklərin həcmi aparılan yüklərə nisbətən 5 dəfə çox olmuşdur. Qeyd edək ki, bu, hər şeydən əvvəl SSRİ-nin digər rayonlarının Naxçıvan MR iqtisadiyyatının yüksəldilməsində mühüm rol oynadığını göstərir.

Naxçıvan MR-də iqtisadi əlaqələrin genişlənməsi və nəqliyyatın inkişafı yük dövriyyəsinin artmasına gətirib çıxarmışdır.

Muxtar respublikaya gətirilən yüklər içərisində yanacaq yükləri öz həcminə görə üstünlük təşkil edirdi. 1970-ci ildə buraya 180 min tondan çox müxtəlif yanacaq, o cümlədən 120 min tondan çox neft məhsulları gətirilmişdir. Naxçıvan MSSR-ə bu qədər yanacaq məhsullarının gətirilməsi yerli yanacaq bazasının olmaması ilə əlaqədardır. Muxtar respublika iqtisadiyyatının inkişafında SSRİ-nin digər rayonlarından gətirilən metal məmulatı da mühüm rol oynayır. 1970-ci ildə buraya 130 min tondan çox müxtəlif metal məmulatı gətirilmişdir. Bu əsasda muxtar respublikada elektrotexnika zavodu, avtomobil təmiri zavodu, kənd təsərrüfatı müəssisələrində fəaliyyət göstərən onlarca təmir müəssisələri işləyirdi. Metal məmulat tikinti işlərində, kommunal təsərrüfatında və s. sahələrdə də geniş tətbiq olunurdu.

Naxçıvan MR-ə gətirilən əsas yüklərdən biri də meşə materialları olmuşdur. Alınan bu məhsullar əsasında burada mebel fabriki fəaliyyət göstərirdi, onların xeyli hissəsindən tikinti işlərində istifadə olunurdu.

Keçən əsrin II yarısında da lazım olan tikinti materiallarının hamısı muxtar respublikada istehsal olunmurdu. Elə bu baxımdan da yerli tələbatın ödənilməsində başqa rayonlardan gətirilən tikinti materialları əsas yer tuturdu. Naxçıvan MR-a küllü miqdarda yığma evlər, 172 min ton sement, 14 min ton yığma dəmir-beton konstruksiyaları və hissələri gətirilirdi. Muxtar respublika şəraitində torpaqların kübrələnməsinin müstəsna əhəmiyyəti var idi. Ona görə də 1970-ci ildə muxtar respublikaya dəmir yolu vasitəsilə 21 min tondan çox mineral gübrə gətirilmişdir.

60-70-ci illərdə başqa ərazilərdə olduğu kimi Naxçıvan MR-də özünün istehlak mallarına olan tələbatını təmin edə bilmirdi və bu məhsulları keçmiş SSRİ-nin başqa rayonlarından gətirməyə məcbur olurdu. Qeyd edək ki, təkcə 1970-ci ildə dəmir yolu vasitəsilə Naxçıvan MR-ə təxminən 30 min ton taxıl məhsulu, 26 min ton un, yağ, kartof, müxtəlif kağız-sellüloz və digər məhsullar gətirilmişdi.

Naxçıvan MR isə öz növbəsində digər rayonlara müxtəlif məhsullar göndərirdi. Muxtar respublikadan göndərilən mallar sırasına əlvan metal külçələri, elektrotexnika məmulatı, mineral sular, konserv, şərab xammalı, ipək xammalı, pambıq mahlıcı, çiyid, fermentasiya edilmiş tütün, müxtəlif kənd təsərrüfatı məhsulları və sairəni aid etmək olar.

XX əsrin 70-80-ci illərində nəqliyyat əlaqələrinin genişləndirilməsi, onlardan daha səmərəli istifadə olunması Naxçıvan diyarının məhsuldar qüvvələrinin inkişafını sürətləndirməkdə mühüm amillərdən birinə çevrilmişdir. Nəqliyyatın inkişafı keçmiş SSRİ-nin və xüsusilə Zaqafqaziya respublikaları ilə iqtisadi əlaqələrin genişləndirilməsində mühüm rol oynamışdır. Bu da öz növbəsində muxtar respublikada mühüm istehsal sahələrinin

yaradılmasına və inkişafına təkan vermişdir. Nəticədə isə 80-ci illərin əvvəllərində Naxçıvan MR Azərbaycan Respublikasının inkişaf etmiş aqrar-sənaye rayonlarından birinə çevrilmişdir.

Azərbaycanda rabitə sektorunun inkişaf strategiyasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycan hələ keçmiş SSRİ-nin tərkibində olarkən respublikanın sənaye potensialının gücləndirilməsi, xüsusən də elmtutumlu sahələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğunu görən Ulu öndər Heydər Əliyev XX əsrin 70-ci illərində bu sahəyə diqqət yetirmiş, informasiya və kommunikasiya texnologiyaları sektorunun bugünkü inkişafının təməlini qoymuşdur. Artıq uzun inkişaf yolu keçən ölkə rabitəsi son illər daha da inkişaf edərək iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmişdir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, rabitənin yaranması çox qədim tarixə malikdir. Hələ 1303-cü ildə Qazan xan Hülakilər dövlətini iqtisadi və siyasi böhrandan qurtarmaq üçün poçt sahəsində islahatlar həyata keçirmişdir. 1501-ci ildə isə Şah İsmayıl Xətai tərəfindən poçt rabitəsinin dövlət səviyyəsində təşkilinin təməli qoyulmuşdur.

Beynəlxalq Teleqraf İttifaqının əsası 1865-ci ilin may ayının 17-də qoyuldu. Teleqraf rabitəsi XIX əsrin II yarısında ölkəmizdə də meydana gəldi. 1864-cü ilin yanvar ayının 21-də Naxçıvanı Culfa ilə birləşdirən Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin tərkib hissəsini təşkil edən ilk teleqraf xətti istifadəyə verildi. Bundan sonra digər bölgələrdə də teleqraf stansiyaları fəaliyyətə başladı. 6 dekabr 1881-ci il tarixində "Nobel qardaşları cəmiyyəti" Azərbaycanda rəsmi olaraq ilk telefon xəttini istismara vermişlər. 1886-cı ildə Sankt-Peterburq və Bakı şəhərləri arasında teleqraf rabitəsi yaradılmışdır. 1911-ci ildə isə Tiflis-Bakı-Yelizavetpol (indiki Gəncə-kursiv N.Ə.) istiqamətində telefon xəttinin çəkilməsi rabitə tarixində xüsusi yer tutur.

XIX əsrin sonları və XX əsrin əvvəllərində Bakıda sürətlə inkişaf etməkdə olan neft sənayesi ilə bərabər telefon rabitəsi də

inkişaf etmiş, o dövr üçün geniş telefon şəbəkəsi yaradılmışdır. Lakin rabitə sisteminin əsl inkişafı Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda birinci hakimiyyətə gəlməsi dövrünə təsadüf edir. Hakimiyyətə gəldikdən sonra Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci ilin iyun ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində keçirilən Büro iclasında "Respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafı üzrə tədbirlər haqqında" qərar qəbul edildi. Bu qərar ölkənin rabitə sistemində inkişafının əsasını qoydu və yeni islahatların aparılmasına səbəb oldu.

Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci mərhələsini əhatə edən həmin dövrdə rabitənin inkişafı üzrə bir sıra qərarlar qəbul edilmişdi. 1970-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasında, universitetlərdə və sahə institutlarında elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıq istehsal edən zavodlar tikildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Kommunikasiya Elmi Mərkəzi, "Neftqazavtomatika" və digər elmi tədqiqat müəssisələri yaradıldı. Heydər Əliyevin birbaşa köməyi ilə Azərbaycana ilk böyük elektron hesablama maşını- BESM-6 gətirildi. Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri – RASU – "Azərbaycan", respublika kompüter şəbəkəsi, bütün SSRİ-də tanınan və istifadə olunan avtomatlaşdırılmış neftçıxarma idarəetmə sistemləri və kompleksləri işlənib hazırlandı. "AZON", "NORD" elmi istehsalat birlikləri, radiozavod, elektron hesablama maşınları zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verildi. Beləliklə, respublikada yeni və son dərəcə əlverişli bir sənaye sahəsi təşkil olundu, onun elmi təminatı yaradıldı. İndi bütün dünya tərəfindən müasir sosial-iqtisadi tərəqqinin inkişaf sxemi kimi qəbul edilən "Universitet – İqtisadiyyat və Hökumət" ucqar spiral modelinin tətbiqini Ulu öndər Heydər Əliyev 70-80-ci illərdə Azərbaycanda həyata keçirdi.

Qeyd etmək lazımdır ki, XX əsrin 70-80-ci illərində rabitənin inkişafı təkcə Bakı şəhəri ilə məhdudlaşmayaraq digər rayon və şəhərləri də əhatə etmişdir. Ümumiyyətlə 1969-1982-ci illər şəhərlərarası rabitə, poçt rabitəsi, radio-televiziya yayımı sahələrinin inkişafında yeni nailiyyətlərin əldə edilməsi dövrü kimi tarixə düşmüşdür. Məhz ümummilli liderimiz Heydər Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində Naxçıvan rabitəsində də canlanma baş verdi. Həmin illərdə Naxçıvan şəhərində, Ordubad, Culfa, Şərur, Şahbuz və Babək rayon mərkəzlərində yeni çoxtutumlu ATS-lər tikilib istifadəyə verildi. 61 kənddə isə telefon stansiyaları işə salındı. Heç də təsadüfi deyil ki, bu müddət ərzində muxtar respublikada işləyən telefonların ümumi sayı 23 min 313 nömrəyə çatdırılmışdır. Hər yüz ailəyə isə 32,2 telefon nəmrəsi düşürdü.

Ümumiyyətlə, Heydər Əliyevin birinci hakimiyyəti dövründə Naxçıvan MSSR-də rabitənin inkişafını aşağıdakı cədvəldən daha aydın görmək olar:

***1970-1983-cü illərdə Naxçıvan Muxtar Respublikasında rabitənin inkişafının əsas göstəriciləri***

| | 1970 | 1975 | 1980 | 1981 | 1982 | 1983 |
|---|---|---|---|---|---|---|
| Poçt, teleqraf və telefon müəssisələrinin sayı (ilin axırına), vahidlə | 82 | 89 | 90 | 96 | 95 | 98 |
| o cümlədən kənd yerlərində | 69 | 75 | 75 | 76 | 76 | 76 |
| Rabitə məhsulları, min manatla | 1565 | 2404 | 3481 | 3713 | 4513 | 4834 |
| Göndərilib (min ədəd) | | | | | | |
| Məktub | 7026 | 10707 | 20397 | 19526 | 30585 | 30352 |
| Qəzet və jurnal | 7531 | 6859 | 6684 | 8180 | 6280 | 6621 |
| Bağlama | 15,8 | 28,0 | 45,2 | 59,5 | 45,4 | 37,6 |
| Pul köçürmələri və pensiya ödənişləri | 484,5 | 546, | 606,7 | 615,9 | 521,9 | 492,3 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Göndərilib (min ədədlə) | | | | | | |
| Teleqramma | 156,7 | 194,4 | 238,3 | 275,2 | 248,4 | 220,9 |
| Beynəlxalq telefon danışıqlarının miqdarı, min ədədlə | 224,2 | 317,8 | 474,7 | 499,9 | 490,2 | 464,9 |
| Rabitə nazirliyi stansiyalarına birləşdirilən telefon aparatlarının sayı (ilin axırına), ədədlə | 6373 | 9117 | 10103 | 10463 | 10952 | 12596 |
| O cümlədən: Şəhər telefon şəbəkəsinə | 4288 | 6344 | 7073 | 7232 | 7552 | 8410 |
| Kənd telefon şəbəkəsinə | 2128 | 2847 | 3656 | 3878 | 4036 | 4186 |
| Radioqəbuledici nöqtələrin sayı, (ilin axırına), ədədlə | 20893 | 30430 | 37475 | 39222 | 40433 | 41913 |
| O cümlədən kənd yerlərində | 13416 | 17746 | 21699 | 22401 | 22786 | 23383 |

**Mənbə**: Нахичеванская Автономная Советская Социалистическая Республика Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Азербайджанское государственное издательство, Баку, 1984, с.133

Beləliklə, cədvəl məlumatlarının təhlili göstərir ki, Ulu öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə muxtar respublikada iqtisadiyyatın başqa sahələri kimi rabitə sistemi də inkişaf etmiş və getdikcə təkmilləşmişdir.

# IV BÖLMƏ

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİYYATI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

### 1. XX əsrin 90-cı illərinin əvvəllərində baş vermiş iqtisadi böhran və ondan çıxış yolları (1991-1995)

Demək olar ki, Azərbaycan xalqı tarixin bütün inkişaf mərhələlərində kəskin sosial-iqtisadi çətinliklərlə üzləşmiş və hər dəfə bu çətinliklərin dəf olunmasında özünün nəyə qadir olduğunu bir daha sübut etmişdir.

Lakin qeyd etmək lazımdır ki, keçən əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən də Naxçıvana qarşı qondarma "Dağlıq Qarabağ" problemlərindən istifadə edərək ərazi iddialarını açıq silahlı basqın yolu ilə genişləndirmək qərarına gəldilər. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası çətin sınaqlar qarşısında qaldı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakı şəhərinə yeridilməsindən 8 saat əvvəl erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikası ərazisinə hücuma keçdi və erməni quldur dəstələri Sədərək rayonunun Kərki kəndini işğal etdilər. Ermənilərin apardığı təcavüzkar siyasət nəticəsində Naxçıvanı Azərbaycanla birləşdirən dəmir yol xətti və avtomobil yolu bağlandı. Naxçıvan Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamağa başladı. Azərbaycan rəhbərliyinin o dövrdə Naxçıvan Muxtar Respublikasının problemlərinə biganə yanaşması vəziyyəti daha da çətinləşdirdi. Ulu öndər Heydər Əliyevin o zaman dediyi kimi Naxçıvan MR taleyin ümidinə buraxılmışdı.

Naxçıvandakı vəziyyət Azərbaycandan fərqli olaraq çox acınacaqlı idi. Bu məsələ ilə əlaqədar ümummilli liderimiz Heydər Əliyev Naxçıvan MR-in 75 illiyinə həsr edilmiş təntənəli

mərasimdəki çıxışında demişdir: "**...Yanvarın 19-da Naxçıvan Muxtar Respublikasının Ali Soveti yığışdı, iradə göstərdi və Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bu təsadüfi hal deyildi. Bu Naxçıvanda milli ruhun, müstəqilliyə bağlılığın, müstəqillik üçün çalışmağın rəmzi idi. Bax bütün bunlar hamısı bir daha mənə əsas verir deyəm ki, Naxçıvanın xüsusiyyətlərindən biri də burada milli ruhun, milli şüurun, azərbaycanlığın çox yüksək səviyyədə olmasıdır".**

Naxçıvanlılarda milli ruhun, milli şüurun belə yüksək olması tarixin müxtəlif inkişaf mərhələlərində Naxçıvanı böyük bəlalardan qorumuşdur.

90-cı il iyulun 22-də ümummilli liderimiz Heydər Əliyevin Naxçıvana gəlməsi, yerli əhali ilə birlikdə olması bu diyarı gələcək bəlalardan qurtardı.

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi.

1995-ci il noyabrın 12-də qəbul edilmiş Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının VIII fəsli Naxçıvan Muxtar Respublikasına həsr edilmişdir. Konstitusiyanın 134-cü maddəsində deyilir:

"I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. II. Naxçıvan Muxtar Respublikasının statusu bu konstitusiya ilə müəyyən edilir. III. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz hissəsidir".

1998-ci il dekabr ayının 29-da isə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul edilmişdir.

90-cı illərin əvvəllərində idarəçilikdə olan səhvlər, kreslo davası, hərc-mərcilik və s. getdikcə iqtisadiyyatın geriləməsinə və böhran vəziyyətinə düşməsinə gətirib çıxarmışdır. 1991-1993-cü illərdə ölkədə baş verən bu geriləmə sənayedə 20-24 faizə, kənd təsərrüfatında 15-20 faizə, kapital qoyuluşunda isə

40 faizə çatmışdı.

ÜDM istehsalında orta illik tənəzzül 22-24 faiz, büdcə kəsirinin ÜDM-a nisbəti 12-13 faiz təşkil edirdi. Ərzaq və sənaye malları qiymətlərinin orta illik artımı 1400-1800 faizə çatmışdı.

Erməni millətçilərinin Dağlıq Qarabağ ətrafında yaratdıqları fitnəkarlıq, iqtisadi əlaqələrin pozulması, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, erməni işğalçıları tərəfindən uzun müddət blokadada saxlanılması, habelə 1990-cı ilin əvvəllərindən başlayaraq daxildə ictimai-siyasi vəziyyətin sabitliyinin pozulması, daxili qarışıqlığın uzun müddət davam etməsi və digər səbəblər üzündən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 1990-cı illərin birinci yarısında Azərbaycanın başqa regionlarına nisbətən daha ağır vəziyyətə düşdü. Təkcə bir faktı göstərmək kifayətdir ki, muxtar respublikanın dövlət müəssisələrində sənayenin ümumi məhsulu 1997-ci ildə 1990-cı il səviyyəsinin cəmi 9 faizinə və 1998-ci ildə 4,4 faizinə bərabər idi. Muxtar respublikanın sənayesi 1992, 1993 və 1995-ci illərdə daha kəskin surətdə azalmışdı. Özündən əvvəlki ilə nisbətən sənaye məhsulunun həcmi 1992-ci ildə 38,7 faiz, olmuşdur. Sənaye müəssisələrində bütün əsas məhsul növlərinin istehsalı 1990-cı ilə nisbətən azalmışdır. 16 mühüm sənaye məhsulundan 6-nın (pendir, qənnadı məmulatları, üzlü süd, şərab, kərpic, xam ipək) istehsalı tamamilə dayanmışdır. Muxtar Respublikada 1991-1995-ci illərdə cəmi iki sənaye müəssisəsi, o da 1991-ci ildə tikilib istifadəyə verilmişdir: Üzlük plitələr zavodu (10 min kv metr gücündə) və Çörək bişirmə zavodu (növbədə 24 ton çörək bişirən) fəaliyyət göstərirdi.

Dəmir-beton məmulatları, fermentləşdirilmiş tütün, konserv, duz, trikotaj məmulatı, mineral sular kimi çox mühüm məhsullar istehsalı 1990-cı ilə nisbətən 1997-ci ildə kəskin surətdə azalmışdır. Dəmir-beton məmulatı 40 min kub metrdən 0,9 min kub metrə, konserv 34 milyon şərti bankadan 0,1 milyon şərti bankaya, duz 99,3 min tondan 22 min tona düşmüşdür.

Muxtar respublikada tikilmiş sənaye müəssisələrinin sayı 1940-cı ildən sonra bir qayda olaraq artmışdır. 1990-cı ildə Muxtar respublikada 52 sənaye müəssisəsi olmuşdur ki, bu da 1970-ci ildə olduğuna (38) nisbətən 14 vahid (1,37 dəfə) çoxdur. Bu illərdə 19 müəssisə istifadəyə verilmişdir. Onun sayı 1980-ci ildəki 42-dən, 1985-ci ildə 51-ə çatmışdır. Həmin illərdə əsası Heydər Əliyevin təşəbbüsü ilə qoyulmuş xalçaçılıq kombinatı, tikiş fabriki kimi böyük müəssisələr tikilib istifadəyə verilmişdir. Baş vermiş böhran və onun dərinləşməsi nəticəsində muxtar respublikada 1991-1993-cü illərdə 8 sənaye müəssisəsi öz fəaliyyətini tamamilə dayandırmışdır. Nəticədə müəssisələrin sayı 1990-cı ildəki 52-dən 1993-cü ildə 44-də düşmüşdür. 1994-1995-ci illərdə sənaye müəssisələrinin sayı daha da azalmışdır.

Qeyd etmək lazımdır ki, müstəqilliyimizin elə ilk illərində baş vermiş böhran respublika həyatının bütün sahələrini əhatə etmişdir. Böhranın aradan qaldırılması isə uzun dövr, çoxlu qüvvə və maliyyə vəsaiti tələb edirdi.

Muxtar respublikanın böhrandan çıxması üçün elmi baxımdan prinsipial hesab edilən əsas məsələ düşdüyümüz vəziyyətin düzgün dərk edilməsi, onun səbəblərinin obyektiv izah edilməsi, qiymətləndirilməsi və düzgün inkişaf yolunun müəyyənləşdirilməsi olmuşdur.

Əlbəttə ki, bir iqtisadi sistemdən digər bir iqtisadi sistemə, o cümlədən bazar iqtisadi sisteminə transformasiya olunması, yeni mülkiyyət münasibətlərinin dəyişməsi, idarəetmə sistemində olan dəyişikliklər və s. böhranın daha da dərinləşməsinə səbəb olmuşdur. Bütün bu çətinliklər və ziddiyyətlər respublikamızda xüsusilə kəskin formada özünü göstərmişdir. Bu çətinlikləri aradan qaldırmaq və düzgün inkişaf yolu seçmək üçün əvvəlcə çətinliklərimizin xarakterini, düşdüyümüz vəziyyəti, onu doğuran səbəbləri düzgün qiymətləndirmək lazım olmuşdur.

1991-ci ildə Heydər Əliyevin Naxçıvana qayıtması və onun xalqın yekdil fikri ilə Azərbaycanın və Naxçıvan Muxtar Respub-

likasının deputatı, nəhayət Naxçıvan MR Ali Məclisinin sədri seçilməsilə muxtar respublikanın həyatında tədricən sağlam və möhkəm ictimai-siyasi sabitliyin əsası qoyuldu. Onun təşəbbüsü və yorulmaz fəaliyyəti nəticəsində qonşu Türkiyə və İranla münasib iqtisadi əməkdaşlıq yaradıldı və onlardan lazımi köməklik alındı.

Ümumiyyətlə, Naxçıvanın düşdüyü ağır böhran vəziyyətindən çıxmasının əsas yollarını 1992-1993-cü illərdə Heydər Əliyev müəyyən etmişdir. Əslində isə o, Naxçıvan Muxtar Respublikasının uzunmüddətli iqtisadi inkişaf proqramını işləyib hazırlamışdır.

Siyasi sabitlik, müstəqillik və iqtisadi təhlükəsizlik konsepsiyasının hazırlanması və mərhələ-mərhələ həyata keçirilməsi Heydər Əliyevin inkişaf modelinin tarixi də məhz Naxçıvandan başlandı. Heydər Əliyevin uzun müddət keçmiş SSRİ məkanında planlı, mərkəzləşdirilmiş idarəetmə sistemində apardığı iqtisadi siyasət strategiyasının yeni iqtisadi əsasları və mexanizmləri, həyata keçirilmə modeli məhz bu gəlişlə Naxçıvan iqtisadi sistemində reallaşmağa başladı. Lakin bu başlanğıc çox ağır sosial-ictimai və iqtisadi mühitlə rastlaşmışdı.

1990-cı il yanvar hadisələrindən sonra Naxçıvanda iqtisadi və sosial böhran günbəgün dərinləşirdi. 1991-ci ilin əvvəllərindən yeganə gediş-gəliş yolu olan dəmir yolu nəqliyyatı ermənilərin təcavüzü nəticəsində dayandırıldı. Sərnişinlərin daşınmasında yeganə vasitə olaraq gündə 4-5 reys uça bilən "Yak-40" markalı təyyarələrdən istifadə olunurdu ki, bu da müharibə şəraitində qorxulu idi və həyat səviyyəsi aşağı olan Naxçıvan əhalisinin imkanlarına uyğun deyildi.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçildikdən sonra iqtisadiyyatın bütün sahələrində, o cümlədən sənayedə yaranmış gərgin vəziyyətin, onu sabitləşdirmək və böhran vəziyyətindən çıxarmaq yollarını araşdırdı. Naxçıvan sənayesinin mövcud vəziyyətini təhlil edərək, onun potensialını qiymətləndirmək, əlverişli coğrafi, psixoloji amilləri səfərbərliyə

alaraq yollar axtarmağa başladı.

O zamanlar Naxçıvan Muxtar Respublikasında iqtisadi vəziyyəti ümummilli lider Heydər Əliyev aşağıdakı kimi təhlil edirdi: **"Naxçıvan Muxtar Respublikası özünün coğrafi, təbii və tarixi şəraitinə uyğun olaraq bütövlükdə Azərbaycanın iqtisadi, mənəvi və kadr potensialının formalaşmasında özünə məxsus xüsusiyyətlər kəsb etmişdir. Azərbaycanın müstəqillik və bazar iqtisadiyyatı şəraitində fəaliyyəti ilkin zəmində olan çətinliklər Naxçıvanda daha ciddidir. Naxçıvan iqtisadi blokada şəraitində yaşayır, onun bir ildir ki, Azərbaycanın başqa rayonları və Bakı şəhəri ilə iqtisadi və təsərrüfat əlaqələri kəsilmişdir. Bunun nəticəsində Naxçıvanda sənaye müəssisələri dayanmış, kənd təsərrüfatında istehsal həcmi yarıbayarı azalmışdır. Naxçıvanda 1991-1992-ci ilin qışının daha sərt olması, respublikaya daş kömür, ağ neft, benzin və digər yanacağın daxil olmaması nəticəsində 20-30 bəzən 50 ildən artıq yaşı olan ağaclar kəsilib yanacaq kimi istifadə olunmuşdur. Naxçıvanda 50-60 min işsiz vardır".**

İqtisadi islahatlar illəri olan bu üç ildə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında olan bütün qanunauyğunluqlar pozuldu, bu da öz növbəsində əhalinin həyat səviyyəsinin və sosial inkişafının ağır vəziyyətinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında büdcə təşkilatlarından başqa, bütün müəssisələrdə iş dayanmışdı. Respublikanın ərazisində yanacaq olmadığından bütün maşınlar və mexanizmlər işləmirdi. Kolxoz və sovxozlarda olan maşın parkı işləmədiyi üçün kənd təsərrüfatı məhsullarının yığılması, daşınması mümkün olmamışdır.

Lakin iqtisadi-sosial vəziyyətin böhrandan çıxarılmasından danışmaq hələ tez idi. Neçə il əvvəl başlanmış iqtisadi tənəzzül nəticəsində əhalinin tələbatının ödənilməsində yerli istehsalın rolu daha da aşağı düşmüşdü. Belə bir fakt da diqqəti cəlb edir

ki, 90-cı illərin əvvəllərində Naxçıvanda adambaşına düşən mal dövriyyəsi orta respublika göstəricisinin 74,8 faizini təşkil edirdi.

90-cı illərin əvvəllərində Naxçıvanda əsas iqtisadi və sosial inkişaf göstəricisi kimi istehsal olunmuş milli gəlir və onun istifadəsi muxtar respublikanın iqtisadiyyatında baş verən prosesləri aydın səciyyələndirir.

Statistik məlumatların təhlili göstərir ki, muxtar respublikada istehsal olunan milli gəlirin sahə strukturunda iqtisadiyyat sahələri fərqli faizlərə malikdir. Məsələn, 1988-ci illə müqayisədə 1990-cı ildə tikinti sahəsində milli gəlir istehsalının xüsusi çəkisi təqribən üç dəfəyə yaxın, nəqliyyat və rabitədə isə 1,8 faiz azalmışdır. Lakin bunun əksinə olaraq həmin dövrdə sənayedə milli gəlir istehsalı 1,5 faiz, kənd təsərrüfatında isə 10,3 faiz artmışdır.

Rəqəmlərdən məlum olur ki, həmin dövrdə Naxçıvan Muxtar Respublikasının sənaye potensialı iqtisadi əlaqələrin kəsilməsi nəticəsində ciddi böhran keçirirdi. Heydər Əliyev Naxçıvana rəhbərlik etdiyi ilk dövründə yanacaq problemini həll etmək üçün qonşu İran və Türkiyə ilə müştərək müəssisələrə investisiya qoyuluşu, humanitar kömək, mədəni əlaqələrin inkişafı üçün tədbirlər planı hazırladı.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının sənayesinin inkişaf strategiyasının əsas məqsəd və reallaşma mexanizmi minimum və maksimum kimi iki əsas hissədən ibarətdir. Minimum proqramın yerinə yetirilməsində nəzarət və dövlətin tənzimləyici rolunun gücləndirilməsi, sənayedə iqtisadi tənzimləmə mexanizmlərindən istifadə olunması əsas götürülmüşdür. Yeri gəldikdə inzibati idarəetmənin iqtisadi yollarından daha geniş istifadə olunmalıdır. İkinci maksimum mərhələ isə sənayedə iqtisadi islahatların aparılması və bazar iqtisadiyyatının fəaliyyətinin əsas prinsiplərinin reallaşdırılmasıdır.

Bu prinsiplər Azərbaycan sənayesinin uzunmüddətli inkişaf

dinamikası, qanunauyğunluqları və Naxçıvan Muxtar Respublikasının bazar iqtisadiyyatı təcrübəsində nəzəri və əməli cəhətdən reallaşan Heydər Əliyev iqtisadi idarəetmə və təşkili mexanizmlərinin perspektivləri əsasında formalaşır. Naxçıvanın iqtisadi inkişaf proqramının əsasını Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyası təşkil edir. Həmin konsepsiyanın işlənmə metodologiyası, reallaşma mexanizmi bir-birinə zidd olan iki iqtisadi sistemin təşkili və idarə olunmasında aparıcı şəxsiyyət olan Heydər Əliyevin nəzəri, elmi və praktik görüşlərinin dahi uzaqgörənliklə məcmu şəkildə formalaşmasına və inkişaf etdirilməsinə əsaslanır.

Bu metodologiya tarixilik, varislik, nəzəri və praktik inkişaf meyllərini fəal sürətdə dəyişmək ideologiyasına əsaslanır və Naxçıvan sənayesinin 1970-1980-ci illərdə formalaşdırılmış potensialının qiymətləndirilməsinə, onun 1988-1993-cü illərdə böhran vəziyyətinin dərin təhlilinə, 2000-ci ildə və XXI əsrdə inkişaf yollarının, mənbələrinin və istiqamətlərinin müəyyən edilməsinə yönəlmişdir.

Ulu öndər Heydər Əliyevin Naxçıvanın sənayesinin inkişaf konsepsiyası keyfiyyətcə yeni, zamanca perspektiv və uzunmüddətli, mahiyyətcə sosial yönümlü, xaraktercə demokratik, dinamik və dünyəvi konsepsiyadır. Onun əhatə dairəsi kompleks, sistemli olub, proqram xarakteri daşıyır.

Əhalinin həyat səviyyəsini yüksəltmək, ölkənin və Naxçıvanın iqtisadi təhlükəsizliyini təmin etmək və dünya iqtisadi sistemində inteqrasiyaya daxil olmaq ümummilli lider Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasının əsas meyarlarıdır. Bu meyarların reallaşması yolları, resurs təminatı və onlardan istifadə mexanizmləri onun iqtisadi baxışlarında öz real həllini tapmışdır. O, dəfələrlə bizim iqtisadi inkişaf yolumuzun bazar iqtisadiyyatı, sahibkarlıq, sərbəst iqtisadiyyat, təşəbbüskarlıq olduğunu bütün beynəlxalq və daxili dövlət sənədlərində əsaslandırıb. Heydər Əliyevin konsepsiyasının nəzəri-metodik müddəaları blokada

şəraitində Naxçıvan MR-nın iqtisadi potensialının istifadəsi, kənd təsərrüfatı, sənayə və əhalinin məşğuliyyətinin təşkili üçün tədbirlər sistemi hazırlayıb həyata keçirməyə zəmin yaratdı. Onun regional iqtisadi inkişaf konsepsiyasının əsasını tənzimlənən bazar iqtisadiyyatı təşkil edir.

Tənzimlənən bazar iqtisadiyyatının Naxçıvanda reallaşması həyati əhəmiyyət kəsb edən ən zəruri problemlərin kredit və investisiya problemlərinin həlli ilə həyata keçirməli idi. Heydər Əliyev əmin idi ki, sənaye sahəsinə sərmayə qoyularsa, onun etibarlı gələcəyi olur. Əks halda sənaye sahəsi zəifləyərək sıradan çıxmağa başlayır. Buna görə də Naxçıvan Muxtar Respublikasında investisiya prosesinin aktivləşməsi üçün şərait yaradılmasına çalışırdı.

Ulu öndər Heydər Əliyev Naxçıvan sənayesinin böhrandan çıxarılması problemlərini aşağıdakı istiqamətlərdə həll edirdi:

♦ Naxçıvan sənayesinin təşkili və idarə olunması sahəsində iqtisadi idarəetmə strukturlarının işindəki nöqsanların ləğv edilməsi, dövlət tənzimlənməsinin və nizam-intizamın möhkəmləndirilməsi;

♦ Naxçıvanın sənaye strukturlarında islahatlar və bazar iqtisadiyyatı mexanizmlərinin yaradılması və istifadəsi;

♦ Xarici iqtisadi əlaqələrin və xarici investisiyaların muxtar respublika sənayesinə axınının təşkili.

Naxçıvan sənayesinin böhrandan çıxarılması tədbirlərinin ilkin bəhrələri – siyasi sabitlik, sərhəd rayonlarında atəşkəsə nail olunması, Naxçıvanın sənaye potensialından səmərəli istifadə yollarının tapılması və xarici ölkələrlə əlaqələrin gücləndirilməsi idi.

Xarici investisiyanın muxtar respublikaya geniş cəlb edilməsi nin zəruriliyi ulu öndər tərəfindən dəfələrlə vurğulanmışdı.

İstehsal olmadan, yalnız ticarət əlaqələrinin inkişafı ilə iqtisadiyyatı dirçəltməyi qeyri-mümkün sayan ümummilli lider Heydər Əliyev xarici kapitalın respublikaya axınına tam şərait

yaratmağı və qanuni hədlər çərçivəsində idarə etməyi ön plana çəkirdi.

Naxçıvanın təbii resurslarından mineral sular, duz istehsalı, kənd təsərrüfatı məhsullarının emalı sahəsində xarici kapitalın cəlb edilməsi istiqamətində sözdən əməli işə keçilməsinə məhz ulu öndərin Naxçıvana rəhbərlik etdiyi illərdə başlandı.

İran İslam Respublikası ilə müqavilələr bağlanaraq muxtar mespublikanın enerji tələbatını ödəmək üçün Araz su anbarı üstündə beynəlxalq su elektrik stansiyasının İrana mənsub olan turbinin istehsal etdiyi enerjinin bir hissəsinin Naxçıvana verilməsi təmin edildi.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı resurslarından səmərəli istifadə olunması, bazarların tapılması və hazır məhsulun satışı üçün Türkiyə Cümhuriyyəti ilə bağlanan müqavilələr mühüm əhəmiyyət kəsb edirdi. Belə sahələrdən biri 3-4 il bundan əvvəl yığılıb qalmış tütün məhsulunun, şərab məmulatının emal və satışının təşkili idi. Bu məqsədlə muxtar respublika ilə Türkiyə arasında müqavilələr bağlandı.

Naxçıvan Muxtar Respublikasının hər bir strateji məhsuluna və resursuna aid xüsusi tədbirlər planı hazırlanmışdır. O cümlədən Naxçıvan torpaqları üçün əlverişli olan şəkər çuğunduru istehsalının artırılmasının məqsədli proqram metodları istifadə olunurdu. Muxtar respublikada istehsal edilən şəkər çuğundurunun Türkiyədən alınan şəkərlə mübadiləsinin iqtisadi əsasları və müqavilə şərtləri, həmçinin Naxçıvanda istehsal olunan meyvə-tərəvəz, gön-dəri və mineral suların Türkiyə bazarlarına və emal müəssisələrinə verilməsi proqramları hazırlanmışdır. Mineral sular, şəkər istehsalı, üzüm və digər məhsulların emalı üçün Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikasının müştərək müəssisələrinin tikilməsi perspektivləri işlənib hazırlanmışdır.

Naxçıvanın resurslarından səmərəli istifadə üçün digər xarici ölkələrin investisiyalarını da cəlb etmək vəzifəsi qarşıda dururdu. Heydər Əliyevin xarici iqtisadi siyasət strategiyası yerli resurslara

əsaslanaraq, səmərəli ticarət əlaqələri və müştərək müəssisələr yaratmaq, kapital axını yolu ilə Muxtar Respublikanın mənafeyini təmin etmək siyasəti idi. Bu sahədə İran İslam Respublikası ilə Naxçıvan MR arasında birgə iş və qarşılıqlı yardım sazişləri müstəsna rol oynamışdır. 1992-ci il martın 17-də İran İslam Respublikasının prezidenti Əli-Əkbər Haşimi Rəfsəncanı və digər İran rəhbərləri ilə Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin İran rəhbərləri ilə görüşlərində İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi tədbirləri hazırlandı.

Naxçıvanla İran arasında bağlanan müqaviləyə görə ildə 60 milyon ədədə qədər kərpic istehsal edə bilən zavod tikilməli və Naxçıvan alt trikotaj və xalçaçılıq kombinatı üçün lazımi vəsait ayrılmalı idi.

Naxçıvanın intensiv inkişafında təbii resurslardan tam və kompleks istifadə edilməsi Heydər Əliyevin daimi diqqət mərkəzində durmuşdur. Təbii resursları və xammal ehtiyatlarının son məhsula qədər emalının muxtar respublika ərazisində həyata keçirilməsi doğrudan da böyük iqtisadi maraq doğurur. Hesablamar göstərir ki, Naxçıvan məhsulunun son məhsula qədər emalı onun dəyərini 3-4 dəfə artırır.

Ulu öndər Heydər Əliyevin Naxçıvan iqtisadi islahatlar modelinin nəticəsidir ki, ilk dəfə Naxçıvan Muxtar Respublikasında mal və xidmət təklifi ilə əhalinin alıcılıq qabiliyyəti uzlaşdı, çörək və çörək məhsulları respublika səviyyəsi ilə müqayisədə 30%, xalq istehlakı mallarının pərakəndə satış qiyməti 20% ucuzlaşdı. Bir daha xüsusi vurğulanmalıdır ki, bütün bu nailiyyətlər müharibə və blokada şəraitində əldə olunmuşdur.

Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Heydər Əliyev Naxçıvan Muxtar Respublikasını ağır, iqtisadi böhrandan Ermənistan tərəfindən uzunmüddətli mühasirə vəziyyətində saxlanılmasının törədə biləcəyi çox ağır nəticələrin qarşısını əsaslı surətdə aldı və bütün çətinliklərə mərdliklə sinə gərən Naxçıvan

əhalisinin bu böyük sınaqdan mətanətlə çıxmasına səbəb oldu. Habelə Naxçıvan MR-də sənayenin mühüm sahələrinin dirçəldilməsində və bu sahələrdə geniş miqyaslı islahatların həyata keçirilməsində böyük işlər gördü.

## 2. Makroiqtisadi sabitliyin əldə olunması və muxtar respublikada dinamik inkişafın başlanması (1996-2003)

Zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəb olur. Bu cəhətdən müstəqilliyin qorunub saxlanılması Azərbaycan üçün daha çətin idi. Ona görə ki, düşmən əhatəsində olan ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda real olaraq onun ərazi bütövlüyünə qəsd edilmiş və üstəlik, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.

İstehsal getdikcə azalmış, anbarlar boşaldılmışdı. Ölkənin idxal və ixrac əməliyyatları isə böyük çətinliklə həyata keçirilirdi. 1992-ci ilin qışında Avropa Birliyindən alınan 300 min ton, 1993-cü ilin qışında isə qardaş Türkiyənin verdiyi yenə 300 min ton əvəzsiz un və taxıl yardımı ölkəmizi xilas etdi.

Amma yuxarıda qeyd edildiyi kimi ölkənin əsl xilaskarı 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev oldu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: **"Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərpa olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu".**

İdarəçilik sahəsində zəngin təcrübəyə malik olan Heydər

Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhrandan çıxarmaq, müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı.

Müstəqilliyimizin ilk illərində ölkədə sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistan işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərcilik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. Məhz həmin illərdə baş verən iqtisadi geriləmə ölkəmizi çox çətin vəziyyətə salmışdı. Ona görə də Ermənistanla Azərbaycan arasında atəşkəs elan etmək, daxili çəkişmələrə son qoymaq, "əsrin müqaviləsi"ni imzalamaq, qonşu dövlətlərlə münasibətlərin yaxşılaşdırılması və s. məsələlərin həlli mühüm vəzifələr kimi qarşıda dururdu.

Heydər Əliyevin memarlığı ilə 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul olunması ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlətin möhkəm təməlini qoydu.

Keçən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə makroiqtisadi sabitliyin təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Məlum idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanıldı.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən

iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı həmin islahatlara dəstək verməyə başladılar. Onlar Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar dönməz xarakter aldı. Sərt və çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində qısa zamanda (1995-1996-cı illər) ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Əgər 1994-cü ildə inflyasiya tempi 1800 faizə, manatın ABŞ dollarına nisbətən dəyərsizləşməsi 1200 faizə çatmışdırsa, artıq 1995-ci ildə vəziyyət əsaslı şəkildə dəyişməyə başlamış və həmin göstəricilər uyğun olaraq 511,8 faiz və 3,6 faiz olmuşdur. Sonrakı illərdə bu göstəricilər daha da yaxşılaşmış, 1996-cı ildə inflyasiya 6,8 faizə enmiş, manatın isə ABŞ dollarına nisbətən məzənnəsi 8 faiz möhkəmlənmişdir. 1997-ci ildə inflyasiya tempi minimuma enərək cəmi 3,7 faiz təşkil etmiş, manatın dəyəri isə 5,1 faiz möhkəmlənmişdir.

Beləliklə, 1995-ci ildə Ümummilli lider Heydər Əliyevin gördüyü tədbirlər nəticəsində ölkədə köklü iqtisadi islahatlar aparılması mümkün oldu.

1995-1996-cı illərdə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə razılaşdırılmış makroiqtisadi sabitləşmə və struktur dəyişiklikləri üzrə iqtisadi proqramların reallaşdırılması hesabına artıq 1996-cı ildən etibarən ölkəmizdə Ümumi Daxili Məhsulun artımına nail olundu. Belə ki, 1996-cı ildə ÜDM-un artım sürəti 1,3%, 1997-ci ildə 5,8%,1998-ci ildə 10,0%, 1999-cu ildə 7,4%, 2000-ci ildə isə 11,1% təşkil etmişdir.

Ölkədə istehsal olunan ÜDM strukturuna diqqət yetirdikdə məlum olur ki, sənaye üstün mövqeyə malik olmuşdur.

2000-ci ilin yekununa görə ÜDM-un strukturunda ayrı-ayrı sahələrin payı sənayedə 32 faiz, kənd təsərrüfatında 18,1 faiz, tikintidə 44 faiz, nəqliyyat və rabitədə 14,5 faiz, ticarət və ictimai iaşədə 6,1 faiz, sosial və qeyri-formal xidmətlərdə isə 3,9 faiz olmuşdur.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasında aparılan islahatlar artıq öz ilkin nəticələrini vermişdir. Belə ki, ötən dövr ərzində makroiqtisadi sabitliyə nail olunmuş, mülkiyyət çoxnövlüyünün yaradılması, o cümlədən dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlıq və rəqabət mühitinin inkişafı, bazar infrastrukturunun formalaşdırılması və s. bu kimi istiqamətlərdə xeyli işlər görülmüşdür.

Bazar iqtisadiyyatına keçid dövründə sənaye iqtisadiyyatın mühüm sahəsi kimi ciddi dəyişikliklərə məruz qalır. Onun yeni keyfiyyətli inkişaf səviyyəsinə keçməsi ön plana çəkilir. Bu isə heç şübhəsiz ki, sahənin quruluşunun təkmilləşdirilməsi və bu prosesdə elmi-texniki tərəqqinin sürətləndirilməsi imkanlarının bazarın tələblərinə nə dərəcədə uyğun gəlməsindən asılıdır.

Bazar münasibətlərinə keçid şəraiti yeni iqtisadi sistemin formalaşmasını, sahibkarlıq fəaliyyətinin genişləndirilməsini və sənaye müəssisələrində struktur dəyişikliklərin aparılmasını tələb edir.

Ulu öndər Heydər Əliyevin iqtisadi konsepsiyasında, struktur dəyişiklikləri sosial-iqtisadi hadisə və proseslər sırasında əsas yer tutur. Azərbaycanda iqtisadi dirçəliş və iqtisadi inkişafa mane olan problemlərin həll edilməsi əhəmiyyətli dərəcədə sənayenin restrukturizasiyasının həyata keçirilməsindən asılı ola bilər. Təsadüfi deyildir ki, hazırda bilik və təcrübənin yeni sahəsi olan müəssisə və şirkətlərin restrukturizasiyası daha geniş vüsət alır.

Restrukturizasiya müəssisələrin yeni texnika və mütərəqqi texnologiyalar əsasında modernləşdirilməsini, istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılmasını və əmək məhsuldarlığını

yüksəltməklə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmağı nəzərdə tutur.

Hazırda real sektorun inkişafında müəyyən çətinliklərə baxmayaraq, iqtisadiyyatın strukturunun yenidən qurulması istiqamətində mühüm addımlar atılır. Naxçıvan MR iqtisadiyyatında da aparıcı rol oynayan sənaye müəssisələrinin restrukturizasiyası mühüm əhəmiyyətə malikdir. Məhz bu baxımdan regionların inkişafı da sənayenin inkişaf səviyyəsi ilə müəyyən olunur. Çünki sənayenin inkişaf etdirilməsi və onun sahə strukturunun təkmilləşdirilməsi ilə bir sıra problemlər məşğulluq problemi həll edilir, sənaye sahələri üçün xammal bazası olan kənd təsərrüfatı inkişaf etdirilir. Əhalinin sənaye məhsullarına tələbi ödənilir, regionlararası və regiondaxili, həmçinin xarici iqtisadi əlaqələr təkmilləşir və son nəticədə əhalinin həyat səviyyəsinin yüksəlməsinə nail olunur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı Ümummilli liderimiz Heydər Əliyevin bütün hakimiyyəti dövründə özünün əsl inkişaf mərhələsinə qədəm qoymuşdur. 1969-1985-ci illərdə Naxçıvanda 22 sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Kənd təsərrüfatı inkişaf etdirilmişdir. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası inkişaf etməkdə olan sənaye və çoxsahəli kənd təsərrüfatına malikdir. Azərbaycanın sənaye məhsulunun 2,6 faizi, kənd təsərrüfatı məhsullarının isə 3,6 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür. Ölkə sənayesində Naxçıvan iqtisadi rayonunun payının cəmi 2,6 faiz olması nəzərə alınaraq gələcəkdə sənayenin potensialını artırmaq və xüsusi çəkisini yüksəltmək üçün regionlardakı sənaye müəssisələrinin fəaliyyətini bərpa etmək və yeni müəssisələr yaratmaq əsas məsələlərdən biri olmalıdır.

Naxçıvan sənaye qovşağı muxtar respublikada olan digər sənaye qovşaqlarından fərqlənir. Belə ki, Naxçıvan Muxtar Respublikasında istehsal olunan sənaye məhsullarının yarıdan çoxu və sənaye-istehsal işçilərinin 45 faizə qədəri məhz Naxçıvan

sənaye qovşağının payına düşür.

Naxçıvan şəhərində fəaliyyət göstərən sənaye sahələrinin sahə quruluşunun təhlili göstərir ki, bu qovşaqda sənaye məhsullarının 70 faizdən çoxu yeyinti sənayesində, 10 faizi isə yüngül sənaye sahəsində istehsal olunur.

1998-2003-cü illəri əhatə edən beş il ərzində muxtar respublikada sənaye istehsalının inkişaf dinamikası sabit olmamışdır. Muxtar respublikada 1991-ci ildə 473 mln. manat məbləğində sənaye məhsulu istehsal edilmiş, sənaye sahəsində yaranmış durğunluq və böhran vəziyyət 1995-ci ildə aradan qaldırılmış, 1996-cı ildən başlayaraq isə istehsalın həcmi artmışdır. 1996-cı il digər sahələrdə olduğu kimi sənaye sahəsinin də sabitləşmə dövrü kimi xarakterizə olunur. 2003-cü ildə sənaye istehsalının həcmi 17600,3 min manat olmuşdur ki, bu da 1996-cı ilə nisbətən 1,8 dəfə, 2001-ci ilə nisbətən 1,5 dəfə çoxdur.

Muxtar respublikada sənaye məhsulunun 2003-cü ildə 81,9 faizi məhsul istehsalının, 18,1 faizi isə xidmətlərin payına düşmüşdür.

Muxtar respublikanın sənaye məhsulunda qeyri-dövlət sektorunun payı artmaqdadır. Belə ki, bu göstərici 1998-ci ildəki 60,0 faizdən 2003-cü ildə 63,0 faizə qədər artmışdır.

Makroiqtisadi sabitlik əldə edildikdən sonra muxtar respublikada sənaye sahəsində olduğu kimi aqrar islahatların həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsullarının artım meyli də xeyli güclənmişdir.

Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq ümummilli liderimiz Heydər Əliyev tərəfindən aqrar islahatlara başlanması və həyata keçirilən özəlləşdirmə proqramları sonrakı illərdə kənd təsərrüfatının ümumi məhsulu artımının əsasını qoymuşdur. Təkcə bir faktı göstərmək kifayətdir ki, 2003-cü ildə muxtar respublikada 71822,2 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bu da 1998-ci illə müqayisədə 42,9 faiz, 1999-cu illə müqayisədə 51,3 faiz, 2000-ci illə müqayisədə 32

faiz, 2001-ci illə müqayisədə 22,6 faiz, 2002-ci illə müqayisədə isə 11,7 faiz artmışdır.

Kənd təsərrüfatının ümumi məhsulunda bitkiçilik məhsulları istehsalı əsas yer tutur. Belə ki, 2003-cü ildə muxtar respublikada istehsal olunan ümumi məhsulun 60,8 faizi bitkiçilik və 39,2 faizi isə heyvandarlıq məhsullarının payına düşmüşdür.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərliyinin ikinci dövründə (1993-2003) muxtar respublikada dənli və dənli paxlalılar məhsulları istehsalı 1993-cü ildəki 20 min tondan 2003-cü ildə 81,4 min tona, şəkər çuğunduru 1,5 min tondan 129 min tona, kartof 1,8 min tondan 14,2 min tona, tərəvəz 14,8 min tondan 53,4 min tona, bostan məhsulları 1,0 min tondan 41,7 min tona, meyvə və giləmeyvə isə 8,2 min tondan 28,6 min tona qalxmışdır. Məhz bu artım muxtar respublikada adambaşına bitkiçilik məhsulları istehsalının da artmasına səbəb olmuşdur. Belə ki, əgər muxtar respublikada 1993-cü ildə hər adambaşına taxıl istehsalı 61 kq təşkil edirdi, bu rəqəm 2003-cü ildə 220 kiloqrama qədər artmışdır. Həmin illərdə şəkər çuğunduru 5 kiloqramdan 349 kiloqrama, kartof 6 kiloqramdan 38 kiloqrama, tərəvəz 45 kiloqramdan 144 kiloqrama, bostan məhsulları 3 kiloqramdan 113 kiloqrama, meyvə və giləmeyvə isə 25 kiloqramdan 77 kiloqrama qədər yüksəlmişdir.

Yuxarıda qeyd edildiyi kimi kənd təsərrüfatının ümumi məhsulunda heyvandarlıq məhsulları istehsalı 39,3 faiz təşkil edirdi. Heyvanların baş sayının artması muxtar respublikada əsas heyvandarlıq məhsulları istehsalının artmasına səbəb olmuşdur.

Bütün dövrlərdə ancaq ziyanla işləyən, gəlirsiz sahə sayılan heyvandarlıq aqrar islahatların gedişində kəndlinin əsas dolanışıq mənbələrindən birinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin 6 noyabr 1998-ci ildə Respublika Nazirlər Kabinetinin geniş iclasında söylədiyi yekun nitqində dediyi kimi: **“... Heyvandarlıq sahəsi tamamilə özəlləşdirilib və çox yüksək nəticələr əldə**

**olunubdur. Mən bu gün sizə deyə bilərəm ki, Azərbaycanda tarixən heç vaxt indiki qədər mal-qara, iribuynuzlu mal, yaxud da xırdabuynuzlu mal olmayıbdır.**

**İndi isə qısa bir zamanda heyvandarlıq sahəsinin özəlləşdirilməsi, şəxsi mülkiyyətə verilməsi həmin iribuynuzlu mal-qaranın, həm də xırdabuynuzlu mal-qaranın xeyli artmasına gətirib çıxarmışdır".**

Doğrudan da, ümummilli liderimiz Heydər Əliyevin ikinci hakimiyyəti dövründə özünün də qeyd etdiyi kimi həm Azərbaycanda, həm də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında heyvandarlıq inkişaf etmiş və onların say tərkibi getdikcə artmışdır. Belə ki, əgər muxtar respublikada 1993-cü ilin axırına 49 min baş iribuynuzlu mal-qara var idisə, bu rəqəm artaraq 2003-cü ilin axırında 81,2 min baş təşkil etmiş və ya 10 il ərzində 32,2 min baş artmışdır. Eyni zamanda həmin dövrdə muxtar respublikada qoyun və keçilərin sayı 221 min baş artmışdır.

Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə (1993-2003), yəni 10 il ərzində muxtar respublikada əsas heyvandarlıq məhsulları istehsalı, o cümlədən ət (kəsilmiş çəkidə) 3,1 min ton, süd 42,5 min ton, yumurta 14,1 milyon ədəd artmışdır. Həmin dövrdə yun istehsalı isə 400 ton artmışdır.

Bütün bu inkişafdan bəhs edən ulu öndərimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə keçirilən yubiley təntənələrində çıxış edərək demişdir: **"İndi deyəndə ki, ət, süd, yağ, pendir artıqlaması ilə istehsal olunur, başına qalıb, satmağa imkan yoxdur, çünki çıxarıb başqa yerdə satmaq mümkün deyildir, mən buna nə qədər sevinirəm. Nə qədər sevinirəm ki, o vaxt biz özəlləşdirməni Azərbaycanın hər yerindən tez başladıq və Naxçıvan bu işlərə hamıdan tez nail oldu. Muxtar respublikanın o qara günləri qurtardı".**

Ümumiyyətlə statistik məlumatların təhlili göstərir ki,

2003-cü ildə 1993-cü illə müqayisədə ət istehsalı 77,5 faiz, süd istehsalı 3 dəfədən çox, yumurta istehsalı isə 48,3 faiz artmışdır.

20 ildən artıqdır ki, muxtar respublika blokada şəraitindədir. Ötən dövr ərzində blokada vəziyyəti ilə bağlı çətinlikləri aradan qaldırmaq və nəqliyyat infrastrukturunu müasirləşdirmək sahəsində əsaslı tədbirlər görülmüş, Naxçıvan Beynəlxalq Hava Limanının, körpülərin, yolların tikilməsi, habelə avtobus və yeni hava nəqliyyatı marşrutlarının açılması nəqliyyat əlaqələrinin genişlənməsində mühüm mərhələ olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin ikinci hakimiyyəti dövründə ölkənin və onun tərkib hissəsi olan Naxçıvan MR-in nəqliyyat sistemində xeyli dəyişikliklər baş vermişdir.

Statistik materialların təhlili göstərir ki, ölkədə makroiqtisadi sabitliyin əldə olunması nəqliyyatın əsas göstəricilərinin yüksəlməsinə gətirib çıxarmışdır. Aparılan təhlildən məlum olur ki, muxtar respublikada avtomobillərin sayı 1995-ci ildəki 15719-dan 18607-yə çatmış və ya 2888 ədəd artmışdır. Həmin dövrdə muxtar respublikada yük daşınması 7 dəfəyə yaxın, yük dövriyyəsi 15 dəfə, sərnişin daşınması 1,4 dəfə artmışdır. Yeni avtomobil yollarının salınması nəticəsində avtomobil yollarının uzunluğu 1995-ci ildəki 1400 km-dan 2003-cü ildə 2086 km-ə çatmış və ya 686 km artmışdır.

1995-2005-ci illərdə muxtar respublika ərazisində rabitə operatorunun fəaliyyətinin təşkil edilməsi, İran və Türkiyə ərazilərindən keçməklə fiber-optik kabelin çəkilişi, "Naxtel" simsiz telefon xidmətinin istifadəyə verilməsi, "Kanal-35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun fəaliyyətə başlaması, Naxçıvan MR İnternet Mərkəzinin, Naxçıvan MR Kompüter Təlim-Tədris və İnternet Mərkəzinin və onun rayon mərkəzlərinin səmərəli fəaliyyətinin təşkili və s. məsələlər muxtar respublikada informasiya və kommunikasiya texnologiyalarının ictimai həyatımıza sürətli inteqrasiyasını təmin

etmişdir. Bütün bunlar isə 1995-2005-ci illərdə muxtar respublikada informasiya və rabitə sahəsində göstərilmiş xidmətlərin həcminin xeyli yüksəlməsinə gətirib çıxarmışdır. Belə ki, 2005-ci ildə informasiya və rabitə xidmətlərinin həcmi 1995-ci ildəki göstəricini 21 dəfə üstələyərək 9014 min manat həcmində olmuşdur.

### 3.Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyi milli təhlükəsizliyinin tərkib hissəsidir

Müasir dövrdə dünyanı narahat edən əsas problemlərdən biri ərzaq təhlükəsizliyi məsələsidir.

Hələ keçən əsrin axırlarında ölkədə ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan aqrar islahatlar kənd təsərrüfatında qazanılan bu günkü uğurların başlanğıcı olmuşdur. Son 15 ildə aqrar sektorda həyata keçirilmiş məqsədyönlü tədbirlər kənd təsərrüfatı və emal, sənaye məhsulları istehsalının dinamik inkişafına imkan yaratmaqla kənd təsərrüfatı bitkilərinin əkin strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Elə bunun nəticəsidir ki, əhalinin illik tələbatından xeyli artıq məhsul istehsal edilmiş, keyfiyyət yaxşılaşdırılmış, ixrac isə ildən-ilə artmaqdadır.

İqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun azaldılmasına nail olmaq məqsədilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və onun davamı olan "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər hüquqi normativ sənədlər qəbul edilmişdir.

Ərzaq təhlükəsizliyi hazırda dünyada özünü kəskin şəkildə büruzə verir. Beynəlxalq miqyasda ərzaq probleminə diqqət yetirilməsinin nəticəsidir ki, BMT-nin təşəbbüsü ilə hələ 1996-cı

ildə "Ümumdünya ərzaq təhlükəsizliyi haqqında Roma deklarasiyası" qəbul edilmişdir. 2000-ci ilin sentyabrında Nyu-York şəhərində BMT tərəfindən 191 ölkənin dövlət başçılarının iştirakı ilə Minilliyin Sammiti keçirilmişdir.

Qeyd edək ki, ümummilli liderimiz Heydər Əliyev də bu Sammitdə iştirak edirdi. Bu Sammitdə 2015-ci ilədək dünyada ifrat yoxsul əhalinin sayının yarıya qədər azaldılması öhdəliyini əks etdirən Minilliyin Bəyannaməsi imzalanmışdır. Elə buna görə də ölkədə aparılan iqtisadi islahatların daha da dərinləşməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması, respublika əhalisinin ərzaq məhsulları ilə daxili istehsal hesabına təmin edilməsi bir vəzivə kimi qarşıya qoyulmuşdur.

Bu vəzifələrdən irəli gələn məsələlər ölkəmizdə çox müvəffəqiyyətlə həyata keçirilir. Kənd təsərrüfatı məhsulları istehsalı son zamanlar daha sürətlə artır ki, bu da əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması üçün zəmin yaradır. Heç kəsə sirr deyil ki, müstəqilliyimizin ilk illərində ölkədə ərzaq məhsulları çatışmırdı və qida məhsullarının əsas hissəsi xarici ölkələrdən idxal olunurdu. Lakin sonralar görülən bir sıra tədbirlər nəticəsində idxal olunan ərzaq məhsullarının xüsusi çəkisi getdikcə azalmış və yerli məhsullar isə artmışdır. Ölkə əhalisinin zəruri ərzaq məhsulları ilə təmin olunması məqsədilə aqrar bölmədə aparılan köklü islahatlar bu sahənin daha sürətlə inkişafına əlverişli zəmin yaratmışdır.

2012-ci il aprel ayının 19-da Bakıda keçirilən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa üzrə 28-ci regional konfransında iştirak və çıxış edən Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: **"İdxalı əvəzləyən yerli istehsal sahələrinin yaradılması prosesi çox sürətlə gedir. Biz qarşıya hədəf qoymuşuq ki, özümüzü əsas ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox ciddi addımlar atılmışdır. Hazırda biz özümüzü əsas qida məhsulları ilə böyük dərəcədə - təxminən 80-90 faiz**

**səviyyəsində təmin edirik. Eyni zamanda bizdə çox güclü ixrac potensialı da formalaşır. İxrac potensialını daha da artırmaq üçün biz indi müxtəlif stimulverici amillərdən istifadə edirik. Yeni bazarlara çıxırıq. Azərbaycanda demək olar bütün yeni, müasir emal müəssisələri dünya standartlarına cavab verir ki, biz məhsullarımızı istənilən bazarlara ixrac edə bilək. Hazırda bizim üçün əsas ixrac bazarı qonşu ölkələrdir. Bu, ənənəvi bazardır. Ancaq biz məhsullarımızla artıq Avropa İttifaqı məkanına da çıxırıq. Əminəm ki, yaxın zamanlarda bu işlər daha da sürətlə gedəcəkdir".**

Yuxarıdakılardan məlum olur ki, hazırda Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzində saxladığı ən mühüm problemlərdən biri ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsi daha çox qlobal xarakter daşıyır və ölkənin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olmaqla ölkənin strateji maraqlarının qorunmasında mühüm rol oynayır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi ölkənin milli maraqlarının xarici rəqabətin əlverişsiz təzahürlərindən qorunmasında aparıcı amil olmaqla ölkənin ərzaq müstəqilliyinin təzahürü kimi şərtlənir.

Dövlət Proqramlarına uyğun olaraq ölkənin bütün regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında da ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində çox mühüm tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi Dövlət Proqramları, o cümlədən "2005-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı Dövlət Proqramı" "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda muxtar respub-

lika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar bir çox məsələlər öz əksini tapmışdır. Dövlət Proqramlarının qəbulundan keçən dövr ərzində görülmüş işlər bir daha göstərir ki, yaxın gələcəkdə muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyi tam şəkildə təmin olunacaqdır.

Statistik məlumatların təhlili göstərir ki, 2011-ci ildə muxtar respublikada regional inkişaf Proqramlarına uyğun olaraq ərzaq məhsulları istehsalı və məhsuldarlığı ildən-ilə artmaqda davam etmişdir. Məhsuldarlığın artması istehsalın artmasına təsir göstərən əsas amillərdən biridir. Aparılan təhlillər göstərir ki, 10 iqtisadi rayon içərisində Naxçıvan iqtisadi rayonunun qazandığı nailiyyətləri ürəkaçandır. Bunu aşağıdakı cədvəldən daha aydın görmək olar:

***2011-ci ildə Azərbaycanın 10 iqtisadi rayonu üzrə bəzi məhsulların məhsuldarlığı (sent/ha)***

| İqtisadi rayonlar | Məhsuldarlıq | | | |
|---|---|---|---|---|
| | **Taxıl** | **Kartof** | **Meyvə** | **Üzüm** |
| Respublika üzrə cəmi | 25,4 | 144 | 71,7 | 81,5 |
| Abşeron | 14,7 | 70 | 6,3 | 18 |
| Gəncə-Qazax | 30,3 | 179 | 101,9 | 116,3 |
| Şəki-Zaqatala | 30,2 | 92 | 34,1 | 77,5 |
| Lənkəran | 18,9 | 130 | 101,9 | 67,9 |
| Quba-Xaçmaz | 23,0 | 96 | 73,6 | 109,4 |
| Aran | 26,4 | 116 | 96,1 | 73,3 |
| Yuxarı Qarabağ | 23,0 | 130 | 65,8 | 89,7 |
| Kəlbəcər-Laçın | 25,5 | 35 | - | - |
| Dağlıq Şirvan | 19,3 | 66 | 74,8 | 40 |
| Naxçıvan | 29,4 | 139 | 133,2 | 141,8 |

Cədvəl məlumatlarının təhlili göstərir ki, hər hektardan yığılan taxılın məhsuldarlığı səviyyəsinə görə Naxçıvan iqtisadi rayonu Azərbaycanın orta göstəricisini 4 kq qabaqlayır və Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi zonalarından sonra 29,4 sent/ha

göstərici ilə 3-cü yeri tutur.

Kartofun məhsuldarlığı cəhətdən də Naxçıvan iqtisadi zonasının yerini qiymətləndirmək olar. Baxmayaraq ki, kartofun hər hektardan məhsuldarlığına görə Naxçıvan ölkənin orta səviyyəsindən 5 kq geri qalır, amma iqtisadi rayonlar içərisində Gəncə-Qazax iqtisadi rayonundan sonra 2-ci yeri tutur.

Digər məhsullar üzrə, o cümlədən meyvə üzrə Naxçıvan iqtisadi rayonu hər hektara görə məhsuldarlıq Azərbaycanın orta göstəricisini 61,5 sentner, üzüm üzrə isə məhsuldarlığı 60,3 sentner qabaqlayır. Məhz bu məhsulların hər hektardan məhsuldarlığına görə Naxçıvan iqtisadi rayonu 10 iqtisadi rayon içərisində 1-ci yeri tutur.

Keçən hesabat ilində də bu inkişaf davam etdirilmişdir. Belə ki, 2013-cü ildə, bütövlükdə, muxtar respublikanın kənd təsərrüfatında ümumi məhsul istehsalı 337127,2 min manata çatmışdır ki, bu da 2012-ci illə müqayisədə 6,9 faiz çoxdur.

Taxıl strateji məhsullar sırasına daxildir və taxılçılığın inkişafı əhalinin ərzaq məhsulları ilə etibarlı şəkildə təmin olunmasında mühüm rol oynayır.

Taxılçılıq sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, son iki ildə də muxtar respublikada taxıl istehsalı artmış və əkin sahələri genişləndirilmişdir. Belə ki, əgər 2010-cu ildə taxıl əkini sahəsi cəmi 34 min hektar təşkil edirdisə, son iki il ərzində bu rəqəm min hektar artırılaraq 2012-ci ildə 35 min hektar təşkil etmiş və 2013-cü ildə isə bu rəqəm 35 min 324 hektara çatmışdır.

Əkin sahələrinin artması taxıl məhsulu istehsalının da artmasına səbəb olmuşdur. 2010-cu ilə nisbətən əkin sahələrinin 2013-cü ildə cəmi 1369,8 hektar və ya 2012-ci ilə nisbətən 359 hektar artmasına baxmayaraq taxıl istehsalı cəmi 7 min ton artmışdır. Yəni əgər 2010-cu ildə muxtar respublikada cəmi 96,0 min ton taxıl istehsal edilmişdisə bu rəqəm 2013-cü ildə 103,0 min tona çatdırılmış və ya istehsal 7,2 faiz artmışdır.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sahibkarlarla (fermerlərlə) görüşərkən əhalinin ərzağa olan tələbatının yerli istehsal hesabına ödənilməsini bir vəzifə kimi onların qarşısında qoymuş, həm də istehsalın artımını ekstensiv amillər hesabına deyil, intensiv amillər hesabına həll edilməsini tövsiyyə etmişdir. Hesab edirəm ki, bu vəzifə yerinə yetirilərək məhsul artımının əsas hissəsi məhsuldarlığın artırılması hesabına əldə edilmişdir.

Taxıl ehtiyat fondlarının yaradılması hər bir ölkə və region üçün zəruridir. Tarixən belə olmuşdur və bu gün də belədir. Belə fondlar bir neçə ay üçün yaradılır ki, əgər təbii fəlakətlər, müharibələr baş verdikdə əhali ac qalmasın və müvəqqəti olaraq özünü çörəklə təmin edə bilsin. Taxıl ehtiyatı fondu hazırda Naxçıvan Muxtar Respublikasında da yaradılmışdır. Burada taxıl ehtiyatının yaradılması məqsədilə 18 min ton uzunmüddətə və 20 min ton qısa müddətə taxılı saxlamağa imkan verən anbarlar qurulmuşdur.

2013-cü ildə Naxçıvan şəhərində taxılın saxlanılması üçün tutumu 9 min ton olan üç yeni bunker yaradılmış, muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarın həcmi 18 min tondan 27 min tona çatdırılmışdır.

Tarixən kartof ikinci çörək sayılır və Dövlət Proqramına uyğun olaraq muxtar respublikada kartof istehsalının artırılması və əhalinin bu məhsula olan tələbatının yerli istehsal hesabına ödənilməsi qarşıda duran əsas hədəflərdən biridir. Məlumdur ki, keçən əsrin 90-cı illərində muxtar respublika əhalisinin kartofa olan tələbatının əsas hissəsi idxal hesabına ödənilirdi. Blokada vəziyyətində olan Naxçıvanı bu məsələ daim narahat edirdi və bu vəziyyəti aradan qaldırmaq üçün muxtar respublikanın rəhbərliyi yollar axtarırdı. Nəhayət, 2005-ci ildə "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı (2005-2010-cu illər)" qəbul edildi. Məhz bu proqramın müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində daxili bazarın

kartofla təminatında idxaldan asılılıq azaldıldı və bu məhsula əhalinin tələbatı yerli məhsul hesabına təmin edildi. Kartof istehsalının artımı 2013-cü ildə də davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə 2011-2012-ci illərdə əkin sahəsində cüzi dəyişiklik olmuş, yəni 2011-ci ilə nisbətən 2012-ci ildə əkin sahəsi cəmi 67 hektar artmışdır. 2013-cü ildə isə 2012-ci ilə nisbətən əkin sahəsi 126 hektar artmışdır. Muxtar respublikada kartof istehsalı 2012-ci ilə nisbətən 4,7 faiz artaraq 2013-cü ildə 41,3 min ton təşkil etmişdir.

Muxtar respublikada kənd təsərrüfatının dayanıqlı inkişafı onun digər sahələrinin inkişafını da təmin etmişdir. Belə ki, 2013-cü ildə 66,5 min ton tərəvəz, 39 min tondan çox ərzaq üçün bostan məhsulları, 43,3 min tona yaxın meyvə və 15,1 min ton üzüm istehsal edilmişdir.

Muxtar respublikada əhalinin il boyu keyfiyyətli kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi məqsədilə soyuducu anbarlar və istixana kompleksləri fəaliyyət göstərir. 2013-cü ildə də soyuducu anbarların yaradılması istiqamətində işlər davam etdirilmiş, tutumu 250 ton olan 2 soyuducu anbar istifadəyə verilmişdir. Hazırda muxtar respublikada 17 soyuducu anbar fəaliyyət göstərir ki, bu anbarların ümumi tutumu 11 min 970 tona çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin məlumatına görə 2012-ci ildə əhalini keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təmin etmək məqsədilə Naxçıvan iqtisadi rayonunun bölgələrindən soyuducu anbarlara 2063,11 ton kartof, 217,51 ton soğan, 1 ton kələm, 617,71 ton alma, 9,58 ton armud, 2,5 ton sarımsaq və 1,78 ton çuğundur məhsulu tədarük edilmişdir. Gələcək illərdə daha çox yerli məhsulların tədarük olunaraq soyuducu anbarlarda saxlanılması nəzərdə tutulur.

Muxtar respublikada habelə ümumi sahəsi 42 min kvadratmetrdən artıq olan 10 istixana kompleksi yaradılmışdır. Bu isə

idxaldan asılılığın aradan qaldırılması və keyfiyyətli məhsul istehsal etməyə xidmət edir.

Əhalinin keyfiyyətli məhsullarla təminatında Naxçıvan şəhərində və rayon mərkəzlərində kənd təsərrüfatı və emal sənayesi məhsullarının satış yarmarkalarının təşkili mühüm əhəmiyyət kəsb edir. Belə ki, kənd əhalisi istehsal etdikləri keyfiyyətli məhsulları artıq küçə və yol kənarlarında deyil, yaradılan müasir bazar komplekslərində satırlar. Bu da əhalinin ucuz və keyfiyyətli məhsullarla təminatına imkan verir. Ötən il kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında istehlakçılara 493 tondan çox kənd təsərrüfatı və sənaye məhsullarının satışı həyata keçirilmişdir.

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsi təkcə məhsul bolluğunu yox, eyni zamanda insanların keyfiyyətli məhsullarla təminatını da nəzərdə tutur. Belə ki, ərzaq məhsullarının istehsalı, daşınması, saxlanılması və satışı zamanı tibbi-bioloji və sanitariya normalarına əməl edilməsi ən vacib məsələlərdən biridir. Məhz bu baxımdan muxtar respublikada sanitar-gigiyenik qaydaların tənzimlənməsi, ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması insanların sağlam qidalanması istiqamətində görülən işlərin əhatə dairəsini daha da genişləndirmişdir. Ona görə də xarici ölkələrdən mənşəi bəlli olmayan keyfiyyətsiz ərzaq məhsullarının qarşısı alınmalı və belə malların muxtar respublikaya ayaq açmasına imkan verilməməlidir.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunmasında əkinçiliklə yanaşı heyvandarlıq da sürətlə inkişaf edir. Bu inkişaf muxtar respublikada baytarlıq xidmətinin səviyyəsinin yüksəldilməsi, məhsuldar cinsli mal-qaranın sayının artırılması istiqamətində görülən tədbirlərin nəticəsidir. 2013-cü ildə muxtar respublikada 2 yeni heyvandarlıq təsərrüfatı yaradılmışdır.

Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədilə keçən

il 337 baş və ümumilikdə isə son beş ildə xarici ölkələrdən muxtar respublikaya 1678 baş damazlıq və cins mal-qara alınıb gətirilərək lizinq yolu ilə fermer təsərrüfatlarına verilmişdir.

Heyvanların cins tərkibinin yaxşılaşması əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün zəmin yaratmış, heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur.

1 yanvar 2014-cü il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 106 min 215 baş və ya 1,4 faiz, qoyun və keçilərin sayı isə 635 min 464 baş olmuşdur ki, bu da özündən əvvəlki ilə nisbətən 1,6 faiz çoxdur.

Naxçıvan MR-də malqaranın baş sayının artması və cins tərkibinin yaxşılaşması heyvandarlıq məhsulları istehsalının xeyli artmasına gətirib çıxarmışdır. Belə ki, 2013-cü ildə muxtar respublikada diri çəkidə 19501,9 ton ət istehsal olunmuş və ya özündən əvvəlki ilə nisbətən 3,4 faiz, 78613,1 ton süd istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 0,2 faiz çoxdur.

Bunlardan əlavə muxtar respublika əhalisinin toyuq əti, yumurta, bal və balıq ətinə tələbatını ödəmək üçün bir sıra tədbirlər görülmüşdür. Belə ki, 2013-cü ildə 14 yeni quşçuluq təsərrüfatı yaradılmış, balıqçılıq təsərrüfatları genişləndirilmiş, bal istehsalı isə 1304 tona çatdırılmışdır ki, bu da 2012-ci ilə nisbətən 11 faiz çoxdur.

Ümumiyyətlə, "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na uyğun olaraq 2008-ci illə müqayisədə 2013-cü ildə bitkiçilik məhsullarının həcmi 2,4 dəfə artaraq 223 milyon manata, heyvandarlıq məhsulları istehsalının həcmi isə 91,9 faiz artaraq 114,2 milyon manata çatmışdır.

Gələcək illərdə də muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması kursu davam etdiriləcəkdir.

"Azərbaycan – 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında

deyilir ki, "**...məqsədyönlü şəkildə iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi tədbirləri həyata keçiriləcəkdir... aqrar sektorun inkişafı və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ... prioritet istiqamətlər olacaqdır**".



*Naxçıvan Şəhər Gömrük İdarəsinin inzibati binası və köməkçi infrastrukturları*



*250 paqonometr uzunluğunda Culfa (Azərbaycan Respublikası) – Culfa (İran İslam Respublikası) körpüsü*



*Culfa Gömrük İdarəsinin binası və infrastruktur kompleksi*



*Şahtaxtı (Azərbaycan Respublikası) – Poldəşt (İran İslam Respublikası) körpüsü*



*Naxçıvan şəhərində "Cahan-Tabak"*
*Məhdud Məsuliyyətli Cəmiyyəti*



*Naxçıvan şəhərində "Cahan-Tabak"*
*Məhdud Məsuliyyətli Cəmiyyətində iş prosesi*




*Naxçıvan şəhərində 110/35/10 kilovoltluq*
*“Naxçıvan” elektrik yarımstansiyası*



*Naxçıvan şəhərində 110/35/10 kilovoltluq*
*“Naxçıvan” elektrik yarımstansiyası*



*Heydər Əliyev Su Anbarı*



*Arpaçay Su Anbarı*



*Naxçıvan şəhərində sahəsi 10 min kvadratmetr olan istixana kompleksi*



*Naxçıvan şəhərində sahəsi 10 min kvadratmetr olan istixana kompleksi*



*"Dizayn Sənaye Kompleksi" MMC*



*"Dizayn Sənaye Kompleksi" MMC*



*87 mVt gücündə Naxçıvan Modul Elektrik Stansiyası*



*60 mVt gücündə Naxçıvan Qaz Turbin Elektrik Stansiyası*



*Şərur rayonunda gücü 20,5 meqavat olan Arpaçay Su Elektrik Stansiyası*



*Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan Su Elektrik Stansiyası*



*Şərur rayonunda 4,5 kilometr uzunluğunda Mahmudkənd-Oğlanqala avtomobil yolu*



*Culfa rayonunda avtomobil yolu*



*"Şərur-3" MMC-nin məhsulları*




*Şərur "Düdəngə Şərab" ASC-nin məhsulları*



*Naxçıvan Tikiş Fabriki ASC*



*Naxçıvan Tikiş Fabriki ASC-də*
*iş prosesi*



*Naxçıvan Tikiş Fabriki ASC-də*
*iş prosesi*




*Naxçıvan Tikiş Fabriki ASC-nin*
*məhsulları*




"Prestij Naxçıvan Pivəsi"
Məhdud Məsuliyyətli Cəmiyyəti



"Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli
Cəmiyyətində iş prosesi



*Naxçıvan şəhərində "Cahan Holdinq Kommersiya Şirkətləri İttifaqı"nın Radiator Panel və Dam Örtükləri*




*Naxçıvan şəhərində "Ləzzət Biskvit və Şokolad Fabriki"nin məhsulları*




*"Cahan Sənaye Kompleksi" ASC*
*Radiator Panel və Dam Örtükləri Zavodu*



*"Cahan Sənaye Kompleksi" ASC*
*Radiator Panel və Dam Örtükləri Zavodunda istehsal sexi*

## 4.Naxçıvanın enerji təhlükəsizliyi: idxaldan ixraca doğru

XX əsrdə Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası SSRİ-nin tərkibində olduğu zaman onun elektrik enerjisinə olan tələbatı Zaqafqaziya vahid energetika sistemindən elektrik verilişi xətti ilə ötürülən enerji vasitəsilə təmin olunmuşdur. Ararat-Babək, Ararat-Şərur və Aqarak-Ordubad yüksək gərginlikli elektrik verilişi xətləri muxtar respublikaya Ermənistan ərazisindən ötürülürdü. Araz Su Elektrik Stansiyası da mübadilə sistemi ilə işləyən bu xəttə qoşulmuşdu. Qeyd etmək lazımdır ki, keçən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasının elektrik enerjisinə olan tələbatı təqribən 110-120 meqavat təşkil edirdi. Bundan əlavə, həm də o dövrdə muxtar respublikadakı yaşayış məskənlərinin 70 faizə qədəri qazlaşdırılmışdır.

Lakin 1988-ci ildən başlayaraq Dağlıq Qarabağ ətrafında baş verən hadisələr Azərbaycan-Ermənistan münaqişəsi, 1991-ci ildə SSRİ-nin dağılması və bütün bunlar muxtar respublikaya gələn elektrik xətlərinin Ermənistan tərəfindən kəsilməsinə və həmin ilin noyabr ayında qaz nəqlinin də dayandırılmasına gətirib çıxardı. Beləliklə, regionun iqtisadi blokadasının "təməl"i qoyuldu. 6-7 ay sonra muxtar respublikanın energetika və rabitə təsərrüfatları iflic vəziyyətinə düşdü. O illər Naxçıvanda enerji daşıyıcılarına olan tələbat çox az səviyyədə ödənilirdi. Təbii qazın nəqli dayandırıldıqdan sonra vəziyyət daha da ağırlaşdı. Dəmiryol nəqliyyatında qatarların hərəkətinin kəsilməsi ucbatından odunun, daş kömürün və neft məhsullarının qəhətə çıxması əsas gücü energetika təsərrüfatının üzərinə saldı. Araz çayı üzərində İranla birgə tikilən su elektrik stansiyası tələbatın yalnız 5-6 faizini ödəyirdi. O da, ilk növbədə, yaşayış üçün zəruri olan mühüm obyektlərə - çörək zavodlarına, su nasos stansiyalarına, xəstəxanalara verilirdi. Özü də fasilələrlə.

Xalqımızın ümummilli lideri Heydər Əliyev regionda yaşanan bu çətinliklər barədə sonralar belə demişdi: **"Gecə saat ikiyə, üçə qədər iş otağımda az işıq verən neft lampası ilə oturub işləyirdim, bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək**

**üçün heç bir imkan yox idi. İnsanlar həqiqətən donurdular...".**

Həmin dövr xalqımızın böyük oğlunun Naxçıvanın xilası uğrunda fəaliyyətinin əsas istiqaməti muxtar respublikanın energetika və yanacaq problemlərinin həllinə yönəldi. Yeganə ümid İran və Türkiyə ilə xarici-iqtisadi əlaqələrin yaradılmasında idi. Bunsuz bölgədə həyatı öz axarına salmaq, sadəcə, mümkün deyildi. 1991-ci ilin sentyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Heydər Əliyev həmin ilin dekabr ayında Türkiyənin "Aralıq" yarımstansiyasından Naxçıvanın "Sədərək" yarımstansiyasına 31,5 kilovoltluq elektrik verilişi xətti çəkilməsinə nail oldu və düşmənlə üzbəüz dayanan, hər gün ölüm-dirim mübarizəsi gedən sərhəd bölgəsinə 3-4 meqavat həcmində enerji ötürülməyə başlandı.

Həmin ərəfədə Heydər Əliyevin başçılığı ilə Naxçıvan nümayəndə heyətinin Türkiyəyə səfəri əhəmiyyətli hadisə oldu. 1992-ci ilin mart ayında gerçəkləşən səfər zamanı Türkiyə Cumhuriyyətinin Prezidenti Turqut Özal, Baş naziri Süleyman Dəmirəllə faydalı görüşlər keçirildi. Qardaş ölkədə əsasən Ermənistanın Azərbaycana təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyət müzakirə edildi. Görüşün nəticəsi olaraq, muxtar respublikanın qonşu dövlətlərlə bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə Türkiyənin Baş naziri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri birgə protokol imzaladılar. 13 maddədən ibarət protokolda enerji xətlərinin çəkilməsi, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapdı. 1993-cü ilin may ayında "İqdir" transformator yarımstansiyasından 87,5 km uzunluğunda 154 kilivatlıq ikidövrəli xəttin çəkilişinin başa çatdırılması məhz aparılan danışıqların nəticəsi idi. Həmin dövrdən etibarən muxtar respublikaya Türkiyədən 55-60 meqavat həcmində elektrik enerjisi ötürülməyə başlandı.

1992-ci ilin avqustunda isə Heydər Əliyev İran İslam Respublikasına ilk səfər etdi. Səfər zamanı müxtəlif sahələrdə əməkdaşlığa dair imzalanmış protokola Naxçıvan MR-in elektrik enerjisinə və təbii qaza olan tələbatını ödəmək üçün yeni xətlərin çəkilməsi

bəndləri də salındı. Qısa müddətdə İran tərəfdə - Araz SES-in ərazisində "Araz" yarımstansiyası tikildi, 132 kilovoltluq elektrik enerjisi verilişi xətti çəkildi. Həmin ilin dekabr ayının 3-də istismara verilən bu yüksək gərginlikli elektrik xətti ilə 35 meqavat gücündə enerji ötürüldü. Ondan bir neçə gün sonra isə Culfa-Culfa elektrik verilişi xətti istifadəyə verildi. Bu xətlə Culfa rayonuna 7 meqavat gücündə elektrik enerjisi verilməyə başlandı.

1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42, Türkiyədən isə 63 meqavat gücündə elektrik enerjisi daxil olurdu. Ümummilli liderin təşəbbüsü ilə Türkiyə və İranla bağlanan müqavilələr sonrakı illərdə də muxtar respublikanın sosial-iqtisadi cəhətdən dirçəlməsində mühüm rol oynamışdır.

Çox keçmədi ki, ulu öndərimiz naxçıvanlıların sabaha ölən ümidlərini işıqlandırdı. Görülən işlərlə kifayətlənmək olmazdı. Naxçıvanı qarşıdakı illərdə daha mühüm vəzifələrin həlli gözləyirdi. Bu, elektrik enerjisi probleminin daxili imkanlar hesabına ödənilməsi idi.

Ulu öndərimizin yolunu müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də fikri bu idi ki, Naxçıvan maksimum dərəcədə özünü bütün cəhətlərdən təmin edə bilsin. Dövlət başçısı demişdir: **"Naxçıvanın əsas problemlərindən biri elektrik enerjisi məsələsidir. Bilirsiniz ki, buraya elektrik enerjisinin əsas hissəsi xaricdən gəlir. Naxçıvana 140 meqavat həcmində elektrik enerjisi verilir. Onun yalnız 20 meqavatı daxildə istehsal olunur. Qalanı isə Türkiyə və İrandan alınır. Bizim proqramlarımız, planlarımız var. Bu istiqamətdə işlər aparırıq ki, Naxçıvanı elektrik enerjisi ilə tam şəkildə təmin etmək üçün layihələr həyata keçirək. Qaz verilməsi məsələsi də gündəlikdədir. Bu istiqamətdə də işlər aparılır. Əlbəttə, əgər Naxçıvanla Azərbaycan arasında əlaqə olsaydı, buraya qaz vermək problemi olmazdı... Belə olan halda, əlbəttə, başqa yollar arayırıq ki, bu məsələni də həll edək. Mən əminəm ki, bu məsələni həll edəcəyik. Bu məsələ də öz həllini taparsa, əlbəttə ki, Naxçıvanda yeni müəssisələrin yaradılması prosesi daha da**

**sürətlə gedəcəkdir. Bizim məqsədimiz bundan ibarətdir".**

Muxtar respublikaya, nəhayət, 14 illik fasilədən sonra təbii qazın nəql olunması, mənzillərdə və digər obyektlərdə sayğaclaşdırmanın başa çatdırılması, "Alfatek" markalı rəqəmsal elektron avadanlıqların qoyulması, elektrik enerjisindən israfçılıqla və sayğacdankənar istifadə olunmasına qarşı səmərəli təşkilati və texniki tədbirlərin həyata keçirilməsi istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin olunması ilə yanaşı tələbatı da kəskin surətdə azaltmışdır. Yəni görülən tədbirlər öz nəticəsini vermiş və artıq qalan 17 meqavatlıq elektrik enerjisi 2009-cu ildə qardaş Türkiyə Respublikasına nəql edilmişdi.

Naxçıvan Muxtar Respublikasında energetika sahəsində əldə olunan uğurlar ilk növbədə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarından irəli gələn vəzifələrin icrası ilə bağlıdır. Ölkə Prezidenti İlham Əliyev muxtar respublikaya ilk səfərləri çərçivəsində keçirdikləri görüşlərinin birində Naxçıvanda həyata keçirilən tədbirlərin başlıca məqsədini belə açıqlayıb: **"Maksimum dərəcədə Naxçıvanın öz resurslarına əsaslanıb elektrik enerjisi potensialına imkan yaratmalıyıq".**

Cənab İlham Əliyevin dediyi bu sözlər o anlama gəlir ki, düşmən mühasirəsi şəraitində yaşayan, ölkəmiz üçün mühüm əhəmiyyətli strateji regionun iqtisadi potensialını yaratmaq və inkişaf etdirmək üçün ardıcıl tədbirlər görülməli, ilk növbədə, onun enerji problemləri həll edilməlidir: **"Bütün iqtisadi potensialın təməlində bu məsələlər dayanır. Əgər iqtisadi potensialı artırmaq istəyiriksə, enerji məsələləri mütləq həll olunmalıdır".**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işləyib hazırladığı böyük layihə Naxçıvan Muxtar Respublikasında müvəffəqiyyətlə həyata keçirilir.

Ölkə başçısının 2006-cı ilin dekabr ayında muxtar respublikaya səfəri çərçivəsində istifadəyə verilən yeni elektrik stansiyaları regionun elektrik enerjisi ilə təchizatında idxaldan asılılığı aradan qaldırdı. Prezident İlham Əliyev açılış mərasimlərində belə bir

amili xüsusi qeyd etmişdir: **"Vaxtilə qaranlıqda, qazsız, işıqsız yaşayan Naxçıvan artıq görülən işlər nəticəsində və orada tikilən və bərpa olunan elektrik stansiyalarının hesabına elektrik enerjisi ixrac edə biləcəkdir".**

Muxtar respublikada enerji təsərrüfatında qazanılan mühüm uğurlardan biri də gücü 87 meqavat olan modul elektrik stansiyasının inşasıdır. Ən müasir texnoloji avadanlıqlar əsasında quraşdırılan stansiyanın baş podratçısı Finlandiyanın "Vartsila", subpodratçıları isə İsveçrənin ABB şirkəti və "Azərenerji" ASC-nin "Azərenerjitikinti" Məhdud Məsuliyyətli cəmiyyəti idi. Hər birinin gücü 8,7 meqavat olan 10 porşen tipli aqreqat yüksək iş əmsalına malikdir. Burada 1 kilovat/saat elektrik enerjisinə sərf edilən təbii qazın miqdarı 260 qram olduğundan, iqtisadi baxımdan sərfəlidir. Bu göstəriciyə görə, modul elektrik stansiyalar yalnız SES-lərdən geri qalır. Təsadüfi deyil ki, son illər muxtar respublikanın elektrik enerjisinə olan daxili tələbatı mövcud su elektrik stansiyaları ilə yanaşı, bu stansiya vasitəsilə ödənilir. Təkcə 2009-cu il ərzində stansiyada 370,6 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub. Bu, muxtar respublikada istehsal olunan enerjinin 78 faizi deməkdir.

2006-cı il dekabr ayının 20-də Naxçıvan üçün xüsusi əhəmiyyət kəsb edən, ümumi gücü 87 meqavat olan Naxçıvan modul elektrik stansiyası işə salındı.

Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası müstəqillik dövrünün müəssisələrindən biridir. Hər birinin gücü 15 meqavat olan və dizel yanacağı ilə işləyən 4 turbogenerator uzun müddət istismar edildikdən sonra, 1992-ci ildə - muxtar respublikanın ağır və məşəqqətli günlərində Türkiyədən gətirilərək Naxçıvan şəhərinin yaxınlığında quraşdırılmışdır. Dizel yanacağı gətirilməsinin çətinliyi, sonrakı illərdə isə bu yanacaqla istehsal olunan elektrik enerjisinin baha başa gəlməsi stansiyanın təbii qazla işləmə rejiminə keçirilməsini zəruri etdi. Dövlət başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı bu cür tədbirlərin həyata keçirilməsinə imkan

yaratdı. Stansiya və yarımstansiyada yenidənqurma işləri aparılaraq əsas avadanlıqlar dəyişdirildi. Yeni avadanlıqlar İtaliya, Almaniya, Avstriya və Hollandiyadan gətirildi. Amma müəssisənin istehsal gücü 60 meqavat olsa da, 2009-cu ildə burada tələbatla əlaqədar cəmi 9,7 milyon kilovat-saat enerji istehsal olunmuşdur.

Naxçıvanda hazırda tam gücü ilə işləyən enerji müəssisələrindən biri də Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1971-ci ildə Araz çayı üzərində tikilib istifadəyə verilmiş su elektrik stansiyasıdır. Stansiyada hər gün rejimlə əlaqədar 20-22 meqavat-saat enerji istehsal edilir. İl ərzində isə burada 93 milyon kilovat saat elektrik enerjisi istehsal olunur.

Heydər Əliyev Su Anbarı üzərində tikilən Vayxır Su-elektrik Stansiyası da istifadəyə verilmişdir. Onun ümumi gücü bir qədər aşağı – 4,5 meqavat gücündədir. Əvəzində, burada istehsal olunan enerji ucuz başa gəlir. Stansiya Türkiyənin "Cengiz İnşaat Anonim" və "Aksoy" şirkətləri arasında imzalanmış ortaq müqavilə əsasında Heydər Əliyev Su Anbarı üzərində quraşdırılıb. Digər stansiyalardan fərqli olaraq, bu obyektin layihəsi, quraşdırılması, sazlanması və digər xərcləri yerli imkanlar hesabına ödənilib. Dəryaçada su rejimi düzgün müəyyənləşdirildiyindən 2009-cu ildə burada 5,6 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub. İstehsal olunan enerji Şahbuz rayonunda istehlakçıların tələbatını tam ödəyir.

Muxtar respublikanın energetika təsərrüfatında həyata keçirilən tədbirlər təkcə yeni və müasir tipli elektrik stansiyalarının tikintisindən ibarət deyil. Eyni zamanda, yüksək gərginlikli elektrik verilişi xətlərində yenidənqurma və əsaslı təmir işləri aparılıb.

Muxtar respublikada hazırda başlıca diqqət ucuz və alternativ enerji mənbələrinin yaradılmasına yönəldilib. Bu məsələ regionların sosial-iqtisadi inkişafına dair II Dövlət Proqramında da əksini tapıb. Bölgədə kiçik dağ çayları üzərində su-elektrik stansiyalarının tikilməsinin vacibliyini vurğulayan Prezident İlham Əliyev bu sahədə qarşıda duran hədəfləri aydın göstərib: **"Naxçıvanda tikilən elektrik stansiyalarının və növbəti illərdə tikiləcək su**

**elektrik stansiyalarının gücü elə olmalıdır ki, muxtar respublikada enerji təhlükəsizliyi tam şəkildə daxili resurslar hesabına təmin olunsun".**

Artıq bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

Artıq makroiqtisadi sabitliyin təmin olunması ilə Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin ikinci mərhələsinə start verilmişdir. Bu mərhələdə artıq öz ehtiyatlarımızın səfərbər olunması ilə daxili tələbatın ödənilməsi və gələcəkdə Naxçıvanın enerji ixracatçısına çevrilməsi kimi böyük işlər həyata keçirilib. İnfrastruktur müasir standartlar səviyyəsində yenilənib, davamlı olaraq yeni güclər yaradılıb ki, bu da, son nəticədə, muxtar respublikada enerji təhlükəsizliyinin səmərəli qurulmasını şərtləndirib. Əgər 1996-cı ilə kimi muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar nəticəsində həmin müəssisələrin sayı 7-yə çatdırılıb. Bu, "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"na və ölkə başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlərin nəticəsidir.

Həyata keçirilən layihələrə nəzər salaq: 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Modul Elektrik, ümumi gücü 60 meqavat olan Qaz-Turbin Elektrik stansiyaları istifadəyə verilib. Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik, 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində Gilançay üzərində gücü 22 meqavat, illik elektrik enerjisi istehsalı 80 milyon kilovat/saat olan Biləv Su Elektrik stansiyalarının işə salınması bu istiqamətdə görülən işlərin davamı olub. 2010-cu il oktyabr ayının 5-də Biləv Su Elektrik Stansiyasının açılışında iştirak edən ölkə başçısı cənab İlham Əliyev demişdir: **"Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda qitədə öz rolunu oynayır. Bu rol artır və getdikcə**

**imkanlarımız daha da genişlənəcəkdir. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll etmişik... Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq, görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır".**

Muxtar respublikamızda təbii resurslardan səmərəli istifadə yeni elektrik stansiyalarının tikintisinə geniş imkanlar açıb. 2011-ci ilin fevral ayında Şərur rayonu ərazisindəki Arpaçay üzərində gücü 20,5 meqavat və illik elektrik enerjisi istehsalı 60 milyon kilovat/saat olacaq. Arpaçay-1 və 2014-cü ildə Arpaçay-2 Su Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, Ordubad rayonu ərazisində Araz çayı üzərində gücü 36 meqavat və illik elektrik enerjisi istehsalı 190 milyon kilovat/saat olacaq derivasiya tipli Ordubad Su Elektrik stansiyalarının tikintisinə başlanmışdır. 2013-cü il sentyabrın 9-da artıq Arpaçay Su Elektrik Stansiyası istifadəyə verilmişdir.

İstehsal olunmuş elektrik enerjisini şəbəkəyə ötürmək üçün 30 meqavoltamper gücə malik transformator yarımstansiyası qurulub, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətləri çəkilib. Arpaçay Su Elektrik Stansiyası mühüm infrastruktur layihəsi kimi muxtar respublikanın enerji təhlükəsizliyinə öz töhfəsini verəcəkdir. İqtisadi səmərəlilik və enerji potensialının gücləndirilməsi baxımından böyük əhəmiyyətə malik olan stansiyanın istifadəyə verilməsi ilə muxtar respublikanın elektrik enerjisinə olan tələbatının 60 faizi su elektrik stansiyaları hesabına ödəniləcəkdir.

Qeyd etmək lazımdır ki, Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan, qazlaşdırılması tam başa çatdırılmayan muxtar respublikada bu gün 7 elektrik stansiyası fəaliyyət göstərir.

Naxçıvanın ən ucqar dağ kəndlərinə belə qaz xətləri çəkilib.

Muxtar respublikamızın əldə etdiyi bu uğurları yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: **"Son illər muxtar respublikaya təbii qazın nəqlinin bərpası, yeni elektrik stansiyalarının istifadəyə verilməsi energetika sektorunun inkişafına təminat yaratmış, Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyi təmin olunmuşdur. Bu, energetika sahəsində həyata keçirilən məqsədyönlü fəaliyyətin ən ciddi uğurlarından biridir".**

Muxtar respublikada tikilib istifadəyə verilən 6 elektrik stansiyasından əlavə bu gün Azərbaycan hökuməti ilə İran İslam Respublikası arasında imzalanmış müqaviləyə əsasən Ordubad rayonunun Dəstə kəndi yaxınlığında Araz çayı üzərində daha bir su elektrik stansiyası inşa olunur. Burada hər birinin gücü 12 meqavat olmaqla 3 turbin və 3 generator quraşdırılacaqdır. Yeni enerji istehsalı obyektinin normal gücdə işləməsi üçün tələb olunan su sərfi saniyədə 126,6 kubmetrdir. Bu stansiyanın aparıcı beton kanalının uzunluğu 12 kilometr olacaq. Buraya 110 kilovoltluq elektrik verilişi xətti çəkiləcək, transformator yarımstansiyası quraşdırılacaqdır. Hazırda aparıcı kanalda qazıntı və betonlama işləri görülür.

Ümumiyyətlə, elektrik enerjisi sahəsində görülən işlər muxtar respublikanın enerji təhlükəsizliyini tam təmin etməklə yanaşı həm də onun ixrac potensialını artırmışdır. Ordubadda Biləv Su Elektrik Stansiyasının açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu istiqamətdə muxtar respublikada həyata keçirilən tədbirləri yüksək dəyərləndirərək demişdir: **"Bu gün nəinki Naxçıvanın enerji tələbatı tam şəkildə təmin olunur, hətta qonşu İran və Türkiyəyə də enerji nəqlinə imkanlar açılmışdır. Naxçıvan artıq elektrik enerjisi ixrac edən diyara çevrilmişdir".**

Bu gün dünya ölkələrində alternativ enerji mənbələrindən istifadə məsələləri daim diqqət mərkəzində durur. Yuxarıda qeyd edildiyi kimi bu məsələ regionların sosial-iqtisadi inkişafına dair II Dövlət Proqramında da öz əksini tapmışdır. Bu baxımdan muxtar

respublikanın təbii şəraiti külək və günəş elektrik stansiyalarının da tikilib-quraşdırılmasına imkan verir. Hazırda Azərbaycan Respublikasında bu layihələrin icrası ilə Bərpa Olunan və Alternativ Enerji Mənbələri Dövlət Şirkəti məşğul olur. Artıq Şirkət tərəfindən Naxçıvana da müvafiq ölçü avadanlıqları göndərilmişdir. Fikrimizcə, muxtar respublikada günəşli günlərin üstünlük təşkil etməsi imkan verir ki, Babək rayonu ərazisindəki Xalxal meşəsi yaxınlığında Günəş Elektrik Stansiyasının, Culfa rayonu ərazisində Araz çayının kənarında və digər ərazilərdə külək elektrik stansiyasının tikilməsi məqsədəuyğun olardı.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə muxtar respublikamız daha çox elektrik enerjisi ixrac edəcəkdir.

Gələcək illərdə muxtar respublikada yeni layihələrin həyata keçirilməsi elektrik enerjisi istehsalını daha da artıracaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Arpaçay-1 Su Elektrik Stansiyasının açılışındakı nitqində demişdir: **"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".**

**5.Muxtar respublikada xarici ticarət əlaqələri inkişaf edir və ixrac potensialı artır**

1924-cü ildə Naxçıvana muxtariyyət statusu verilməsindən keçən 90 il ərzində bu bölgənin daxili və xarici ticarəti inkişaf etmişdir.

Muxtariyyət statusundan sonra Naxçıvan ictimaiyyəti və xüsusilə onun sənayesi inkişaf etməyə başladı. Artıq 1959-cu ildə muxtar respublikanın sənayesi 40 adda məhsul istehsal etməyə başladı. Onun məhsulları Azərbaycan və keçmiş SSRİ-nin yüzlərlə şəhərlərinə ixrac edilirdi. Məsələn, Orta Asiya respublikalarına, Sibirə və Kuybışev şəhərinə üzərində Naxçıvan markası olan müxtəlif növ şərablar və beşulduzlu konyak ixrac edilirdi. Ordubad aqrar-sənaye kombinatının məhsulları RSFSR və Ukraynaya, İliç rayonunun pambıqtəmizləmə zavodunun mahlıcı RSFSR, Ukrayna və Belorusiyaya, Naxçıvan duzu Gürcüstana və Ermənistana, elektrotexnika avadanlığı Moldaviyaya, İliç rayonunun mərməri Moskva, Ukrayna, Moldaviya və digər respublikalara ixrac edilirdi.

Muxtar respublikada istehsal edilən məhsullar ittifaq respublikalarından başqa bir çox xarici ölkələrə də ixrac edilirdi. Məsələn, Ordubad ipək fabrikinin məhsulları İtaliyaya, Hollandiyaya, Yaponiyaya, Şaxtaxtı mərməri Almaniya Federativ Respublikasına və Polşaya ixrac edilirdi. Şərur rayonunun Şaxtaxtı karxanasında kəsilən travertin bloku Mockvada, Leninqradda, Ulyanovskda və digər ittifaq şəhərlərində ucaldılan mədəni-maarif müəssisələrində, monumental abidələrdə, habelə, yeraltı stansiyalarda və s. yerlərdə istifadə olunmuşdur. Bu məhsullar Bakı metrosunun stansiyalarına xüsusi yaraşıq verir.

1958-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilən Ümumdünya sərgisində nümayiş etdirilmiş "Badamlı" suyunun şöhrəti bütün dünyaya yayılmışdı. Naxçıvan və Noraşen pambıqtəmizləmə zavodlarının məhsulları Avropa və Asiyanın bir sıra ölkələrinə ixrac edilirdi. Sovet dövründə ixrac potensialının müəyyən qədər artmasına baxmayaraq muxtar respublikanın xarici ticarətinin əsl

inkişafı müstəqillik dövrünə təsadüf edir.

Xarici ticarət əlaqələri müasir dövrdə iqtisadiyyatın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərə bilən bir amilə çevrilmişdir.

Məlum olduğu kimi 1991-ci ildə keçmiş sovetlər birliyinin dağılması, ölkəmizin müstəqillik əldə etməsi, Qarabağ ətrafında baş verən hadisələr, Ermənistanın hərbi təcavüzü nəticəsində muxtar respublika ərazisinin Azərbaycanın əsas ərazisindən ayrı düşməsi bu diyarı tam blokada şəraitinə salmışdır.

Ümummilli liderimiz Heydər Əliyev bu vəziyyətdən çıxış yolları axtarırdı və bu çıxış yolunu yalnız sərhədyanı dövlətlərlə xarici əlaqələrin qurulmasında və habelə Türkiyə Cümhuriyyəti ilə İran İslam Respublikası arasında iqtisadi və mədəni əlaqələrin yaradılmasında görürdü.

Məhz bu baxımdan müstəqilliyimizin ilk illərində yaxın xarici dövlətlərlə iqtisadi əlaqələrin qurulmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna rolu olmuşdur.

Naxçıvanda işlədiyi zaman onun qonşu Türkiyə ilə qurduğu əlaqələr bölgənin taleyi üçün mühüm rol oynadı. 1992-ci ilin martında H.Əliyevin Türkiyəyə səfəri, səfər zamanı imzalanmış qarşılıqlı əməkdaşlıq haqqında protokol Naxçıvanın dost və qardaş ölkə ilə iqtisadiyyat və mədəniyyət sahəsində münasibətlərini yeni mərhələyə qaldırdı.

Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri işləyərkən Türkiyə Cümhuriyyəti ilə imzalanan protokollara əsasən dövlətlər arasında iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuş, Araz çayı üzərində "Ümid" körpüsü tikilib istifadəyə verilmiş, Sədərək gömrük-keçid məntəqəsi fəaliyyətə başlamışdır. Eyni zamanda həmin vaxt enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ilk addımlar atılmış, Türkiyədən Naxçıvan Muxtar Respublikasına yüksəkgərginlikli elektrik xətti çəkilmişdir. 1993-cü il fevralın 5-də isə Türkiyə Cümhuriyyətinin Naxçıvan şəhərində konsulluğu fəaliyyətə başlamışdır.

Türkiyə ilə Naxçıvan əlaqələrinin yaranmasının və genişləndirilməsinin ən mühüm əhəmiyyəti isə ondan ibarət idi ki, muxtar respublikanın Türkiyə ərazisindən keçməklə Avropanın bütün dövlətləri ilə iqtisadi əlaqələrin formalaşmasına şərait yaranırdı.

Ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətlərindən biri də İran İslam Respublikası ilə iqtisadi əlaqələrin genişlənməsi idi. Onun xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən bu ölkəyə iki dəfə səfər etməsi, ölkə rəhbərləri ilə imzaladığı sənədlər tərəflər arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə səbəb oldu.

Ulu öndər Heydər Əliyevin iki dövlət arasında əməkdaşlığa dair imzaladığı protokollar, Şahtaxtı və Culfa gömrük-keçid məntəqələrinin fəaliyyətə başlaması İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan Ostandarlığı ilə əlaqələrin formalaşmasına və daha da genişlənməsinə şərait yaratmışdır.

Naxçıvanın enerji təhlükəsizliyini təmin etmək üçün keçən əsrin 90-cı illərinin əvvəllərində Türkiyədən olduğu kimi İran İslam Respublikasından da muxtar respublikaya yüksəkgərginlikli elektrik xətləri çəkildi. 1993-cü il mart ayının 8-də isə İran İslam Respublikasının Naxçıvanda konsulluğu fəaliyyətə başladı.

Qeyd etmək lazımdır ki, 90-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının tədiyyə balansı mənfi saldoya malik olmuş və ticarət dövriyyəsində idxalın çoxluğu özünü göstərmişdir. Türkiyə və İran dövlətlərindən alınan elektrik enerjisi və yeyinti məhsulları hesabına idxal getdikcə artmışdır.

İran və Türkiyə ilə yaradılmış iqtisadi əlaqələr, qonşu dövlətlərin Muxtar Respublikaya maliyyə yardımı bölgənin sosial-iqtisadi vəziyyətinə öz müsbət təsirini göstərdi.

Beləliklə, əgər XX əsrin 90-cı illərinin I yarısında Naxçıvanın xarici əlaqələri daha çox qonşu dövlətlərin Muxtar Respublikaya humanitar və digər yardımları formasında inkişaf edirdisə, 1995-ci ildən başlayaraq bu əlaqələr praktiki xarakter almış, Naxçıvana xarici investisiyalar daxil olmağa, birgə layihələr həyata keçirilməyə

başlamışdır.

Araşdırmalar göstərir ki, Naxçıvan MR-in xarici iqtisadi əlaqələrində əsas yeri ticarət əlaqələri tuturdu. 1990-cı illərin axırlarınadək muxtar respublikanın xarici ticarətində idxalın çoxluğu tədiyyə balansında mənfi saldo olması ilə müşahidə olunurdu.

1996-cı ildə ölkədə makroiqtisadi sabitlik yarandıqdan sonra muxtar respublikanın da xarici iqtisadi əlaqələrinin inkişafında müsbət meyllər artmağa başlamışdır.

Daxili istehsalın daha çox əmtəə ixracının genişləndirilməsinə yönəldilməsi daha zəmanətli inkişaf üçün əlverişli şərait yaradır. Məhz bu cəhətdən qeyd etmək lazımdır ki, ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ixrac mallarının həcminin artırılması və ixrac siyasətinin məqsədyönlü həyata keçirilməsi vacib məsələlərdən biri sayılmalıdır.

Üçuncü minilliyin əvvəlində muxtar respublikadan ixrac olunan malların əsasını şəkər çuğunduru və emal müəssisələrinin məhsulları olan xam spirt, tütün və qara metal məmulatları təşkil etmişdir.

Fikrimizcə, regional inkişafın təmin olunması baxımından xarici iqtisadi əlaqələri inkişaf etdirmək üçün aşağıdakı problemlərin həlli də çox əhəmiyyətlidir.

1.Regionda ixtisaslaşmanın onun ölkədaxili və beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlükləri, mövqeyi və daxili tələbatı nəzərə almaqla aparılması;

2.Regionun potensialının inkişaf etdirilməsi və onun strukturunun son məhsul hesabına tədricən yaxşılaşdırılması;

3.Regionda idxalı əvəz edən məhsul istehsalının artırılması və ixracın quruluşunun müəyyənləşdirilməsi;

4. Regionda xarici iqtisadi əlaqələrin müasir dövrün tələblərinə cavab verən təşkilati-idarəetmə sisteminin yaradılması və s.

Bazar iqtisadiyyatı şəraitində xarici iqtisadi əlaqələri inkişaf etdirmədən ölkənin istehsal potensialını artırmaq, ondan səmərəli istifadə etmək,habelə ölkənin beynəlxalq əmək bölgüsündə malik

olduğu üstünlükləri reallaşdırmaq mümkün deyildir.

Dünya təcrübəsi göstərir ki, bu cür uzlaşdırmanın həyata keçirilməsinin ən səmərəli yollarından biri ölkədaxili regionlar üzrə kompleks inkişaf Proqramlarının hazırlanması və həyata keçirilməsidir. Belə proqramlardan biri də ölkə Prezidenti cənab İlham Əliyevin 2004-cü il fevralın 11-də təsdiq etdiyi 2004-2008-ci illər üçün "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Qeyd etmək lazımdır ki, bu Proqram ölkənin sosial-iqtisadi inkişafında yeni mərhələnin başlanğıcını qoymuşdur. Regionların sosial-iqtisadi inkişafına dair birinci dövlət proqramının vaxtından əvvəl və uğurla başa çatdırılması regionlarda əhalinin maddi rifahını, sosial-məişət şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırmış, infrastruktur yeniləşmiş, sahibkarlıq fəaliyyəti nəzərəçarpacaq dərəcədə genişləndirilmiş, əlverişli investisiya mühiti formalaşmış, xarici iqtisadi əlaqələrin coğrafiyası daha da genişlənmiş və müasir tipli istehsal müəssisələri yaradılmışdır.

2004-2008-ci illər üçün regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında Naxçıvan Muxtar Respublikası üçün nəzərdə tutulmuş tədbirlərin müvəffəqiyyətlə icrası həmin illər ərzində iqtisadiyyatın dinamik inkişafını təmin etmişdir. Belə ki, 2003-cü illə müqayisədə 2008-ci ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 5 dəfə artmışdır. Bu müddətdə sənayedə 9 dəfə, kənd təsərrüfatında 2 dəfə, əsaslı investisiya qoyuluşlarının həcmində isə 5 dəfə artım müşahidə edilmişdir.

Naxçıvan Muxtar Respublikasında əldə olunan nailiyyətləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: **"Burada gedən işlər məni şox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır".**

2000-ci ildən sonrakı ilk səkkiz ildə muxtar respublikanın

xarici ticarət dövriyyəsi artan templə inkişaf etmişdir. Əlbəttə ki, bu inkişaf Naxçıvan Muxtar Respublikasında iqtisadi artımla, istehsal olunan rəqabət qabiliyyətli mallarla, yeni sənaye sahələrinin yaradılması ilə, özəl sektorun inkişafı ilə, habelə keyfiyyətli yerli məhsullarla xarici bazarlara daxil olması mümkün olmuşdur.

Məhz bu səkkiz ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 3,3 dəfə artaraq 2001-ci ildəki 31,9 milyon ABŞ dollarından 2008-ci ildə 103,7 milyon ABŞ dollarına çatmışdır.

Əldə olunan nəticələrin kifayət qədər yüksək olmasına baxmayaraq regionların mövcud imkanlarından daha səmərəli istifadəni təmin etmək məqsədilə ölkə prezidenti İlham Əliyev 14 aprel 2009-cu il tarixdə sayca ikinci olan "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etmiş və keçən beşil ərzində bu Dövlət Proqramı da çox uğurla başa çatdırılmışdır.

Muxtar resbublikada real sektorun inkişafına yönəldilmiş islahatlar ixracyönümlü məhsulların istehsalını sürətləndirən müvafiq iqtisadi mexanizmlərin tətbiqi ilə dəstəklənməkdədir. İxrac potensialının inkişaf etdirilməsi, muxtar respublika ərazisində istehsal olunan Azərbaycan mallarının xarici bazara çıxarılması, qonşu xarici ölkələrin iqtisadiyyatına səmərəli inteqrasiyanın təşviqi ötən dövr ərzində də prioritet istiqamətlərdən olmuşdur.

Özəl sektorda ixracın stimullaşdırılması və buna uyğun olaraq ixrac mallarının çeşidinin artırılması, yerli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, maraqlarının müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər yeni uğurlarımızı təmin etmişdir.

2009-cu ildə olduğu kimi 2010-cu ildə də bu proses davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun birbaşa rəhbərliyi və bu istiqamətdə gördüyü işlər nəticə etibarilə muxtar respublikada iqtisadi inkişafa, rəqabət

qabiliyyətli məhsullar istehsalına və ixrac potensialının artmasına səbəb olmuşdur.

2010-cu ilin yekunları göstərir ki, muxtar respublikada xarici ticarət dövriyyəsi 258 milyon manata çatmışdır ki, bunun da 211,7 milyon ABŞ dollarını ixrac, 46,2 milyon ABŞ dollarını isə idxal təşkil etmişdir. Bu göstərici 2009-cu illə müqayisədə 17 faiz artmışdır. Son bir il ərzində ixracın həcmi 99,4 milyon ABŞ dolları həcmində və ya 89 faiz artmış, idxal isə 61,5 milyon ABŞ dolları həcmində və ya 57 faiz azalmışdır. İdxalın strukturundakı əsas dəyişiklik isə ərzaq məhsulları idxalının texnoloji avadanlıqlarla əvəz olunmasıdır.

Hələ keçən əsrin axırlarından başlanan iqtisadi islahatlar qısa zaman kəsiyində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olmuşdur. Azərbaycanda makroiqtisadi sabitlik əldə edildikdən sonra ildən-ilə Naxçıvan iqtisadiyyatı yüksələn xətt üzrə inkişaf etməyə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi məlumatlarının təhlil göstərir ki, son 16 ildə, yəni 2011-ci ilin yanvar-noyabr aylarında Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 38 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 31 dəfə, sənaye məhsulun həcmi 69 dəfə, əsas kapitala yönəldilən investisiyalar 261 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 7 dəfə, nəqliyyat sektorunda yük daşınması 18 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 90 dəfə, pərakəndə əmtəə dövriyyəsi 20 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 30 dəfə, ixracın həcmi 142 dəfə, dövlət büdcəsinin gəlirləri 26 dəfə, əhalinin gəlirləri 44 dəfə, hər nəfərə düşən gəlirlər 35 dəfə, orta aylıq əmək haqqı isə 21 dəfə artmışdır.

Statistik məlumatların təhlili və aparılan araşdırmalar göstərir ki, son 16 il ərzində muxtar respublikada xarici ticarət dövriyyəsi 18,3 dəfə artmışdır. Əgər 1995-ci ildə Naxçıvan MR xarici ticarət

dövriyyəsi cəmi 19 milyon ABŞ dolları idisə, bu rəqəm 2011-ci ilin yanvar-noyabr aylarında 347,4 milyon ABŞ dolları təşkil etmişdir. (2011-ci ilin yekununa görə isə ticarət dövriyyəsi 400,9 milyon ABŞ dolları təşkil etmişdir).

Artıq bu gün fəxrlə qeyd etmək olar ki, son 16 ildə ixracın ümumi həcmi 169,8 dəfə artmışdır. Əgər 1995-ci ildə muxtar respublikadan xarici ölkələrə cəmi 1,9 milyon ABŞ dolları miqdarında məhsul ixrac edilirdisə, bu rəqəm 2011-ci ildə 322,6 milyon ABŞ dollarına çatdırılmışdır. İdxal isə keçən dövr ərzində getdikcə azalaraq 78,2 milyon ABŞ dolları səviyyəsinə düşmüşdür.

2011-ci ilin əvvəlindən dekabr ayının 1-nə kimi muxtar respublikanın xarici ticarət dövriyyəsində 202 milyon dollarlıq müsbət saldo yaranmışdır.

Muxtar respublikada ərzaq mallarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi idxaldan asılılığı əsasən aradan qaldırmışdır. Təkcə bir faktı demək kifayətdir ki, əgər 1995-ci ildə xarici ölkələrdən muxtar respublikaya idxal olunan məhsulların 90 faizini ərzaq və kənd təsərrüfatı məhsulları təşkil edirdisə ötən illər ərzində bu göstərici azalaraq 28 faizə düşmüşdür. Bu məhsulların isə əsas hissəsi Naxçıvanda yetişdirilməsi mümkün olmayan (məsələn, banan, kivi, apelsin, mandarin və digər sitrus bitkiləri) bitkilərdən ibarətdir.

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı 2012-ci ildə də davam etmişdir. Yeni texnologiyaların alınıb gətirilməsi, bu əsasda yeni müəssisələrin yaradılması və rəqabət qabiliyyətli məhsullar istehsalı muxtar respublikanın ixrac potensialını artırmışdır. Artıq 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının ticarət tərəfdaşlarının sayı 40-ı keçmişdir. Yerli istehsalın getdikcə artması xarici ölkələrdən idxal olunan malların xüsusi çəkisinin azalmasına gətirib çıxarmışdır. İndi idxal mallarının əsas hissəsini yeni texnologiyalar təşkil edir.

2012-ci ildə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 451 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2011-ci

illə müqayisədə 12,5 faiz çoxdur. Muxtar respublikanın xarici ticarət dövriyyəsinin 17,2 faizini və ya 77,4 milyon ABŞ dollarını idxal, 82,8 faizini və ya 373,5 milyon ABŞ dollarını isə ixrac təşkil etmişdir. Beləliklə, son bir il ərzində ixracın həcmi 15,8 faiz artmaqla 296 milyon dollarlıq müsbət saldo əldə edilmişdir.

Birinci Dövlət Proqramının yüksək nəticələri 2009-2013-cü illərdə muxtar respublikanın sosial-iqtisadi inkişafını nəzərdə tutan yeni Dövlət Proqramının da uğurla yekunlaşmasına gətirib çıxarmışdır.

2013-cü ildə də muxtar respublikada əsas makroiqtisadi göstəricilərlə yanaşı ticarət dövriyyəsi artmaqda davam etmişdir. Belə ki, 2013-cü ildə ticarət dövriyyəsi 512 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da özündən əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,5 faiz çoxdur. Xarici ticarət dövriyyəsinin 402,4 milyon ABŞ dolları isə ixrac olmaqla, cəmi 293 milyon ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Naxçıvan Muxtar Respublikasının 2005-2013-cü illəri əhatə edən son 9 il ərzindəki xarici ticarət dövriyyəsinin dinamikasını verilir. Bunu aşağıdakı diaqramdan daha aydın görmək olar.

Yeni texnologiyalar əsasında yaradılmış iri sənaye müəssisələri və muxtar respublikada ixracyönümlü məhsul buraxılışı sonrakı dövrlərdə uğurlu nəticələr vermişdir. 2009-cu ildən başlayaraq muxtar respublikanın ixrac potensialı artaraq tədiyyə balansında müsbət saldo əldə edilmiş və bu göstərici sonrakı illərdə daha da artmışdır.

Statistik məlumatlarım təhlili göstərir ki, son beş ildə Naxçıvanın xarici iqtisadi əlaqələrində iştirak edən dövlətlərin sayı 45-ə çatmışdır. Bu ölkələrlə 2009-cu ildə aparılan ticarət əlaqələrində muxtar respublikanın xarici ticarət dövriyyəsi 220 milyon ABŞ dolları olduğu halda bu rəqəm 2013-cü ildə 512 milyon ABŞ dollarına çatmış və ya 2,3 dəfə artmışdır. İxracın həcmi son beş ildə 3,6 dəfə artdığı halda idxal cəmi 1,7 faiz artmışdır.

Beləliklə, 2004-2013-cü illər üçün qəbul olunmuş iki Dövlət

Proqramının nəticələri göstərir ki, Naxçıvan Muxtar Respublikasında xarici ticarət dövriyyəsi 10 il ərzində 13,9 dəfə artmışdır.

Sayca ikinci Dövlət Proqramı başa çatdıqdan sonra üçüncü Dövlət Proqramı qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 sentyabr 2014-cü il tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.

2014-2018-ci illərdə muxtar respublikada xarici ticarət fəaliyyətinin prioritet istiqamətlərinə uyğun olaraq aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. Muxtar respublikanın ixrac potensialının gücləndirilməsi, ixracın stimullaşdırılması istiqamətində həyata keçirilən əməli tədbirlərin davam etdirilməsi;

2. Muxtar respublikada daxili bazarın qorunmasını təmin edən və iqtisadi inkişafa əlverişli şərait yaradan idxal tənzimlənməsinin həyata keçirilməsi;

3. İxracatda elektron ticarət xidmətlərindən geniş istifadə imkanlarının araşdırılması və inkişaf etdirilməsi istiqamətində müvafiq işlərin görülməsi;

4. Xarici ticarətin inkişafı üçün infrastruktur təminatının daha da yaxşılaşdırılması və təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi;

5. İstehsal olunan malların xaricdə tanınması üçün beynəlxalq sərgi və yarmarkalarda iştirakın stimullaşdırılması;

6. Xarici ticarət sahəsində uyğun beynəlxalq təcrübədən səmərəli istifadə edilməsi və s.

Ümumiyyətlə, Azərbaycan-Türkiyə və İran əlaqələrinin inkişafı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının yaxın bölgələri arasında tarixən yaranmış münasibətlərdə də öz əksini tapmışdır. Müstəqillik əldə olunduqdan sonra da Naxçıvan Muxtar Respublikası ilə

Türkiyənin İğdır, İranın isə Şərqi və Qərbi Azərbaycan vilayətləri arasında mövcud olan münasibətlər daha da dərinləşmişdir.

Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı Naxçıvan Azərbaycan-Türkiyə münasibətlərində mühüm amil kimi diqqət mərkəzində saxlanılır.

2008-ci ildə Türkiyə Baş nazirinin Naxçıvana səfər etməsi, 2009-cu ildə isə Türkiyə Prezidenti Abdullah Gülün Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında iştirak üçün Naxçıvana gəlməsi müasir dövrdə Türkiyənin, bütövlükdə, Türk dünyasının Azərbaycanın bu qədim diyarına verdiyi önəmin əyani sübutudur. Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Naxçıvanın Türkiyə üçün çox mühüm əhəmiyyət daşıdığını bildirərək demişdir: ***"Naxçıvanın Türkiyə üçün çox böyük əhəmiyyəti vardır. Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhədimiz Türkiyənin Türk Respublikaları ilə coğrafi birliyini də əlaqələndirən çox rəmzi bir keçiddir".***

Son illər Türkdilli Ölkələrin Dövlət Başçılarının, Gömrük Xidməti rəhbərlərinin, Xarici İşlər nazirlərinin, Türkiyə-Gürcüstan-Azərbaycan Respublikaları Müdafiə nazirlərinin Naxçıvanda görüşləri ölkələr arasında iqtisadi, mədəni və siyasi əlaqələrinin genişlənməsinə, habelə bu diyarın dünyada tanınmasına gətirib çıxarır.

Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın inkişaf strategiyası qəbul olunanda ümummilli liderimizin ən böyük arzusu Naxçıvan Muxtar Respublikasının inkişaf etmiş, qüdrətli bir muxtar dövlətə çevrilməsi idi. Bu gün mübaliğəsiz demək olar ki, Heydər Əliyevin arzuları reallığa çevrilmiş və blokada şəraitində olan Naxçıvanda inkişafın Naxçıvan modeli və ya Naxçıvan möcüzəsi yaranmışdır. Əlbəttə ki, bu möcüzəni bütün Naxçıvana gələn qonaqlar öz gözləri ilə görür və bu diyarın çox

qüdrətli inkişaf yolu keçdiyinin şahidi olurlar. Təsadüfi deyildir ki, bu gün Naxçıvanı siyasi baxımdan "Qafqazın Strasburqu", iqtisadi inkişaf baxımından isə "Qafqazın San-Fransiskosu" kimi təqdim edirlər. Bütün bunlar isə ümummilli lider Heydər Əliyevin dövlətçilik yolunu Naxçıvanda ardıcıllıqla davam etdirən Ali Məclisin Sədri cənab Vasif Talıbovun Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətidir.

Naxçıvan Muxtar Respublikası ilə İran və Türkiyə rəhbərlərinin qarşılıqlı səfərləri indi də davam etməkdədir. Belə səfərlərdən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2010-cu ilin 26-29 aprel tarixində Türkiyə Respublikasına rəsmi səfəridir. Bu səfər Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Səfər çərçivəsində Ali Məclisin Sədri Türkiyə Respublikasının Prezidenti Abdullah Gül, Baş nazir Rəcəb Tayyib Ərdoğan, Xarici İşlər naziri Əhməd Davudoğlu və digər rəsmi şəxslərlə görüşləri keçirmişdir. Bu görüşlərin nəticəsi olaraq 2010-cu il iyulun 17-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Türkiyənin "BOTAŞ" şirkəti arasında Türkiyədən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına qaz kəmərinin tikintisi barədə niyyət protokolu imzalanmışdır. 2010-cu il iyunun 24-də Türk Hava Yolları ilə bağlanmış müqaviləyə əsasən, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan-Türkiyə əlaqələrinin sarsılmaz olduğunu bildirərək demişdir: ***"İndi dünya birliyində Türkiyə-Azərbaycan əlaqələrini bir-birindən ayırmaq qeyri-mümkündür. Artıq beynəlxalq təşkilatlarda da bilirlər ki, Türkiyənin mənafeyi olan məsələdə Azərbaycanın, Azərbaycanın mənafeyi olan məsələdə isə Türkiyənin səsi vardır. Türkiyə ilə Azərbaycan dünyada yeganə ölkələrdirlər ki, onları iqtisadi və siyasi maraq-***

*lardan daha çox soy-kök, milli və ortaq dəyərlər birləşdirir. Ona görə də iqtisadi və siyasi maraqlarımız daha möhkəm və uzunömürlüdür, eyni zamanda xalqlarımızın mənafeyinə xidmət edir. Qarşılıqlı əlaqələrimiz isə ilbəil genişlənir. Hər iki ölkənin dövlət başçılarının səyləri ilə indiki dövrdə bu əlaqələr daha da artır".*

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hazırda Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin və İranın yaxın bölgələri arasında bütün sahələrdə, o cümlədən iqtisadi, mədəni, humanitar, təhsil sahələrində və ordu quruculuğunda da qarşılıqlı əlaqələr mövcuddur və bu əlaqələr dinamik şəkildə inkişaf edir.

## 6.Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın İlham Əliyev dövrü

Azərbaycanın müstəqillik illərində əldə etdiyi sürətli inkişaf bütün dünya ölkələrinin diqqət mərkəzindədir. Xüsusən son 10 ildəki uğurlar bütün sahələrdə hiss olunur. Ölkəmizin inkişafı coğrafi cəhətdən bütün regionları əhatə etmiş və həyat şəraiti xeyli yaxşılaşmışdır.

Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin ən layiqli davamçısı İlham Əliyev 12 ildir ki, ölkəyə rəhbərliyi həyata keçirir. Azərbaycan xalqı üçüncü dövr üçün də cənab İlham Əliyevə səs verərək, Prezident seçməklə özlərinin uğurlu gələcəklərini təmin etmişlər.

Bütün bunlar isə təsadüfi deyildir. Belə ki, son 10 ildə xalqın ehtiyac və tələblərinə yüksək diqqət göstərmiş, inkişaf üçün dövlətin nəyə ehtiyacı olduğu müəyyənləşdirilmiş və inkişaf proqramı hazırlanmışdır. Bu müddət ərzində ümumi daxili məhsul (ÜDM) 3,4 dəfə artmışdır. Əvvəlki dövrlərdə ümumi daxili məhsul 5-6 milyard dollar idisə, indi bu rəqəm 70-75 milyard dollardır. Digər əhəmiyyətli məsələ ondan ibarətdir ki, ictimai və mədəni inkişafı əhatə edən sosial islahatlar bir araya gətirilmiş, təhsil və səhiyyə sistemi təkmilləşdirilmiş,

güclü pensiya sistemi yaradılmış və sosial müdafiənin digər sahələri möhkəmləndirilmişdir. Azərbaycan MDB ölkələri arasında və beynəlxalq aləmdə lider dövlətə çevrilmişdir.

Beləliklə, Azərbaycan şərəfli 10 ilin növbəti beş illik mərhələsinin davamına başlamışdır, inkişaf, tərəqqi və yüksəliş yoluna qədəm qoymuşdur.

Şübhəsiz ki, ölkəni sosial və iqtisadi inkişaf yoluna çıxaran siyasət bundan sonra da uğurla davam etdiriləcəkdir. Qeyd etmək lazımdır ki, artıq Azərbaycanın strateji planı hazırdır. 2020-ci il üçün məqsəd Azərbaycanı inkişaf etmiş ölkələr sırasına çıxarmaqdır. Azərbaycan hazırda inkişaf edən və orta gəlirli ölkə kimi qəbul edilir. Adambaşına ümumi daxili məhsul 6-7 min dollardır və məqsəd növbəti yeddi il ərzində bu rəqəmi 10-12 min dollara yüksəltməkdir.

Son 10 il ərzində Azərbaycan iqtisadiyyatına 150 milyard ABŞ dolları məbləğində vəsait yatırılmışdır. Bu dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə artmış, yoxsulluq səviyyəsi təxminən on dəfə azalmışdır. Bu müddət ərzində əhalinin hər nəfərinə düşən ÜDM-in həcmində 3 dəfə, qeyri-neft sektorunda isə 2,7 dəfə artım olmuşdur.

İnvestisiyaların ölkə iqtisadiyyatına axınının güclənməsi iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişafına və şaxələndirilməsinə səbəb olmuşdur. Belə ki, əgər 2003-cü ildə sənayenin ÜDM-də payı 37 faiz idisə, bu gün onun payı 50 faizdən çoxdur.

Son 10 ildə ölkənin kənd təsərrüfatı, nəqliyyatı, tikintisi, rabitə və telekommunikasiya sektorunda da çox uğurlu inkişaf qeydə alınmışdır.

Ölkənin iqtisadi inkişafı sosial məsələlərin həllini də şərtləndirmişdir. Belə ki, son 10 ildə əhalinin gəlirləri təxminən 6 dəfə, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər 9 dəfə, işçilərin əmək haqqı 7 dəfə artmışdır. Son 10 il ərzində yoxsulluq səviyyəsi 49 faizdən 5 enmişdir.

Ümumiyyətlə, göstərmək lazımdır ki, ölkədə görülən işlər onun regionlarına, o cümlədən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana da öz müsbət təsirini göstərməkdədir.

Ölkənin 10 iqtisadi rayonu arasında Naxçıvan iqtisadi rayonu ən öndə gedən bölgələrdən biridir.

Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra 10 ildə muxtar respublikaya 10 dəfə səfər etmişdir. Bu səfərlərin hər birində onlarla obyektin açılışını reallaşdırmış və hər dəfə burada sürətli inkişafın şahidi olmuşdur. Belə səfərlərin birində ölkə prezidenti cənab İlham Əliyev demişdir: **"Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük. Naxçıvan qədim Azərbaycan diyarıdır, qədim tarixə, mədəniyyətə malik olan diyardır, eyni zamanda, müasir şəhərdir, müasir respublikadır. Mən əminəm ki, gələcəkdə Naxçıvan daha da gözəlləşəcək, inkişaf edəcək və bütün işlər burada həmişə olduğu kimi, yüksək səviyyədə təşkil olunacaqdır".**

İlham Əliyev Prezident seçilən kimi ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi haqqında Fərman imzaladı. Onun ardınca 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair iki Dövlət Proqramı qəbul olundu. Qeyd etmək lazımdır ki, hər iki proqram muxtar respublikada çox uğurla icra olunmuşdur. Məlumdur ki, hər bir ölkənin iqtisadi inkişafını əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsul istehsalı müəyyən edir. Məhz buna görə də bu makroiqtisadi göstərici daim diqqətdə saxlanılır və ildən-ilə artır. Belə ki, son 10 il ərzində, yəni 2003-cü illə müqayisədə ÜDM istehsalı müqayisəli qiymətlərlə 8,4 dəfə artaraq 2013-cü ildə 2 milyard 339 milyon manata çatmışdır.

Həmin dövrdə muxtar respublikada hər bir nəfərə düşən ÜDM istehsalı da 6,9 dəfə artaraq 5423 manat təşkil etmişdir.

Son 10 ilin iqtisadi göstəricilərinə nəzər saldıqda məlum olur ki, 2003-cü illə müqayisədə 2013-cü ildə muxtar respublikada sənaye məhsulunun həcmi 49 dəfə, əsas kapitala yönəldilən investisiyalar 16,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 2,6 dəfə, informasiya və rabitə xidmətləri 10,3 dəfə, pərakəndə əmtəə dövriyyəsi 11,1 dəfə, ixracın həcmi 96,6 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 12,9 dəfə, orta aylıq əməkhaqqı isə 9,8 dəfə artmışdır.

İqtisadiyyatın sahələri içərisində sənaye əsas və aparıcı mövqeyə malikdir. Ona görə də bu sahə Azərbaycan Prezidentinin və hökumətin daim diqqət mərkəzindədir. Respublikamızın yaxın illərdə qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyatda karbohidrogen ehtiyatlarından asılılığı aradan qaldırmaq və iqtisadi artımın qeyri-neft sektorunun, o cümlədən onun aparıcı tərkib hissəsi olan sənaye sektorunun hesabına təmin etməkdir. Sənayenin innovasiyalar əsasında inkişafının təmin olunması, texnoparkların sənayeləşmədə əsas strateji layihələr kimi yer alması "Azərbaycan – 2020: gələcəyə baxış" inkişaf Konsepsiyasında da başlıca hədəflər sırasındadır. Yaxın gələcəkdə dövlət investisiya siyasətində əsas istiqamətlərdən biri də sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması və qeyri-neft sənayesinin inkişaf etdirilməsi ilə bağlı olacaqdır. Artıq bu sahədə ilk addımlar atılmağa başlanmışdır. Yəni ilk olaraq Sumqayıt şəhərində Kimya Sənaye Parkının, Yüksək Texnologiyalar Parkının və Balaxanı Sənaye Parkının yaradılmasına başlanmışdır.

Qeyd etmək lazımdır ki, muxtar respublikada bu sahədə də artıq müəyyən işlər görülməkdədir. Sənaye bu gün ÜDM-də tutduğu 29 faizlik xüsusi çəkiyə görə birinci yeri tutur. Sənaye iqtisadi inkişafın prioritet sahəsi elan edilmişdir. Sənayenin modernləşməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuş,

ərazilər müəyyənləşdirilmiş və bir sıra digər işlər görülmüşdür.

Muxtar respublikada aparılan sənaye siyasəti nəticəsində bu sahələr daha da genişlənmiş və sənaye məhsulları istehsalı daha da artmışdır.

Sənaye müəssisələrinin sayı 2003-cü ildəki 66-dan 2013-cü ildə 438-ə çatmış və ya 7 dəfə artmışdır. Köhnə müəssisələrin bərpa edilməsi və yeni müəssisələrin tikilərək istifadəyə verilməsi nəticəsində muxtar respublikada 2013-cü ildə 863 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2003-cü illə müqayisədə 49 dəfə çoxdur. Elə bu rəqəm Naxçıvan MR-də sənayenin necə sürətlə inkişaf etdiyinə əyani sübutdur.

İqtisadi və sosial sahələrdə əldə olunmuş nailiyyətləri daha da artırmaq üçün səmərəli investisiya siyasətinin aparılması mühüm amil kimi nəzərə alınmalıdır. Muxtar respublikada bu gün həyata keçirilən dövlət investisiya siyasətinin başlıca məqsədi investisiyaları sosial və iqtisadi cəhətdən zəruri olan layihələrə yönəltməkdən ibarətdir.

Muxtar respublikada əsas kapitala yönəldilən investisiyalar ildən-ilə artmaqda davam edir. Bunu aşağıda verilən diaqramdan daha aydın görmək olar:

***Son 10 ildə muxtar respublikada əsas kapitala yönəldilən investisiyaların dinamikası, min manatla***




Diaqram məlumatlarından bəlli olur ki, son 10 ildə muxtar respublika iqtisadiyyatına və sosial sahələrə yönəldilən investisiyalar sürətlə artmaqdadır. Belə ki, əgər 2003-cü ildə əsas kapitala yönəldilən investisiyaların həcmi cəmi 63,2 milyon manat təşkil edirdisə, bu rəqəm 2013-cü ildə 1 milyard 37,7 milyon manata qalxmış və ya 10 il ərzində 16,4 dəfə artmışdır.

Muxtar respublikada son 10 il ərzində 227 inzibati bina, mənzil təsərrüfatı üzrə 42 obyekt, 29 nasos stansiyası, 150 subartezian quyusu, 61 körpü, 119 elm və təhsil müəssisəsi, o cümlədən

26164 şagird yerlik 83 ümumtəhsil məktəbi, 159 mədəniyyət obyekti, 146 səhiyyə müəssisəsi, 18 idman obyekti, əlil məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 420 fərdi ev, 590 istehsal və xidmət obyekti tikilərək istifadəyə verilmişdir.

İqtisadiyyatın sahələri içərisində kənd təsərrüfatı mühüm yer tutur. Əhalinin ərzaq məhsullarına olan tələbatını nəzərə alaraq müstəqilliyimizin ilk illərində aqrar islahatlar da məhz Naxçıvandan başlamışdır. Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada kartofçuluğun, meyvə və tərəvəzçiliyin, habelə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair qəbul etdiyi Dövlət Proqramları icra edilmişdir ki, bunun da nəticələri göz qabağındadır. Aqrar sektorda qazanılan nailiyyətlər nəticə etibarilə muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına və əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının tamamilə yerli istehsal hesabına ödənilməsinə gətirib çıxarmışdır.

Azərbaycanda qəbul olunmuş I və II regional Dövlət Proqramlarının Naxçıvan Muxtar Respublikasına aid olan məsələlərin tam yerinə yetirilməsi hesabına son 10 ildə bütün məhsullar üzrə inkişaf dinamikası qeydə alınmışdır.

Yararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi hesabına son 10 ildə əkin sahələri 29 faiz artmışdır. Məhz əkin sahələrinin və məhsuldarlığın artırılması hesabına 2013-cü ildə muxtar respublikada 41,3 min ton kartof istehsal edilmişdir ki, bu da 2003-cü ilə nisbətən 2,9 dəfə çoxdur.

Yuxarıda qeyd edildiyi kimi muxtar respublika əhalisinin bitkiçilik məhsulları üzrə ərzaq təhlükəsizliyi demək olar ki, təmin olunmuşdur. 2013-cü ildə muxtar respublikada təxminən 103,0 min ton taxıl, 66,5 min ton tərəvəz, 39,0 min ton bostan məhsulları, 58,4 min ton meyvə və giləmeyvə istehsal olunmuşdur ki, bu da 2003-cü illə müqayisədə, yəni son 10 ildə taxıl istehsalı 41 faiz, tərəvəz istehsalı 24,6 faiz, meyvə və giləmeyvə istehsalı

isə 46 faiz artmışdır.

Muxtar respublika əhalisinin qış mövsümündə təzə meyvə-tərəvəzlə təmin etmək məqsədilə son 10 ildə 17 soyuducu anbar tikilib istifadəyə verilmişdir ki, bu da 11 min 970 ton kənd təsərrüfatı məhsulları saxlamağa imkan verir.

Bitkiçilik sahələrindən sonra heyvandarlıq sahəsi özünün xüsusi çəkisinə görə ikinci yeri tutur. Heyvanların baş sayı daim artmaqda davam edir. 1 yanvar 2014-cü il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 106 min 215 baş, qoyun və keçilərin sayı isə 635 min 465 baş olmuşdur.

Muxtar respublikada heyvanların cins tərkibini və məhsuldarlığını artırmaq məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti 2009-cu ildən başlayaraq Almaniyadan, Avstriyadan, qonşu İran və Türkiyədən 1688 baş damazlıq boğaz düyələr gətirilərək lizinq yolu ilə sahibkarlara verilmişdir. Habelə muxtar respublikada maldarlığın cins tərkibini yaxşılaşdırmaq məqsədilə 19 süni mayalandırma məntəqəsi yaradılmışdır.

Arıçılıq kənd təsərrüfatının mühüm və perspektivli sahələrindən biridir. Muxtar respublikada aparılan düzgün aqrar siyasət nəticəsində arı ailələrinin sayı getdikcə artır. 1 yanvar 2014-cü il tarixə arı ailələrinin sayı 68 min 705-ə çatmışdır ki, bu da 2003-cü illə müqayisədə 3,9 dəfə çoxdur. Arı ailələrinin sayının artması muxtar respublikada 2013-cü ildə 1304 ton bal istehsalına gətirib çıxarmışdır ki, bu da 2003-cü ilə nisbətən 8,4 dəfə çoxdur.

Muxtar respublikada su sisteminin qaydaya salınması, kənd təsərrüfatının su təchizatının və əhalinin içməli su ilə təminatı sahəsində xeyli iş görülmüşdür. Kəhrizlər hələ qədim zamanlardan əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsində mühüm rol oynamışdır. Son 10 ildə Kəhrizlər idarəsi tərəfindən 380 kəhriz qeydiyyata alınmış və 131 kəhriz bərpa edilərək əhalinin istifadəsinə verilmişdir.

İqtisadiyyatın mühüm sahələrindən biri də nəqliyyatdır. Ölkələrarası və regionlararası iqtisadi əlaqələrin inkişafında nəqliyyat sistemi mühüm rola malikdir.

Son 10 il ərzində Naxçıvan Beynəlxalq Hava Limanının, Sədərək, Culfa və Şahtaxtı sərhəd-keçid komplekslərinin, Culfa və Şahtaxtı sərhəd-keçid məntəqələrində yeni körpülərin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı", "Naxçıvan-Təbriz-Naxçıvan" müntəzəm avtobus və yeni hava nəqliyyatı, o cümlədən "Bakı-Naxçıvan-Bakı", "Moskva-Naxçıvan-Moskva", "İstanbul-Naxçıvan-Gəncə-İstanbul" və "Gəncə-Naxçıvan-Gəncə" marşrutlarının açılması nəqliyyat əlaqələrinin genişləndirilməsində mühüm mərhələ olmuşdur.

Muxtar respublikada yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Bu sahədə tədbirlərin intensivləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Naxçıvan Muxtar Respublikası Culfa, Kəngərli və Babək rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncamlar imzalanmışdır. Bu sərəncamlara uyğun olaraq 2011-ci və 2013-cü illərdə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə 16,3 milyon manat vəsait ayrılmış və müvafiq işlər vaxtında başa çatdırılmışdır.

Ümumiyyətlə son 10 ildə muxtar respublikada 1709 kilometr uzunluğunda yeni avtomobil yolu salınmış və ya əsaslı təmir edilmiş, 61 körpü tikilmişdir.

Bu gün Azərbaycanda gələcəyə istiqamətlənmiş, elm və texnologiyaların inkişafını şərtləndirən, iqtisadiyyatın bütün sahələrinin davamlı tərəqqisinə yönəlmiş və cəmiyyətin hər bir üzvünün rifahına xidmət edən dövlət siyasəti həyata keçirilir. Bu siyasətin tərkib hissəsi kimi son illərdə Azərbaycanda rabitə və informasiya texnologiyaları sektorunun inkişafı da geniş vüsət almışdır. Ölkədə rabitə sektorunun inkişaf strategiyasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Hələ Azərbaycan Sovetlər birliyinin tərkibində olarkən respublikanın sənaye potensialının gücləndirilməsi, xüsusən də elmtutumlu

sahələrin genişləndirilməsi ilə birbaşa bağlı olduğunu görən ulu öndər XX yüzilliyin 70-ci illərində bu sahəyə diqqət yetirmiş, informasiya və kommunikasiya texnologiyaları sektorunun bugünkü inkişafının təməlini qoymuşdur. Artıq uzun inkişaf yolu keçən ölkə rabitəsi son illər daha da inkişaf edərək iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmişdir.

Ölkəmizin hər yerində olduğu kimi muxtar respublikamızda da informasiya- kommunikasiya texnologiyaları sahəsinə daim diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, ilk dəfə Naxçıvanın tranzit telekommunikasiya imkanları yaradılmışdır. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmişdir.

İnformasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülür. Muxtar respublikada bu gün informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, rəqəmsal yayımın təşkilinə, ayrı-ayrı sahələr üzrə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir.

Məhz bu diqqət və qaygı nəticəsində muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ümumilikdə, bu sahə üzrə göstərilən xidmətlərin həcminin dinamik artımına da zəmin yaratmışdır. Belə ki, 2013-cü ildə muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 45 milyon 52 min manata çatmışdır ki, bu da 2003-cü illə müqayisədə 10,3 dəfə çoxdur.

Beləliklə, qeyd etmək lazımdır ki, muxtar respublikada inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilir və bu iş gələcəkdə də davam etdiriləcəkdir.

## 7. İqtisadi sahədə qazanılan uğurlar Naxçıvanı xoşbəxt gələcəyə aparır (1995-2014)

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində 1993-cü ilin iyun ayına qədər çalışdı və sonra xalqın təkidli tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə qayıtdı. Ulu öndər Bakıya getdikdən sonra Naxçıvanın sonrakı taleyi onu çox düşündürürdü. Çünki Naxçıvan blokada vəziyyətində idi, çörək çatışmırdı, nəqliyyat əlaqələri yox idi, müəssisələr işləmirdi, iqtisadi əlaqələr məhdud idi. Belə bir şəraitdə muxtar respublikaya elə bir rəhbər lazım idi ki, qeyd olunan problemləri qısa bir vaxtda həll etsin və muxtar respublikanı böhrandan çıxarsın. Belə bir şəxsiyyət ulu öndərin məktəbini keçmiş, onunla çətin günlərdə birgə işləmiş Vasif Talıbov oldu. Vasif Talıbov hələ 1991-ci ilin sentyabrından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin baş köməkçisi olmuşdu. O zaman təzəcə yaradılmış Yeni Azərbaycan Partiyasının yaradılmasında çox fəal iştirak etmişdi. Dünya şöhrətli siyasətçi Heydər Əliyevin idarəetmə məktəbini keçən Vasif Talıbov onun dövlətçilik xəttinin incəliklərini mənimsəmiş, muxtar respublikanın potensialını və problemlərini dərindən öyrənmişdi.

Məhz bu keyfiyyətləri nəzərə alan ulu öndər Heydər Əliyevin tövsiyyəsi ilə Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının Sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Azərbaycan Respublikası Milli Məclisinin deputatı Vasif Yusif oğlu Talıbov 1995-ci ilin dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir.

Vasif Talıbov muxtar respublika rəhbərliyini qəbul edərkən öz məramnaməsini bircə cümlə ilə belə ifadə etmişdi: **"Prezident Heydər Əliyevin dövlətçilik xəttinə sadiq qalmaq, onun bu böyük etimadını layiqincə doğrultmaq"**.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi işə başlayarkən muxtar respublikada makroiqtisadi sabitlik yaratmaq, qayda-qanunu möhkəmləndirmək, dövlətçilik maraqlarını daim uca tutmaq, görülən yaxşı işləri dəyərləndirmək, xalqı səfərbərliyə alıb onun gücündən istifadə etmək, problemləri və ehtiyacları nəzərə almaq, bütün ehtiyatları və imkanları aşkara çıxarmaq və inkişafa yönəltmək kimi prioritet vəzifələr onun qarşısında dururdu. Məhz bu vəzifələrin layiqincə yerinə yetirilməsi çox qısa bir zaman kəsiyində muxtar respublikanın inkişafına səbəb oldu.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında gedən inkişafı və quruculuq işlərini görərək, Ali Məclisin Sədri cənab Vasif Talıbovun vəzifəyə seçilməsində yanılmadığını sevinc hissi ilə qeyd edərək çıxışlarının birində demişdir: **"Mən məmnuniyyətlə demək istəyirəm ki, son dörd il içərisində Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyə görə bəlkə də, ağır, çətin olar. Ancaq bu dörd il müddətində o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər də görə bilər".**

Bəli, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu cənab Vasif Talıbovun həyata keçirdiyi işlər, Naxçıvanın nail olduğu inkişaf səviyyəsi göz qabağındadır.

Müstəqillik illərində muxtar respublikada aparılan abadlıq, quruculuq və yenidənqurma işləri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin adı ilə bağlıdır. Bütün dövrlərdə ulu öndərimiz və Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun xidmətlərini yüksək qiymətləndirmişlər. Azərbaycan Prezidenti İlham Əliyev bu tarixi reallığı qiymətləndirərək muxtar respublikaya etdiyi səfərlərinin birində demişdir: **"Hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər. Mən bütün**

**naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm".**

Ali Məclis Sədrinin vəzifəyə seçildikdən sonra ötən müddət ərzində Naxçıvan iqtisadiyyatında əsl intibah baş vermiş, sürətli inkişafla böyük nailiyyətlər əldə edilmişdir.

Ulu öndərin hələ Naxçıvanda Ali Məclisin Sədri işləyərkən hazırladığı inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində muxtar respublika iqtisadiyyatında dinamik inkişaf əldə olundu.

Muxtar respublikada son 18 ildə ümumi daxili məhsul istehsalı 53,5 dəfə, hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi isə 41,1 dəfə artmışdır. Real sektor daha yüksək sürətlə inkişaf etmişdir. Belə ki, son 18 ildə sənaye məhsulunun ümumi həcmi 94,5 dəfə, əsas kapitala yönəldilən investisiyalar 340,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 8,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 24,1 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 107,2 dəfə, pərakəndə əmtəə dövriyyəsi isə 30,4 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun prioritet hesab etdiyi məsələlərdən biri muxtar respublikanın ticarət dövriyyəsini artırmaq və burada ixrac potensialına üstünlük vermək məsələsi idi. Qeyd edək ki, 2009-cu ilə kimi muxtar respublikanın ticarət dövriyyəsi həmişə mənfi saldoya malik olmuşdur. Lakin görülən tədbirlər nəticəsində son 18 ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 26,9 dəfə artmışdır.

Muxtar respublikada müəssisələrin yeni texnologiyalar əsasında yaradılması, keyfiyyətli və rəqabətqabiliyyətli məhsullar istehsalı ixracın həcmini son 18 ildə 207,7 dəfə artırmışdır.

Dünyada sənaye cəhətdən inkişaf etmiş dövlətlər dünyanın ən güclü dövlətləri sayılır. Bu baxımdan hər bir dövlət ilk növbədə özünün sənaye sahələrini inkişaf etdirməyə çalışır.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan rəhbərliyində olanda da, Naxçıvanda da sənayenin inkişafını prioritet vəzifə kimi həmişə diqqət mərkəzində saxlamışdır. Bu məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da diqqətindən yayınmamış və o, Naxçıvanı aqrar regiondan sənaye bölgəsinə çevirmişdir.

2014-cü ilin fevral ayında sahibkarlarla görüşündə Ali Məclisin Sədri demişdir: "**...Möhtərəm Prezidentimiz 2014-cü ili "Sənaye ili" elan etmişdir. Buna uyğun olaraq ardıcıl tədbirlər görülür. Müasir sənaye parklarının yaradılması üzərində iş gedir. 1996-cı ilədək muxtar respublikada cəmi 56 sənaye müəssisəsi vardısa, bu gün yaradılan sənaye müəssisələrinin sayı 438-ə çatmışdır. Başqa sözlə, tarixən aqrar region kimi formalaşan muxtar respublikanın sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmışdır".**

Ali Məclis Sədrinin birbaşa rəhbərliyi ilə muxtar respublikada 2013-cü ildə istehsal potensialının gücləndirilməsi istiqamətində dövlət dəstəyi ilə 124 layihə üzrə istehsal və xidmət obyektləri istifadəyə verilmişdir.

İftixarla demək olar ki, sənaye sahələrinin genişləndirilməsi və yenilərinin yaradılması muxtar respublika əhalisinin bu məhsullara olan tələbatının ödənilməsində mühüm rol oynayır.

2013-cü ildə isə muxtar respublikada 346 növdə yerli məhsul istehsal olunur. Bu məhsulların 115 növü ərzaq, 231 növü qeyri-ərzaq məhsullarıdır. 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 332 növdə məhsula olan tələbatın yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir.

Ümummilli lider Heydər Əliyevin daim diqqəti və qayğısı nəticəsində yerli potensialın hərəkətə gətirilməsi ilə ölkədə ilk dəfə Naxçıvanda Heydər Əliyevin başladığı aqrar islahatlar uğurla həyata keçirildi. Sonrakı illərdə isə bu islahatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən çox uğurla başa çatdırıldı. Əkinə yararlı torpaqların, ictimai əmlakın sahibi

olmuş kəndli təsərrüfatları ümumi məhsulu dəfələrlə artırmağa nail olmuşlar. Belə ki, əgər 1995-ci ildə cəmi 39 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olmuşdusa, bu rəqəm 2013-cü ildə 337,1 milyon manata çatmışdır və ya son 18 ildə muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalı 8,7 dəfə artmışdır.

Son 18 ildə muxtar respublikada 3500 kilometrdən çox avtomobil yolu çəkilib istifadəyə verilmişdir.

Müstəqillik dövrünün hər bir ilində yeni uğurlara imza atılır. Ali Məclis Sədrinin yeritdiyi iqtisadi siyasət nəticəsində 2013-cü ildə də muxtar respublika iqtisadiyyatında mühüm nailiyyətlər əldə edilmişdir. Belə ki, keçən il ümumi daxili məhsul 10,3 faiz, hər bir nəfərə düşən ümumi daxili məhsul 9,0 faiz, sənaye məhsulunun ümumi həcmi 6,3 faiz, əsas kapitala yönəldilən investisiyalar 5,6 faiz, kənd təsərrüfatının ümumi məhsulu 6,9 faiz, nəqliyyat sektorunda yük daşımaları 9,5 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 6,1 faiz, pərakəndə əmtəə dövriyyəsi 11,8 faiz, xarici ticarət dövriyyəsi isə 13,5 faiz artmışdır.

Qeyd etmək lazımdır ki, Naxçıvan iqtisadi rayonunun belə dinamik inkişafı bütün digər iqtisadi rayonlardakı yüksək nəticələri xeyli geridə qoymuşdur.

Ulu öndər Heydər Əliyev hələ keçən əsrin 90-cı illərində deyirdi: **"İstəyirəm ki, arzum, istəklərim, Azərbaycan Dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında da Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin"**. Bəli bu gün artıq ulu öndərin bu arzu və istəkləri reallığa çevrilmişdir.

Heydər Əliyev ideyaları ölməzdir, yaşayır və bu siyasət həmişə qalib gəlir. Bu fikri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri belə ifadə edir: **"Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi**

**Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir. Bu böyük şəxsiyyətin Azərbaycan naminə gördüyü işlər ölkəmizin milli sərhədlərini aşaraq bütövlükdə pegionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir".**

Bu gün Ali Məclisin Sədri cənab Vasif Talıbov Naxçıvan diyarını irəli aparmaq, modernləşdirmək üçün əzmlə və bütün qüvvəsilə çalışır. Məhz bu əzmkarlıq və xalqın birliyi muxtar respublikanın uğurlarını ilbəil artırmaqdadır. Naxçıvan Muxtar Respublikasında həyatın bütün sahələrində müvəffəqiyyətlər qazanılır, diyarın hərtərəfli inkişafı təmin edilir. Heç də təsadüfi deyildir ki, Heydər Əliyevin siyasi kursunu böyük inamla davam etdirən ölkə Prezidenti İlham Əliyev regionların sosial-iqtisadi inkişafında Naxçıvanın xüsusi yeri olduğunu dönə-dönə qeyd edərək demişdir: **"Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl işlər gələcəkdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır. Mən çox məmnunam ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmləndirilməsinə öz töhfəsini verir".**

Şübhə yoxdur ki, ölkə Prezidentinin Naxçıvanın iqtisadi inkişafına verdiyi bu yüksək qiymət keçmişdə olduğu kimi gələcək illərdə də iqtisadi inkişafa impuls verəcək, Naxçıvan Muxtar Respublikası daha yüksək tərəqqiyə doğru inamla irəliləyəcəkdir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

1. Azərbaycan tarixi 7 cilddə. VII cild, Bakı, "Elm", 2003, 676 s.

2. Azərbaycan SSR-nin xalq təsərrüfatı SSR-nin 50 illiyi qarşısında statistik yubiley külliyatı. Bakı, 1972, 288 s.

3. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, "Azərbaycan", 1996, 872 s.

4. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982, 316 с.

5. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerklər) (Məmmədov S., Bağırov İ.N. redaktorluğu ilə). Bakı, N.Tusi adına ADPU-nin mətbəəsi, 1996, 140 s.

6. Aslanov S.R. Sovet Azərbaycanı sənaye Respublikasıdır. Bakı, "Maarif" nəşriyyatı, 1971, 276 s.

7. ASE 10 cilddə, VII c. Bakı, "Qızıl Şərq" mətbəəsi, 1983, 624 s.

8. Axundov Ə.B. Naxçıvan MSSR-in mineral suları və onların müalicəvi əhəmiyyəti. Bakı, "Bilik" cəmiyyəti, 1981, 36 s.

9. Azərbaycan KP XXX qurultayının materialları. Bakı, 1981, s.58.

10. Azərbaycan XXI əsrin astanasında. I, II, III hissələr. Bakı, 1997-ci illər.

11. Azərbaycan iqtisadiyyatı yüksəliş yollarında. Məqalələr toplusu, I (X) buraxılış. Bakı, 2002.

12. Azərbaycanda ərzaq təhlükəsizliyi 2002. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2002.

13. Azərbaycan Respublikasının Konstitusiyası.

14. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2003.

15. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", 2004, 11 fevral.

16. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)".

17. "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair Dövlət Proqramı (2006-2015-ci illər).

18. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı, "Elm", 2005, 336 s.

19. Baxşıyev Ə. Ordubad Səfəvilər dövründə // Elm və həyat, 1990, №11-12, s.48.

20. Babayev S. Səyyahlar Naxçıvan haqqında / Azərbaycan tarixində Naxçıvan. Bakı, "Elm", 1996, s.42-55.

21. Babayev S.Y. Qədim diyarın təbiəti. Bakı, Azərnəşr, 1970, 210 s.

22. Dördüncü çağırış Naxçıvan MSSR Ali Sovetinin iclasları (Vİ sessiya) 17 fevral 1958-ci il. Steniqrafik hesabat. Bakı, Azərnəşr, 1958, 80 s.

23. Əliyev A.Ə., Qasımov Ə.C. Naxçıvan Muxtar Respublikası. 2 cilddə. Bakı, 2001.

24. Əlirzayev Ə.Q. Azərbaycanın iqtisadi inkişafının konsepsiyası və proqramı. Bakı, 1999, 104 s.

25. Əliyev İ.N. Heydər Əliyev və Azərbaycanın kənd təsərrüfatı. II kitab, Bakı, "Nurlan", 2001, 148 s.

26. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı,"Elm", 2005, 312s.

27. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı, 2005, 160 s.

28. Əhmədov N.H. Azərbaycanda istehlak malları bazarının formalaşması və inkişaf problemləri. Bakı, "Elm", 2007, 332 s.

29. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, "Sabah", 2008, 452 s.

30. Əhmədov N.H. Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf. Bakı, "Elmvə təhsil", 2010, 148 s.

31. Əhmədov N.H. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun regional problemləri. Bakı, "Elm", 2012, 345 s.

32. Əhmədov N.H. Azərbaycanda xarici iqtisadi əlaqələrin inkişafı və istehlak bazarının formalaşması. Bakı, 2005, 80 s.

33. Gənciyev G.Ə. Beynəlxalq iqtisadi münasibətlər: müasir vəziyyət və inkişaf problemləri. Bakı, 2005.

34. Göyüşov R. Azərbaycan arxeologiyası. Bakı, "İşıq", 1986, 186 s.

35. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər. Naxçıvan, "Əcəmi", 2011, 272 s.

36. Hacıyev İ.M., İsmayılov B. Naxçıvan Muxtar Respublikası-90.
37. Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər). Bakı, 2012, 158 s. (o.s.73); (o.s.78); (o.s.97).
38. Xalq təsərrüfatının statistik məcmuəsi. Bakı, Birləşmiş nəşriyyat mətbəəsi, 1972, 137 s.
39. İsayev E. Böyük ipək yolu və Naxçıvan. Bakı, "Elm və təhsil", 2012, 214 s.
40. İsayev E. V-XV əsrlərdə beynəlxalq ticarət və Azərbaycan. Naxçıvan, "Əcəmi", 2012, 87 s.
41. "Kommunist" qəzeti, 6 yanvar 1936-cı il.
42. Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı. Bakı, "Azərnəşr", 1984, 136 s.
43. "Qayıdış" (1990-1993). "Azərbaycan" nəşriyyatı, Bakı, 2008, 840 s.
44. Qurbanzadə A.A. Dayanıqlı ərzaq təminatının iqtisadi əsasları. Bakı, "Elm", 2013, 232 s.
45. Мустафаев И.Д. Материалы по изучению пшеницы, ржи, ячменя и эгилопсов Азербайджана. Баку, 1961, с.55.
46. MLİ Azərbaycan filialının arxivi, f.95, siy. 1, iş 59, vər. 25.
47. Məmmədov Z.S. Naxçıvanın təbii sərvətləri. Bakı, "Azərnəşr", 1993, 44 s.
48. Məmmədov Z.S. XXI əsr: iqtisadi inkişafın nəqliyyat faktoru. Bakı, "Azərnəşr", 2002, 386 s.
49. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı, "Elm", 2007, 465 s.
50. Nadirov A.A. Naxçıvan MSSR (iqtisadi-coğrafi oçerk). Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1959, 124 s.
51. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, "Elm", 2000, 104 s.
52. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı, "Avropa" nəşriyyatı, 2013, 422 s.
53. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. Bakı, "Elm və təhsil", 2011, 516 s.
54. Naxçıvanın tarixi. I cild. Naxçıvan, "Əcəmi", 2013, 451 s.

55. Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı, Birləşmiş nəşriyyat mətbəəsi, 1964, 142 s.

56. Naxçıvan MR MDAİ f. 1, siy..., iş 58, bağ. 5, vərəq 169.

57. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 196, bağ. 7, vərəq 59.

58. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 236, bağ. 21, vər. 52.

59. Naxçıvan MR MDAİ f. 221, siy. 5 , iş 9, vər. 4.

60. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 237, bağ. 21, vər. 3.

61. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 292, bağ. 25, vər. 126.

62. Naxçıvan MR MDAİ f. 221, siy. 5 , iş 63, vər. 7-8, 14-18.

63. Naxçıvan MR MDAİ f. 221, siy. 5 , iş 69, vər. 7-9.

64. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 516, bağ. 40, vər. 47.

65. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 678, bağ. 52, vər. 5, 6, 7.

66. Naxçıvan MR MDAİ f. 681, siy. 13 , iş 7, vər. 5, 7.

67. Naxçıvan MR MDAİ f. 681, siy. 6 , iş 10, vər. 2, 5, 3, 12.

68. Naxçıvan MR MDA f. 613, siy. 11 , iş 8, vər. 1.

69. Naxçıvan MR MDAİ f. 221, siy. 1 , iş 677, vər. 3.

70. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 416, bağ. 34, vər. 145, 147.

71. Naxçıvan MR MDA f. 688, siy. 7 , iş 3, vər. 76, 78.

72. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 578, bağ. 52, vər. 6.

73. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (Akad. Abdullayev H.B. redakdorluğu ilə). Bakı, "Elm", 1975, 360 s.

74. Naxçıvan MR MDAİ f. 40, siy. 2 , iş 52, vər. 7, 8, 16.

75. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 516, bağ. 40, vər. 48, 77.

76. Naxçıvan MR MDAİ f. 613, siy. 1 , iş 876, vər. 97.

77. Naxçıvan Ensiklopediyası (Akad C.B.Quliyevin redaktorluğu ilə). Bakı, "Elm", 2002, 596 s.

78. Naxçıvan MR MDAİ f. 613, siy. 4 , iş 237, vər. 37.

79. Naxçıvan MR MDAİ f. 1, siy. 1 , iş 292, bağ. 25, vər. 127.

80. Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı, Statistika nəşriyyatı, 1977, 119 s.

81. Naxçıvan ensiklopediyası 2 cilddə (buraxılışa məsul Vasif Talıbov - Naxçıvan MR Ali Məclisinin Sədri). Naxçıvan, 2005.

82. Naxçıvan Muxtar Respublikası -80. Tarixi-statistik məcmuə. Bakı, "Səda", 2004, 212 s.

83. Naxçıvan MSSR Xalq Təsərrüfatının inkişafı. Statistik məcmuə. Bakı, 1977, 120s.

84. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası – 50. Bakı, "Elm" nəşriyyatı, 1975, 359 s.

85. Naxçıvan MSSR – 50. Lenin milli siyasətinin yetirməsi. Bakı, "Azərnəşr", 1974, 96 s.

86. Naxçıvan qədim diyar -75. ADİİ-nun nəşriyyatı, Bakı, 1999, 90 s.

87. Naxçıvan Muxtar Respublikası -80. Naxçıvan, "Əcəmi", 2014, 104 s.

88. Нахичеванская Автономная Советская Социалистическая Республика Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник, Азербайджанское государственное издательство. Баку, 1984, с. 133.

89. Пиотровский Б.Б. Археология Закавказья. Л., 1949, 131 с.

90. "Şərq qapısı" qəzeti, 2014, 30 yanvar.

91. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, "İrşad mərkəzi", 1995, 144 s.

92. "Şərq qapısı" qəzeti, Naxçıvan, 1956, 17 fevral.

93. "Şərq qapısı" qəzeti, Naxçıvan, 1970, 7 noyabr.

94. "Şərq qapısı" qəzetləri. 2010-2013-cü il sayları.

95. "Şərq qapısı" qəzeti, 1961, 3 oktyabr.

96. "Şərq qapısı" qəzeti, 1971, 30 iyun.

97. Talıbzadə İ.A. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda suvarma və sudan istifadə. Bakı, s. 17, 22, 23, 93-100.

98. Təhməzov Z.M., Hüseynov A.Y. Geniş tərəqqi yollarında. Naxçıvan MSSR – 60. Bakı, 1984, 44 s.

99. Vəlixanlı N. Ərab xilafəti və Azərbaycan. Bakı, "Azərnəşr", 1993, 157 s.

100. Vəlixanlı N. XX əsrin II yarısı – Xİ əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha "Naxçıvanşahlıq" haqqında // AMEA-nın xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 2001, № 3, s. 120-129.

101. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, "Adiloğlu", 2008, 428 s.

102. 1968-ci ildə Azərbaycan SSR xalq təsərrüfatı. Statistika külliyyəti. Bakı, 1970, 500 s.

103. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2000, 32 s.

# MÜNDƏRİCAT

MÜƏLLİFDƏN....4

GİRİŞ....7

**I Bölmə**
NAXÇIVANIN İQTİSADİ TARİXİNDƏN SƏHİFƏLƏR
(Naxçıvan MSSR-nin yaranmasına qədərki dövr)....9

**II Bölmə**
YÜKSƏK İQTİSADİ İNKİŞAFI TƏMİN EDƏN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İNZİBATİ ƏRAZİ BÖLGÜSÜ

1.Naxçıvan Muxtar Respublikası....19
1.1.Naxçıvan şəhəri....21
1.2.Şərur rayonu....22
1.3.Babək rayonu....23
1.4.Ordubad rayonu....25
1.5.Culfa rayonu....26
1.6. Kəngərli rayonu....28
1.7.Şahbuz rayonu....29
1.8.Sədərək rayonu....30

**III Bölmə**
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFI
(1924-1990-cı ilə qədərki dövr).

**I FƏSİL.** 1924-1990-cı İLLƏRDƏ NAXÇIVANDA SƏNAYENİN İNKİŞAFI
1.1.Naxçıvan sənayesinin inkişafı 1924-1969-cu illərdə....32
1.2. Naxçıvanda əsas sənaye sahələrinin quruluşu və inkişafı (1969-cu ilə qədərki dövr)....42
1.3.Ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə Naxçıvanda sənayenin sürətli inkişafı....60
1.4.Hasilat sənayesinin inkişafı yeni mərhələdə....67
1.5.Daha çox xüsusi çəkiyə malik olan sənaye sahələri: yeyinti və yüngül sənaye....73

**II FƏSİL.** NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI (1924-1990-cı illər)

2.1.Naxçıvan MR-da kənd təsərrüfatının inkişafı (1924-1969-cu illərdə) ....96
2.2. Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin həyata keçirdiyi aqrar siyasət dövründə (XX əsrin 70-80-ci illəri) ....111
2.3. Naxçıvan MR-da su təsərrüfatı və meliorasiya sisteminin inkişafı (1924-1990) ....130

**III FƏSİL.** NƏQLİYYAT VƏ RABİTƏNİN İNKİŞAFI (90-cı ilə qədərki dövrdə) ....169

**IV Bölmə**
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİYYATI MÜSTƏQİLLİK İLLƏRİNDƏ

**1.** XX əsrin 90-cı illərinin əvvəllərində baş vermiş iqtisadi böhran və ondan çıxış yolları (1991-1995) ....180
**2.** Makroiqtisadi sabitliyin əldə olunması və muxtar respublikada dinamik inkişafın başlanması (1996-2003) ....191
**3.** Naxçıvan Muxtar Respublikasının ərzaq təhlükəsizliyi milli təhlükəsizliyinin tərkib hissəsidir ....200
**4.** Naxçıvanın enerji təhlükəsizliyi: idxaldan ixraca doğru ....226
**5.** Muxtar respublikada xarici ticarət əlaqələri inkişaf edir və ixrac potensialı artır ....236
**6.** Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın İlham Əliyev dövrü ....248
**7.** İqtisadi sahədə qazanılan uğurlar Naxçıvanı xoşbəxt gələcəyə aparır (1995-2014) ....258

İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT ....264

**Nazim Əhmədov**

**Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə**

Yığılmağa verilmiş 21.09.2014.
Çapa imzalanmış 15.04.2015.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 17.0 ç.v.
Sifariş № 311. Tiraj 300 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1